0$'$1ø<<$7/$5ø1
.$6øù'ø<ø <(5

4DUD G'QL] UHJLRQX |ON'O'UL
Y' ;,;–;; FL 'VUO'UG' EDœ YHUPLœ
LFWLPDL VL\DVL G'\LœLNOLNO'U

M Ə

Qara d ə i
ə XIX – XX- i ə srl ə r
i t i ma

yiə A
yiə EROCIO və o up
2015

Layihəmiz bu insanların iştirakı olmadan ərsiyə gələ bilməzdi*:

Baş redakrtor: ürfiy kəşy o v.

Buraxıcı redaktor: İ iK o s

Dizayner: Olq B o i s o .

Beynəlxalq redaktorlar: İ iK o s

Milli redaktorlar: Fu A
M qy .

Layihənin menecerləri: A

Milli əlaqələndiricilər: kö i A
M u s
V

Müəllifər: V

A
A
o priz , y uri M le s , M
M əli, O s M ixtiy v, M
tY
V
V

Həmmüəllifər: Fu A

B s ı

Öyüdçülər: T s i Çiviz , nTəy əm, İ iK o
ən- S

Təlimçilər: S
Gö s l, K o lpü
ürfiy kəşy o v, İ iQ o q o
M ixtiy v, M o M
Gül s nür, İ

Lüğətin müəllifəri: Fu A
Ni o l M qy .

Naviqatorları hazırladılar:

Azərbaycan üçün Fu **Ermənistan üçün** Ni o **Gürcüstan üçün** MA
tB s **Moldova üçün** vətÇanuş priz ; **Ukrayna üçün**

Xəritələrin tərtibçiləri: D

* Vəsaitin nəşr olunduğu dilə əsasən əlifba sırası ilə təqdim edilib.

Tərcüməçilər:

A

M Çi **rumın dilinə** qız Ç aş və yu M ik s
Ukrayna dilinə O s M ix y v.

Nəşrlərin korrektəsini ediblər:

Azərbaycan Fu **Ermənistan** M Ax i
M qy ("p o vl çiş və ələ c ə
X
öy əıə s iüz ə ıətə ı o ull ıü əlıə üçü ı
Gürcüstan B s i o piz , **Moldova** z şıv ə N
M u s İ iK o s

Rəyçi: V

İ ə ətə ş :
p x , Y o v y u-R o o , O

Vizual mənbələri təqdim ediblər: Q S
Fıpp o v, T İ i o v, Y o
M o i s i o v, R
v u

Təcrübə keçənlər EROCIO-u s s i s
M o vç,

Hesabatların tərtibçiləri:

M üəlif ə, ə üəlif ə, əlqələ i c iə,

V
Vera Vrabiye, Lyuba Melnik **246**

Ə s s ə y ə l ə v ə c ə iy y ə
Rodika Bolqar, Lyudmila Qurskaya **253**

Bölmə III AİLƏ VƏ GÜNDƏLİK HƏYAT **265**

Ə l ə l ə v i l ə ş ə
Fuad Ağayev, Nərmin Rəcəbova **267**

B ı f
Samirə İsgəndərova **276**

X
(“ M o N ə s ə ı”
Vaqif Abasov, Nəzmin Cəfərova **287**

D
Varvara Kiper, Yekaterina Odajiu, Tatyana Tsiqanu **297**

þ o v l ç i v ə ə l ə c ə s ı
Anjela Zyama, Anjela Muşenko **307**

X
Nataliya Qolosova, Lyudmila Males **316**

S
Mxitar Qabriyelyan **323**

M ü s i ə ı ə q s iy s
Pavel Çerbuşka **334**

Ə ı ə q s iy s ı v ə i ə
Artak Xaçatryan, Ruzanna Tsaturyan **346**

M ü s i ş ə l ə ı ə ə iy y ə
i o q üçü ı ə ı
Mikael Malxasyan, Aykaz Oqanesyan, Vera Saakyan **355**

QLOSSARİ **368**

LAYİHƏNİN İŞTİRAKÇILARI HAQQINDA MƏLUMAT **372**

Bölmə I

MƏDƏNİ İRS

Bzi ə

çişə i s l
ı ıvı. Ən üüün ə s ələ ı ə əii s iiə ı ə x s
ı ə əiy y ə
“Öz ə” və “ o i” ı ə əii s iröv c u
i s ə yhız yı c ılmın q o luılmın eyi, hə rçii
əişüx
ə ə c ə ə əhəiy y ə
c vılmın q o l.

- Bxlqmın ə əiy y ə
- Bşəhə i s i s ın c ə və ı ə y ə
- A
- M lə
- M lin ə əiy y ə
- Nə y ə öə Zq f qz iy üəllə s əiiy s iiqə ul o lun lə?
- B s çilə s in c ə ı ə əiy y ə o l lə?
- A o y ı y ı?
- S o lunu?
- Bşə x s və y liqup i üə liün s iy y ə

Qız Qalasının sirləri

Bir xalqın mədəniyyət abidəsi dünya irsi üçün maraq kəsb edə bilərmi?

Blok 1. Qız Qalası XIX–XX-ci əsrlərin müxtəlif dövrlərində[1]

Tarixi məlumat

Qız Qalası İçəri şəhərin (“Köhnə şəhər”) dənizkənarı hissəsində yerləşən qədim qala tikilisidir, Bakının simvollarından biridir. Tikilinin xüsusiyyətləri, formasının qeyri-adiliyinə görə Qız Qalasının dünya memarlığında analoqu yoxdur. Burada müxtəlif dövrlərdə yaşayan bir-çox xalqların təsiri görünür. Qala dəfələrlə bərpa edilib, onun təyinatı dəyişilib. Qala müasir Azərbaycan ərazisində yerləşən dünya irsinin ən əhəmiyyətli mədəni irs abidəsidir.

1. [illegible]

2. [illegible]

Mənbə 1

[1] 1, 2 və 3-cü şəkillər Azərbaycan Dövlət Foto Arxivindən götürülüb: ADFA AГФA. (№2728, №160742, №12370, №23579). Şəkil 3 — A.P.Boqolyubov — [Elektron resurs] «Наш Баку. История Баку и бакинцев». — Giriş rejimi: http://www.ourbaku.com/images/7/76/Port_img.jpg/.

Mənbə 2

Mənbə 3



Mənbə 4

Blok 2. Qız Qalasının tarixi

3. ś-ł s y lı ı ə t ə l ə iv ə ś- c iq: y i o
ö z iz ii q o y ti ə ı x lq l b qq ı ı ə lu ı

4. A
l z ı l y ı ı.

Mənbə 5 Bakının Qız Qalası

Bakının ən əzəmətli və ən sirli abidəsi İçərişəhər qalasının cənub-şərq tərəfində yüksələn Qız Qalasıdır. Azərbaycan memarlığının bu unikal abidəsinin Şərqdə analoqu mövcud deyil. Qız Qalasının adı *quz* (*oğuz*)[2].

XII-ci əsrdən başlayaraq *Şirvanşahlar*[3] dövləti Bakıda müdafə məqsədi daşıyan irihəcmli tikililər inşa edirdi. Köhnə Bakının ətrafında qala divarları yüksəlmişdir. Bu zamanlar Qız Qalası şəhərin müdafə sisteminə daxil idi. Qız Qalası həm dəniz tərəfdən, həm də quruda müdafə qalası idi. Hərbi əməliyyatlar zamanı Şirvanşah ailəsi və feodallar burada gizlənirdi və müdafə Qız Qalasının zirvəsindən aparılırdı. Qız Qalası haqqında ilk qeyd 1403-cü ilə aiddir. Həmin il Bakıda doğulmuş Əbd ər-Rəşid əl-Bakuvi Bakı haqqında yazırdı ki, burada daşdan iki həddən artıq möhkəmləndirilmiş qala var. Onlardan biri böyükdür, dəniz qırağında yerləşir, dənizin dalğaları onun divarlarına çırpınır. Bu qeydi Qız Qalasına aid etmək olar[4].

Mənbə 6 Qalanın memarlığı

Bakı şəhərinin arxaik qala tikilisi iki qədim xalq, köçəri tayfalar — kaspilər və midiyalıların memarlıq sintezindən əmələ gələ bilərdi. Qədim Midiyada əsas tikinti materialı kimi günəşin altında qurudulmuş gil kərpic (çiy kərpic) istifadə edilirdi. Çiy kərpicdən hündür, içiboş qala tikililəri inşa etmək üçün möhkəmlik məqsədilə divarları olduqca qalın etmək və, bundan əlavə, tikililərdə mütləq ağır, iri, qabağa çıxan hissə olmalı idi. <Bu hissə> tədricən məbədlərin mərasim qaydalaları ilə elə qarışdı ki, görünür, sonralar ona ehtiyac olmayanda, yəni daşdan tikilən qala bu hissəsiz də dura biləcəyi halda da tikililər bu qaydada inşa edilirdi[5].

[2] Quzlar, oğuzlar müasir türkdilli xalqların etnogenezində iştirak edən türk xalqlarıdır.

[3] Şirvanşah Şirvan tarixi vilayətində (müasir Azərbaycan ərazisinin hissəsi) yaranan və tarixi mənbələrdə Şirvanşahlar dövləti adlanan dövlətin hökmdarlarının tituludur.

[4] Ашурбейли С. Б. История города Баку / С. Б. Ашурбейли. — Баку: Азернешр, 1992 — С.148–154.

[5] Фатуллаев-Фигаров Ш. С. Архитектурная энциклопедия Баку / Ш. С. Фатуллаев-Фигаров. — Баку-Анкара: Международная Академия Архитектуры стран Востока. 1998. — С. 113.

Mənbə 7 XIX-cu əsrdə Qalanın bərpası

1808-ci ildə rus hökuməti tərəfindən Qız Qalasının sökülüb dağılan karniz (pərvaz) hissəsinin təmiri aparıldı. XIX-cu əsrdə qalanın yuxarı hissəsinin, onu mayak kimi istifadə edilməsi məqsədilə bərpası haqqında məlumatlar var. Bakı mayakı adlanan bu tikili Qız Qalasında yerləşirdi və 1858-ci ilin 13 iyununda burada yanğın baş verdi. Bu vaxta gədər isə Qız Qalasının üzərində yerləşən bayraq ağacında[6], qalanın bayrağı dalğalanırdı. Bu bayraq ağacı 1808-ci ilin ölçməsi və planı ilə nəzərdə tutulurdu[7].

Mənbə 8 Qız Qalasının YUNESKO-nun mədəni irs siyahısına daxil edilməsi haqqında məlumat

1992-ci ildə Azərbaycan YUNESKO-ya üzv seçildi. Həmin vaxtdan bu qurumla əməkdaşlıq əlaqələri ildən ilə inkişaf etdi və möhkəmləndi. 2000-ci ildə YUNESKO-nun Ümumdünya mədəni irsi siyahısına Qız Qalası, Şirvanşahlar Sarayı və Qobustan Dövlət Tarixi-Mədəni qoruğu daxil edildi[8].

Blok 3. Qız Qalasının təyinatı

▼

5. [illegible]

6. [illegible]

7. [illegible]

[illegible]	[illegible]

8. [illegible]

[6] Bayraq ağacı bayrağın yüksəldiyi metaldan, ağacdan və ya plastikdən hazırlanan şaquli dirəkdir (ştok, ox, ağac).

[7] Тагиев Ф. А. История города Баку в первой половине XIX века (1806–1859). Баку – Элм, 1999. — С. 27–28.

[8] [Elektron resurs]: Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarixi-Memarlıq qoruğunun idarəsi. Giriş rejimi: http://www.icherisheher.gov.az/static,29/lang,ru/.

Mənbə 12 Üçüncü versiya

Beləliklə görünür ki, Qız Qalası qüllə-mayak nümunəsidir. Bu abidənin zirvəsində müqəddəs alov yanır. Qız Qalası Şirvanşahların ümumi müdafə tikililəri sisteminə daxil olan müdafə tikilisi idi və təhlükə haqqında gündüzlər tüstü, gecələr isə alov vasitəsilə siqnal verən mayak kimi fəaliyyət göstərirdi[13].

Mənbə 13 Dördüncü versiya

Qız Qalasının cənub-qərb divarına kiçik kufi yazısı həkk olunub. Yazını ilk dəfə N.Xanıkov oxuyub. N.Xanıkovun ərəb mətnində birinci söz "kubbə" kimi verilib ki, bu da tərcümədə "günbəz" deməkdir. Daha gec yazılarda isə bu söz "məqbərə" anlamında da təqdim edilir. Onu aşağıdakı kimi oxumaq lazımdır: "Məsud ibn Davudun kulası". Paleoqrafik xüsusiyyətlərinə görə yazını XII-ci əsrə aid edirlər, lakin bu tarix qalanın təmiri ilə bağlıdır. XII-ci əsrdə Qız Qalası Bakı şəhərinin müdafə sisteminə daxil idi. Qalanın adı, çox güman ki, Göz Qalasının təhrif olunmuş formasıdır, yani "nəzarət qalası"… Eyni zamanda qala mayak rolunu da oynayırdı. Dəniz tərəfdən və ya qurudan təhlükə olanda qaladan gündüzlər tüstü, gecələr isə alov vasitəsilə digər müdafə tikililərinə siqnal verilirdi. Abşeron yarımadasında otuzdan çox müdafə tikilisi var idi[14].

Mənbə 14 Beşinci versiya

Sasani çarı Ardaşir (III-cü əsr) məbədlərdə ibadəti daha da gücləndirərək Baqavan qurbangahında Hörmüzün sönməyən alovunu qorumağa əmr edir. Qız Qalasında yeddi ocaq-qurbangah var idi[15].

Blok 4. Qız Qalası haqqında əfsanələr

▼

9. [illegible]

10. [illegible]

[13] Искендеров А. А. «Легенды о Гыз галасы», Газета Каспий, 17 апреля 2010 год, № 066 (11264). — С. 9.
[14] Неймат М. С. Эпиграфические памятники Азербайджана эпохи Низами, Баку: «Элм», 1991. — С. 22–23.
[15] Хоренский М. История Армении / М. Хоренский. — М.: Издательство: Тип. В. А. Гатцук, 1893. — С. 122–123.

Mənbə 15 Bakıda yerləşən Qız Qalası haqqında əfsanə (Azərbaycan)

Qız Qalası haqqında əfsanə şahzadə ilə balıqçı arasında ehtiraslı sevgidən bəhs edir. Hər gün sevgilisini görmək üçün balıqçı dənizin kənarında yerləşən qalanın yanına gəlirdi. O, dənizin üzərində "sevgi inamının yelkənlərində" ağır-ağır yeriyirdi. Vaxt gedirdi. Onların sevgisi daha da möhkəmlənir və sevgililərə bütün çətinlikləri dəf etməyə güc verirdi. Lakin bir gün, geri qayıdarkən, balıqçının inamı büdrədi və o, batmağa başladı. Onu baxışı ilə yola salan şahzadə bunu görərək sevgilisini xilas etmək üçün qaladan suya atıldı, lakin qəlbində qorxu hissinin inamı üstələdiyinə görə özü də batdı.

O vaxtlardan qala xalq arasında inam və məhəbbətin, paklıq və mərdliyin simvoluna çevrilərək Qız Qalası adlandırılmağa başladı[18].

Mənbə 16 Sudak[19] Qız Qalası haqqında əfsanə (Ukrayna)

Sudak yunanların əsarəti altında olanda, o qalada hökmdarın Tavridada. Tayı-bərabəri olmayan təkəbbürlü gözəl qızı yaşayırdı. Çarın ən yaxşı sərkərdəsi Diofant onunla evlənmək istəyirdi. Lakin heç kəs bilmirdi ki, qız adı çobanı sevirdi. Gözəl qız çobanın xəyalları ilə yaşayırdı, coban isə özünü bütün allahlardan və insanlardan xoşbəxt sayırdı. Lakin bir gün onları bir yerdə görüb hökmdara xəbər verdilər. Və o, gəncləri hiylə ilə ayırmaq, sonra da qızını tez ərə vermək qərarına gəldi.

Hökmdar çobana yola düşməyi əmr etdi. Qızına isə dedi: "Bir ildən sonra gəmi geri qayıdacaq. Sevgilin sənə xəyanət etməyibsə, sən dirəyin üzərində ağ nişan görəcəksən. Belə olsa, mən sənin xoşbəxtliyinə mane olmayacağam. Lakin əgər gəmidə bu nişan olmasa, demək ki, gənc sənə layiq deyil. Və onda sən Diofantla evlənməyə razılıq verməli olacaqsan". Dənizçilərə isə hökmdar Miletə gedərkən gənci öldürməyi əmr etdi. Bir il keçdi. Qız gündən günə həyacanlanırdı. Tez-tez qalaya çıxırdı ki, ağ nişanlı gəminin gəlib-gəlmədiyini bilsin. Və bir gün uzaqda gəmi görsəndi, lakin hökmdarın qızı ağ nişanı görmədi. Və o, qalanın başına çıxıb özünü suya atdı. O vaxtdan qayanın üstündə yerləşən qalanı Qız Qalası adlandırırlar[20].

[18] Искендеров А. А. Легенды о Гыз-Галасы // «Каспий», 2010. — 17 апреля. — № 066 (11264).

[19] Sudak Ukraynada, Krım Muxtar Respublikasında yerləşir (BMT-nin Baş Assambleyasının 2014-cü il martın 27-də qəbul edilmiş 68/262-ci rezolyusiyası ilə beynəlxalq aləmdə tanınan sərhədlərinə əsasən).

[20] Легенда о Девичьей Башне в Судаке. [Elektron resurs] "Дикий Крым". — Giriş rejimi: http://wild-crimea.com/legend2.

Mənbə 17 İstanbulda yerləşən Leandr Qalası haqqında əfsanə (Türkiyə)

Leandr adında gənc oğlan hər gecə sevgilisi ilə gizli görüşmək üçün onun yanına üzüb gəlirdi. Afrodita ilahəsinin Qero adında kahinəsi bu gəncə görə subaylıq vədini pozmuşdu. Gəncin gəldiyi yol təhlükəli və uzaq idi: o, nə az, nə çox, Bosfor boğazını üzüb gəlməli idi (hər gecə iki dəfə: gələndə və gedəndə). Lakin təhlükələr sevən gənci saxlaya bilməzdi, və hər gecə o, Qeronun yandırdığı məşəlin işığına üzürdü, sevgilisi onu gözləyən tərəfə. Bir gün alov söndü, və Leandr qaranlıqda yolu tapa bilməyib suda boğuldu. Səhər dalğalar onun cəsədini sudan çıxardı, və sevgilisini gözləyən qız hər şeydən xəbər tutdu. Sevgisinə görə hətta yunan allahı



A f nanın qəzəbindən qorxmayan qız ən əziz insanını itirib ümidsizlənərək qalaya qalxdı və özünü dənizə atdı[21].

Mənbə 18 Mersində yerləşən Kızkalesi (Türkiyə) haqqında əfsanə



Qədim zamanlarda bir hökmdar yaşayırdı. Bir gün o falçıya müraciət etdi ki, öz yeganə sevimli qızının gələcəyini öyrənsin. Məlum oldu ki, qızı on səkkizinci ad günündə ilan sancması nəticəsində atasın əllərində öləcək. Hökmdar şahzadə üçün qala tikməyi əmr etdi. Bununla o, öz qızını xilas etmək niyyətində idi. Şahzadənin on səkkizinci ad günündə şah ona ekzotik meyvələrlə dolu səbət hədiyyə etdi. Heç kəsin ağlına da gələ bilməzdi ki, səbətin içində ilan gizlənir. Bu ilan qızı sancdı, və o, falçının dediyi kimi, atasının əllərində öldü. Bundan sonra qala Qız Qalası adlandırılmağa başladı[22].

Ümumiləşdirici sual

Bx lqıı ı ə ə ıiy y ə

[21] Достопримечательности Турции: Девичья Башня (башня Леандра) в Стамбуле. Електронный ресурс «notes-travelers.ru». Giriş rejimi: http://notes-travelers.ru/zametki/o-turcii/dostoprimechatelnosti-turcii-devichya-bashnya-bashnya-leandra-v-stambule.html.

[22] Kızkulesine virtual tur. Elektron resurs: Kızkulesinde bir gün (GEÇMİŞTEN GÜNÜMÜZE KİZKULESİ). Giriş rejimi: http://www.kizkulesi.com.tr/#.

Şəhər müxtəlifliyin aynası kimi. XIX-cu əsr — XX-ci əsrin əvvəllərində Tbilisi və onun sakinləri

▶ **Şəhərin görünüşü necə və niyə dəyişir?**

▼

1. ə l ə ı ə ʔ B c ı ı ı z q ə ə ç o x “ş h ə” s
ə l ə l ə ı ə i ə f ə q ə ı i v ə o ı ı ı o

◆ **Tarixi məlumat**

İndiki Gürcüstanın paytaxtı olan Tbilisi şəhərinin əsası V-ci əsrdə qoyulub. Tbilisinin adı gürcü sözü olan “tbili”, yani “ilıq”, “isti” sözündən yaranıb. Bu yerlərdə indiyədək çoxlu isti kükürd bulaqları mövcuddur. VI-cı əsrdə şəhər şərqi Gürcüstan çarlığının paytaxtı elan edilir, şəhərin ətrafında möhkəmləndirilmiş divarlar tikilir. VII-ci əsrin ortalarından Gürcüstanı ərəblər işğal edir, və Tbilisi şəhəri Tbilisi əmirliyinin mərkəzinə çevrilir. Ərəb təsirilə birlikdə buraya islam da gəlir. Bu amil şəhərin gündəlik həyatı və mədəniyyətində öz əksini tapır. XI-ci əsrdə çar IV Qurucu Davidin hakimiyyəti dövründə şəhər gürcülərin təsiri altına qayıdır və birləşdirilmiş Gürcüstanın paytaxtı elan edilir. XIV–XVIII-ci əsrlərdə Tbilisi müxtəlif işğalçıların hücumlarına məruz qalır. XVIII-ci əsrin Tbilisisi XII–XIII-cü əsrlərin şəhərindən kəskin şəkildə fərqlənir. Min ildən çox uzun zaman ərzində şəhər bütün Qafqazın ticarət, sənət və mədəniyyət mərkəzi olub. Burada gürcülər, ermənilər, azərbaycanlılar, yunanlar, kürdlər, farslar, ərəblər, türklər, çərkəslər, ləzgilər və digər xalqlar yaşayıb-yaradıb. Böyük İpək yolunun bir qolu Tbilisidən keçib. XVIII-ci əsrdə Gürcüstan Türkiyə və İrana qarşı mübarizədə özünə müttəfiq axtarır və hərbi köməyin əvəzində Rusiyaya tabe olmağa məcbur olur. Genişlənən Rusiya imperiyası XIX-cu əsrin ilk onilliyində Gürcüstan ərazisini zəbt edir. Tbilisi inzibati mərkəzə və Qafqazda çar canişininin iqamətgahına çevrilir.

İmperiya siyasəti birləşdirilmiş ərazilərin iqtisadi inteqrasiyasına imkan yaradır və Gürcüstanda kütləvi şəkildə alman, rus və digər kolonistlər məskunlaşdırılır, onlara torpaq və bir sıra imtiyazlar verilir. Bu vəziyyət Tbilisi şəhərinə də təsir edir. Şəhərin ərazisi genişlənir. Avropa kvartalları adlanan yaşayış yerləri meydana çıxır, müxtəlif ictimai və ibadət tikililəri inşa edilir, düz, bir-birinə perpendikulyar və paralel küçələr salınır. XIX-cu əsrin ortalarında imperiya müstəmləkə hakimiyyəti yerli zadəganlarla birlikdə daha mahir mədəniyyət siyasəti aparır: gürcü teatrı bərpa edilir, opera, kütləvi kitabxana və Qafqaz muzeyinin əsası qoyulur, yeni qəzet və jurnallar təsis edilir.

Blok 1. Köhnə Tbilisi səyahətçilərin gözü ilə

2. ⁄ s yı ə ə ə
ı ə ə ə ş ə i c ə öüüşü yı?

Mənbə 1 “XVIII-ci əsrin Tbilisisi”. Qravüra[1]

Mənbə 2 Hamamların yaxınlığından Tbilisinin görünüşü, XIX-cu əsr.[2]

[1] Müəllif məlum deyil. Bax. — Tbilisinin tarixi xəritələri. El. jurnal http://www.livejournal.com. — Giriş rejimi: http://athanatoi.livejournal.com/52841.html.

[2] Rəssam Serqeyevin qravürasının fraqmenti. Tbilisinin tarixi xəritələri. El. jurnal http://www.livejournal.com. — Giriş rejimi: http://athanatoi.livejournal.com/52841.html.

Mənbə 3 Tifis. **Rus rəssamı N.Q.Çernetsovun əsəri, 1839-cu il.**[3]



Mənbə 4 Tiflis. **1837-ci il. Rus şairi M.Y.Lermontovun əsəri**



3. [illegible]

4. [illegible]

5. [illegible]

6. [illegible]

7. [illegible]

Mənbə 5 Alman səyyahı İoqan Anton Hüldenştedt XVIII-ci əsrin 70-ci illərinin Tbilisisi haqqında

Tbilisi fars və Avropa tipli paytaxt və Kartli[4] çarlarının iqamətgahıdır. İndiki şəhər, demək olar ki, küt üçbucaq yaradır. Bu uçbucaq Kürün[5] yaxınlığında bir yerə qədər kərpic divar ilə əhatə edilir… Evlər birmərtəbəlidirlər, kərpic və daş lövhələrdən, gil əhəng ilə inşa edilirlər; [onların] hündürlüyü təxminən 15 futdur [6], damları yastıdır, gil ilə örtülüb. Şəhər sakinləri, əsasən, öz üzüm bağları və əkinləri, xüsusilə də pambıq becərilməsi hesabına yaşayırlar. Həmçinin çoxlu tacir və ya, daha dəqiq, çərçilər var ki, onlar tezsatılan parçalar, xırda mal, yeyinti azuqələri və rəngsazlıq mallarının[7] satışı ilə

[3] KöhnəTbilisi(Tifis)19-cuəsrinrəsməsərlərində—elektronjurnal,girişrejimi:http://www.liveinternet.ru/users/anna_27/post183414594/http://www.liveinternet.ru/tags/%D1%F2%E0%F0%FB%E9+% D2%E1%E8%EB%E8%F1%E8/.

[4] Şərqi Gürcüstan çarlığı.

[5] Tbilisi şəhəri Kür çayının sahillərində tikilib.

[6] Fut İngiltərə ölçü sistemində uzunluğu ölçmək üçün vahidir. 0,3048 m bərabərdir. 15 fut təxminən 4,6 metrdir.

[7] Boyalar, yapışqanlar, qidada işlənilməyən yağ və digər kimyəvi maddələr ticarət obyektləri kimi.

məşğul olurlar. Şəhərdə müxtəlif millətlərdən olan dəri istehsalı ustaları, naxışbasanlar, toxucular, dəmirçilər var. Şəhər sənətlərinin hamısının əhəmiyyəti azdır, sənət ilə ustalar yox, yalnız həvəskarlar məşğul olurlar[8].

Mənbə 6 Rus yazıçısı Aleksandr Puşkin 1829-cu ilin Tbilisisi haqqında

Şəhər izdihamlı görünürdü. Dar və əyri küçələrlə üzərində səbətlər eşşəklər qaçırdı; qoşulmuş öküzlərlə ərəblər yolu kəsmişdilər. Yanlış meydana ermənilər, gürcülər, çərkəslər, farslar doluşmuşdular; onların arasında Qarabağ atlarının üstündə gənc rus məmurları gəzişirdilər… Tifis Kürün sahilində daşlıq dağlarla əhatə olunan vadidə yerləşir. Şəhərin əksər hissəsi asiyasayağı tikilib: evlər alçaq, damlar yastı. Şimal hissədə Avropa memarlıq üslubunda tikilən evlər ucalır, onların yaxınlığında doğru meydanlar yaranmağa başlayır[9].

Mənbə 7 İngilis səyyahı Riçard Uilbraxam XIX-cu əsrin 30-cu illərinin Tbilisisi haqqında

Mən yüksəklikdən şəhərin aşağı hissəsinə endim. Tbilisinin bu hissəsi memarlıq və əhalinin geyimi baxımından təmamilə asiyasayağıdır, bazarın uzun növbələri milli geyimli gürcü və ermənilərlə doludur. Yüksəklikdə tikilmiş evlər daha yaxşı, küçələr daha genişdir. Qubernatorun evi və dövlət müəssisələri yerləşdiyi Rus rayonu geniş məhəllələrə bölünür. Təsir bağışlayan memarlıq zövgü hiss edilir… Kürün digər sahilində almanların yeni müstəmləkəsi yerləşir. Səliqə ilə ağardılmış koteclərin iki cərgəsi arasında geniş yol keçir[10].

Mənbə 8 Fransa yazıçısı Aleksandr Dyuma XIX-cu əsrin 50-ci illərinin Tbilisisi haqqında

Əsasən Paris dərziləri və modistkalarından ibarət olan fransız müstəmləkəsi sayəsində gürcü qadınları modaya cəmi iki həftə gecikmə ilə riayət edə bilirlər… Tifisin əsas karvansarayı[11] erməni tərəfindən inşa edilib. Bu karvansarayda maraqlı mənzərə müşahidə olunur. Onun bütün darvazalarından Şərqin bütün millətlərinin nümayəndələri dəvə, at və eşşəklə girib-çıxırlar: türklər, ermənilər, farslar, ərəblər, hindilər, çinlilər, kalmıklar, türkmənlər, tatarlar, çərkəslər, gürcülər, sibirlilər və daha Allah bilir kimlər! Bu bazarlaradək şəhərin kübar hissəsindən təmamilə ayrılmış ticarət küçələri şəbəkəsi gəlib çıxır[12].

---

[8] Гильденштедт И. А. Путешествие по Кавказу в 1770–1773 гг./ И. А. Гильденштедт. Санкт-Петербург.: Петербургское востоковедение, 2002. — С.106–107.

[9] А. С. Пушкин. Путешествие в Арзрум. Соб. соч. в 10-ти томах. Т. 5. М.: Художественная литература, 1975. — С. 362–364.

[10] რიჩარდ უილრიხამის მოგზაურობა საქართველოში/ რ.უილრიხამი. თბილისი: მეცნიერება, 1990. — გვ.16–17. Gürcü müəllifindən tərcümə.

[11] Şərqdə şəhərlərdə, yollarda və qeyri-yaşayış yerlərində inşa edilən böyük ictimai tikili. Səyyahlar və, bir qayda olaraq, ticarət karvanları üçün sığınacaq rolunu oynayırdı.

[12] Дюма А. Кавказ / А. Дюма. Тбилиси: Мерани, 1988. — С. 167–168.

Mənbə 9 Norveç yazıçısı Knut Hamsun 1899-cu ilin Tbilisisi haqqında

Biz Asiya məhəlləsindən gözlərimizi çəkə bilmirdik. Şəhərin özündə aynalı vitrinləri olan mağazalar, teatr-varyete[13], konka[14], avropasayağı geyimli qadın və kişilər var idi; lakin Asiya məhəlləsi təmamilə başqa şeydir. Burada, demək olar ki, küçə yox idi, yalnız dalan, tupik, bir evdən o biri evə aparan yuxarı və aşağı gedən pilləkənlər var idi. Burada müxtəlif xalqların nümayəndələri öz kiçik dükanlarında qeyri-adi mallar satırdılar. Tehran və Konstantinopolda ticarətlə farslar və türklər məşğul olurlar; burada isə bütün qafqaz xalqları yığışmışdılar: gürcülər, dağlılar, Qədim Altay[15], tayfaları, müxtəlif mənşəli tatarlar, bundan əlavə — Hind-Avropa xalqlarının nümayəndələri: farslar, kürdlər, ermənilər, Ərəbistandan və Türkəstandan gələn insanlar, Fələstinin və Tibetin sakinləri. Və hər bir şey elə rahat idi ki, heç kim tələsmirdi, insanlar üzərində Şərq dincliyi hökm sürürdü[16].

8. M ü s i f o s y ı ə t ə l ə ə

9. S y ı ə ş ə ı ə ?

Mənbə 10 [17] Köhnə Tbilisinin küçələrindən biri. Küçənin sonunda məscid görünür

Mənbə 11 Abanotubani — köhnə Tbilisidə kükürd hamamları yerləşən məhəllə

[13] Yüngül, əsasən komik janrda fəaliyyət göstərən teatr.

[14] Tramvaydan əvvəl mövcud olan nəqliyyat növü. Dəmir yolları ilə vaqonu faytonçu tərəfindən idarə edilən bir cüt at dartırdı.

[15] Avrasiyada coğrafi yer olan Gədim Altay. Burada — türk tayfaları.

[16] ჰამსუნი კ. ზღაპრულ ქვეყანაში / კ.ჰამსუნი. თბილისი: ინტელექტი, 2006. — გვ.144. Gürcü müəllifindən tərcümə.

[17] 10–13 saylı mənbələrdə təqdim edilən fotolar A.Lordkipanidze tərəfindən çəkilib.



Mənbə 12 “Çreliabano” (tərcümədə — ala-bəzək hamam), Abanotubanidə kükürd hamamlarından biri. XVII-ci əsr.

Mənbə 13 Kür çayının sahilində, dağın döşündə yerləşən köhnə Tbilisinin məhəlləsi olan Avlabaridə şəhər evləri



Blok 2. Şəhər necə müasirləşirdi



Mənbə 14 Müasir tədqiqatçılar XIX-cu əsrin ikinci yarısında Tbilisinin iqtisadi xüsusiyyətləri haqqında

XIX-cu əsrin ikinci yarısından şəhərdə kapitalist tipli ilk müəssisələr meydana çıxmağa başladı. XX-ci əsrin əvvəllərində Tbilisidə artıq 66-ya yaxın fabrik və zavod var idi. Onlardan ən mühümləri iplik, faner, keçə, kibrit və tütün fabrikləri, dəri, pivə və yağ zavodları idi. Şəhər əsasən parça, çay, dəmir, çini və şüşədən hazırlanmış əşyaların satışı ilə məşğul idi. Onun illik dövriyyəsi 40–50 million çar rubluna çatırdı. Zaqafqaziya dəmir yolu Tbilisi və Bakını, Batum və Qarsı birləşdirirdi; həmçinin Rusiyaya aparan dəmir yolu və “təkər yolu” — Hərbi-gürcü şosesi fəaliyyətdə idi[18].

[18] Tbilisi. Articol lexicografic din portalul electronic: «Словари и энциклопедии на Академике» — Giriş rejimi: dic.nsf/enc_geo/4821/ Тбилиси.

Mənbə 15 XIX-cu əsrin ikinci yarısında Tbilisinin mərkəzini təsvir edən alman xəritəsi

Mənbə 16 Gürcüstanda alman kolonistləri

XIX-cu əsrdə Gürcüstanda məskunlaşan alman müstəmləkəçiləri (kolonistləri) müxtəlif sahələrdə çalışmağa başladılar. Alman kolonistləri tərəfndən Tbilisi və Cənubi Qafqazın digər şəhərlərində əsası qoyulmuş müəssisələr gələcəkdə pivə istehsalının əsasını qoydu… Zaqafqaziyada teleqraf xətlərinin inşası üçün almanların "Simens və Qalske" şirkətinin[19] fəaliyyəti böyük əhəmiyyət kəsb edirdi. 1866–1867-ci illərdə Verner Simensin kiçik qardaşları ailələri ilə birlikdə Tbilisidə məskunlaşdı… 1901-ci ildə Karl Simensə misin zəngin yatağının işlədilməsi üçün ixtiyar verildi[20].

Mənbə 17 Tbilisinin köhnə mehmanxanaları

Avropalılar Tbilisidə mehmanxana biznesinin əsasını qoydular və uzun müddət ərzində həmin biznes əsasən onların əlində idi. XIX-cu əsrdə otelin avropalı, xüsusilə də fransız tərəfndən idarə olunması onun müsbət cəhətindən xəbər verirdi. Bu da, əsassız deyildi. Xaricilər mehmanxana buznesinin inkişafına böyük töhfələr verdi və Tbilisi otellərinin standartlarını dünya miqyasına qaldırmağı bacardılar[21].

Mənbə 18 Qadın geyimində dəyişikliklər haqqında

Ən sürətli templərlə əhalinin imtiyazlı hissəsinin qadın kostyumu dəyişirdi. Belə ki, materiallara əsasən, Tbilisinin qadın sakinləri ilk növbədə Avropa ayaqqabılarına diqqət yetirdilər və onlara ənənəvi ayaqqabılardan daha çox üstünlük verməyə başladılar.

[19] 19-cu əsrin ortalarında Almaniyada yaradılan elektrotexniki avadanlıq, dəmiryol nəqliyyatı və məişət texnikasının istehsalı ilə məşğul olan alman şirkəti. Hazırda "Simens" elektrotexnika, elektron, optik və səhiyyə avadanlığın istehsalı və satışı ilə məşğul olan Avropanın ən iri beynəlxalq konsernidir.

[20] სონღულაშვილი ა.ბ. ეროვნული უმცირესობანი და კონფესიები საქართველოში: ლექციების კურსი / ა.ბ.სონღულაშვილი, თბილისი: სულხან-საბა ორბელიანის სახ. უნივერსიტეტი, 2005, გვ. 86, 89.

[21] ხოშტარია დ.ე. თბილისი. ძველი სასტუმროები / დ.ე.ხოშტარია, თბილისი: არტანუჯი, 2011, გვ. 96–97. Gürcü müəllifndən tərcümə.

Əsrin ortalarında Tbilisiyə gələn A.Qakstqauzen[22] yazırdı: “İndi Avropa ayaqqabıları istisnasız olaraq yuxarı təbəqə tərəfindən istifadə edilir və hətta orta təbəqə arasında da çox yayılıb”. İslahat illərindən sonra[23] Avropa ayaqqabısı ənənəvi ayaqqabıların yerini tamamilə tutdu. Həm də yuxarı təbəqələrdə Tbilisi qadınları şevro, layka[24], atlasdan hazırlanmış çox bahalı ayaqqabılar geyinirdilər.

<…> Bununla belə, XIX-cu əsrin ikinci yarısının lap əvvəllərində Tbilisinin gürcü və erməni qadınları fransız və alman istehsallı paltarlar geyinməyə başladılar. Yaranmış vəziyyəti hiss edən tədbirli ticarətçilər bu paltarları şəhər dükanlarına külli miqdarda gətirirdilər. XIX-cu əsrin 80-ci illərinə yaxın Avropa fasonlu paltarlar şəhər mühitində çoxluq təşkil edirdi. Paltarlarla bərabər həmin dövrün Qərb modasının atributları olan korsetlər də istifadə edilməyə başladı. Məsələn, korsetlər Tbilisidə 1880-ci illərin sonlarında yayılmış “prinsessa” fasonlu paltarların zəruri elementləri idi[25].

13. 1924 s y ə ə ə u
i. B h s ı f u s iy ı y ə y
ə ə h s ?

14. B
ə ə h s ?
ə ə ə c ə ı?

15. 1924 s y ə ə ə ı ə B o u ə ə ə ə
B o v ə o üçü s ç ş
v ı? B, ə ə ı?

Mənbə 19[26] **Palas otel.**
Müəllifi italyan memarı C.Bernardatsidir. Gürcü mesenatı İ.Zubalaşvilinin sifarişi ilə 1830-cu illərdə inşa edilib. 1840–1911-ci illərdə binada rühani seminariyası yerləşib. 1917-ci ildə bina otelə çevrilib. İndi Puşkin küçəsində yerləşən Təsviri incəsənət Muzeyinin binasıdır.

[22] 19-cu əsrin ortalarında Rusiya imperiyasına, o cümlədən Qafqaza səyahət etmiş alman məmuru.
[23] Rusiya imperiyasında 1860–1880-ci illərdə aparılan islahatlar nəzərdə tutulur.
[24] Şevro, layka xüsusi üsulla hazırlanan dəri növləridir.
[25] İn: Ю. Д. Анчабаязе, Н. Г. Волкова. «Старый Тбилиси. Город и горожане в XIX веке». — Москва: Наука, 1990. Giriş rejimi: http://costumer.narod.ru/text/kavkaz/tbilisi.htm.
[26] 19–24 saylı mənbələrdə təqdim edilən fotolar A.Lordkipanidze tərəfindən çəkilib.



Mənbə 20 Məhkəmə palatası və dairə məhkəməsinin binası. 1894-cü ildə inşa edilib. Müəllif polyak memarı A.Şimkeviçdir. İndi Zubalaşvili küçəsində yerləşən Ali Məhkəmənin binasıdır.



Mənbə 21 İndiki Teatr, müsiqi, kino və xoreoqrafiya muzeyinin yerləşdiyi saray 1895-ci ildə inşa edilib. Layihənin müəllif alman memarı P.Şterndir.



Mənbə 22 Zadəgan-torpaq bankının binası. İndi Vaçnadze küçəsində yerləşən kütləvi kitabxana. 1913–1916-cı illərdə inşa edilib. Müəllifəri rus memarı A.Kalgin və polyak rəssamı Q.Qrinevskidir. Oyma işini gürcülər — Neofte, Vladimir və Lavrenti Aqladzelər yerinə yetiriblər.

Mənbə 23 Rəssamlıq cəmiyyətinin evi. 1898–1901-ci illərdə inşa edilib. Layihənin müəllifəri rus mühəndisi və memarı K.Tatişev və polyak memarı A.Şimkeviçdir. İndi Rustaveli prospektində yerləşən Rustaveli Teatrıdır.

Mənbə 24 Macestik oteli. Erməni sahibkarı M.Aramyantsa məxsusdur. İnşası 1910-cu ildə rus memarı A.Ozerovun layihəsinə əsasən başlanıb, 1915-ci ildə erməni memarı Q.Ter-Məlikovun layihəsinə əsasən bitib. Heykəltaraşlıq detallarının işlənməsində Lavrenti Aqladze iştirak edib. İndi Rustaveli prospektində yerləşən "Tbilisi Marriott" mehmanxanasıdır.

Yekun müzakirə

S

c

Alman mühacirlərinin XIX-cu əsr — XX-ci əsrin əvvəllərində Azərbaycanda yaşayışı

Alman kolonistləri Azərbaycanın iqtisadi və mədəni palitrasına hansı töhfələr veriblər?

1. A

Göygöl — Helenendorf;
Tovuz — Traubenfeld;
İrmaşlı — Eygenfeld;
Çinarlı — Georgenfeld;
Şəmkir — Annenfeld.

2. S

öv c uu?

Blok 1. Almanların Azərbaycana köçməsi

Tarixi məlumat

Alman kolonistlərinin Rusiya imperiyasına köçməsi hələ imperatriçə II Yekaterinanın dövründən başlandı. XVIII-ci əsrin ikinci yarısı — XIX-cu əsrin əvvəllərində baş vermiş Rus-Türk müharibələrindən və geniş ərazilərin Rusiyaya birləşdirilməsindən sonra, alman kəndliləri və sənətkarları Qara dəniz ətrafında yerləşən torpaqlara dəvət olunurdu. Zaqafqaziyanın birləşdirilməsi və 1804–1813-cü illərin Rus-İran müharibəsindən sonra Rusiya imperiyası əldə etmiş ərazilərdə öz təsirinin gücləndirilməsi məsələsi ilə qarşılaşdı.

Alman mühacirlərinin, xüsusilə də Almaniyanın cənub-qərb vilayətlərindən, o cümlədən Vürtenberq krallığından olan almanların bura gəlməyə razılıqlarının əsas səbəbi Napoleon müharibələri[1] dövründə Avropada baş verən siyasi sarsıntılar nəticəsində əhalinin vəziyyətinin pisləşməsi idi. Almanların Cənubi Qafqaza, o cümlədən də müasir Azərbaycanın ərazisinə köçməsi yüz il çəkdi.

Rusiya hökümətinin köməyinə baxmayaraq, Cənub-Şərqi Qafqaz ərazisində məskunlaşan almanların vəziyyəti mürəkkəb idi. Adaptasiya prosesi onlar üçün qeyri-adi iqlim, yerli həyat tərzinə uyğunlaşmamaq, müxtəlif xəstəliklərin yayılması ilə çətinləşirdi. Lakin alman koloniyaları bir neçə on illik ərzində müvəffəqiyyətli təsərrüfatlara çevrildilər. Ən iri koloniya Helenendorf idi. Qafqaz almanları koloniyaların ilk yaranma mərhələsindən başlayaraq etnik və dini özünəməxsusluğunu, ənənəvi mədəniyyətini və milli şüurunu qoruyub saxlamağa çalışırdılar.

[1] Napoleon müharibələri 1799-cu ildən 1815-ci ilədək Avropada I Napoleonun başçılığı altında olan fransız ordusunun iştirakı ilə aparılan müharibələrdir. Bu müharibələr bir çox Avropa ölkələrinin sərhədlərinin dəyişdirilməsinə və onların əhalisinin ağır iqtisadi duruma düşməsinə gətirib çıxardılar.

Qafqazın iqtisadi və ictimai-mədəni həyatına yalnız kolonistlər deyil, həmçinin beynəlxalq biznes, elm və mədəniyyətin alman əsilli nümayəndələri böyük töhfələr verdi. XIX-cu əsrin ikinci yarısı — XX-ci əsrin əvvəllərində Rusiya imperiyasında gedən müasirləşmə prosesləri ilə əlaqədar olaraq bir çox alman sahibkarları öz kapitallarını neft biznesi, maşınqayırma, mədən (fliz) işi və misin əridilməsinin inkişafına yatırır, Azərbaycanın iri şəhərlərində, ilk növbədə Bakıda yeni evlər və ictimai binalar inşa edirdilər.

3. 3 v ə 4 s y ı ə t ə l ə ə ə s s
e

4. 1, 2, 5, 6, 7 s y ı ə t ə l ə ə v ə
C ə u ı - ə q i Q f q z ı m y ş y ı ş ə s ə l ə i i y m s
ə i.

5. 3, 4, 7 s y ı ə t ə l ə ı i i ə ı ə ə c ə ə ı ı ı?

Mənbə 1 Xəritə «XIX-cu əsrin birinci yarısında Alman köçkünlərinin Cənubi-Şərqi Qafqaza doğru gəldikləri yol»

Mənbə 2 XIX-cu əsr — XX-ci əsrin əvvəllərində Cənub-Şərqi Qafqazda alman yaşayış məskənləri



Mənbə 3 Rus imperatoru I Aleksandrın 1804-cü il 20 fevral tarixli Manifestindən

Rusiya hökuməti aşağıdakı insanları Rusiyaya cəlb etməlidir: "əkinçilik və sənətkarlıqda nümunə ola biləcək mühacirləri… yaxşı torpaq sahiblərini, üzüm, tut ağacları və digər faydalı bitkiləri yetişdirməyi bacaran təcrübəli insanları, və ya heyvandarlıqda, xüsusilə də əla qoyun növlərinin yetişdirilməsində təcrübəsi olan, və, ümumiyyətlə, kənd təsərrüfatını səmərəli inkişaf etdirmək üçün bütün zəruri biliklərə sahib olan insanları…"[2].

[2] История российских немцев. http://www.russlanddeutschegeschichte.de/start_russisch.htm
Giriş rejimi: http://www.russlanddeutschegeschichte.de/russisch/geschichte/teil1/bedingungen/manifest.htm.

Mənbə 4 Kolonistlərə şamil olunan imtiyazlar haqqında Rusiya hökümətinin göstərişindən

— Kolonistlər on il müddətində verqilərdən, hərbi və xidməti vəzifələrdən azad olunurdurlar. Bu müddət bitəndən sonra onlar növbəti on il ərzində torpaq verqisi ödəməli idilər <…>;

— Rusiya sərhəddindən başlayaraq məskunlaşma yerinədək yolun pulu tam ödənilirdi;

— Yerlərdə şərait qurmaq üçün kolonistlərə kredit verilirdi (malikanənin tikintisi, kənd təsərrüfatı avadanlıqları və heyvanların alınması);

— İmperiyanın bütün ərazisində fabriklərin, sənətkarlıq müəssisələrinin tikintisinə, ticarətlə məşğul olmağa icazə verilirdi[3].

Mənbə 5 Rusiyanın müstəmləkəçilik siyasəti haqqında

Regionda, o cümlədən Şimali Azərbaycanda Rusiya imperiyasının müstəmləkəçilik siyasitinin əsas məqsədi assimilyasiya[4] və ölkəni geniş Rusiya imperiyasının ayrılmaz hissəsinə çevirmək idi. Bu məqsədə nail olmaq üçün Rusiya İmperiyası bütün Qafqazda olduğu kimi, Şimali Azərbaycanda da köçürmə siyasəti aparırdı ki, bu siyasət müstəmləkəçilik siyasətinin tərkib hissələrindən biri idi[5].

Mənbə 6 Almaniyadan mühacirətin səbəbləri haqqında

Napoleon müharibələrindən sonra əhalinin müflisləşməsi, torpaqların itkisi, bahaçılıq, verqilərin artması, kəndlilər və sənətkarların ağır iqtisadi durumu, kütlələrin yoxsullaşması, ümumi hərbi mükəlləfyyət olduğu yerdə əsgər (rekrut)[6] toplanması təhlükəsi, hava şəraitinin pis olması və son illərin qıtlığı, aclıq (belə ki, 1816-cı ildə yapışqan, ilbiz, ağac qabığı, ot yeyirdilər) — bütün bunlar insanları mühacirətə sövq edirdi[7].

Mənbə 7 XIX-cu əsrin əvvəllərində almanların Qafqaza köçməsi haqqında

Kolonistlərin köçməsinin uzun çəkməsi onların cərgələrlə köçməsi ilə izah olunur ki, bu cərgələr çətinliklər, xəstəliklər, ölüm və iqlim şəraiti ilə əlaqədar olaraq tez-tez yolda yubanırdılar. 40 ailədən ibarət olan alman mühacirlərinin ilk cərgəsi <…>, köçməyə icazə aldıqdan sonra 1816-cı ilin sentyabrında Dunay və Qalisiyadan

[3] Elə orada, adaptasiya olunmuş mətn.

[4] Assimilyasiya bir xalqın o biri xalq ilə məcburi birləşdirilməsidir. Bu proses dil, mədəniyyət və milli şüurun itkisi ilə nəticələnir.

[5] Хаджар Вердиева. Немцы в Северном Азербайджане. Баку: «ЭЛМ». 2009. — С. 13. [Elektron resurs]. — Giriş rejimi: http://www.ebooks.az/view/orXjt0kT.pdf.

[6] Rekrut mütləq mükəlləfyyət nəticəsində hərbi xidmətə qəbul edilən əsgərdir.

[7] Т. Н. Чернова-Дёке. Немецкие поселения на периферии Российской империи. Кавказ: взгляд сквозь столетия (1818–1917). М.: «МСНК-пресс», 2008. — С.17. — [Elektron resurs]. — Giriş rejimi http://www.rusdeutsch.ru/biblio/fles/211_biblio.pdf.

keçərək yola düşdü. <…> 1818-ci ilin yazında alman mühacirlərinin son cərgələri çar hökuməti tərəfindən Azərbaycan ərazisinə, Yelizavetpol dairəsinə köçürüldü. Burada onlar iki alman yaşayış məntəqəsinin əsasını qoydular. Koloniyalar Meklenburq-Şverinskaya hersoginyası, Böyük Knyaginya[8] Yelena Pavlovnanın şərəfnə Helenendorf və Niderland kraliçası, Böyük Knyaginya Anna Pavlovnanın şərəfnə Annenfeld adlandırıldılar[9].

Blok 2. Alman mühacirlərinin həyatı

6. S
ü c i ə i y i y ş y ı ş y i ə q l ı ı ə ə c ə ə q u u y u ?
7. , v ə s y ı ə t ə l ə o o i
ö s

Mənbə 8 Səyyahın təəssüratları

<…> İlkin dövrlərdə Azərbaycanda məskunlaşan kolonistlər olduqca qapalı həyat tərzi aparırdılar. 1830-cu ildə Qafqaza, o cümlədən də Azərbaycana səyahət edən səyyah Morenasın qeydlərində təqdim olunan məlumatlar da belə düşünməyə əsas verir. Bu qeydlərdə bildirilir: "Asiya xalqının arasında on ilə yaxın yaşayan iki alman koloniyasının (*Helenendorf və Annenfeld*) sakinləri ondan heçnə, hətta faydalı bir şey də götürməyiblər. Bu iki koloniyanın sakinləri Kür[10] qırağı ərazilərdə yaşayırlar və, deyəsən, hələ bundan sonra da xeyli yaşamaq fikrindədirlər, elə bil heç vaxt Reyn[11] sahillərindən ayrılmayıblar. Onlar vətənlərindən çıxanda nə bilirdilərsə, elə onu da bilirlər… Onlar yeni heç bir şey öyrənməyiblər"[12].

Mənbə 9 Azərbaycanda alman icmasının həyatı haqqında

<XIX-cu əsrdə> alman ailələri çoxuşaqlı idilər: ailədə 8–10 uşağın olması adi hal sayılırdı. Ənənəyə görə, ailənin torpağı kiçik oğula keçirdi. Böyüklər üçün isə qabaqcadan torpaq almaq lazım idi. Almanların zəhmətkeşliyi, onların torpağa olan sevgisi, yerli əhali ilə mehriban münasibətləri buna gətirib çıxardı ki, onlara yeni torpaqlar ayrıldı. Belə, Helenendorfdan 25 km aralı, Şəmkir çayının sahilində yeni koloniya yaradıldı.

İllər keçdi, alman icması böyüdü. İlk koloniya olan Helenendorf kirxa, klub, məktəb, güllərlə dolu park və bağçaları olan tipik alman şəhərciyinə çevrildi. Balaca

[8] Böyük knyaginya Rusiya imperiyasında imperatorun bacısının və ya qızının tituludur. Yelena Pavlovna, Anna Pavlovna imperator I Aleksandrın bacıları, imperator I Pavel və Vürtemberq şahzadəsi Mariyanın qızlarıdır.

[9] Судаба Зейналова. Немцы на Кавказе. Баку:Изд-во Mutercim, 2008. — С. 47–48.

[10] Kür Zaqafqaziyanın ən iri çayı, Gürcüstan və Azərbaycanın əsas çayıdır.

[11] Reyn Almaniyanın əsas çayıdır.

[12] Цит. зв: Судаба Зейналова. Там же. С. 54

orkestr də yaradıldı ki, Helenendorf sakinləri onun sədaları altında rəqs edir, mahnı oxuyur, gülməli səhnəciklər oynayırdılar.

XIX-cu əsrin sonunda Helenendorfda kiçik elektrik stansiyası inşa edildi, elektrik xətləri çəkildi, teleqraf qovşağı yaradıldı. Hər koloniyada tibbi xidmət var idi, feldşer məntəqəsi də açıldı. Şərabçılığın inkişafı ilə bağlı koloniyalarda zəruri sexlər yaradılırdı: dəmirçi, xarrat, çəllək[13], və s. Texniki təchizatı olan təsərrüfatlar peşəkar şərabçı Xristofor Forerə məxsus idi. Alman yaşayış məskənlərinin genişlənməsi prosesi davam edirdi. Yeni koloniyalar yaradılmışdı[14].

Mənbə 10 XX-ci əsrin əvvəllərində Helenendorfda yaşayan alman ailəsi[15]



8. 1, 2 v ə 4 s y ı ə t ə l ə h y ş y ı ş ə s ə l ə i q f ə liy y ə

9. R h h ı o l o i s

10. S o ul ə s s h ı.

[13] Çəllək (boçka) istehsalı.

[14] Сабир Алиев. О славных и трагических страницах жизни немцев-переселенцев в Азербайджане. Немецкие переселенцы в Азербайджане. Электронный журнал «Ваш партнер в Германии» — http://www.partner-inform.de/ Рубрика: история. Известное об неизвестном. — [Elektron resurs]. — Giriş rejimi: http://www.partner-inform.de/partner/detail/2012/11/235/5659.

[15] https://ru.wikipedia.org/wiki/%D0%A4%D0%B0%D0%B9%D0%BB:Russisches_Imperium_Helenendorf_1910.jpg.

Mənbə 11 Alman koloniyalarında təsərrüfat fəaliyyətinin xüsusiyyətləri haqqında

Almanlar buğda, arpa və darı yetişdirirdilər; növbəti əkin, yani bitki əkinlərinin vaxtaşırı növbələşməsini, həmçinin dörd tarlada da növbəti əkini tətdiq edirdilər. Torpağın becərilməsi üçün kolonistlər yerli və ənənəvi ağır kotandan istifadə edirdilər. Bu kotana 8–10 at qoşurdular. Əkinlərin suvarılması üçün Qafqaz kəndliləri kimi, arx[16] sistemindən istifadə edirdilər. Yerli ustalar kolonistlər üçün Helenendorf və Annenfelddə suvarma suyunu yığmaq məqsədilə kəhrizlər, yəni yeraltı irriqasiya[17] qurğuları qazmışdılar. Yerli şəraiti nəzərə alaraq, almanlar yerli əhalidən taxıldöyən taxta ilə dənin üyüdülməsi üsulunu öyrənir, biçim üçün yerli oraqlardan istifadə edirdilər. Əvvəllər üzüm bağlarını yerli ənənəvi üsullarla becərirdilər, üzümün yerli növlərini yetişdirirdilər. Sonra kolonistlər üzümün yeni, o cümlədən muskat, rkatsiteli, saperavi, izabella növlərini yetişdirməyə başladılar. Onlar həmçinin meyvə bağları da saldılar, kartof və digər tərəvəzlər yetişdirməyə başlayıb azərbaycanlıları da bu tərəvəzlər ilə tanış etdilər[18].

Mənbə 12 Helenendorfda üzüm yığımı. XX-ci əsrin əvvəlləri[19]

[16] Arx — suvarma kanalı.

[17] İrriqasiya — latın sözü “suvarma”.

[18] Рауф Гусейн-заде. Немцы Азербайджана. Координационный совет азербайджанской молодежи. Раздел Публикации. стр.5. — [Elektron resurs]. — Giriş rejimi: http://www.ksam.org/index.php?mtype=news1&mid=413.

[19] http://commons.wikimedia.org/wiki/File:Grape_gathering_in_Helenendorf.png.

Mənbə 13 Reklam elanı[20]



Xristofor Forer alman mühacirləri ailəsindəndir. 1846-cı ildə Forer Helenendorf yaxınlığında üzümün ən yaxşı növündən ibarət olan üzüm bağının ilk desyatinini saldı. 1862-ci ildə Xristofor Forer şərabçılıq müəssisəsi yaratdı. 1870-ci ildən etibarən X.Forer ilə onun dörd oğlu — Hotlib, II Xristofor, Fridrix və Henrix — fəal işləməyə başladılar, bu müəssisə isə “Xristofor Forer və oğulları” adlandırılmağa başladı.

1868-ci ildə Forerlər Aksioner cəmiyyəti reqionda ilk pivə zavodu, 1892-ci ildə isə Azərbaycanda ilk konyak zavodu açdı.

Mənbə 14 Alman mühacirlərinin furqon istehsalatı haqqında

Xüsusilə koloniyalarda furqon istehsalatı inkişaf etmişdi. Kolonistlər Avropa tipli üstüörtülü furqonlar[21] istehsal edirdilər. Bu furqonlar kənd təsərrüfatı avadanlığının, xüsusilə də çaxır çəlləklərinin daşınması üçün istifadə olunurdu. Furqon istehsalatı XIX-cu əsrin 70-ci illərində Rus-türk müharibəsi (1877–1878-ci illər) zamanı böyük miqyas aldı. Bu zaman kolonistlərin istehsal etdiyi furqonların, demək olar ki, hamısı

[20] Электронний ресурс «Наш Баку. История Баку и бакинцев»: http://www.ourbaku.com. — Giriş rejimi: http://www.ourbaku.com/index.php5/%D0%A4%D0%B0%D0%B9%D0%BB:Forer_stor.jpg.

[21] Furqon (fransız dilindən) üstü silindrik formada parça və ya fanerdən örtülən iri at arabası.

hərbi idarə tərəfindən hərbi məqsədlərlə ən yüksək qiymətə alınırdı <…> Bunun nəticəsində bir çox alman kolonistləri iri kapital yığa bildilər. Furqon istehsalından başqa alman koloniyalarında digər sənətkarlıq növləri də inkişaf etmişdi. Emalatxanalar ilə yanaşı koloniyalarda həmçinin ticarət məntəqələri, o cümlədən ərzaq dükanları, aptekələr, və elektrostansiya, dəyirman və s. texniki tikililər var idi[22].

Blok 3. Müasir Azərbaycanda almanların irsi

11. [illegible]

Mənbə 15 **1850-ci illərdə Helenendorfda inşa edilən kirxa[23]. XX-ci əsrin əvvəllərində çəkilmiş foto[24]**

Mənbə 16 **Azərbaycanda teatrın inkişafı haqqında**

XIX-XX-ci əsrlərin hüdudlarında Azərbaycanda teatr sənəti inkişaf edir. Tanınmış publisist və tərcüməçi Hüseyn Minəsazovun yazdığına görə, «müsəlmanların yığışdığı, bir biri ilə görüşdüyü və ümumi maraqlar ilə yaşadığı üç yer var — məscid, hamam və teatr. İlk sadalananlar yüz illərdir ki, mövcuddur, lakin sonuncu müasir dövrdə yaranıb". Beləliklə, teatr ən qısa zamanda əhali arasında populyarlıq qazandı. Gəncədə ilk teatr tamaşası 1895-ci ildə səhnəyə qoyuldu. <…> Burada tamaşalar, əsasən, alman iş adamı Forerin vəsaitlərinə tikilən klubda nümayiş etdirilirdi. XIX-cu əsrin 90-cı illərində teatrın binası inşa edildi[25].

[22] Судаба Зейналова. Немцы на Кавказе. Баку: Изд-во Mutercim, 2008. — С. 63.

[23] Kirxa (kirka) — alman dilindən "kilsə"; adətən protestant, lyuteran dini binaları işarə etmək üçün istifadə edilir.

[24] Götürülüb: http://en.wikipedia.org/wiki/Goygol_%28city%29#mediaviewer/File:Kirche_in_Helenendorf.png.

[25] П. Керимзаде. Из истории меценатства города Гянджи. — [Elektron resurs]. — Giriş rejimi: http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Humanitar%202009%204/117–123.pdf. — С. 120.

Mənbə 17 XX-ci əsrin əvvəllərində Helenendorf küçələrindən biri[26]



Mənbə 18 Azərbaycanda alman yaşayış məskənlərinin memarlıq xüsusiyyətləri haqqında

Əsasən, koloniyalar bir çox cəhətdən Almaniyanın orta-alman yaşayış məskənlərini təkrarlayırdı. Onlar dəqiq planlaşdırılmışdı: küçələr biri-birinə paralel çəkilmişdi; onların qıraqları ilə çinar və armud ağacları əkilmişdi; alman heraldikasında məhsuldarlığın və əməyə qarşı xüsusi münasibətin simvolu olan armuda üstünlük verilirdi; küçələrin yastı daşlarla və ya asfalt ilə örtülmüş səkiləri var idi; koloniyanın mərkəzində əsas meydan yerləşirdi ki, burada qotik üslubda inşa edilmiş kirxa var idi; onun zəng gülləsində saat yerləşirdi; əsas meydanın qıraqları ilə kənd idarəsi, xəstəxana, dükanlar və digər ictimai tikililər inşa edilmişdi.

Küçələrin hər iki tərəfində "aleman üslübündа[27]" tikilmiş həyətyani sahələri olan kolonistlərin evləri dururdu; evlər nömrələnmişdi və küçəyə fasad (ön) tərəfilə çıxırdı. Evlər bir və ya iki mərtəbəli, bir növ "kompleks tikili" idilər: həyət bir damın altında yaşayış və təsərrüfat tikililərini birləşdirirdi, zirzəmilərdə çaxır anbarları yerləşirdi, çardaqlarda meyvə qurudulur və saxlanılırdı; yaşayış hissəsində bir neçə otaq, küçəyə və həyətə çıxan iki eyvan var idi. Evlər kirəmit ilə örtülmüşdü, bayır divarlar, əsasən, mavi rəngdə idilər. Hər evin həyətyani sahəsi və bostanı var idi. Küçədə evin qabağında meyvə və dekorativ ağaclar əkilmişdi[28].

Mənbə 19 Almanların Azərbaycan elm və mədəniyyətinə verdikləri töhfələr haqqında

Almanlar Azərbaycanın elm və mədəniyyətinin inkişafına böyük töhfələr verib. Belə ki, XIX-cu əsrdə alman arxeoloqları ölkəmizdə arxeoloji qazıntılara başlayıb və Azərbaycanda arxeologiya elminin əsasını qoyublar. Ömrünü Azərbaycan

[26] Götürülüb: http://commons.wikimedia.org/wiki/File:Street_in_Helenendorf.png.

[27] Almaniyanın fransız dilində tələffüzündən — Allemagne. Burada — alman üslubu. .

[28] Рауф Гусейн-заде. Немцы Азербайджана. — [Elektron resurs]. Координационный совет азербайджанской молодежи. Раздел Публикации. — С. 5. — Giriş rejimi: http://www.ksam.org/index.php?mtype=news1&mid=413.

arxeologiyası və etnoqrafiyasına həsr edən Y.Qummel bu sahədə bir çox məqalələrin müəllifi və tanınmış Xanlar diyarşünaslıq muzeyinin yaradıcısıdır. Rusiya EA-nın həqiqi üzvü, "Qafqaz və Xəzər dənizinin geologiyasının atası" V.Abixin də az xidmətləri olmayıb: XIX-cu əsrdə o, Azərbaycanda neft geologiyasının yaranmasında böyük rol oynayıb. Rusiya EA-nın müxbir üzvü E.İ.Eyxvald Abşeronda[29] neft quyularını tədqiq edib; fizik-elektrotexnik E.X.Lens 1830-cu illərdə Xəzərin səviyyəsinin dəyişmə səbəblərini araşdırıb.

Kapitalistik Bakının memarlıq şedevrlərinin yaradılmasında almanların rolu danılmazdır. Azərbaycanda çalışan alman memarlarından ən tanınmışı N.A. fon der Nonne (1832–1916) idi. O, Bakı şəhər memarı, hərbi mühəndis idi. 1889–1902-ci illərdə şəhər başçısı olaraq tarixi kvartalların planlaşdırılması, Bakının bir çox binalarının memarlıq həlli ilə məşğul olub[30].

Mənbə 20 XIX-cu əsrin sonunda Bakıda tanınmış neft sənayeçisi Deburun sifarişi ilə memar N.A. fon der Nonnenin layihəsi üzrə inşa edilmiş ev.

[29] Xəzər dənizinin qərb sahilində, Azərbaycan ərazisində yerləşən yarımada, zəngin neft yataqları ilə tanınır.

[30] Азербайджанский конгресс. Еженедельная общественно — политическая газета. Выпуск № 29 (325) 23 августа 2013. — [Elektron resurs]. — Giriş rejimi: http://azcongress.info/stati-2013/186-vypusk-29-325-23-avgusta-2013-goda/9329-nemetskie-pereselentsy-v-azerbajdzhane.

Mədəniyyətlərin dialoqu və mədəni irs

Ümumi mədəni irsdə müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqəsi necə əks olunur?

Blok 1. YUNESKO-nun Ümumdünya irsi siyahısı

1. YNE S
üə y y ə i(ə ə).
2. M ə ə i s i u v ə y iə o y
l ə h s ı?
3. “ M ü ü u v s l ə y ə” i f ə

Mənbə 1 YUNESKO-nun Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiyasından[1]

Bu Konvensiyada “mədəni irs” kimi aşağıdakılar qəbul edilir:

abidələr: tarix, sənət və elm baxımından mühüm universal dəyərlərə malik memarlıq, monumental heykəltəraşlıq və rəsm əsərləri, arxeoloji xarakter daşıyan element və strukturlar, yazılar, mağaralar və tarix, sənət və elementlər qrupları;

ansambllar: memarlığı, mənzərə ilə vəhdəti və ya bağlılığı tarix, sənət və elm baxımından mühüm universal dəyər kəsb edən ayrı və ya birləşdirilmiş tikililərdən ibarət qruplar;

görməli yerlər: insan tərəfindən yaradılan və ya insan və təbiətin birlikdə yaratdıqları əsərlər, həmçinin tarix, estetika, etnologiya və antropologiya baxımından mühüm universal dəyər kəsb edən zonalar, o cümlədən arxeoloji görməli yerlər[2].

4. YNE S
o y
s ö z ü ə n s iy h y iy ə x i ə ?

[1] YUNESKO-nun Konvensiyası 1972-ci ildə qəbul edilib. O, 150-dən artıq ölkə tərəfindən imza və ratifikasiya edilib.

[2] YUNESKO-nun veb-saytı. Giriş rejimi: http://www.un.org/ru/documents/decl_conv/conventions/heritage.shtml

Mənbə 2 **Azərbaycan: yuxarı paleolit və orta əsrlər arasında** mövcud olan qayaüstü sənətin dörd minillik tarixini əks etdirən Qobustanın altı min qayaüstü rəsmlərdən ibarət unikal kolleksiya[3].

Mənbə 3 **Ermənistan: Qeqard monastırının qədim kilsə və qəbirləri.** Onların bir hissəsi bilavasitə qayalarda yonulub. Bu, orta əsrlər erməni memarlığının şah əsərləridir[4].

[3] Aleksandr Vilhelmin fotosu. Müəllifn razılığı ilə çap edilir. Giriş rejimi: https://www.fickr.com/photos/theotocopuli/6934539708/sizes/o/.

[4] Oleq Sidorenkonun fotosu. Müəllifn razılığı ilə çap edilir. Giriş rejimi: https://www.fickr.com/photos/oksidor/8176194313.

Mənbə 4 **Gürcüstan: Gürcüstanın keçmiş paytaxtı Msxetanın tarixi abidəsi — Svetisxoveli baş kafedral kilsəsi (XI-ci əsrin əvvəli).**
Qafqazın orta əsrlər dini memarlığının əzəmətli nümunəsidir[5].



Mənbə 5 **Moldova: Köhnə Orxey tarixi-arxeoloji kompleksi. Burada müxtəlif sivilizasiyaların izləri aşkar edilib.** YUNESKO-nun Ümumdünya irsi siyahısına namizəddir. Köhnə Orxeyin ərazisində Qeto-dak qalası (e.ə. VI–I-ci əsrlər), Qızıl Ordanın qədim şəhəri (XIV-cü əsrin ikinci yarısı), pravoslav qaya monastırları (XIV-cü əsrdən başlayaraq) və Moldovanın Orxey şəhəri (XV–XVII-ci əsrlər) yerləşir. Fotoda tatar hamamının qalıqları təsvir edilib[6].

[5] Kristian Kaldurun fotosu. Müəllifin icazəsi ilə çap edilir. Giriş rejimi: https://www.flickr.com/photos/kaldur/2714160006.

[6] Foto Vaganych. Giriş rejimi: https://ru.wikipedia.org/wiki/%D0%A1%D1%82%D0%B0%D1%80%D1%8B%D0%B9_%D0%9E%D1%80%D1%85%D0%B5%D0%B9#mediaviewer/File:Remains_of_the_tatar_bath.jpg.

Mənbə 6 **Ukrayna: Sofiya baş kilsəsi və onunla əlaqəli monastır tikilili̇ri —** XI–XVIII-ci əsrlərin memarlıq ansamblı[7].

Mənbə 7 **Ukrayna: təməli 1051-ci ildə qoyulan və Kiyev Rus** dövlətində ilk monastırlardan biri olan Kiyev-Peçora lavrası[8].

[7] Giriş rejimi: https://ru.wikipedia.org/wiki/%D0%A1%D0%BE%D1%84%D0%B8%D0%B9%D1%81%D0%BA%D0%B8%D0%B9_%D1%81%D0%BE%D0%B1%D0%BE%D1%80_(%D0%9A%D0%B8%D0%B5%D0%B2)#mediaviewer/File:Kij%C3%B3w_-_Sob%C3%B3r_M%C4%85dro%C5%9Bci_Bo%C5%BCej_01.jpg.

[8] Giriş rejimi: https://ru.wikipedia.org/wiki/%D0%9A%D0%B8%D0%B5%D0%B2%D0%BE-%D0%9F%D0%B5%D1%87%D0%B5%D1%80%D1%81%D0%BA%D0%B0%D1%8F_%D0%BB%D0%B0%D0%B2%D1%80%D0%B0#mediaviewer/File:Lavra_panorama-kijev.jpg



Mənbə 9[13]
Lvovda yerləşən erməni kilsəsi

Mənbə 10 Lvovda yerləşən erməni kilsəsi haqqında

Erməni kilsəsi Lvovun ən qədim məbədlərindən biridir (XIV-cü əsr). Kilsənin həyətində erməni qəbirsanlığı yerləşir. Onun içində qədim baş daşları (XVI–XVII-ci əsrlər) və ağacdan inşa edilmiş "Qolqofa" kiçik kilsəsi (XVIII-ci əsr) var. Lvovdaki erməni kilsəsinin tarixi XIV-cü əsrdə başlayıb. Erməni kvartalı və Armyanskaya (Erməni) küçəsi yaradılıb, XIV-cü əsrin ikinci yarısında isə (1363–1370-ci illər) Uspeniya Boqoroditsa məbədi inşa edilib. Ermənilər Lvovun həyatında əhəmiyyətli rol oynayıb. Onlar bacarıqlı sənətkarlar və tanınmış ticarətçilər idi. Lvov onlar üçün çox əlverişli şəhər idi, çünki iki sivilizasiyanın və Şərqdən Qərbə, Şimaldan Cənuba gedən çoxsaylı ticarət yollarının kəsişməsində yerləşirdi. Artıq XIV-cü əsrdə Lvov Rus dövlətinin və Valaxiya (Rumıniya) ermənilərinin yeparxiya mərkəzinə[14] Uspeniya Boqoroditsa kilsəsi isə kafedra baş kilsəsinə[15] çevrildi.

[13] 9, 11, 13 — O.Pedan-Slepuxinanın fotosu.

[14] Yəni yepiskopun rezidensiyası yerləşən şəhər, dini mərkəz.

[15] Маленков Роман. Вірменський спадок у Львові. Собор Успіння Богородиці. — [Elektron resurs] «Україна Інкогніта». — Giriş rejimi: http://ukrainaincognita.com/khramy/virmenskyi-spadok-u-lvovi-sobor-uspinnya-bogorodytsi.

Mənbə 11 **Yan Henrik Rozenin freskası. Müqəddəs Odilonun dəfni. Erməni baş kafedral kilsəsi, Lvov**

Mənbə 12 **Lvovun Erməni baş kilsəsində təsvir olunmuş freska haqqında**

1925-ci ildə Lvovun erməni Arxiyepiskopu (baş keşişi) Yozef Teodoroviç Erməni baş kilsəsinin əsaslı təmirinə başlayır və onun divarlarını şəkillərlə bəzəmək üçün Yan Henrik Rozeni[16] dəvət edir.

Baş kilsəni şəkillər və vitrajlarla bəzəyərək, Rozen erməni-bizans ənənələrini müasir incəsənətin Qərbi Avropa istiqaməti ilə birləşdirməyi qərara alır. Maraqlıdır ki, freskalarda yazılar polyak dilindədir. "Müqəddəs Odilonun dəfni" freskasında (mənbə 8) polşalı şairə Kazimira İllyakoviçin şeiri yerləşdirilib: "Ey, müqəddəs Odillon, ölənlərin ruhlarının rəhbəri, biz, ölənlər, sənin tabutunun arxasınca gəlirik". Rəssam ölən insanların ruhlarını əllərində şam olan yarımşəffaf siluetlər şəklində təsvir edib.

Hal-hazırda məbədin freskaları Varşava İncəsənət Akademiyasının bədii əsərlərin bərpaçısı İoanna Çernixovskaya və Milli Lvov İncəsənət Akademiyasının İncəsənət əsərlərinin bərpası kafedrasının dosenti Yuri Ostrovski tərəfindən bərpa olunurlar. Bərpa işlərini Polşanın Mədəniyyət Nazirliyi maliyyələşdir[17].

[16] Yan Henrik Rozen katolikliyi qəbul etmiş Varşavanın varlı yəhudi ailəsində doğulan rəssamdır.

[17] Реставрацію Вірменської церкви планують закінчити до 2012 року. — [Elektron resurs] — Вголос. Новини Львова. — Giriş rejimi: http://vgolos.com.ua/zhyttya/news/679.html.

Mənbə 13 Lvovda Müqəddəs Paraskeva Pyatnitsa kilsəsi

Mənbə 14 Lvovda yerləşən Müqəddəs Paraskeva Pyatnitsa kilsəsi haqqında

Boqdan Xmelnitski küçəsində yerləşən Müqəddəs Paraskeva Pyatnitsa kilsəsi müdafə tipli məbədlərə aiddir. Bunu divarlardakı hərbi mazğallar təsdiqləyir. 1977–1978-ci illərdə aparılmış arxeoloji tədqiqatların məlumatlarına əsasən, ilkin bina XIII-cü əsrin sonlarından XIV-cü əsrin əvvəllərinədək roman üslubunda inşa edilib. 1623-cü ilin yanğınından sonra bina yenidən tikilib. Xorların[18] parapetində bərpanın 1644-cü ilin 15 avqustunda sona çatması haqqında xatirə lövhəsi vurulub. Lövhə Moldova herbi və Moldova hökmdarı Vasili Lupunun inisialları ilə bəzədilib. Ehtimal edilir ki, məhz bu hökmdar bərpa üçün vəsait ayırıb. Kilsənin memarlığında qotik və barokko elementlərini özündə birləşdirən Moldova inşa ənənələri görünür. Binanın interyerində qübbə və divarlar XVIII-ci əsrin sonlarında Luka Dolinski[19] tərəfindən işlənilən freskalar ilə bəzədilib. Həmçinin XVII-ci əsrin birinci yarısının unikal ikonostası qorunub saxlanılıb. Onun üzərində qızıl suyuna salınmış ağac üstündə oyma və dəzgah rəssamlığının[20] qiymətli nümunələri var[21].

8. X

9. s y ə

10. M ü x

S

[18] Xorlar kilsənin daxilində (adətən, ikinci mərtəbə səviyyəsində) yerləşən yuxarı açıq qalereya və ya eyvandır. Parapet binanın damını, terrası, eyvanı, sahili, körpünü və s. ayıran çox hündür olmayan divardır.

[19] Luka Dolinski Ukrayna monumentçi rəssamı və ikona çəkəni, Vyana təsviri incəsənət akademiyasının məzunudur.

[20] Pictură de şevalet — gen de pictură care, spre deosebire de cea monumentală, nu este legată de arhitectură, are un caracter individual şi se percepe independent de mediu. În sens direct — pictură realizată pe şevalet.

[21] Церква Святої Праскеви П'ятниці. [Elektron resurs] Мандрівка Україною. — Giriş rejimi: http://travelua.com.ua/lvivshhina/lviv-lvivshhina/vul-bogdana-xmelnickogo/cerkva-svyato%D1%97-paraskevi-pyatnici.html

Mənbə 15 Yevpatoriya şəhər mərkəzinin xəritəsi (Krım[22] Muxtar Respublikası, Ukrayna)



Rəqəmlərlə qeyd edilib:

1. Cümə Camisi (Cümə məscidi)
2. Surb-Nikoqayyos erməni kilsəsi
3. Yeqiya-Kapay (sənətkarlar) sinaqoqu
4. Müqəddəs Nikolay baş kilsəsi
5. Müqəddəs İliya Peyğəmbərin kilsəsi
6. Keraim kenasları
7. Dərvişlərin təkiyəsi

Mənbə 16 Yevpatoriyanın “Kiçik Qüdsü”

Yevpatoriyanın mərkəzində müxtəlif konsessiyaların məbədləri yan-yana durur. Buna görə də şəhərin bu hissəsini “kiçik Qüds”[23] adlandırırlar.

Cümə Camisi (məsçidi)[24] Krım xanı I Dövlət Gireyin sifarşi ilə görkəmli türk memarı və mühəndisi Sinan Xoca[25] tərəfindən 1522-ci ildə inşa edilib. Bütün Krım xanları baş məsçiddə Türk sultanından Krım xanlığını idarə etmək üçün hüquq verən fərman qəbul edirdilər. Buna görə də məbədin ikinci adı Xan Camisidir (Xan məsçidi).

[22] BMT-nin Baş Assambleyasının 2014-cü il martın 27-də qəbul edilmiş 68/262-ci rezolyusiyası ilə beynəlxalq aləmdə tanınan sərhədlərinə əsasən

[23] Qüds üç dünya dininin mərkəzidir — iudaizm, xristianlıq və islam.

[24] Foto: A.Savin. Giriş rejimi: https://ru.wikipedia.org/wiki/%C4%E6%F3%EC%E0-%C4%E6%E0%EC%E8_(%C5%E2%EF%E0%F2%EE%F0%E8%FF)#mediaviewer/File:Eupatoria_04–14_img12_Juma_Jami_Mosque.jpg.

[25] Sinan Xoca (1489 –1588) ən tanınmış osmanlı memar və mühəndislərindən biridir. Sultan I Möhtəşəm Süleymanın və onun xələfərinin dövründə Osmanlı dövlətinin baş memarı və mühəndisi olub və tikinti işlərinə başçılıq edib. Məsçid, məktəb (müsəlman ibtidai məktəbləri), akvedukların inşasına, həmçinin sultanların hərbi yürüşləri zamanı istehkam, körpü və keçidlərin möhkəmləndirilməsinə rəhbərlik edib. İstambulda Süleymaniyə və Ədirnədə Səlimiyə məsçidlərinin layihələrinin müəllifdir.



Surb-Nikoqayyos erməni kilsəsi[26] 1817-ci ildə erməni icmasının vəsaitinə tikilib. Krım müharibəsi illərində kilsədə fransız qarnizonu yerləşib. Bəzi əsgərlər özlərinin budara olduqlarını əbədiləşdirmək məqsədilə məbədin fasadında süngü ilə öz adlarını yazıblar. Bu yazıları indi də görmək olur. Yazıların ili (1855-ci il) və bir neçə ad (Şarl, Rişar, Filip) aydın oxunur.

Yegiya-Kapay Sinaqoqu (yəhudi məbədi)[27] həmçinin Sənətkarlar Sinaqoqu kimi də tanınır, çünki o, 1912-ci ildə ətraf məhəllələrdə yaşayan sənətkarların vəsaiti ilə inşa edilib. Bina bazilika [28] fomasında tiklib. Layihənin müəllifi şəhər memarı A.Henrixdir. Əsas qərb tərəfnin daş hörüyü, qalın və nazik sıraların bir-birini əvəzləməsi Qüds məbədinin divar hörüyünə oxşayır. İndi məbəd proqressiv iudaizm dini icmasına məxsusdur.





Müqəddəs Nikolay pravoslav baş kilsəsi[29] 1893–1899-cu illərdə A.O.Bernardassinin [30] layihəsi üzrə bizans üslubunda inşa edilib. Müqəddəs Nikolay baş kilsəsinin yerində tikilmiş birinci məbəd hələ XVIII-ci əsrdə yunanlar tərəfndən inşa edilib və dənizçi və ticarətçilərin himayəçisi Ecazkar Nikolayın şərəfnə müqəddəs sayılıb.

[26] Yaroslav Koçerqinin fotosu. Müəllifn icazəsi ilə çap edilir. Giriş rejimi: https://www.fickr.com/photos/kochergin/9418656504/.

[27] Foto: http://www.kalamit.info/uploads/images-news/2012/09/20-sinagoga–1.jpg

[28] Bazilika daxilində kolonlar və ya sütunlarla üstü ayrı-ayrılıqda ötrülən bir neçə yerə (nefərə) bölünən uzadılmış düzbucaqlı binadır. Ortada yerləşən əsas nef bütün yan nefərdən həmişə hündür olur, buna görə də onun pəncərəli divarlarının yuxarı hissələri yan nefərin damlarından hündür olur.

[29] A.Veliçkonun fotosu. Müəllifn icazəsi ilə çap edilir. Giriş rejimi: https://www.fickr.com/photos/91428320@N04/13951754248

[30] Aleksandr Osipoviç (İosifoviç) Bernardassi (1831–1907) İsveçrə əsilli Rusiya memarıdır. Odessa şəhərinin baş memarı kimi həm Odessada, həm də Kişinyovda bir çox inzibati binalar inşa edib.



Müqəddəs İliya Peyğəmbərin kilsəsi Yevpatoriyanın yunan icması tərəfindən 1911-ci ildə prixoda mənsub olan insanların vəsaitinə yunan-bizans üslubunda tikilib. İnqilabdan sonra kilsə hələ uzun müddət fəaliyyət göstərib, çünki ona mənsub olan insanlar Yunanıstan vətəndaşları idi. Lakin 1936-cı ildə kilsə bağlanıb, onun zənq gülləsi sökülüb və 50-ci illərin sonlarında burada idman zalı təşkil olunub. Bu gün zənq gülləsi və məbəd təmamilə bərpa edilib.



Böyük və kiçik kenaslar kəraimlərin[31] ibadət evləridir. Kenas kompleksinin inşası Baboviç qardaşlarının[32] layihəsilə Yevpatoriyada yerləşən ilk kəraim məbədinin yerində 1803-cü ildə başlanıb. Ansamblın memarlıq görünüşü isə XIX-cu yüzilliyin birinci yarısında formalaşıb. Dəfələrlə yenidən tikilən kompleks bu günə gədər dəyişilmiş, lakin öz əzəmətini itirməmiş şəkildə gəlib çıxıb. Kiçik kenas gündəlik, Böyük isə bayram ibadətləri üçün nəzərdə tutulub. Çuqun ala qapılar və şəbəkəli çəpərlər daxili həyətə aparır. Həyətdə, yaşlı insanların dediklərinə görə, yaşı 200 ildən artıq olan üzüm ağacları var. Sovet dövründə kenasların binasında diyarşünaslıq muzeyinin ekspozisiyası yerləşirdi.



Dərvişlərin təkiyəsi[33] — XV–XVII-ci əsrlərdə yoxsulluq içində yaşayan dilənçi rahiblərin müsəlman monastırıdır. 300 il fəaliyyət göstərdikdən sonra təkiyə 1924-cü ildə bağlanıb. Son zamanlaradək Qara dəniz donanmasının anbarı kimi istefadə edilib. Təkiyə və mədrəsənin binaları dağılmayıb, lakin XVII-ci əsrin məsçidindən yalnız divarlar və

[31] Kəraimlər Krımın türkdilli yerli sakinləridir. Onlar iudaizmin qolu olan kəraimizmi qəbul ediblər.

[32] Babakay Solomonoviç Baboviç yevpatoriyalı tacirdir. 1834–1837-ci illərdə o, Yevpatoriya şəhərinin başçısı olub. Böyük qardaşı Sima Baboviçin ölümündən sonra Babakay Baboviç qaxam (kəraimlərin dini başçısı) vəzifəsində çalışıb. Baboviç qardaşları öz xeyriyyəçilik fəaliyyətlərilə məşhurdurlar. Öz vəsaitləri hesabına onlar kəraim İsaak ben Şelomonun əsərlərini, həmçinin 1365-ci ildə yəhudi riyaziyyatçısı və astronomu İmmanuel ben Yakov Bonfs tərəfndən yazılmış "Şeş Knafaim" ("Altı qanadlı") adlı əsəri (bu əsər Ay və Günəş hərəkətinin riyazi təriﬁnə aid təlimatdır) nəşr etdiriblər.

[33] Foto Eugenmakh. Giriş rejimi: https://commons.wikimedia.org/wiki/File:0338-Tekie_Dervish.jpg?uselang=ru.

şərq divarının yanında qismən dağılan minarə qalıb. 2000-ci ildə monastır kompleksi yenidən dini icmaya verilib, sonra isə mədrəsənin binasında Krım-tatar etnoqrafiya muzeyi açılıb[34].

11. [illegible]

12. [illegible]

13. [illegible]

Mənbə 17 Mirqorodda David Quramişvilinin muzeyi (Ukrayna)

David Quramişvilinin ədəbi-memorial muzeyi XVIII-ci əsrin görkəmli gürcü şairinin həyat və yaradıcılığından bəhs edir. Gürcü ədəbiyyatının klassiki ömrünün son 32 ilini Mirqorodda yaşayıb. O, öz dövrünün Gürcüstanı, Ukraynası və, əlbəttə ki, Mirqorodşinası haqqında yazıb. Ukraynada Quramişvili özünün tanınmış əsərlərini yaradıb. Bu əsərlərin əksəriyyətində gürcü və Ukrayna mənzərələri birləşib, Ukrayna və rus mahnılarının motivləri üzrə yazılan şeirlər bir-birini əvəzləyib. Onun şeirləri rus və Ukrayna dillərinə geniş tərcümə edilib. Quramişvili 1792-ci ildə vəfat edib və Mirqorodun Voznesensk kilsəsində dəfn edilib. Muzeydə şairin əsərlərinin nəşrləri və onun haqqında kitablar, keçən yüzilliklərdə Gürcüstan və Ukraynada istifadə olunan xalq məişət əşyaları, XVIII-ci əsrin silah nümunələri, təsvirli və dekorativ-tətbiqi incəsənət əsərləri, yerli sənətkarların əl işləri, gürcü suvenirləri və s. nümayiş edilir[35].

Mənbə 18 Mirqorodda yerləşən David Quramişvilinin ədəbi-memorial muzeyinin yanında onun heykəli. Müəllifər — A.Nimenko, M.Obezyuk, memarı — V.Jiqulin. 1969-cu ildə ucaldılıb[35]



[34] "Yevpatoriyanın müqəddəs yerləri" (http://berta.crimea.ua/svatyni.html) və "Xəzinələr yarımadası" (http://poluostrov-krym.com/) adlı elektron resursların materialları üzrə.

[35] [Elektron resurs]. Giriş rejimi: http://galleryua.com/photo/dostoprimechatelnosti/1002131-Muzej-Guramishvili.

[36] Elektron resurs. Giriş rejimi: https://ru.wikipedia.org/wiki/%CC%E8%F0%E3%EE%F0%EE%E4#mediaviewer/File:Guramishvili_Myrhorod.JPG

Mənbə 19 David Quramişvilin 300-illiyinə həsr edilən Ukraynanın yubiley sikkəsi.
Müəllif ər: eskizlər — V.Taran, A.Xaruk; modellər — V.Atamançuk[37]

Mənbə 20 Kiyevdə Azərbaycan şairi Səməd Vurğun adına kitabxananın yanında şairin heykəli.
Müəllif — Azərbaycan heykəltəraşı Seyfəddin Qurbanov.
2006-cı ildə ucaldılıb.
O.Kovalevskayanın fotosu

Mənbə 21 Kiyevdə yerləşən Səməd Vurğun adına kitabxana

1974-cü ildə Kiyevdə açılan kitabxana tanınmış Azərbaycan şairi Səməd Vurğunun adını əbədiləşdirib. Şairin çoxsaylı əsərləri, ittifaq respublikalarının yazıçıları haqqında yazdığı ədəbi-tənqidi məqalələri və fikirləri arasında Ukraynaya, onun xalqına, qəhrəman oğullarına, ədəbiyyatına, poeziyasına həsr edilmiş misralar xüsusi yer tutur. Uzun illərdir ki, kitabxana Azərbaycan Respublikasının Ukraynadakı səfirliyi və Ukrayna azərbaycanlılarının Konqresi ilə səmərəli əməkdaşlıq edir. Səməd Vurğunun 100-illiyi ilə əlaqədar kitabxananın yanında şairin heykəli ucaldılıb. Kitabxana Kiyev şəhərində, ümumiyyətlə, Ukraynada yaşayan bir çox azərbaycanlını birləşdirib, çünki məhz burada ana dilində kitab tapmaq olar, burada Ukrayna ədəbiyyatı və mədəniyyəti nümayəndələrilə, həmyerlilərlə görüşlər keçirilir. Kitabxananın kollektivi Azərbaycanın milli bayramlarını keçirməyə köməklik göstərir. Kitabxananın kitab fondu Ukrayna, rus, Azərbaycan dillərində yazılan 40 mindən artıq kitabdan ibarətdir. Səməd Vurğunun əsərləri unikal dəyərə malikdirlər[38].

[37] Elektron resurs. Top World Coins. Giriş rejimi: http://cis-coins.com/coins-catalog/ukraine/5563-ukraine-2005-2-hryvnias-%23300-years-to-david-guramishvili%23-sunc-coin.

[38] Səməd Vurğun adına kitabxananın müdiri Qalina Kislayanın materiallarına əsasən. Giriş rejimi:: http://ocls.kyivlibs.org.ua/vurgun/_ru-golovna_.

Mənbə 22 Sergey Paracanov erasının başlanması

1964-cü ildə “Unudulmuş əcdadların kölgələri”[39]. flmi çıxdı. Bu, yalnız şah əsər deyildi. Bu, incəsənətdə yeni Sergey Paracanov erasının başlanğıcı idi.

Təsəvvürümüzə də gətirə bilmərik ki, necə əsl soyadı Paracanyan olan erməni qutsul mədəniyyətini heç bir ukraynalı rejissorun edə bilmədiyi dərəcədə tərənnüm edə bilib[40].

Mənbə 23 KİV-lərdə dərc olunan məqalədən, 2013-cü ilin iyulu

Odessa kino festivalında “Paracanov” flminin ümumukrayna premyerası keçirildi. Filmin ən parlaq epizodu “Unudulmuş əcdadların kölgələri” flminin çəkilişləri haqqında epizod idi: rejissorun çəkiliş meydançasında aktyorlarla işləməyi, flmin premyerası, Paracanovu alqışlamaq üçün ayağa qalxan zal.

Lakin bu flmə[41] görə rejissoru millətçilikdə günahlandırdılar. Paracanov ekrandan deyir: “Mən Ukrayna millətçisi necə ola bilərəm?… Mən dissident yox, rəssamam. Mən flmlərə qarşı sevgi xəstəliyinə tutulmuşam, sevgi dolu flmlər yaratmaq istəyirəm”[42].

14. [illegible]

15. [illegible]

16. [illegible]

17. [illegible]

Mənbə 24 Bakı qəzetində reklam elanı

Въ воскресенье, 2 августа 1898 года,
въ театрѣ-циркѣ В. И. Васильева-Витекаго,
фотографъ А. М. Мишонъ, снимающій коллекцію оживленныхъ фотографій средней Азіи и Кавказа для предстоящей Всемірной выставки въ Парижѣ, будетъ демонстрировать ТОЛЬКО ОДИНЪ РАЗЪ усовершенствованный

„КИНЕМАТОГРАФЪ“

Бр. ЛЮМІЭРЪ.
построенный инженеромъ І. Carpentier.

Между прочими картинами будутъ показаны: 1) Пожаръ нефтянаго фонтана на Биби-Эйбатѣ. 2) Проходы Его Высочества Эмира Бухарскаго на пароходѣ „Вел. кн. Алексѣй“. 3) Кавказская пляска. 4) «Понялся» юмористическій случай въ банкирскомъ городскомъ саду.

Подробности въ афишахъ. Нач. въ 9 час. вечера.

Elanın mətni:

“Bazar günü, 1898-ci ilin avqustun 2-də V.İ.Vasilyev-Vyatskinin teatr-sirkində qarşıdakı Parisdə keçiriləcək Ümumdünya sərgisi üçün Orta Asiya və Qafqazın “Canlanmış fotoşəkilləri” adlı kolleksiya hazırlayan fotoqraf A.M.Mişon mühəndis İ.Karpentiyer tərəfndən qurulan və cəmi bir dəfə təkmilləşdirilən Lümyer qardaşlarının “Kinematoqrafını” nümayiş etdirəcək. Digər əsərlərlə bərabər aşağıdakılar da nümayiş etdiriləcək: 1) Bibiheybətdə neft fontanında yanğın.

[39] Film 2 il ərzində 21 ölkədə keçirilən beynəlxalq festivallarda 30 mükafat alıb.

[40] “Unudulmuş dahinin kölgələri” məqaləsindən. Elektron resurs — My Julia.ru. Giriş rejimi: http://www.myjulia.ru/article/354836/

[41] “Unudulmuş əcdadların kölgələri” flminə görə.

[42] Пензова С. От фильма «Параджанов» у зрителей шли мурашки по коже. Интернет-портал радио «Вести» — Режим доступа: http://vesti.ua/kultura/9780-v-flme-paradzhanov-pokazan-takim-kakim-ego-znali-blizkie-ljudi.

2) Zati-aliləri Buxara əmirinin“Böyük knyaz Aleksey” gəmisi ilə yola salınması mərasimi. 3) Qafqaz rəqsi. 4) Bakı şəhər bağında məzəli hadisə baş verdi. Daha ətraflı afşalarda. Başlayır — axşam saat 9-da”[43].

◆ Tarixi məlumat

Aleksandr Mixayloviç Mişon (1858–1921) Ukraynada doğulan fotoqraf, kinematoqrafçı, jurnalistdir. 1884–1908-ci illərdə Bakıda yaşayıb və işləyib, burada fotoatelye yaradıb. Bakı fotoqraf dərnəyinin banisidir, Paris Milli Akademiyasının fotoqraf-üzvüdür. 1898-ci ildə Aleksandr Mişon yerli həyatı əks etdirən bir neçə sənədli süjet lentə alıb. Bu süjetlər həmin ilin avqustun 2-də xüsusilə təşkil edilən kinoseans zamanı tamaşaçılara nümayiş etdirilib. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 dekabr tarixli fərmanına əsasən, həmin gün milli kinematoqrafyanın yaranma günü sayılır və hər il “Milli kino günü” kimi qeyd edilir.

18. S

Mənbə 25 Struve qövsü YUNESKO-nun ümumdünya irs obyektidir

“Struve qövsü”[44] Norveçdəki Hammerfestdən Qara dənizədək on Avropa ölkəsinin ümumilikdə 2820 km ərazisini əhatə edən trianqulyasiya məntəqələrindən[45] ibarət silsilədir. Bu, dayaq müşahidə nöqtələri 1816–1855-ci illərdə astronom Fridrix Qeorq Vilhelm Struve (və yaxud Vasili Yakovleviç Struve) tərəfndən qoyulub. Beləliklə, Struve Yer meridianı qövsünün böyük seqmentini ilk dəfə olaraq düzgün ölçərək planetimizin ölçü və formasını dəqiq müəyyən etməyə imkan yaradıb ki, bu da Yer haqqında elmlər və topoqrafk xəritəçəkmə sahəsində mühüm addım olub. Bu hadisə müxtəlif ölkələrin alimləri və hakimiyyətdə olan hökmdarlar arasında elm sahəsində əməkdaşlığın görünməmiş nümunəsidir. Əvvəl “qövs” tərkibində 265 əsas trianqulyasiya məntəqəsi olan 258 geodeziya “üçbucağından” (poliqonlardan) ibarət idi. Ümumdünya irs siyahısına belə məntəqələrdən 34-ü daxil edilib (bu günə gədər ən yaxşı qorunub saxlanılan). Bu məntəqələr yerlərdə müxtəlif şəkildə nişanlanıb: qayalarda oyulan çuxurlar, dəmir xaçlar, daşlardan düzəldilmiş piramidalar və ya xüsusilə qoyulan obelisklər[46].

Yekun müzakirə

Üuiə əii s əüx ?

[43] “Kaspi” qəzeti, 2 avqust 1898-ci il.

[44] V.Y.Struve alman əsilli Rusiya astronomu və geodeziyaçısıdır.

[45] Trianqulyasiya (latın sözü triangulatio — üçbucaqlar ilə örtülmə) geodeziyada — dayaq geodeziya məntəqələri şəbəkəsinin yaradılması metodlarından biri və şəbəkənin özü. Mühəndis-geodeziya işlərində trianqulyasiya şəbəkələri topoqrafk çəkilişlərin əsasını təşkil edir.

[46] Elektron resurs: UNESCO World heritage Centre — http://whc.unesco.org/. — Giriş rejimi: http://whc.unesco.org/en/list/1187/gallery/.

Milli irsin dünya mədəniyyətində yeri
(rm ə i xalq ı ı a

Milli mədəniyyət dünya mədəni irsini necə zənginləşdirir?

1. F o
S

Mənbə 1[1]

Blok 1. Milli mədəniyyət və identiklik

2. l A
Ə i s

3. l A
öl ə s i o h s ”, c
c ə iz

[1] Şarl Aznavur, 2010-cu il. Kristina Çeçetonun fotosu (Christina Checchetto). Giriş rejimi: http://bit.ly/1DfAxXM.

4. S
i s s ə s ?. Cv z ı ə

5. M i ə ə iy y ə
ı ə l ə)?

6. , v ə s y ı ə l ə i ə i ə ?

7. S
s i f ə s ə i
i. X

Mənbə 2 Şarl Aznavur ilə müsahibədən

X o ş b ə xtl i i

— Heç vaxt başqasının cibinə göz tikməmişəm. Həmçinin xoşbəxtlik möhkəm, üzvləri bir-birinə bağlı olan ailədən ibarətdir. Bu, çox vacib məsələdir — möhkəm, deyərdim ki, erməni ailəsinə sahib olmaq. Düzdür, həyat yoldaşım isveçlidir, lakin ailə erməni ailəsidir.

Ö z ü ü z ü

— Xeyr, mən Ermənistanda yaşaya bilmərəm. Bu, mənim ölkəm deyil. Mən orada yaşamamışam, təhsil almamışam. Bunu təsəvvür edə bilmərəm. Birdə ki, dil… mən ermənicə (rus dilində deyir) pis danışıram.

A

— Bilmirəm, içimdən gəlir… Yəqin ki, ailəmə görə. Axı mahiyyətcə mən fransızam. Məndə erməni cəhətlərindən hansıları qalıb? Dilim erməni dili deyil, sənətim erməni sənəti deyil, təhsilim fransız təhsilidir. Lakin ailəm erməni ailəsidir. Biz erməni doğulmuşuq və ömrümüzün sonunadək erməni olacağıq.

B s S i z i

— Yalnız doğulmaq yox, nəsə yenə var, yəqin ki… Din. Bəli, din, iman. Mən çox dindar insan deyiləm. Lakin dinimizin, kilsəmizin zəruri və faydalı olduğundan əminəm. Əvvəllər də, indi də o, bizi birləşdirərək, yaşamağa kömək edir.

Bg ü A

ö z ü ü k ü s ü ü z

— Bəli, fransızam, amma eyni zamanda da fransızlar üçün mən ermənіyəm[2].

Mənbə 3 Alim milli mədəniyyət haqqında

Hər bir milli mədəniyyətin əsasında millətin özünüdərk dərəcəsini simvolik olaraq əks etdirən tarix boyu yaratdığı həyat oriyentirləri, dünya duyumu tipi durur. Mədəniyyət millətin birliyi üçün lazım olan mənəvi bağlılığı təmin edir və bununla da xalqın tarixi yaddaşını canlandırır[3].

[2] Шарль Азнавур. Армения — это не моя страна. — [Elektron resurs]. Армения и мир: http://armandmir.ru . — Giriş rejimi: http://armandmir.ru/?page_id=848.

[3] Римма Мирумян. Армянское культурное наследие как механизм самозащиты нации в условиях глобализации. [Elektron resurs]. «Наша Среда»: http://www.nashasreda.ru; — Giriş rejimi: http://nashasreda.ru/armyanskoe-kulturnoe-nasledie-kak-mexanizm-samozashhity-nacii-v-usloviyax-globalizacii/.

Mənbə 4 Tədqiqatçı insanın mənsub olduğu xalqın tarixi və mədəniyyətini bilməyinin zəruriliyi haqqında

Məhz öz xalqının tarixi və mədəniyyətini bilmək insana etnik, milli və öz, şəxsi identikliyini qorumağa imkan verir. Tarixi yaddaşı olmayan xalq yeni ətrafa, dövrə, epoxaya uyğunlaşmaq qabiliyyətini itirir, buna görə də məhv olmağa məhkumdur[4].

Blok 2. Erməni milli irsinin müxtəlifiyinin nümunələri

8. s y ə l ə i q u p l ü z i ə . B f o
ə l ə i ö ə l ə i q y . z o l s , ə v ə

Mənbə 5 Eçmiadzin baş kafedral kilsəsi[5]

[4] Гаюк И. Иллюстрированная энциклопедия армянской культуры в Украине. — Львов: Издательство Афиша, 2012. — Т. 1. — С. 206.

[5] [Elektron resurs] https://upload.wikimedia.org/wikipedia/ru. — Giriş rejimi: https://upload.wikimedia.org/wikipedia/commons/9/99/Etchmiadzin_cathedral.jpg.

Mənbə 6 Erməni xalçaları[6]

Mənbə 7 Erməni müsiqi aləti duduk[7]

Mənbə 8 Qzıl kasa (e.ə. II-ci minillik)[8]

[6] Armenian rugs at Vernissage market in Yerevan. [Elektron resurs]. — Giriş rejimi: http://commons.wikimedia.org/wiki/File:Armenian_rugs_at_Vernissage_Yerevan.jpg.

[7] Duduk made of apricot wood purchased in Yerevan, Armenia 1999. [Elektron resurs] http://commons.wikimedia.org/wiki. — Giriş rejimi: http://commons.wikimedia.org/wiki/File:Duduk.png.

[8] Золотая чаша. — [Elektron resurs] https://upload.wikimedia.org/wikipedia/ru. — Giriş rejimi: https://upload.wikimedia.org/wikipedia/ru/8/8c/Golden_Bowl_Vanadzor_Armenia.jpg.

Mənbə 9 Xaçkar — xaç təsvirli naxışlı daş stelası[9]

Mənbə 10 XIII–XIV-cü əsrlərin erməni əlyazması[10]

Mənbə 11 Erməni əlifbası və onun yaradıcısı olan Mesrop Maştotsa həsr edilən abidə[11]

[9] Bir daşın tarixi. — [Elektron resurs]. — www.budennovsk.org. — Giriş rejimi: www.budennovsk.org/?p=40426.

[10] Erməni əlyazması, Qladzor, XIII–XIV-cü əsrlər. "Qladzor universiteti" tarix-mədəniyyət qoruq-muzeyi. [Elektron resurs] https://ru.wikipedia.org/wiki. — Giriş rejimi: https://ru.wikipedia.org/wiki/%D0%9A%D0%BD%D0%B8%D0%B3%D0%B0#/media/File:Gladzor_University,_13–14th_century,_village_Vernashen,_Vayots_Dzor,_Armenia,_10.jpg.

[11] [Elektron resurs]. — Giriş rejimi: http://upload.wikimedia.org/wikipedia/commons/3/37/Armenian_alphabet_001.jpg.

Mənbə 12 Erməni keramikası[12]



Mənbə 13 Loqin Sotnikin mizrağı[13]



Mənbə 14 Qədim əlyazmalar institutu — Matenadaran, Yerevan şəhəri[14]

[12] [Elektron resurs] Msheci-www. msheci.wordpress.com. — Giriş rejimi: https://msheci. fles.wordpress.com/2011/11/1-41.jpg.

[13] [Elektron resurs] www. cyrillitsa.ru. — Giriş rejimi: http://cyrillitsa.ru/posts/950–10-faktov-o-longine-sotnike.html.

[14] [Elektron resurs] https://upload.wikimedia.org/wikipedia/ru. — Giriş rejimi: https://upload.wikimedia.org/wikipedia/commons/f/f0/2014_Erywa%C5%84%2C_Matenadaran_%2818%29.jpg.

Mənbə 18 Rusiyanın poçt markası — "Bəstəkar A.İ.Xaçaturyanın anadan olmasının 100-illiyi"[18]

Mənbə 19 İ.K.Ayvazovski. Doqquzuncu dalğa. 1850-ci il[19]



Mənbə 20 Erməni Apostol kilsəsinin dəyərləri haqqında

Erməni Apostol kilsəsi ən qədim xristian kilsələrindən biridir. Onun ehkam və ayinlərində onu Bizans pravoslavlığı və Roma katolisizmindən fərqləndirən bir sıra xüsusiyyətlər var. 301-ci ildə Ermənistan xristianlığı dövlət dini kimi qəbul etmiş ilk ölkə oldu. Erməni Apostol kilsəsinin nəzəriyyəsinin əsasında hər bir cəmiyyətdə şəxsiyyətin davranışına aid olan ümumi tələblərin bir qisminə, əxlaqın sadə normalarına rast gəlmək olar ki, bunlar xristianlığının dəyərlərinin vahid sisteminə daxildir. Məsələn, belə elementar dəyərləri qeyd etmək olar: çalışqanlıq, müdriklik, ailə,

[18] [Elektron resurs] Wikimedia Commons — http://commons.wikimedia.org/wiki. — Giriş rejimi: http://commons.wikimedia.org/wiki/File:StampRussia845.jpg.

[19] [Elektron resurs] Wikimedia Commons. — Giriş rejimi: http://commons.wikimedia.org/wiki/File: Hovhannes_Aivazovsky_-_The_Ninth_Wave_-_Google_Art_Project.jpg.

başqalarının şəxsiyyətinə hörmət, vətənə sevgi, səhhət, dürüstlük, məsuliyyət, qanuna tabe olmaq, başqalarının fikirləri və hisslərinə dözümlülük, başqalarının səhvlərini və yanlış fikirlərini bağışlamaq bacarığı və s.[20].

Mənbə 21 Ermənilərin qonaqpərvərliyi haqqında

Ənənəvi məişətdə ermənilər mütləq şəkildə Qafqazda geniş yayılmış qonaqpərvərlik adətlərinə riayət edirdilər. Xalq arasında bir məsəl vardı: "Qonaq Allahdandır". Buna görə də evin qapısını döyən hər bir səyyah üçün yer və yemək ayrılırdı. Uzaqdan gəlmiş qonaqlara qarşı xüsusi ehtiramla yanaşırdılar. Etiket qaydalarına görə, bu cür qonaq bütün ailənin diqqət mərkəzində idi və tək qalmırdı[21].

Mənbə 22 Erməni ailəsində tarixi ənənələr haqqında

Ailə başçısına qarşı müəyyən etiket normaları qəbul edilmişdi: o, içəri daxil olduqda hamı ayağa qarxırdı, onun göstərişlərinə ayaq üstündə qulaq asırdılar, onun yanında ucadan danışmaq və siqaret çəkmək olmazdı; (o) masaya birinci əyləşirdi və ocağın yanındakı mərkəz yeri tuturdu, birinci yatmağa gedirdi… Yalnız ailədə böyük nüfuza malik evin ən yaşlı qadını — evin sahibi və ya ağası istisna təşkil edirdi. Adətən bu, ailənin başçısının həyat yoldaşı idi, lakin əgər o, ərindən daha tez vəfat edirdisə, onun hüquqları yaşca böyük olan növbəti kişinin (böyük qardaş və ya oğulun) xanımına keçirdi[22].

Mənbə 23 Ermənilərin sənət növlərinin inkişafında rolu haqqında tarixçinin fikri

Bir çox tədqiqatçılar metalın emalı ilə bağlı sənətlərin inkişafında ermənilərin mühüm rol oynadıqlarını qeyd edirlər. Belə ki, ingilis arxeoloqu Q.Çayld sübut edir ki, ermənilərin əcdadları dünyada ilk dəfə metalları emal edən insanlardan biri olublar… Qiymətli metallar üzrə də bu belədir. Ukraynanın muzey kolleksiyalarında erməni zərgərləri, qızıl və gümüş ustalarının əl işlərinin nümunələri saxlanılır. Xalqın individuallığını özündə daha dolğun əks etdirən qədim zərgərlik sənətinin nümunələri xüsusilə qiymətlidirlər, çünki onlar daha çox müxtəlif fiyi ilə seçilən xalq adət-ənənələrilə bağlıdırlar[23].

[20] Павел Акопян. Армянская апостольская церковь сегодня: проблема сохранения традиционной системы христианских ценностей. [Elektron resurs]. — Giriş rejimi: http://nashasreda.ru/armyanskaya-apostolskaya-cerkov-segodnya-problema-soxraneniya-tradicionnoj-sistemy-xristianskix-cennostej/.

[21] Традиции армян: Семья. Исторический очерк. — [Elektron resurs]. — Giriş rejimi: http://www.hayadat.ru/old/adat/view_armmir.php?id=7.

[22] Elə orada.

[23] Гаюк И. Иллюстрированная энциклопедия Армянской культуры в Украине. — Львов: Издательство Афиша, 2012. — Т. 1. — С.247.

Mənbə 24 Ukraynada yaşayan erməni sənətkarları haqqında

Erməni sənətkarları məhsullarının yüksək key f yyəti və bədii dəyəri ilə məşhur olublar. Onlar bir çox sənətlərdə ön sıraları tutublar. 1791-ci ildə Qalisiya[24], ermənilərinin qədim nəslinin nümayəndəsi Pavel Nikoroviç Qalisiyada keramika istehsalının mərkəzi sayılan Qlinskdə (Lvov vilayətinin Jovka şəhərinin yaxınlığında) məşhur saxsı[25]

Mənbə 27 Rus jurnalı Ayvazovski haqqında

Ayvazovskinin əsərləri Peterburq tamaşaçılarını heyran edir, onlar son dərəcə ehtiramlı və gözəl bir hadisəyə çevriliblər. Onun təxəyyülünün gücdən düşdüyü, rəssamın təkrarlandığı haqqında ifadələr əmələ gələndə onun poetik fırçası doğrudan da təkrarlanırdı, amma necə! O, elə həmin dalğaları təsvir edib — bu, doğrudur, lakin əvvəl yaradılan əsərlərdən nə qədər üstün olan əsərlər yaradıb… Ayvazovski artıq geriyə dönə bilmədiyi yolda böyük bir addım atdı. Mənzərəçidən tarixi rəssama çevrildi və bununla sübut etdi ki, onun istedadı püxtələşdi, o təkrar edən insanlardan deyil[29]…

Mənbə 28 Din biografia lui Ruben Mamulian

Ruben Zaxaryeviç Mamulyan (ingilis dilində Rouben Mamoulian, 8 oktyabr 1897, Tifis — 4 dekabr 1987, Los-Anceles) Amerika kino və teatr rejissorudur. Üzərində onun adı həkk olunmuş ulduz Hollivudun şöhrət alleyasında qurulub. Tifisdə erməni ailəsində anadan olub. 1920-ci illərin sonlarından Hollivudda işləməyə başlayıb. Mamulyanın filmlərində Marlen Ditrix, Qreta Qarbo, Moris Şevalye kimi ulduzlar çəkilib. 1935-ci ildə o, "Bekki Şarp" adlı uğurlu tammetrajlı rəngli filmlərdən birini ekranlaşdırıb[30].

Blok 3. Ermənistanın abidə və mədəni elementləri YUNESKO-nun ümumdünya irsi siyahılarında

9. A

10. M ə ə üx
v c (x s y ə ə)?

11. Ə s
s iy x i v ə Üü y i s i s
iz ə ə (ə v ə x)?

12. B ə ə ə ə ə y ə
ə ə i s iüçü y ə ə ə y ə

Mənbə 29 Alim erməni milli mədəniyyətinin spesifikası haqqında

Əvvəlcədən erməni milli mədəniyyətinə özünəməxsus sinkretizm[31], məxsus olub: o, iki mədəni aləmin (Qərb və Şərq) əsaslarını özündə birləşdirib. XIX-cu əsrin erməni mütəfəkkirləri tərəfindən irəli sürülən bu ideyanı onlar millətin mədəni İntibahı kon-

[29] Искусство Ивана Айвазовского //Отечественные записки. — 1864. — Т. 157. — С. 899. Цит. по: [Elektron resurs] http://commons.wikimedia.org/wiki/File:Otechestvennye_zapiski.jpg?uselang=ru.

[30] Рубен Мамулян. [Elektron resurs] http://aboutarmenia.ru. — Giriş rejimi: aboutarmenia.ru/рубен-мамулян/.

[31] Sinkretizm müxtəlif, hətta bir-birinə zidd baxışların birləşməsi və ya birliyidir.

sepriyasının əsası kimi müəyyən ediblər. Növbəti XX-ci əsrdə bu fikir V.Bryusovun[32] tədqiqatında öz əksini tapıb: "İki qüvvə, iki bir-birinə zidd özül qovuşaraq, birləşərək və bir yeni, vahid hadisəyə çevrilərək Ermənistanın həyatını müəyyən edib və minilliklər boyunca onun xalqının xarakterini yaradıb: Qərb əsasları və Şərq əsasları, Avropa ruhu və Asiya ruhu. İki aləmin kəsiyində yerləşən, həmişə xalqarın toqquşma arenası olan, hadisələrin gedişatı ilə böyük tarixi çevrilişlərə cəlb edilən Ermənistan taleyinin hökmü ilə iki müxtəlif mədəniyyətin barışdırıcısı olmalı idi[33].

Mənbə 30 Dünya mədəniyyətinin səciyyəvi xüsusiyyətləri

Bəşəriyyətin yaşadığı mədəniyyət aləmi mürəkkəb və çoxşahəlidir, buna görə də dünya mədəniyyətini bütün xalqların mədəniyyətlərinin bərabər hüquqlu şəkildə birgə yaşamağı kimi dərk etmək lazımdır. Mədəniyyətlərin birgə yaşaması müxtəlif milli mədəniyyətlərin bir-birini zənginləşdirməsi, hər hansı bir milli mədəniyyət tərəfindən liderliyə can atmasının yolverilməzliyi, ümumbəşəri mədəniyyətin onun ayrı-ayrı növlərindən üstün olmasının qəbul edilməsi üzərində qurulub, çünki o, onları bir vahid bütövlüyə birləşdirir və ziddiyyətlərlə dolu dünyada qarşılıqlı anlayışa təkan verir[34].

Mənbə 31 YUNESKO-nun mədəni müxtəliflik haqqında ümumi deklasiyasından (2001-ci il)

Maddə 1. Mədəni müxtəlifik bəşəriyyətin ümumi nailiyyəti kimi

Mədəniyyətin formaları zaman və məkanda dəyişirlər. Bu mədəni müxtəlifik bəşəriyyətin tərkibinə daxil olan bütün qrup və cəmiyyətlərə xas olan xüsusiyyətlərin təkrarolunmazlığı və müxtəlifiyində öz əksini tapır. Canlı təbiət üçün biomüxtəlifik lazım olduğu qədər bəşəriyyət üçün də mübadilə, novatorluq və yaradıcılığın mənbəsi olaraq mədəni müxtəlifik zəruridir. Bu baxımdan o, bəşəriyyətin ümumi nailiyyətidir. O, indiki və gələcək nəsillər üçün qəbul edilib möhkəmləndirilməlidir[35].

Mənbə 32 Mədəni və təbii irsin mühafizəsi haqqında Konvensiyanın qəbul edilməsinin məqsədi haqqında (1972-ci il)

Ümumdünya mədəni və təbii irsin mühafzəsi haqqında Konvensiya 1972-ci ildə YUNESKO-nun Baş Konfransında qəbul edilib. Onun əsasında belə bir fikir dururdu ki, Yer üzündə "mühüm universal dəyər"ə malik olan yerlər var. Onlar bəşəriyyətin ümumi irsinin bir hissəsi olmalıdır[36].

---

[32] Valeri Yakovleviç Bryusov rus şairi, nasiri, dramaturqu, tərcüməçisi və ədəbiyyatşünasıdır.

[33] Римма Мирумян. Армянское культурное наследие как механизм самозащиты нации в условиях глобализации. [Elektron resurs] «Наша Среда». — Giriş rejimi: http://nashasreda.ru/armyanskoe-kulturnoe-nasledie-kak-mexanizm-samozashhity-nacii-v-usloviyax-globalizacii/.

[34] История украинской культуры. Национальная культура — часть мировой культуры. [Elektron resurs] http://mobile.studbooks.net. — Giriş rejimi: http://mobile.studbooks.net/56994/kulturologiya/natsionalnaya_kultura_sostavlyayuschaya_mirovoy_kultury.

[35] Всеобщая декларация ЮНЕСКО о культурном разнообразии. Веб-сайт ЮНЕСКО. — Giriş rejimi: http://unesdoc.unesco.org/images/0012/001246/124687r.pdf#page=78&zoom=auto,–10,396.

[36] Məlumat xəbəri. Elə orada. Giriş rejimi: http://www.unesco.org/bpi/pdf/memobpi27_worldheritage_ru.pdf

Mənbə 33 Ermənistanın abidələri və mədəni elementləri YUNESKO-nun ümumdünya irsi siyahılarında[37]

YUNESKO-nun Ümumdünya irsi siyahısı:

- Haghpat və Sanahin Monastırları (1996, 2000);
- Eçmiadzin baş kafedral kilsəsi, kilsələr və Zvartnots arxeoloji abidə (2000);
- Gegard Monastırı və Azat çayının yuxarıları (2000).

YUNESKO-nun Ümumdünya irsi siyahısına 4 qrup oyekt namizəddir:

- Dvin şəhərinin qazıntıları və Dvin şəhəri;
- Yerəruyk bazilikası;
- Tatev və Tatevi Anapat monastırları bə onlara bitişik Vorotan çayının kanyonunun əraziləri;
- Noravank monastırı və Amaqu çayının kanyonunun vadisi.

YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş Ermənistanın mədəni elementləri:

- Duduk — musiqi aləti (2005);
- Erməni xaçkarları, onların simvolikası və yaradılma qaydaları (2010);
- Erməni eposu “David Sasunski” (2012);
- Erməni lavaşı: ənənəvi çörəyin hazırlanması, onun Ermənistanda əhəmiyyəti və mədəni ifadələri (2014).

YUNESKO-nun “Dünyanın yaddaşı”na daxil ediliblər:

- Qədim əlyazmalar institutu — Matenadaran (1997-ci il);
- Erməni astronomu Beniamin Markaryanın Byurakan Spektral icmalı (2011-ci il);
- Aram Xaçaturyanın əlyazma notları və kino musiqisi (2014).

Yekun müzakirə

M li ə ə iy y ə

[37] Adaptasiya olunub: http://www.unesco.org/eri/cp/factsheets/ARM_facts_f gures.pdf.

Zaqafqaziya müəllimlər seminariyası

Zaqafqaziya müəllimlər seminariyası niyə mədəni dialoqun simvolu sayılır?

Tarixi məlumat

XIX-cu əsrin əvvəllərində Zaqafqaziya Rusiya imperiyasının tərkibinə daxil oldu. Bu vaxtdan başlayaraq Qafqaz xalqları imperiyanın siyasi, iqtisadi və mədəni təsiri altında idilər. Rusiya dövləti bu xalqları və əraziləri öz iqtisadi, sosial və mədəni həyatına tezliklə daxil etməyi öz əsas vəzifəsi kimi görürdü. Rusiya imperiyasında sənayenin inkişafı və kapitalizmin bərqərar olması, Rusiyada XIX-cu əsrin ikinci yarısında çar II Aleksandrın dövründə aparılan islahatlardan sonra regionun sənaye cəhətdən öyrənilməsi proseslərilə bağlı Şimali Qazqazın müasirləşməsi, Rusiya bazarına qoşulma, işçi qüvvəsinin kütləvi miqrasiya — bütün bunlar mədəniyyətin bütün sahələrində böyük tərəqqiyə təkan verdi. Təhsil islahatları çərçivəsində iqtisadi inkişafın ehtiyaclarını təmin etmək üçün kadrların hazırlanması məqsədilə Rusiya imperiyasında əhalinin adi, kütləvi, bütün təbəqələrə şamil olunan maarifləndirilməsi həyata keçirilir və tədrisin müxtəlif formaları inkişaf etdirilirdi. Zaqafqaziya ərazisində də çoxlu sayda tədris müəssisələri açılırdı ki, onlar Qafqaz xalqlarının təhsil səviyyəsini artırmaq üçün zəruri biliklər verməli və, eyni zamanda, müsəlman xalqları arasında rus dilinin və xristian dininin yayılmasına təkan verməli idilər.

Xüsusi əhəmiyyət müəllim seminariyalarına verilirdi ki, onlar bu məktəblər üçün müəllimlər hazırlayırdılar, çünki lazımi tədris səviyyəsini təmin edən pedaqoqların sayı dəhşətli dərəcədə az idi. Gürcüstanın Qori şəhrində 1876-cı ildə Cənubi Qafqazda yerləşən məktəblərin ibtidai sinif müəllimlərini hazırlayan ilk müəllimlər seminariyası açıldı. 1878-ci ildə onun tərkibində erməni bölməsi, 1879-cu ildə isə rus və Azərbaycan (tatar) bölmələri açıldı. Fəaliyyət göstərdiyi müddətdə Zaqafqaziya müəllimlər seminariyası Gürcüstan, Azərbaycan, Ermənistan və Rusiyanın təhsil, mədəniyyət və incəsənət sahələrində çalışan bir çox xadimlər yetişdirdi.

Blok 1. Seminariyada kim təhsil alır və nələri öyrənirdi

1. [illegible]

2. [illegible]

3. [illegible]

Mənbə 1 “Əkinçi” qəzeti[1], 1876-cı il

[…] Qori şəhərində bir məktəbxana açılıb ki, orada oxuyan şagirdləri müəllim elə-sinlər. O məktəbxanada iyirmi nəfər erməni və gürcü padşahlıq xərcinə oxuyacaqlar. İndi „Kafkaz” adlı qəzet yazır ki, doğrudur, müsəlmanların məktəbxanaları üçün müəllimləri oxutmaqdan ötrü əlahiddə məktəbxana açılacaq, amma indi müsəlmanlardan hər kəs xa-hiş etsə, zikr olan Qoridə açılan məktəbxanaya öz uşaqlarını öz xərcinə qoya bilər. Oraya oxumağa girən hər kəs gərək uyezdni şkolada oxumuş ola və özü on altı-on doqquz yaşında ola. Orada üç il dərs deyiləcək[2].

Mənbə 2 Qafqaz canişini[3], böyük knyaz Mixail Nikolayeviç Romanovun Mirzə Fətəli Axundova və Mirzə Hüseyn Qayıbzadəyə verdiyi cavabdan

Siz ayrıca seminariya istəyirsiniz. Layihədə də göstərirsiniz ki, məktəb ya Tiflisdə, ya da azərbaycanlıların yaşadığı bir xristian şəhərində açılsın. Burası bir az çətinlik törədir. Bunun üçün yaşayış yeri, təhsil üçün bina, müxtəlif ləvazimatlar lazımdır… Zənnimcə, məktəbin gürcü və ermənilər kimi hələlik Qori şəhərində açılmasına etiraz etməzsiniz[4].

Mənbə 3 Seminariyanın təchizatı haqqında

Sərdarın müavininin əmri əsasında seminariyanın nəzdində təsis olunacaq Azərbaycan şöbəsini yerləşdirmək və onu lazımi əşyalarla təmin etmək üçün Tiflis Hökumət Palatasına təklif edilmişdir ki, Zemstvodan [5] yığılmış məbləğdən 4 min ma-nat qimnaziya rəhbərliyinin sərəncamına versin. Hökumət palatası azərbaycanlı gən-clərin maarifənməsi naminə qəlbən razı olub, bu işi özünə şərəf sanmışdır. Tatarlardan (Azərbaycan türklərindən[6]) kənd müəllimləri hazırlamaq məqsədilə Sərdarın baş idarə-sinin göstərişi əsasında 1879-cu il sentyabrın 1-də seminariyanın nəzdində yeni tə-sis edilmiş xüsusi tatar şöbəsini yerləşdirməkdən ötrü lazımi əşyaları almaqdan ötrü Zemstvo vergisindən pul buraxıldığını bildirməyi hökumət palatası özü üçün şərəf bilir[7].

[1] “Əkinçi” qəzeti Bakıda 1875–1877-ci illərdə nəşr edilən ilk Azərbaycan qəzetidir. Tarixdə ilk qəzetdir ki, yalnız Azərbaycan dilində nəşr edilib. Rusiya imperiyasında türk dilində çıxan ilk qəzetdir.

[2] Ученые записки (отдельное издание). Баку. Издательство АГУ, 1961, — С. 10.

[3] Canişin iri inzibati-ərazi vahidinə (burada — Qafqaz vilayəti) rəhdərlik edən vəzifəli şəxsdir.

[4] Карадаги (Хан Карадагский), Гасаналиага. И таким временам суждено было сбыться. Баку. Азербайджанская Национальная Академия Наук РИО, 2003. — С. 280.

[5] Zemstvo Rusiya imperiyasında yerli özünü idarəetmənin seçki orqanlarıdır.

[6] Azərbaycan türkləri — azərbaycanlılar.

[7] Шемистан Назирли. Поезд из Гори. Баку, 1998.

4. [illegible]

5. [illegible]

Mənbə 4 Azərbaycan şöbəsi necə açıldı

Seminariyada Azərbaycan şöbəsinin açılması çətinliklə də olsa, təsdiqlənəndən sonra Aleksey Osipoviç Çernyayevski[8] şöbənin inspektoru təyin olundu. Seminariyanın direktoru Dmitri Dmitriyeviç Semyonov[9] onu yanına çağıraraq ümidsizcəsinə deyir ki, şöbə açılsa da, ərizə verən çox azdı, belə getsə, şöbənin fəaliyyət göstərməsi sual altında qalacaq. Aleksey Osipoviç isə ümidini üzmür və şöbənin açılması üçün axtarışa çıxır.

O, İrəvanda, Naxçıvanda,Gəncədə, Şuşada, Şamaxıda, Qubada və Dərbənddə[10], olur, qapı-qapı gəzib uşaq toplayırdı. Valideynlərə təhsilin, maari f n nə demək olduğunu izah edib deyirdi ki, məqsədimiz Azərbaycan xalqının qaranlıq yollarını işıqlandırmaqdır, balalarınızı bu işığı yandırmaqdan məhrum etməyin. Yüz kilometrlərlə yolu faytonla, araba ilə, qatarla, bəzən də payi-piyada getməli olurdu[11].

Mənbə 5 A.O.Çernyayevski ibtidai məktəbdə tədris dili haqqında

Bizim zamanımızda artıq heç kəsdə şübhə doğurmayacaq ki, elementar[12]. məktəblərdə tədris hansı dildə aparılmalıdır. O, ana dilində başlamalı və davam etməlidir. Bu, güman edirik ki, heç kəsdə mübahisə doğurmayan bir aksiomadır. Lakin əgər bu belədirsə, deməli tatarlar, ermənilər, gürcülər, ruslar və s. xalqların öz ana dillərində təhsil almağa, ən azandan — tədrisin birinci ilində savada ana dilində yiyələnməyə tam və ayrılmaz hüquqları var. Amma biz necə etməliyik, əgər şagirdlərin yarısı və ya bir hissəsi başqa millətlərdən olan uşaqlardır, və ya məktəbdə müxtəlif millətlərdən olan uşaqlar təhsil alır: ermənilər, tatarlar, ruslar, gürcülər[13]?

---

[8] Aleksey Osipoviç Çernyayevski görkəmli rus və Azərbaycan pedaqoqudur. 1879-cu ildə Zaqafqaziya (Qori) müəllimlər seminariyasında Azərbaycan bölməsinin açıldığı dövrdən A.O.Çernyayevski şöbənin inspektoru olur. "Vətən dili" ("Ana dili") dərsliyinin nəşri, Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Səfərəli bəy Vəlibəyov, Mahmud bəy Mahmudbəyov, Süleyman Sani Axundov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov və digər Azərbaycan kadrların yetişdirilməsi A.O.Çernyayevskinin xidmətləridir.

[9] Pedaqoq və yazıçı Dmitri Dmitriyeviç Semyonov coğra f ya və tarix fənlərindən dərs deyib. Rus dilinin tədrisi metodikası üzrə bir çox əsərlərin müəlli f dir. 1878-ci ildə Qori şəhərində yerləşən Zaqafqaziya müəllimlər seminariyasının direktoru təyin edilib.

[10] Naxçıvan, Gəncə, Şuşa, Şamaxı, Quba və Dərbənd XIX-cu əsrin axırlarında Zaqafqaziya şəhərləridir.

[11] Шемистан Назирли. Поезд из Гори. Баку, 1998.

[12] Elementar məktəblər — burada: ibtidai məktəblər.

[13] Черняевский А.О. К вопросу о местных народных школах // Кавказ, 1882. — № 308.

Mənbə 6 İbtidai məktəb üçün Azərbaycan dili dərsliyinin tərtib edilməsi haqqında

K.D.Uşinskinin[14] didaktik prinsiplərinə əsaslanaraq, Çernyayevski "Vətən dili"[15] dərsliyini tərtib etdi ki, bu dərslik quruluş prinsipi, dilin sadəliyi, şagirdlərin yaş və bilik səviyyələrinin nəzərə alınması ilə Uşinskinin "Ana sözü" dərsliyinə uyğun idi. K.D.Uşinski kimi, Çernyayevski də öz dərsliyinə aid metodiki vəsait tərtib etdi.

Çernyayevski üçün digər nümunə heç də az tanınmayan böyük rus yazıçısı və pedaqoq Lev Nikolayeviç Tolstoyun tərtib etdiyi "Azbuka" ("Əlifba") dərsliyi oldu. 1881-ci ildə o (Tolstoy), bütün nəşriyyatçılara açıq məktubla müraciət etdi. Burada yazıçı özünün bütün əsərlərinin əlavə icazə olmadan tərcüməsinə və nəşrinə icazə verirdi. Artıq 1882-ci ildə Çernyayevskinin tələbəsi olan görkəmli pedaqoq, yazıçı və etnoqraf Rəşid bəy Əfəndiyev (1863–1942) L.N.Tolstoyun hekayələrini ilk dəfə Azərbaycan dilinə tərcümə etdi. Tolstoyun "Azbuka"sında yer alan folklor materialı əsasında yazılan uşaq hekayələri "Vətən dili" dərsliyinə daxil edildi[16].

Mənbə 7 İbtidai məktəbdə ana dilinin tədrisi haqqında

"Vətən dili" dərsliyində Aleksey Osipoviç Çernyayevski Azərbaycan atalar sözləri, tapmacaları, şeirlərindən parçalar gətirir. Azərbaycanlılar üçün Çernyayevskinin "Vətən dili" dərsliyi rus məktəbləri üçün Konstantin Uşinskinin "Ana sözü" dərsliyi kimi əhəmiyyət kəsb edirdi. "Vətən dili"nə qədər Azərbaycan şöbəsi üçün ayrı bir dərsliyin olmadığına görə Çernyayevski tələbələrinin köməyilə həftələr üzrə tədris proqramı tərtib etdi. Həmçinin o, dərsləri səs metodu ilə aparmaq məqsədilə oxumaq üçün material da hazırladı[17]. Sonralar Qafqaz Təhsil Dairəsinin hesabatında bildirildi ki, Çernyayevskinin ustalıqla tərtib etdiyi tədris materialı azərbaycanlı məzunların pedaqoji hazırlığı üçün ən yaxşı baza oldu[18].

6. [illegible]

[14] K.D.Uşinski rus pedaqoqu, Rusiyada elmi pedaqoqikanın banisidir. O, uşaq pedaqoji ədəbiyyatında çevriliş edən gözəl "Ana sözü" və "Uşaq dünyası" adlı dərsliklərin müəllifdir. K.D.Uşinskini xalq müəllimlərinin böyük müəllimi adlandırırlar. O, məktəblər üçün müəllim kadrları hazırlamaq üçün tam proqram tərtib etmişdi.

[15] "Vətən dili" ("Ana dili") A.O.Çernyayevski tərəfindən Səfərəli bəy Vəlibəyovla birlikdə tərtib edilən dərslikdir.

[16] Регина Мамедова. Связующая нить времен. О первом учебнике азербайджанского языка для светских школ. / Наследие, №5(65), 2013. Giriş rejimi: www. irs-az.com/new/pdf/201312/1386067950571889673.pdf. — Müraciət tarixi: 15.10.14.

[17] Tədrisin səsli metodu canlı nitqin analizinə əsaslanan metod. K.D.Uşinski savada yiyələnməyə sözlərdə saitləri şifahi şəkildə fərqləndirməyi öyrətməkdən başlamağa tövsiyyə edirdi. Əvvəlcədən sait səslər müəyyən edilirdi, sonra isə onlar sözlərdə hərfərlə işarə edilirdi. Daha sonra sözlər hecalara bölünürdülər ki, burada şagirdlər saitləri müəyyən edib samitləri öyrənirdilər. Hər hecanı səsləndirərək uşaq onun səs tərkibini dark edir və tezliklə dili öyrənə bilirdi.

[18] Рзали Расмие. Самоотверженец просвещения. Азербайджанское отделение Горийской Семинарии–130: об Алексее Осиповиче Черняевском. Газета «Азербайджан», 11 июля 2009 года. Giriş rejimi: http://jurnal.org/articles/2010/hist19.html. Müraciət tarixi: — 20.10.14.

Mənbə 8 Zaqafqaziya müəllimlər seminariyasının müəllim və tələbə qrupu. Aşağı cərgə — gürcü və rus müəllimləri, orta və yuxarı cərgələr — Azərbaycan tələbələri və bir neçə Azərbaycan müəllimi. XX-ci əsrin əvvəlləri[19].

Mənbə 9 Seminariyanın məzunu Məhəmməd Hənəfi Terequlovun müəllim seminariyasının müəllimləri haqqında xatirələrindən

Bizim musiqi sahəsində inkişafımızda Semyon Pavloviç Qoqliçidze tərəfindən aparılan nəğmə dərsləri böyük rol oynayırdı. Bu dərslərdə biz ilk dəfə not sistemi, qamma, ton və yarım-ton, iki və üç səsli oxuma ilə tanış olduq.

Bizim müəllimimiz olan Mixail Leontyeviç Bekker skripkada pis ifa etmirdi və az bir zaman ərzində o, bizim həm nəfəsli, həm də simli orkestrlərdə təkcə ayrı-ayrı marş və valsları deyil, həmçinin "Faust", "Traviata", "Knyaz İqor" və digər operalardan bir çox popuri[20] ifa etməyimizə də nail oldu[21].

7. [illegible]

8. [illegible]

9. [illegible]

[19] Milli Azərbaycan Tarixi Muzeyi. Sənədli mənbələr fondu.

[20] Popuri müxtəlif populyar motivlərin parçalarından ibarət olan musiqi əsəridir.

[21] Терегулов А. Г. В Горийской учительской семинарии. //Известия АН Азербайджанской ССР, № 9, 1945. — с.84–85.

Mənbə 11 1904-cü ildə Üzeyir bəy Hacıbəyovun[24] adına verilmiş Zaqafqaziya müəllimlər seminariyasını bitirməyi haqqında şəhadətnamədən[25]

ŞƏHADƏTNAMƏ

Bu attestat müəllimlər seminariyaları haqqında əsasnaməyə əsasən Zaqafqaziya Müəllimlər Seminariyasının Şurasından seminariyanın məzunu bəy oğlu, müsəlman, 18 yaşlı Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyova verilir ki, o, əla davranışı ilə yanaşı son imtahanda aşağıdakı nəticələri göstərib:

1) Din dərsi	o	l	d
2) Pedaqoqika	o	l	d
3) Rus dili	o	l	d
4) Tatar dili	o	l	d
5) Arifmetika	o	l	d
6) Həndəsə və yerölçmə	o	l	d
7) Tarix	o	l	d
8) Coğra f ya	o	l	d
9) Təbiyyət	o	l	d
10) Hüsnxət	ka f (3)		

[24] Üzeyir bəy Hacıbəyov görkəmli Azərbaycan bəstəkarı, dirijoru, musiqişünası, publisist və dramaturqudur (bax: məlumat 2).

[25] Алла Байрамова. Документы Узеирбека в Санкт-Петербурге. — Giriş rejimi: http://musigi-dunya.az/new/read_magazine.asp?id=1407&page=1. Müraciət tarixi: 24.01.15.

11) Rəsm və rəsmxət o l d
12) Dərs deməkdə praktiki məşğələlər o l d
Bundan əlavə, o açağıdakı fənləri də öyrənib:
1) Nəğmə: ~~a) dini;~~
б) dünyəvi;
2) Musiqi a) simli;
б) nəfəsli;
3) Kənd təsərrüfatı a) bostançılıq və bağçılıq;
б) arıçılıq;
в) ipəkçilik
~~4) Cildləmə sənəti~~
~~5) Əl işi~~
6) Qimnastika

Bunun nəticəsində o, ibtidai xalq məktəbinin müəllimi adına layiq görülür və bu vəzifəyə gəbul edildikdə həmin vəzifəyə verilən bütün hüquqlardan istifadə edə bilər.

Hərbi xidmətdə olarkən təhsil səviyyəsinə görə üçüncü dərəcəyə aiddir və Hərbi mükəllə f yyət haqqında Nizamnamənin 36-cı maddəsinin 3-cü bəndində nəzərdə tutulan güzəştə[26] ixtiyarı var.

Dövlət hesabına təhsil aldığına görə Hacıbəyov "Zaqafqaziya Müəllimlər Seminariyası haqqında Əsasnamə"nin 6-cı maddəsinə əsasən müdriyyətin təyinatı üzrə altı il xalq məktəbləri və ya digər tədris müəssisələrində müəllim işləməlidir.

1 iyun 1904-cü il, Qori şəhəri.

Blok 2. Seminariyada təhsil alanların həyatında din

10. [illegible]

Mənbə 11 "Pedaqoqika tarixi" adlı sovet dərsliyindən

Müsəlman əhalisinin yerləşdiyi ərazilərdə qədim zamanlardan dini fanatizm və pantürkizmin[27]. ocaqları olan konfessional (dini) məktəblər mövcud olub (məktəb, mədrəsə və s.). Onlara qarşı çar hökuməti Rusiyanın çoxsaylı xalqları üçün xüsusi

[26] 1 yanvar 1874-cü il tarixli Hərbi mükəllə f yyət haqqında Nizamnaməyə əsasən, müəllimlər seminariyalarının məzunları öz istəklərilə hərbi xidmətdən 27 yaşınadək möhlət ala bilərdilər. Həmçinin hərbi xidmət zamanı onlar üçün qısaldılmış xidmət vaxtı təyin edilirdi. Sülh zamanı tədris müəssisələrinin müəllimləri hərbi xidmətdən azad edilirdi və 6 il ərzində hər il ixtisası üzrə işlədiklərini təsdiq etmək şərtilə 15 il müddətinə ehtiyata daxil edilirdilər.

[27] Pantürkizm türk xalqlarının yerləşdiyi ərazilərdə yayılmış mədəni və siyasi cərəyandır. Onun əsasında türk xalqlarının etnik, mədəni və dil ümumiliyinə əsaslanan siyasi konsolidasiyası ideyaları durur.

hökümət məktəbləri yaradırdı ki, burada yeni didaktik vasitələrə sahib olan hazırlıqlı müəllimlər tərəfndən dünyəvi elmlər tədris edilirdi.

Burada təhsilin səviyyəsi, tədris işinin ümumi təşkili və tədris metodları müsəlman məktəblərindəkindən üstün idi. Lakin birinci növbədə yerli əhalinin sıralarından çar hakimiyyətinə sadiq olan insanların yetişdirilməsi məqsədini daşıyan müstəmləkəçilik siyasəti dururdu[28].

Mənbə 12 Din xadimmi Abu Turab[29] islamın müsəlmanların həyatında yeri haqqında

"Müsəlmanlara hansı elmlər lazımdır" adlı məqaləsində Abu Turab yazırdı: "Dünyəvi elmləri bilməklə alimliyin yüksək dərəcəsinə çatmaq olar, fəlsəfə müəllimi — Aristotel olmaq olar, lakin yüksək əxlaqlı, yəni əsl müsəlman olmaq üçün insan həyatını Quranın, *şəriətin*[30] və, ümumiyyətlə, ilahiyyatın öyrənilməsinə həsr etməlidir. Yalnız Allaha ibadət, peyğəmbərlərin müəyyən etdiyi tələblərin yerinə yetirilməsi zamanı insan mənəvi cəhətdən yüksələ bilər, mənəvi rahatlıq ala bilər və cin-şeytanın nəfsindən, qarşısıalınmaz ehtirasların ağır gücündən canını qurtara bilər. Dünyəvi elmlər isə insanı heç də özbaşnalıqdan, mənəvi əxlaqsızlıqlardan qorumur, onu mənəvi-əxlaqi cəhətdən yüksəltmir"[31].

Mənbə 13 Firidun bəy Köçərlinin[32] Abu Turabın məqaləsinə cavabı

Bu kimi moizələr və öyüd-nəsihətlər bizim müsəlman qardaşlarımızın zəifəməsinə, düşüncənin, qabiliyyətin keyləşməsinə gətirib çıxarır. Onların hünəri və cəsarəti heç bir şeydə özünü biruzə vermir, onlar öz qisməti ilə kifayyətlənirlər, hər bir əzab və iztirabla razılaşırlar, hər bir acı və çətinliklərlə barışırlar, həyatın müsibətlərinə və əziyyətlərinə dözürlər[33]…

▼

11. [illegible]

[28] Н.А.Константинов, Е.Н.Медынский, М.Ф.Шабаева. История педагогики. «Просвещение», Москва. 1982 г. Giriş rejimi: http://gigabaza.ru/doc/71200.html. Müraciət tarixi: 18.10.2014.

[29] Abu Turab (Axund Abu Turab) XIX-cu əsrin sonu-XX-ci əsrin əvvəllərində yaşayan Azərbaycan ilahiyyətçi-alimi, publisisti, maarifçisidir.

[30] Şəriət müsəlmanların əqidəsi və mənəvi dəyərlərini müəyyən edən qanunlardır. Şəriətin göstərişləri ilk növbədə Quran və Məhəmməd peyğəmbərin sünnəsilə təsbit edilib və müsəlmanların gündəlik həyatının praktiki olaraq bütün sahələrini tənzimləyən konkret normaların mənbələri kimi çıxış edirlər.

[31] С.А.Алиева. Вопросы нравственного воспитания в трудах педагогов-просветителей Азербайджана. «Маариф». 1988. — С.89.

[32] Firidun bəy Köçərli (Firidun bəy Əhməd bəy oğlu Köçərlinski) Azərbaycan filoloqu, yazıçısı və tənqidçisidir. Daha ətrafı bax: Tarixi məlumat 2.

[33] С.А.Алиева. Вопросы нравственного воспитания в трудах педагогов-просветителей Азербайджана. «Маариф». 1988. — С.89.

Mənbə 14 Əlibəy Qasımov və Lev Tostoyun görüşü haqqında

Qori seminariyasında təhsilini uğurla başa vurduqdan sonra, Əlibəy Qasımov Azərbaycana qayıtdı və müəllimlik fəaliyyətinə başladı. O, Azərbaycanda ən savadlı insanlardan biri, dünya ədəbiyyatı klassikasının, o cümlədən Cek Londonun əsərləri və Covanyolinin "Spartak" romanının Azərbaycan dilinə ilk tərcüməçisi idi.

"Hacı Murat" povestini oxuyandan sonra Qasımov Lev Tolstoyun islamın əsas prinsiplərini tam dəqiqliklə izah etmədiyini aşkar etdi. Əlibəy Tolstoy dühasına vurğun idi. Lakin həqiqət daha qiymətli idi. Qasımov qrafa mükəmməl rus dilində məktub yazdı. Məktub hörmətlə və nəzakətlə yazılmışdı. Burada "Hacı Murat" əsəri müfəssəl şəkildə araşdırılırdı.

Bu müraciyət Lev Nikolayeviçə elə təsir etdi ki, o, cavab verdi. Və Əlibəyi Yasnaya Polyanaya söhbət etməyə dəvət etdi. 1900-cü il idi. Qasımov özü ilə Quran, tar[34] və nərd[35]. götürərək iki aylıq görkəmli rus yazıçısının yanına qonaq getdi. Onlar din, həyat və ədəbiyyat haqqında çox söhbət etdilər. Və Əlibəyin 23, Tolstoyun isə 72 yaşı olmasına baxmayaraq dostlaşdılar. Sonra Qasımov bir dəfə də, 1907-ci ildə gəldi[36].

▼

12. [illegible]

Mənbə 15 Terskaya vilayətinin xalq məktəblərinin direktorunun Müslim Maqomayevə[37] onun Qroznı şəhərinə keçirilməsinə rədd cavabı

"Maqomayevə bildirmək ki, qanunla pravoslav[38] şagirdlərin olduğu yerə yalnız pravoslav müəllim təyin edilə bilər. Buna görə də onun xahişi yerinə yetirilə bilməz"[39].

Blok 3. Müəllimlər seminariyası və milli dirçəliş

▼

13. [illegible]

[34] Tar simli musiqi alətidir.

[35] Nərd qədim Şərq masaüstü oyunudur.

[36] Журнал «Баку» (№14) с. 88. — Giriş rejimi: http://baku-media.ru/files/pdf/69/files/assets/basic-html/page90.html.

[37] Müslüm Maqomayev Azərbaycan bəstəkarı, dirijoru, Azərbaycan SSR-nin əməkdar incəsənət xadimi (1935), Azərbaycan klassik musiqisinin banilərindən biri. Daha ətrafı bax: Tarixi məlumat 2.

[38] Pravoslavlıq xristianlığın bir qoludur.1917-ci ilədək pravoslavlıq Rusiya imperiyasının rəsmi dini idi.

[39] Касимов К. Муслим Магомаев. (Жизнь и творчество). Баку. 1948. — С. 117.

Vaja Pşavela gürcü ədəbiyyatının klassiki Luka Pavloviç Razikaşvilinin təxəllüsüdür. Onun yaradıcılıq irsi otuz altı cilddən, həmçinin şeir (400-ə yaxın), pyeslər, hekaya və məqalələrdən ibarətdir.

Vladimir (Lado) Aqniaşvili gürcü pedaqoqu və ictimai xadimidir. 1883-cü ildə "İbtidai gürcü məktəbləri üçün rus dilinin öyrənilməsində ilk addım" dərsliyini nəşr etdirib. Rus-gürcü "Cib lüğəti", gürcü xalq nağılları məcmuəsini tərtib edib. O, milli musiqi kadrlarının yetişdirilməsi ocağına çevrilən "Gürcü xalq xoru"nun yaradıcısıdır.

Müslüm Maqomayev — Müslüm Maqometoviç Maqomayev Azərbaycan bəstəkarı və dirijoru, Azərbaycan SSR-nin əməkdar incəsənət xadimi (1935), Azərbaycan klassik musiqisinin banilərindən biridir. Müğənni Müslüm Maqomayevin babasıdır. Fəal bəstəkarlıq fəaliyyətindən başqa Maqomayev həmçinin ictimai işlərlə də məşğul idi: Xalq maarif komissarlığının Azərbaycan bölməsinə başçılıq edirdi, Musiqi teatrının bədii rəhbəri, 1929-cu ildən Azərbaycan radio mərkəzinin musiqi rəhbəri idi.

Firidun bəy Köçərli (Firidun bəy Əhməd bəy oğlu Köçərlinski) Azərbaycan filoloqu, yazıçısı və tənqidçisidir. Zaqafqaziya müəllimlər seminariyasını bitirib, 1895-ci ildən isə orada müəllim işləyib. 1917–1918-ci illərdə Köçərli Azərbaycan Demokratik Respublikasının müstəqilliyini elan edən Zaqafqaziya müsəlmanlarının Müvəqqəti Milli Şurasının (sonralar — Azərbaycan Milli Şurası) tərkibində olub. Daha sonra Qazax şəhərində yeni yaradılmış müəllimlər seminariyasının direktor vəzifəsində çalışıb. Köçərli Azərbaycan ədəbi dilinin normalarının təkmilləşdirilməsilə məşğul olan ilk Azərbaycan alimlərindən biri idi. Bununla yanaşı o, rus (Puşkin, Lermontov, Çexov, Koltsov) və Avropa müəllifərinin əsərlərinin Azərbaycan dilinə tərcüməsi ilə məşğul idi.

Cəlil Məmmədquluzadə Azərbaycan jurnalisti, maarifçisi, yazıçısı, satirikidir. 1906-cı ildə o, 25 il ərzində redaktoru olduğu "Molla Nəsrəddin"[43] satirik jurnalının əsasını qoydu. Jurnal yazıçının Azərbaycan mədəniyyətinə verdiyi ən böyük töhfə oldu, çünki Azərbaycanın savadlı dairələrində maarifçiliyin inkişafına köməklik göstərdi. Məmmədquluzadə bir çox janrlarda yazılan əsərlərin, o cümlədən dram, oçerk, hekayə və felyetonların müəllifdir.

Nəriman Nərimanov Azərbaycan yazıçısı, ictimai və siyasi xadimidir. 1894-cü ildə o, Bakıda müsəlman dünyasında ilk dəfə olaraq kütləvi kitabxananın əsasını qoydu. 1897-ci ildə kitabxanın oxu zalına 8619 müsəlman, 8636 rus, 4881 erməni və 3715 digər millətlərdən olan insanlar, ümumilikdə isə 25851 insan gəlib.

Akop Kamari erməni inqilab xadimi, jurnalist idi. 1909-cu ildən, demək olar ki, Qafqazın bütün bolşevik qəzet və jurnallarının nəşrinə rəhbərlik edib. 1915–1916-cı illərdə müəllim işləyib. Zənqəzurda[44] sovet hakimiyyəti bərqərar olandan sonra inqilab komitəsinin sədri seçilib.

Sarqis Musayelyan erməni pedaqoqu, inqilab xadimidir. 1901–1905-ci illərdən başlayaraq müəllimlik fəaliyyəti ilə məşğul olub. 1917-ci ildə fevral inqilabında fəal iştirak edib və inqilab komitəsinin sədri seçilib, 1920-ci ildə isə Ermənisranda baş verən May üsyanının təşkilatçılarından bili olub.

Vaqaan Mirakyan erməni şairi və dramaturqudur. Müəllimlik fəaliyyətilə məşğul olub, erməni dili və ədəbiyyatı fənnindən dərs deyib. Müəllifn rus və fars dillərinə tərcümə edilən və 8 dəfə nəşr edilən "Lalvarda ov" poeması ona böyük məşhurluq gətirib. Bu əsərin əsasında pyes və opeya yazılıb, bədii film çəkilib. V.Mirakyan SSRİ-nin Yazıçılar İttifaqının üzvü olub.

[43] "Molla Nəsrəddin" jurnalı haqqında bax: "XX-ci əsrin əvvəllərində Azərbaycan qadını ailə və cəmiyyətdə ("Molla Nəsrəddin" jurnalının səhifələrində)" modulu.

[44] Zənqəzur indiki Ermənistan Respublikasının ərazisində olan inzibati ərazi rayonudur.

15. [illegible] s yı ə t ə l ə l ə
q o u y u s x q i s

Mənbə 18 Zaqafqaziya müəllimlər seminariyasının məzunu Sadıq Vəkilovun[45], xatirələrindən

Bayram günlərində müəllim və tələbələr Zaqafqaziyanın müxtəlif yerlərindən gələn təbrik teleqramlarını sevinclə oxuyurdular. Onların arasında adı yalnız musiqiçi kimi deyil, həmçinin ədib və xalq maarif xadimi kimi geniş məşhur olan Üzeyir Hacıbəyovun təbrikləri də var idi. 1914-cü ildə isə Üzeyir özü Qoriyə gəldi. Yadımdadır ki, o, bizimlə, yəni tələbələrlə də görüşdü. Və xalq üçün incəsənətin əhəmiyyətindən, xalq müəlliminin xalqın estetik zövqlərinin inkişafında oynadığı çox böyük rol haqqında ilhamla danışırdı. Hacıbəyov bizə öz yaradıcılıq planları haqqında da danışdı. Biz isə onun şərəfinə konsert verdik. Bizim əksəriyyətimiz seminariyada skripka dərsi alırdıq, bizim tələbə nəfəsli alətlər orkestrimiz vardı. Bu orkestrin rəhbəri ikinci musiqi müəllimi S.F.Fidelman idi. Birinci musiqi müəllimi Bekker idi. O Bekker ki, kimə Qori müəllimlər seminariyasının yetişdirməsi olan Müslüm Maqomayev yazırdı: "Tale məni uzaq aula atıb. Yeganə sevincim Sizin mənim əlimə verdiyiniz ağac parçasıdır…" Bekker öz sevimli şagirdinə skripka bağışlamışdı. Bunu seminariyada tez-tez xatırlayırdılar, mənim sitat gətirdiyim məktub isə indiyədək keçmiş seminariyanın arxivində qayğı ilə qorunub saxlanılır[46].

Mənbə 19 Zaqafqaziya müəllimlər seminariyasının məzunu Əli Terequlovun[47], xatirələrindən

Nəğmə, Avropa musiqi alətlərində ifa, orkestlərdə iştirak və hərdən bir Tiflisdə operaya ziyarət — bütün bunlar Avropa musiqisi, onun nəzəriyyəsi və praktikasını öyrənmək üçün əsas idi, ilk təcrübə idi[48].

Mənbə 20 Müslüm Maqomayevin[49] Zaqafqaziya müəllimlər seminariyasının məzunu olan babası Müslüm Maqomayev[50], haqqında xatirələrindən

Mənim babam həyatda necə insan idi? Qohumlarının sözlərindən onu bilirəm ki, o, çox əliaçıq, həmişə başqalarına kömək etməyə hazır olan bir insan idi. Üzeyir Hacıbəyovun yazdığı məktub var. Burada o, öz dostu Müslümə köməyə görə

[45] Vəkilov S.B. — Azərbaycan filoloqu, filologiya elmləri doktoru, professordur.

[46] Xatirələr 20 dekabr 1965-ci ildə "Bakı" qəzetində nəşr edilib. (rus dilində) Giriş rejimi: http://e-library.musigi-dunya.az/slovo_o_uzeyire_9.html.

[47] Əli Həsən oğlu Terequlov (1883 —1950) Azərbaycanın ictimai xadimi, pedaqoqdur.

[48] Giriş rejimi: http://www.millattashlar.ru/index.php/%D0%A2%D0%B5%D1%80%D0%B5%D0%B3%D1%83%D0%BB%D0%BE%D0%B2_%D0%A5%D0%B0%D0%BD%D0%B0%D1%84%D0%B8_%D0%93%D0%B0%D1%81%D0%B0%D0%BD%D0%BE%D0%B2%D0%B8%D1%87.

[49] Müslüm Məhəmməd oğlu Maqomayev (1942–2008) Sovet, Azərbaycan və Rusiya opera və estrada müğənnisi (bariton), bəstəkar, SSRİ-nin xalq artistidir.

[50] Əbdül Müslüm Məhəmməd oğlu Maqomayev Azərbaycan bəstəkarı və dirijoru, Azərbaycan SSR-nin əməkdar incəsənət xadimi (1935), Azərbaycan klassik musiqisinin banilərindən biridir. Müğənni Müslüm Maqomayevin babasıdır.

minnətdarlığını bildirir: "… Mənim öz işimlə rahat məşğul olmağa imkanım var. Bunun nəticəsində mən konservatoriyaya daxil oldum. Bütün bunlara görə mən yalnız sənin mənə səmimi kömək etmək istəyinə borcluyam; bu arzunun həyata keçməsinə görə sən öz rahatlığını və sağlamlığını qurban verdin. Bunun əvəzini verə biləcəyəmmi?…" Bu məktub 1914-cü ildə Peterburqda yazılıb. Üzeyir Hacıbəyov ora konservatoriyada təhsilini davam etdirmək üçün getmişdi. Babam dostluq edə bilirdi, o, böyük ürəkdən jestlər edə bilirdi. Bizdə az adamın xəbəri var ki, "Köroğlu" süjetinə opera yazmaq ideyası eyni zamanda həm Maqomayevin, həm Hacıbəyovun ağlına gəlmişdi. Babam bundan xəbər tutanda, yazmağa başladığı partituranı cırıb atdı və dedi: "Üzeyir daha yaxşı yazacaq"[51].

16. [illegible]

17. [illegible]

Mənbə 21 Vaja Pşavela Zaqafqaziya müəllimlər seminariyası haqqında

Hər kəsə məlumdur ki, tərəqqini idarə edən böyük qüvvə təhsildir… Lakin təhsil yalnız o halda möhtəşəm nəticələr verir ki, o, az sayda insanlarla məhdudlaşmayıb geniş tətbiq edilir.

Kənd müəllimlərinin böyük vəzifəsi məhz təhsili qara kütlə içərisində yaymaq, uşaqları daha yaxşı həyata hazırlamaq, onların ağlını inkişaf etdirməkdən ibarətdir ki, onlar azad və şüurlu şəkildə öz sahələrində dolana bilsinlər. Onlara faydalı və ziyanlı olan şeyləri, həyatlarında nə kimi ehtiyacların olduğunu başa salmaq, gənc nəsildə ictimai hiss, ictimai əxlaq tərbiyyə etmək lazımdır. Beləliklə, müəllimlər seminariyasının gücü, onun predmeti və prinsipi xalq və ona olan xüsusi xidmətdən ibarətdir.

O, müəllimlər yetişdirdiyinə görə fəxr edə bilər. Bu müəllimlərin, bəlkə də, elə də çox bilikləri yoxdur, lakin onlar canlı ideyalarla, real əqidə ilə doludurlar, onlar söz deyil, iş-güc adamlarıdırlar[52].

Yekun sual

[illegible]

[51] Муслим Магомаев. Живут во мне воспоминания. — Giriş rejimi: http://royallib.com/read/magomaev_muslim/givut_vo_mne_vospominaniya.html#0.

[52] Tələbəlik illərinin sənədləri (gürcü dilində). Giriş rejimi: http://tagiweb.com/mowafeobisdroindeli-dokumentebi/.

Şəxsi adlar mədəniyyət və cəmiyyət tarixinin öyrənilməsi üzrə mənbə kimi

▶ Şəxsi adın seçimində mədəniyyətdə və cəmiyyətdə baş verən dəyişikliklər necə əks olunur?

◆ Tarixi məlumat

Hər insanın adı var. Ad uşağın şəxsiyyətinin və özünüdərk dərəcəsinin əsasını təşkil edir. Lakin doğulduqda ad insana yalnız onu başqalarından ayırmaq məqsədilə verilmir. Əslində, şəxsi adlarda valideynlərin və onları əhatə edən insanların estetik, etik qavrayışı, dünyagörüşü, identikliyi (eyniyyəti), cəmiyyətin sosial və mədəni istəkləri əks olunur. Xüsusilə keçmişdə şəxsi adın seçimi böyük məsuliyyət sayılırdı. Bütün cəmiyyətlərdə adın insanın qəlbinə və taleyinə təsir etməsi haqqında baxışlar mövcud olub. İnsanın identikliyi, onun özünü insan cəmiyyətinin bir hissəsi kimi hiss etməsi baxımından adın əhəmiyyəti özünü insanı qəsdən addan məhrum edəndə daha qabarıq görsənirdi.

Ad bilavasitə insanın əsli ilə bağlıdır, onun seçimi hər bir etnosun mədəni ənənələrilə bağlıdır. Müxtəlif dillərdən gələn adlar var: slavyan, skandinaviya, türk, ərəb, roman-german dillərindən və s. Hər bir adın mənası var, hətta adət edilmiş ad öz ilkin mənası ilə əlaqəsini itirsə belə. Məsələn, gündəlik ünsiyyət zamanı Nikolay adının mənası "qalib", Maksim adının — "ən böyük", Oksana adının — "qonaqpərvər", Tamara adının isə "xurma ağacı" olduğu yadımızdan çıxır. Əgər hər-hansı adların daşıyıcıları ailədə və ümumiyyətlə tarixdə seçiliblərsə, onlar xüsusilə əhəmiyyətli olur.

Şəxsi adlar statik (sabit) hadisə deyil. Müəyyən tarixi hadisələrin təsiri altında şəxsi adlalın seçimində dəyişikliklər baş verir. Belə ki, SSRİ-nin süqutundan sonra müstəqillik əldə etmiş bir çox keçmiş respublikalarda milli adlar daha populyar oldu. Mədəniyyətlərarası və millətlərarası münasibətlərin transformasiyasına görə şəxsi adlar sistemi dəyişikliklərə məruz qalır. Bəzən bu dəyişikliklər hökümət tərəfindən dövlət siyasəti çərçivəsində tənzimlənir.

Adların, onların mənşəyi, əhəmiyyəti, cəmiyyətin mədəniyyətində oynadığı rolun öyrənilməsilə xüsusi "antroponimika" elmi məşğul olur.

▼

1. [illegible]

İ şv ə ə qi. **Adın mənası**

Ad	Adın mənası	Adı kim qoyub?	Ad seçiminin səbəbləri

İ şv ə ə qi. **Ad seçiminin səbəbləri**

İş vərəqi 2-A	İş vərəqi 2-B	İş vərəqi 2-C	İş vərəqi 2-D
	v ə y x u q ə h ə m, içılın, ə ə i p s i o lı, tüün i s	o ulu z lmın ə l ə	D

Blok 1. Uşaq adlarının seçiminə nə təsir edir

2. A
m s ı o l qq ə
(, , 5 s y lı ə t ə l ə)?

3. 5 s y lı ə t ə l ə ə ə s s lnq
s çiiə

4. A
y ii ə lu
töh ə l ə i ə y ə iş

Mənbə 1 Müasir tədqiqatçı XVIII–XIX-cu əsrlərdə Qərbi Ukraynada ad seçimi haqqında

Çox zəngin Lvov arxivində tədqiq edilən XVIII–XIX-cu əsrin metrikalarında[1] kəskin ziddiyyətlər var. XIX-cu əsrin 60-cı illərin əvvəllərində Lvovun uniat[2] kilsələrinin metrikalarını müqayisə edək: Qərbi Ukraynanın Qabsburqlara[3], da, şlyaxtdaya qulluq

[1] Metrika (latın sözü siyahı, çıxarış) doğum haqqında şəhadətnamə, yeni doğulan uşaqlar haqqında kilsə kitabından verilən çıxarışdır.

[2] Uniatlar 1596-cı ildə Brest kilsə Uniyası nəticəsində yaranan Xristian kilsəsinin bir qolunun tərəfdarlarıdır. Bu uniya nəticəsində Ukrayna keşişlərinin bir hissəsi Roma katolik kilsəsinin tabeçiliyinə keçdi. XVIII-ci əsrin axırlarından uniatlar yunan katolikləri adlanırlar.

[3] O illərdə Avstriya imperiyasında hakimiyyətdə olan imperator ailəsinin soyadı.

edən zadəqanlarına xidmət edən Yura baş kilsəsində ən tez-tez qoyulan ad Marianna idi ki, bu ad o illərdə yeni doğulmuş qızların 10%-dən çoxuna verilmişdi. Şəhər əhalisinin aşağı təbəqələrinin gəldiyi Paraskeva kilsəsində həmin illərdə Marianna adı heç kəsə qoyulmayıb, əksinə, Paraskeva prixodunda tez-tez qoyulan Pelageya adı (6%) üstün sayılan Yura baş kilsəsində yalnız bir qıza Pelageya-Gelena birləşməsində qoyulub. Bir fakt da diqqəti cəlb edir: həmin illərdə doğulan qızların 13 %-nə Yura baş kilsəsində ikili adlar (binominis): Marianna-Anna, Mariya-Matilda, hətta üç qat adlar (trinominis) verilmişdi: Yulianna-Marianna-Antonina, Mariya-Sofya-Karolina və s. adlar qiyulub. Kifayət qədər zəngin təbəqəyə aid olan insanların gəldiyi Uspeniya kilsəsində də qızların 11 %-nə iki və üç qat adlar qoyulub. Paraskeva kilsəsində iki qat adlar qızların yalnız 1,5%-nə verilib, üç qat ad isə heç qoyulmayıb![4].

Mənbə 2 Filosof və ilahiyyətçi P.Florenski adların populyarlığı haqqında

Tanınmış Rusiya diplomatı Y.İ.Bulqakov 1804-cü ilin 28 noyabrında Neapolda olan oğluna yazırdı: “Katerinasız soyad[5] yoxdur. Nə üçün? Çünki bizim anamız, ilahəmiz Katerina idi (yəni İmperatriçə II Yekaterina)… və hamı qızlarına bu adı verməkdən qürur duydu, necə ki, indi hamı oğullarına Aleksandr[6]. adı qoyur. Katerina adına elə vurğun idim ki, bütün ömrüm boyu bu adı daşıyan qadınlara hörmət və dostluq hissi ilə yanaşırdım”. <…> Tarixdə belə nümunələr çoxdur və onların hamısı yuxarıda qeyd olunan sxem üzrə qurulur: üzdə olan və idarəçilik qabiliyyəti, böyük istedadı ilə insanları özünə cəlb edən hakimiyyətdə olan şəxslər ətrafdakılarda onlara bənzəmə istəyi oyadır. İnsanlar öz adlarını dəyişə bilmədikləri üçün bu adları ailə üzvlərinə qoymağa çalışırlar.

<…>. [Məsələn], Svetoninin[7], verdiyi məlumata görə, Klavdiylər patrisi nəslinin nümayəndələrinin “müxtəlif ad və ləqəbləri var idi. Lakin Lusiy adı hamının razılığı ilə istisna edilmişdi, çünki bu adı daşıyanlardan biri oğurluqda, digəri isə insan öldürdüyünə görə günahlandırılmışdı”[8]…

Mənbə 3 Müasir tədqiqatçı XX-ci əsrin ikinci yarısında yəhudilərin ad seçimi ənənələri haqqında

Aşkenaz, seferad və mizrax[9] yəhudiləri arasında bəzi oxşarlıq var: görsənir ki, bütün qruplar Bibliyadan götürülmüş Avraam (İbrahim, Abraham) və Yakov (Yaqub, Jacob) (müxtəlif formalarda), və Simha (Simcha) (həm kişi, həm qadın adı) kimi yəhudi adlarından istifadə edirlər. Bundan əlavə, bir neçə qrupun qadın adları Bibliya ilə az bağlıdır. Onlar təbiyyət və gözəlliyə aiddirlər. <…>

[4] В.А.Никонов. Этнография и ономастика (на примере Украины) Elektron variantı: http://journal.iea.ras.ru/archive/1970s/1971/Nikonov_1971_5.pdf/

[5] Soyad (latın Familia — ailə) burada: qohumlar daxil olmaqda tam tərkibli ailə.

[6] XIX-cu əsrin əvvəllərində imperatriçə II Yekaterinanın nəvəsi olan Rusiya imperatorunun adı.

[7] Qay Svetoni Trankvil (I-ci əsrin ikinci yarıxı) qədim Roma yazıçısı, tarixçisi, “On iki sezarın həyatı” əsərinin müəllifi.

[8] П. Флоренский. Имена. Katolik məlumat xidməti. http://agnuz.info/ Kitabın elektron versiyasına giriş rejimi: http://agnuz.info/app/webroot/library/211/173/page01.htm#08

[9] Yəhudi xalqının qruplarının adı: aşkenazlar Avropa yəhudilərinin Mərkəzi Avropa, german qrupudur, seferadlar Avropa yəhudilərinin İspan qrupudur, Mizrahlar Şimali Afrika, Orta və Ön Asiyadan gəlmə yəhudilərdir.

Gürcü yəhudilərinin arasında uşaqlara tez-tez rəhmətə gedən qohumların adları verilir. Digər modellərdə <…> uşaqlara həyatda olan nənə və babaların, Tövrətdən götürülmüş və yəhudi bayramlarının adları verilirdi. Gürcüstanda oğlanlardan çox qızların adları həyatda olan qohumun şərəfinə qoyulub. Oğlanlara babalarının adları qoyulub. Qızların isə adı nənələr, analar, dostlar, bir dəfə isə babanın şərəfinə qoyulub.

Azərbaycanda yaşayan dağ yəhudilərinin icmasında uşaqların əksəriyyətinə qohumların adları verilib. Oğlanlara əsasən ata və ana tərəfdən kişi qohumlarının adlarını qoyulub (27%); qızlara isə hər iki tərəfdən olan qadın qohumların adları verilib (18%)[10].

Mənbə 4 Müasir tədqiqatçı erməni ənənəsi haqqında

Orta əsrlərdə ermənilərin yeni doğulan uşaqlarına yalnız keşiş, mamaça[11], xaç atası, qonaq, ailənin böyük üzvü, dayı ad qoya bilərdi. Belə sayılırdı ki, adın sehirli təsiri var, buna görə də uşaqlara yalnız gerçək olmayan dünyalar ilə bağlı olan insanlar ad qoya bilər. Bu təsəvvürlərin əksəriyyəti XX-ci əsrin əvvəllərinədək qəlib çıxıb. Sovet dövründə şəxsi ad seçimi prosesinə VVAQ-ın[12] əməkdaşları və hətta yerli partiya idarəçiləri fəal müdaxilə edirdi. Onlar valideynlərə uşaqlarında kommunist mənalı adlar qoymağı təklif edirdilər və “qırmızı xaç suyuna salınma”[13]. mərasimləri təşkil edirdilər. Bu gün adətən uşaqların adını valideynləri qoyur. Birinci doğulan oğulların adını ata, qalan oğullar və qızların adını isə ana qoyur[14].

Mənbə 5 Müsəlman ənənələri haqqında

Uşağın adını valideynləri qoyur. Əgər ana və ata uşağın adı ilə bağlı razılığa gələ bilmirlərsə uşağa adı atası qoyur. Əgər ata bu hüququ anaya vermək istəyirsə, burada heç bir qəbahət yoxdur.

Həmçinin valideynlərin istəyilə uşağa adı başqa insan da qoya bilər: baba, nənə və ya başqası. Yuxarıda qeyd edildiyi kimi, Peyğəmbər[15] (səlləlləhu[16] əleyhi və səlləm) bəzi tərəfdarlarının uşaqlarının adını qoyurdu[17].

[10] Edwin D. Lawson. Jewish Onomastics. [Elektron resurs]: Jewish Language Research Website. — Giriş rejimi: http://www.jewish-languages.org/onomastics.html.

[11] Doğuş qəbul edən qadınlar.

[12] VVAQ (vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı) Sovet hakimiyyəti tərəfindən yaradılan xüsusi orqanlar. Bu orqanlar vətəndaşların həyatında baş verən hadisələri yazılı sənədlərlə təsdiq edirdilər.

[13] 1917-ci ilədək (yəni İnqilabdan qabaq) sonralar SSRİ-yə daxil olan xristian xalqlarının əksəriyyətində yeni doğulmuş körpəni kilsədə xaç suyuna salmaq ənənəsi var idi. 1920-ci illərdə Sovet hökuməti kilsədən bu hüququ almağa çalışdı və və xaç suyuna salma mərasiminin öz variantını fikirləşdi. Bu mərasim “qırmızı xaç suyuna salınma” adlanırdı (qırmızı rənq simvolik olaraq bolşevik inqilabı, Sovet hakimiyyəti və SSRİ-nin dövlət bayrağının rəngidir).

[14] Marqaryan N. Müəllif mətni.

[15] Burada — Məhəmməd Peyğəmbər.

[16] Allah adətən monoteist dinlərdə və daha çox İslamda istifadə olunan ən böyük qüvvəyə, yaradıcıya verilən addır.

[17] Как выбрать ребёнку имя. [Elektron resurs]: İstina http://www.mukmin.narod.ru. — Giriş rejimi: http://www.mukmin.narod.ru/ji37.html.

Blok 2. Sovet ideologiyasi və ad

5. i-i s yıəəələə s lıəşə yiə? Blə vx S

6. Qm s çi s ələləiə(ə !,)? ! s iə ələlə c ə uyu əl?

7. Uşu yi s o v o i s

Mənbə 6 Müasir tədqiqatçı Sovet dövrünün erməni adları haqqında

Sovet illərində ermənilər arasında rus adları geniş yayılmışdı: Volodya (Vladimir), Slava, Yura, Boris, Svetlana, Nadya (Nadejda), Larisa, İrina və s. Volodya adı Sosialist inqilabının başçısı Vladimir Lenin ilə bağlıdır. Həmçinin ideoloji yük daşıyan adlara da rast gəlmək olardı. Bu adlar tez-tez abreviatura (qısalmış) şəkildə təqdim edilirdi: Kim (gənclərin kommunist internasionalı), Lendroş ("Leninyan droş" — Leninin bayrağı), Lekdar ("lsir yeritasard kommunist darsir" — qulaq as, oğlan, kommunist ol), Vilen (Vladimir İlyiç Lenin), Lenvel (böyük Lenin), Mels (Marks, Engels, Lenin, Stalin), Marlen (Marks, Lenin) və s.[18].

Mənbə 7 AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru Azərbaycanda uşaqlara verilən adlar haqqında

Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru Fəxrəddin Veysəllinin sözlərinə görə, respublikada bədii əsərlər və seriallardan götürülmüş adların qoyulması ilə mübarizə aparılır. Veysəlli əlavə edib: "Biz kitablar və digər vasitələr nəşr edirik. Onlar zamanın müasir ruhunu əks etdirir. Orada ən müasir adlar var".

Qeyri-adi adlar Azərbaycanda hələ ötən əsrin ortalarında meydana çıxıb. Düzdür, həmin dövrdə hələ kommunist tematikası üstünlük təşkil edirdi. Buna görə də respublikada Sovet, Sovmin, Stalin, hətta Traktor adlı insanlar yaşayır. Amma, adətən, belə raritet olan adlarla fəxr edir və onları dəyişmək istəmirlər[19].

Mənbə 8 Elmira adının mənşəyi haqqında

Elmira adının mənşəyinin bir neçə versiyası var. Bir versiyaya əsasən, "Elmira sovet inqilabi adıdır. Bu ad "dünyanın elektrikləşdirilməsi" (rus dilində — «Электрификация Мира») söz birləşməsindən yaranıb"[20].

[18] Маргарян Н.М. Этнографические полевые материалы. Ереван. 2011. (на арм. языке).

[19] Алиева А.В. Азербайджане появились новые правила изменения фамилии [Elektron resurs] Aze15 http://www.aze.az. — Giriş rejimi: http://aze.az/news_v_azerbaydzhane_poyavilis_89188.html.

[20] Значение имени Эльмира. [Elektron resurs] Как зовут.ру http://www.kakzovut.ru. — Giriş rejimi: http://www.kakzovut.ru/names/elmira.html.

Mənbə 9 Moskva qəbiristanlığında görüntü[21]

Kara-Mosko İdeya Nikolayevna (1925–2009).

Mənbə 10 Din amintirile colegilor de serviciu

1982-ci ildə mən Ukrynanın mərkəzində yerləşən kiçik şəhərlərdən birində dəmiryol xəstəxanasında işləyirdim. Uşaq şöbəsinin çox maraqlı kollektivi var idi. Bir gənc mütəxəssis kimi mən həm həkim həmkarlarım, həm də tibb bacıları ilə yaxşı münasibət qurmağa çalışırdım, axı məhz onların sayəsində uşaqların müalicəsi daha uğurlu davam edirdi. Tibb bacıları arasında mehriban və bununla yanaşı çox tələbkar Oktyabrina İvanovna xüsusilə seçilirdi. Onun təxminən 50 yaşı var idi. İlk tanışlıqda onun adını eşidəndə çox təəccübləndim. Yəgin ki, o bunu hiss etdi, çünki üzünü mənə tutub dedi: “Təəccüblənməyin. Mənim adım çox xoşuma gəlir. Atamın niyə mənə belə ad verməsini anlayıram. Adım nadir ad olsa da, gözəl addır, elə deyil mi? Atamın tanışları var idi, qızlarına Pyatiletka (Beşillik plan nəzərdə tutulur — tərc.) adı qoymuşdular. Təsəvvür edirsiniz? Pyatiletka Karpovna! Yaman şüurlu idilər”[22].

Blok 3. Ad və dövlət

▼

8. [illegible]

9. [illegible]

10. [illegible]

11. [illegible]

[21] Y.Kuşneryovanın fotosu.

[22] 2008-ci ildə İ.A.Kostyuk tərəfindən yazılmış P.A.Kostyukun xatirələrindən.

Mənbə 11 KİV-lərdə təqdim edilən məlumatlardan

P47 yaşlı rəssam Vyaçeslav Voronin öz yeni doğulan oğluna hərf və rəqəmlərdən ibarət olan ad qoyub: BOÇ rVF 260602. Müasir valideynlərin fkrinə görə (ana bu məsələdə ata ilə razıdır), bu ad "Voronin-Frolov nəslinin Bioloji Obyekti olan İnsan (rus dilində — Çelovek), 2002-ci ilin 26 iyununda anadan olub" mənasını daşıyır. Ətrafdakıların təəccübünə cavab verərək xoşbəxt ata deyir: "Artıq azad insan olmaq və uşağa əsil, yeganə və təkrarolunmaz ad vermək lazımdır. Axı, mahiyyətcə, Pyotr və ya İvan ad deyil, ləqəbdir. Hətta İvanov Pyotr Semyonoviç ad deyil, çünki belə adla dünyada çox insan var. Bir sətirdə yazılmış İvanov Pyotr Semyonoviç, 25. 07. 1943-cü il təvəllüdlü, 43-cü milis bölməsi, üstə gəl pasportun nömrəsi — bax bu artıq identifkasiya sistemi və konkret insanın adıdır".

Vyaçeslav öz adına da pis yanaşır və özünə yeni BOÇ rVP 250856 adı götürmək istəyir. Bu adın mənası belədir: Voronin-Parxomenko nəslinin Bioloji Obyekti olan İnsan, 1956-cı ilin 25 avqustunda anadan olub.

VVAQ-da belə müasir "adı" olan uşağı qeydiyyata almaqdan imtina etdilər. Lakin yorulmaz valideynlər VVAQ şöbəsini məhkəməyə veriblər və Çertanovsk VVAQ şöbəsinin direktoru Lyudmila Saxarovanın "düşərgə adları"[23], adlandırdığı identifkasiya sistemini gündəlik həyatımıza gətirməkdə israrlıdırlar[24].

Mənbə 12 "Adlar haqqında" Qanundan (Estoniya, 2004)

Maddə 7. Adlara qoyulan tələblər.

Rəqəm və qeyri-verbal işarələrdən ibarət olan, həmçinin təklikdə və ya soyadlarla birlikdə yaxşı ənənələrə uyğun olmayan adlar qoymaq qadağandır… Üzrlü səbəb olmadan aşağıdakı adları vermək olmaz:

1) mürəkkəb olduğuna görə, yazılış və ya oxunuş ümumi dil qaydalarına uyğun olmayan, və ya ümumi dil mənasına görə uyğun gəlməyən qeyri-adi ad;

2) uşağın cinsiyyətinə uyğun olmayan ad;

3) hamının tanıdığı şəxsi adın özü və ya qısaldılmış forması, tanınmış müəllifn adı və ya xidməti adı.

Bu Qanuna əsasən, xidməti ad altında şəxsin rəsmi adı yox, xidməti vəzifələrini yerinə yetirərkən istifadə etdiyi ad nəzərdə tutulur

Bu maddənin 2 və 3-cü hissələrin əsasnamələrindən aşağıdakı istisnalar ola bilər: əgər uşağın və yaxud onun valideynlərinin onların vətəndaşlığı, ailə münasibətləri, milli mənsubiyyəti və digər hallarla bağlı başqa dilli onomastik[25] ənənə ilə şəxsi əlaqəsi var və verilən ad ona uyğundur[26].

[23] Nasist Almaniyasında həbs düşərgələrində məxbusların adlarını alıb onlara nömrə verirdilər. Bununla da onlar alçaldılaraq, faktiki olaraq, cəmiyyətdən uzaqlaşdırılırdılar.

[24] Прозоров Л.Р. Три заметки об именах http://www.perunica.ru/2010/01/17/tri-zametki-ob-imenax.html.

[25] Onomastika adlar haqqında elmdir.

[26] Эстония: Закон об именах [Elektron resurs]: http://transcoalition.info/. Giriş rejimi: http://transcoalition.info/laws/estonia-names-law

Mənbə 13 Erməni etnoqrafı N. Marqaryanın materiallarından

Ermənistanda rayon VVAQ şöbələrinin birində əməkdaşlar valideynlərə uşaqlarına Krişna[27] adı verməyə icazə verməyiblər, çünki, onların sözlərinə görə, bu ad erməni adları siyahısında yoxdur və, ümumiyyətlə, erməni adı deyil. Bir dəfə də VVAQ şöbəsinin əməkdaşları uşağa babasının şərəfinə İlyiç adı qoymağa icazə verməyiblər. Onların sözlərinə görə, İlyiç və Vladimirin vaxtları çoxdan keçib (çünki bu, SSRİ rəhbəri Leninin adı və atasının adıdır). İndi uşaqlara milli qəhrəmanların adlarını qoymaq lazımdır[28]…

Mənbə 14 Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavininin müsahibəsindən

Azərbaycanda yeni doğulan uşaqlara indi daha tez-tez milli və türk mənşəli adlar verirlər. Bunu 2010–2012-ci illərin statistikası göstərir. Terminologiya Komissiyasının sədrinin təyinindən sonra xüsusi adların istifadəsinə nəzarət etmək üçün ayrıca iş qrupu yaradılacaq. Bunun üçün VVAQ şöbələrinə adlar kitabları təqdim ediləcək. VVAQ şöbələrinin hüquqşünasları uşaqlarına milli adların əvəzinə gülməli adlar verən valideynləri maarifləndirməlidir[29].

◆ Məlumat

Müstəqilliyin bərpasından sonra bir çox dövlətlərdə milli identikliyin mühüm hissəsi olan dilin qorunub saxlanılması, müdafəsi və inkişafı məqsədilə "Dövlət dili haqqında" qanunlar qəbul edilib. Bu qanunlarda şəxsi adların təsviri qaydalarına da diqqət yetirilib (məsələn, Latviyanın "Dövlət dili haqqında" Qanununun 19-cu maddəsi).

▼

12. M ə l ə r ə i ş s ə l ə i n ə i (r ə t ə)? i s
i y y ə

13. "
V
q q ı v ı?" l ı ü z i ə ə ö z ö v q y i z i

Mənbə 15 Latviya Respublikasının 21.12.1999-cu il tarixli "Dövlət dili haqqında" Qanunundan

Maddə 19.

(1) Şəxsi adlar latış dilinin ənənələrinə əsasən təsvir edilir və bu maddənin ikinci hissəsinin əsasnamələrinə riayət edilməklə ədəbi dilin qüvvədə olan normalarına əsasən yazılır.

[27] Krişna induizmdə ən populyar ilahilərdən biridir. Hindistanın hüdudlarından kənar, o cümlədən Avropa və keçmiş SSRİ ərazisində yaşayan ayrı dini qrup üçün Baş tanrıdır.

[28] Маргарян Н.М. Этнографические полевые материалы. 2011 (на арм.языке).

[29] Исабалаева И. В Азербайджане детям чаще дают национальные имена [Elektron resurs]: Trend http://www.trend.az/. Giriş rejimi: http://www.trend.az/news/society/2158276.html

(2) əgər şəxs və ya həddə buluğa çatmayan şəxsin valideynləri istəyir və sənədlər əsasında bunu təsdiq edə bilərlərsə, pasport və ya doğum haqqında şəhadətnamədə şəxsin latış dilinin qüvvədə olan normalarına əsasən təsvir edilən adı və soyadı ilə yanaşı bu şəxsin irsi soyadının tarixi forması və ya şəxsi adın latın əlifbasının transliterasiyasında başqa dildə olan orijinal forması göstərilir[30].

Mənbə 16 Latviyanın məhkəmə təcrübəsindən nümunə

2013-cü ildə Liyepai şəhərinin inzibati rayon məhkəməsi uşağına "Miron[31] Antonov" adı və soyadı vermək istəyən atanın iddiasına əsasən işə baxıb. Ata uşağını bu ad və soyadla qeydiyyata almaq və VVAQ şöbəsindən 2700 lat miqdarında kompensasiya tələb edirdi.

Məhkəmə VVAQ şöbəsinin Latviyada qeyri-latış şəxsi adlarının latış dilinin normalarına əsasən yazılması haqqında arqumentinə əsaslanaraq ərizəyə rədd cavabı verib. Beləliklə, uşağı "Mirons Antonovs"[32]. adı və soyadı ilə qeydiyyatdan keçirmək olardı. Lakin uşağın valideynləri problemin bu cür həlli ilə qəti sürətdə razı deyillər. Əvvəl verilən məlumata əsasən, adın "s" sonluğu ilə səslənməsi ("Mirons") "mironis" ("ölü", "cənazə") latış sözünü xatırladır, bu da oğlanın ailəsini heç cür qane etmir[33].

Yekun müzakirə

ə x s i s çi ə ə iy y ə
o lu u?

[30] Законы Латвии на русском. [Elektron resurs]: http://latvia.news-city.info/. Giriş rejimi: Латвийская Республика. http://latvia.news-city.info/docs/sistemsf/dok_iercib.htm.

[31] Miron adı "miro, ətirli yağ", "ağlayan" mənalarını daşıyan yunan sözündən yaranıb.

[32] Latış dilinin qüvvədə olan normalarına əsasən kişi adları "-s" hərf ilə bitir. Məsələn, Pēteris (Peteris), Jānis (Yanis).

[33] Суд не позволил назвать ребенка именем «Miron» [Elektron resurs]: http://rus.delf.lv. Giriş rejimi: http://rus.delf.lv/news/daily/latvia/sud-ne-pozvolil-nazvat-rebenka-imenem-miron.d?id=43493757#ixzz3A4oFwnY8

Tarix və mədəniyyət yaddaşlarda və abidələrdə

Xalqın tarixinin və mədəniyyətinin öyrənilməsində abidələr hansı rolu oynayır?

1.	S
2.	
3.	A
4.	S
5.	A
6.	A
7.	X

Mənbə 1 Eçmiadzin kilsə kompleksinin girişində ucaldılan abidənin bir hissəsi — arka[1]

[1] Çar Üçüncü Trdat və Katolikos Maarifçi Qriqori. Eçmiadzin. K.Bayramyanın fotosu. 2013-cü il.

Blok 1. Tarix və mədəniyyət abidələri

▼

8. [illegible]

9. [illegible]

Mənbə 2 Abidə nədir?

ABİDƏ ölkənin, xalqın, bəşəriyyətin mədəni irsinin bir hissəsini təşkil edən obyektdir (arxeoloji, tarixi, incəsənət abidələri və s.). Abidələr insanları və ya hadisələri əbədiləşdirmək üçün yaradılan incəsənət əsərləridir; məsələn, heykəllərdən ibarət qrup, heykəl, büst, relyef və ya yazı həkk olunan lövhə, triumf arkası, sütun, obelisk və s. Abidələrin ən inkişaf etmiş növü memorial tikililərdir. Abidə irsin, dövrün, xalqın, dövlətin nailiyyətlərinin, onun mədəniyyətinin bir hissəsidir[2].

◆ Tarixi məlumat

Ermənistan həmişə Avropa və Asiyanı birləşdirən yolların qovşağında yerləşib. Bu qədim torpaqlarda bütün dövrlərin izlərinə rast gəlmək olar, buna görə də tarix və mədəniyyət abidələrinin sayına görə bu ölkə Köhnə Dünyada ən maraqlı yerlərdən biri hesab edilə bilər. Təsadüf deyil ki, Ermənistanı "açıq səma altında muzey" adlandırırlar. Burada, demək olar ki, Köhnə Dünyanın bütün qədim sivilizasiyalarının izləri mövcuddur. Çoxsaylı incəsənət və memarlıq abidələri ölkəni keçmiş mədəniyyətin şah əsərlərinin qorunub saxlandığı yerə və ekspozisiyasına çevirir.

Blok 2. Heykəllər kimə və nəyə görə ucaldılır?

▼ **Qruplara paylanan vərəqlərə aid sual və tapşırıqlar**

10. [illegible]

11. [illegible]

12. [illegible]

13. [illegible]

14. [illegible]

[2] Большой энциклопедический словарь [Elektron resurs]. — Giriş rejimi: http://enc-dic.com/print/enc_big/Pamjatnik-43821.html.

1-ci qrup.



Mənbə 3 Yerevanda Hayka həsr olunmuş heykəl[3]

Mənbə 4 Erməni xalqının Atası

…ermənilər Haykdan əmələ gəliblər. Rəvayətə görə, Hayk Belı adında zülmkar tiranla mübarizə aparıb və ona qalib gəlib. Buna əsasən ermənilər ermənilərin yarandığı tarixi e.ə. 2492-ci ilin avqust ayının 11-dən hesablayır… Haykın adından irəli gələrək erməni xalqı "Hay", ölkə isə "Hayastan" adlanır[4].



Mənbə 5 Yerevanda Ovanes Tumanyanın heykəli

Mənbə 6 Ovanes Tumanyan (1896–1923)

Şair, nasir, ədəbi-ictimai xadim. Tumanyan yeni erməni mədəniyyətinin yaradılmasında fəal iştirak edib. 1921-ci ildə o, Tiflisdə Erməni incəsənət evinin əsasını qoyub. Həmin il Tumanyan Ermənistana kömək komitəsinin prezidenti seçilib. Şairin yaradıcılıq prinsipləri daha dolğun onun poema və balladalarında əks olunub[5].

[3] 3, 5, 9, 11, 13, 17, 19, 21, 27, 33, 39 və 41 saylı fotolar K.Bayramyan tərəfindən çəkilib. 2013–2014-cü illər.

[4] Происхождение и формирование армянского народа. [Elektron resurs] www.historyofarmenia.am. — Giriş rejimi: http://www.historyofarmenia.am/ru/Encyclopedia_of_armenian_history_hay_joxovrdi_tsagumn_u_kazmavorumy.

[5] Туманян Ованес. [Elektron resurs] http://www.armenianlanguage.am/ru/Encyclopedia. — Giriş rejimi: http://www.armenianlanguage.am/ru/Encyclopedia_tumanyan_hovhannes.

Mənbə 7 Yerevanda Aram Xaçaturyanın heykəli[6]

Mənbə 8 Aram Xaçaturyan (1903–1978)

Bəstəkar, dirijor, xalq artisti, sənətşünaslıq doktoru. Xaçaturyan musiqinin inkişafına əhəmiyyətli dərəcədə təsir edib, erməni xalq musiqisini dünyaya tanıdıb. Xaçaturyan ilk milli baletin müəllifdir, erməni kino musiqisinin banisidir. Yerevanda Filarmoniyanın böyük zalı Xaçaturyanın adını daşıyır. YUNESKO "Dünyanın yaddaşı" beynəlxalq registrinə Aram Xaçaturyanın kino musiqisini və notlarını daxil edib[7].

Mənbə 9 Yerevanda Viktor Ambartsumyanın heykəli

Mənbə 10 Viktor Ambartsumyan (1908–1996)

Görkəmli astrofzikdir. 1934-cü ildə Ambartsumyan SSRİ-də ilk Astrofzika kafedrasını yaradıb və onun müdiri olub. Ambartsumyanın ulduz sistemlərinin statistikası və dinamikası üzrə tədqiqatları ulduz sistemlərinin müasir statistik mexanikasının əsasını təşkil edir. Bu tədqiqatlara görə o, 1995-ci ildə Rusiya Federasiyasının Dövlət mükafatına layiq görülüb. Ambarsumyan Byurakan Rəsədxanasının əsasını qoyub və onun direktoru olub[8].

[6] Rita Villayertin fotoları. Müəllifn icazəsi ilə nəşr edilir. Giriş rejimi: https://www.flickr.com/photos/rietje/2907515182/

[7] Юнеско включила в программу ,,Память Мира" Арама Хачатуряна. — [Elektron resurs]: http://www.vestikavkaza.ru/ — Giriş rejimi: http://www.vestikavkaza.ru/news/YUNESKO-vklyuchilo-v-programmu-Pamyat-mira-Arama-KHachaturyana.html.

[8] Академик Амбарцумян Виктор Амазаспович. Жизнь и творчество (1908–1996). — [Elektron resurs]: http://vambartsumian.org/ — Giriş rejimi: http://vambartsumian.org/index.php?cat=biogr&sec=0#01.

2-ci qrup.

Mənbə 11 Yerevanda Mesrop Maştotsun heykəli

Mənbə 12 Mesrop Maştots (361/362–440)

405-ci ildə Maştots 36 hərfdən ibarət erməni əlifbasını yaradıb. Doğma erməni dilindən başqa o, yunan, Suriya və fars dillərini də bilirdi. Maştots insanlar üçün Bibliyanı şifahi tərcümə edib. Katolikos Saakın köməyilə Maştots ilk dəfə olaraq Ermənistanda məktəblər açıb. O, xristian Ermənistanında ilk ali təhsil müəssisəsinin əsasını qoyub, tədris metodikasını hazırlayıb və erməni dili üzrə ilk dərslik yaradıb[9].



Mənbə 13 Yerevanda David Anaxtın heykəli

Mənbə 14 David Anaxt (Məğlub edilməz) (təxminən 475 — VI-cı əsrin birinci yarısı)

David Anaxt erməni flosofudur. Fəlsəf disputlarda qələbə qazandığına görə Üçqat böyük flosif və Məğlub edilməz (Anaxt) flosof ləqəbi alıb. David Anaxta görə, fəlsəfə müdrikliyin anasıdır, o, bütün elm və incəsənət sahələrinin (yalnız bədaye yox, həmçinin sənət növlərinin) əsasını təşkil edir, bu sahələrdə olan səhfəri düzəldir[10].

[9] Месроп Маштоц. — [Elektron resurs]: http://ru.hayazg.info/ — Giriş rejimi: http://ru.hayazg.info/Месроп_Маштоц.
[10] Давид Анахт. — [Elektron resurs]: http://dic.academic.ru/ — Giriş rejimi: http://dic.academic.ru/dic.nsf/enc_philosophy/5940/ДАВИДэ.

Mənbə 15 Yerevanda Aleksandr Spendiaryanın heykəli

Mənbə 16 Aleksandr Spendiaryan (1871–1928)

Bəstəkar, dirijor, pedaqoq, ictimai xadim, xalq artisti. Erməni musiqisinin klassikidir. Bəstəkar olaraq, Spendiaryan realist incəsənətin inkişafında iştirak edib, proqramlı musiqiyə meyl göstərib, öz əsərlərində şairanə şəkildə təsvir olunmuş təbiət obrazlarını, xalq həyatının məişət şəkillərini yaradıb[11].

Mənbə 17 Yerevanda Martiros Saryanın heykəli

Mənbə 18 Martiros Saryan (1880–1972)

Ermənistanda ən çox ehtiramla yad edilən rəssam, yeni və aktual "Saryan" incəsənəti yaradıb. O, Ermənistan Dövlət Muzeyinin banisi və rəhbəri olub. Saryan ən yeni dövr rəssamlığının erməni milli məktəbinin banisidir. Saryanın əsərləri Ermənistan Milli Qalereyasında və onun filiallarında, Moskvada Tretyakov Qalereyasında, bir çox xarici muzeylərdə, həmçinin şəxsi kolleksiyalarda saxlanılır[12].

[11] Спендиаров. [Elektron resurs] http://dic.academic.ru. — Giriş rejimi: http://dic.academic.ru/dic.nsf/bse/170514/Спендиаров.

[12] Певец Армении. [Elektron resurs] http://www.centre.smr.ru. — Giriş rejimi: http://www.centre.smr.ru/win/artists/saryan/biogr_saryan.htm.

3-cü qrup.

Mənbə 19 Yerevanda Moisey Xorenskinin heykəli

Mənbə 20 Moisey Xorenski (təxminən 410–490)

Tarixçi, erməni tarixşünaslığının banisi, Xoreai kəndində anadan olub, buna görə də onu Xorenasi adlandırırlar. Mesrop Maştots və digər şagirdlərilə birlikdə Bibliyanı erməni dilinə tərcümə edib. Onun əsas əsəri olan "Ermənistan tarixi" erməni və xarici (Suriya, Yunanıstan və s.) mənbələrə əsaslanaraq yaradılan erməni xalqının ilk sistematik tarixidir. Bu əsər erməni tarixşünaslığının inkişafına böyük təsir göstərib, bir çox xarici dillərə tərcümə olunub[13].

Mənbə 21 Yerevanda Qriqor Narekatsinin heykəli

Mənbə 22 Qriqor Narekatsi (951–1003)

Erməni şairi, flosofu və ilahiyyətçisidir. Erkən Ermənistan İntibahının nümayəndəsidir. Onun dünyanın bir çox dillərinə tərcümə olunmuş "Kədərli mahnılar kitabı" lirik-mistik poeması erməni ədəbi dilinin inkişafında əhəmiyyətli rol oynayıb. İlk dəfə 1673-cü ildə Marseldə nəşr edilib. Bundan əvvəl isə əlyazma şəklində yayılıb[14].

[13] Энциклопедия фонда «Хайазг», Мовсес Хоренаци. [Elektron resurs]: http://ru.hayazg.info — Giriş rejimi: http://ru.hayazg.info/Мовсес_Хоренаци.

[14] Энциклопедия фонда «,Хайазг» Григор Нарекаци. [Elektron resurs]: http://ru.hayazg.info — Giriş rejimi: http://ru.hayazg.info/Григор_Нарекаци.

Mənbə 23 Yerevanda Aleksandr Qriboyedovun heykəli[15]

Mənbə 24 Aleksandr Qriboyedov (1795–1829)

Rusiya diplomatı, şairi, dramaturqu, zadəganı, məşhur "Ağıldan bəla" pyesinin müəllifdir. İlk dəfə bu pyesin tamaşası 1827-ci ildə Yerevan qalasında baş tutub. 1828-ci ildə Qriboyedov erməni xalqının taleyində böyük rol oynamış Rusiya və Fars dövləti arasında Türkmənçay müqaviləsinin bağlanmasında fəal iştirak edib. Rusiyanın Tehrandakı səfiri olub[16].

Mənbə 25 Yerevanda Mikael Nalbandyanın heykəli[17]

Mənbə 26 Mikael Nalbandyan (1829–1866)

Erməni yazıçısı, publisisti, təndiqçisi, ictimai xadimidir. "Birinə söz, o birinə gəlin" (1858), "Ölülərin sualları" (1859, tamamlanmayıb), "Gündəlik" (1858–1860) romanlarının müəllifdir. Nalbandyanın azadlıq uğrunda mübarizə pafosu ilə dolu vətəndaş lirikası çox populyar idi. O, A. S. Puşkin, M. Y. Lermontov, H. Heyne və digər şairlərin əsərlərini tərcümə edib. Ermənistan himninin müəllifdir[18].

[15] Qriboyedovun heykəli· — [Elektron resurs]: http://charkhchyan.wordpress.com. — Giriş rejimi: http://charkhchyan.wordpress.com/2013/11/27/գրիբոյեդովի-արձանը/.

[16] Авторский текст К. Байрамяна и Л. Оганесян. Həmçinin bax: [Elektron resurs]: http://www.wisdoms.ru. — Giriş rejimi: http://www.wisdoms.ru /avt/b65.html.

[17] Foto Armineaghayan (Own work) [CC BY-SA 3.0 (http://creativecommons.org/licenses/by-sa/3.0)], via Wikimedia Commons. — [Elektron resurs]: http://commons.wikimedia.org/wiki/File:Nalbandyan_M._%281%29.JPG.

[18] Микаел Налбандян Elektron resursdan adaptasiya olunmuş mətn: http://www.peoples.ru Giriş rejimi: http://www.peoples.ru/art/literature/story/nalbandian/.

4-cü qrup.

Mənbə 27 Yerevanda İkinci Böyük Tiqranın heykəli

Mənbə 28 İkinci Böyük Tiqran (e.ə. 140–55)

Ermənistanın ən məşhur çarı, e.ə. 95–55-ci illərdə hakimiyyətdə olub. Tiqranakert şəhər-paytaxtının əsasını qoyub. Böyük Tiqranın hakimiyyəti dövründə Ermənistan Ön Asiyanın ən güclü dövlətinə çevrilib. Tiqranın hakimiyyəti dövründə kəsilmiş qızıl, gümüş və tunc sikkələr dövrümüzə qədər gəlib çatıb. Sikkələrin üzərində Tiqranın təsviri və "Çarların çarı" titulu həkk edilib[19].

Mənbə 29 Yerevanda Oqanes Ayvazovskinin heykəli[20]

Mənbə 30 Oqanes Ayvazovski (1817–1900)

Erməni mənşəli dünya şöhrətli marinist rəssam, kolleksiyaçı. Ayvazovski əsasən dəniz peyzajları yazıb. Rəssamın 6 mindən çox əsəri var. Onun yaradıcılığının romantik çalarları ən çox "Doqquzuncu dalğa" əsərində özünü biruzə verib. İncəsənətə verdiyi töhfələr bütün dünyada qeyd edilib. O, 5 bədaye akademiyasının üzvü seçilib[21].

[19] Тигран Великий. — [Elektron resurs]: http://www.globalarmenianheritage-adic.fr — Giriş rejimi: http://wwwglobalarmenianheritage-adic.fr/0ru/5music/0tigran1.htm.

[20] Oqanes/İvan/ Ayvazovskinin heykəli. Yerevan. K. Bayramyanın fotosu. 2014-cü il.

[21] Иван Айвазовский. — [Elektron resurs]: http://ivan.evart.ru. — Giriş rejimi: http://ivan.evart.ru./bio.

Mənbə 31 Yerevanda Komitasın heykəli[22]

Mənbə 32 Komitas (Sogomon Sogomonian) (1869–1935)

Bəstəkar, musiqiçi, müğənni, dirijor, pedaqoq, erməni milli bəstəkarlıq məktəbinin banisidir. Komitas beynəlxalq musiqi təşkilatının banisi və üzvüdür. Burada o, erməni musiqisi haqqında məruzələrlə çıxış edib. Komitasın şərəfnə simli kvartet, Yerevan konservatoriyası, kamera musiqisi evi, prospekt, park adlandırılıb. Komitasın heykəlləri Yerevan, Eçmiadzin və Parisdə ucaldılıb[23].

Mənbə 33 Yerevanda Vilyam Saroyanın heykəli

Mənbə 34 Vilyam Saroyan (1908–1981)

"Mən ingilis dilində yazsam və Amerikada doğulsam da, özümü erməni yazıçısı hesab edirəm. Sözlər ingilis dilində yazılıb. Təsvir etdiyim mühit Amerika mühitidir. Məni yazmağa vadar edən qəlbim isə erməni qəlbidir. Deməli, mən erməni yazıçısıyam". Bu, Ermənistanda olduqca yaxşı qəbul edilən və çox sevilən yazıçının sözləridir[24].

[22] Комитас. — [Elektron resurs]: http://commons.wikimedia.org/ — Giriş rejimi: http://commons.wikimedia.org/wiki/File:Statue_of_Komitas_Vardapet,_Yerevan,_Armenia.jpg.

[23] Комитас. — [Elektron resurs]: http://www.armeniaculture.am — Giriş rejimi: http://www.armeniaculture.am/ru/Encyclopedia_komitas.

[24] О Виляме Сарояне. — [Elektron resurs]: http://magazines.russ.ru — Giriş rejimi: http://magazines.russ.ru/interpoezia/2011/1/ba13-pr.html.

5-ci qrup.

Mənbə 35 Yerevanda Akop Meqapartın heykəli[25]

Mənbə 36 İlk çapçı Akop Meqapart (XV-XVI-ci əsrlər)

Akop Meqapart haqqında bioqrafik məlumat yoxdur. 1512-ci ildə erməni ilk çapçısı Akop Meqapart (Meqapart "günahkar" deməkdir) ilk erməni çap kitabı olan "Cümə kitabı"nı ("Urbatagirk") çap elədi. Onun fəaliyyətinin səyəsində erməni dili dünyanın ilk çap dillərindən biri oldu[26].

Mənbə 37 Yerevanda Vaqram Papazyanın heykəli[27]

Mənbə 38 Vaqram Papazyan (1888–1968)

Erməni aktyoru. 1907-ci ildən səhnədə olub (İstambul). 1922–1953-cü illərdə erməni və rus truppaları ilə SSRİ respublikalarında və xaricdə qastrolarda olub. 1954-cü ildən Q.M.Sundukyan adına erməni teatrında (Yerevan) çalışıb. Əsasən V.Şekspirin pyeslərində baş rolları ifa edib (Romeo — "Romeo və Cülyetta", 1908; Hamlet — "Hamlet", 1912; Lir — "Kral Lir", 1914; Otello rolu ("Otello") ona şöhrət gətirib, 1932). XIX-cu əsrin Avropa aktyorluq sənətinin ənənələrinin varisi olub və ənənəvi erməni tragediya teatrını inkişaf etdirib[28].

[25] Akop Meqapartın heykəli. Yerevan. K.Bayramyanın fotosu. 2014-cü il.

[26] Акоп Мегапарт. — [Elektron resurs]: http://dic.academic.ru/ — Giriş rejimi: http://dic.academic.ru/dic.nsf/ruwiki/613872.

[27] Foto Armineaghayan (Own work) [CC BY-SA 3.0 (http://creativecommons.org/licenses/by-sa/3.0)], via Wikimedia Commons: Elektron resurs: http://commons.wikimedia.org/wiki/ /File:Վահրամ_Փափազյան_(2).JPG

[28] Ваграм Папазян. — [Elektron resurs]: http://dic.academic.ru — Giriş rejimi: http://dic.academic.ru/dic.nsf/enc1p/35654/ПАПАЗЯН.

Mənbə 39 Yerevanda Arno Babacanyanın heykəli

Mənbə 40 Arno Babacanyan (1921–1983)

Tanınmış bəstəkar, pianoçu və pedaqoq, SSRİ xalq atisti, ən görkəmli və sevimli bəstəkarlardan biridir. Beynəlxalq festival və müsabiqələrdə onun mahnıları ən yaxşı yerləri tutub. Sonralar Arno Babacanyan yazırdı: "Bir gün bizə bir insan gəldi. Bu insan bizdən mahnı oxumağımızı xahiş etdi ki, kimin musiqini qavramaq qabiliyyəti olduğunu müəyyən etsin. Mən də oxudum və ritm ilə əl çaldım. Bu insan qulaq asıb dedi ki, mən musiqi ilə məşğul olmalıyam. Sonra mənə dedilər ki, bu insan Aram İlyiç Xaçaturyan idi"[29].

Mənbə 41 Yerevanda Tiqran Petrosyanın heykəli

Mənbə 42 Tiqran Petrosyan (1929–1984)

Şaxmat üzrə dünya çempionudur. Botvinnik ilə yarış 1963-cü ildə baş tutdu. 33 yaşlı Tiqran şahmat üzrə yeni dünya çempionu oldu. Petrosyan altı il dünya çempionu titulunu əldən vermədi. O, erməni xalqının kumiri və qüruru idi. "Dəmir Tiqran" ləqəbi Tiqran Petrosyana gözəl müdafiə bacarığına görə, "Şahmat solaxayı" ləqəbi isə ən təcrübəli rəqiblərini belə çıxılmaz vəziyyətə salan qeyri-adi oyun tərzinə görə verilmişdi[30].

[29] Арно Бабаджанян. — [Elektron resurs]: http://babadzanyan.narod.ru. — Giriş rejimi: http://babadzanyan.narod.ru/bio.htm.

[30] Тигран Петросян — чемпион мира по шахматам. — [Elektron resurs]: http://www.gambiter.ru. — Giriş rejimi: http://www.gambiter.ru/chess/item/306-tigran-petrosyan.html.

Blok 3. Tarix və mədəniyyət yaddaşlarda və abidələrdə

15. ƯNE S
u (İ KO M O
ə s iş x ü s u s i ü

16.
i s iz ? B, iy ə ş v i?

17. Ə ə u ü ə - s ı i s ə v ə y x i ə ə ü
o ə s ə y ə l ə c

Mənbə 43 Beynəlxalq abidələr və tarixi yerlər günü haqqında

1983-cü ildə YUNESKO yanında yaradılmış Abidələrin və tarixi yerlərin müha f - zəsi məsələləri üzrə Beynəlxalq Şuranın (İKOMOS) Assambleyasında ümumdünya mədəni irsin müxa f zəsi və qorunub saxlanılması məsələlərinə ictimaiyyətin diqqətini cəlb etmək məqsədilə 18 aprel Beynəlxalq abidələr və tarixi yerlər günü elan edilib[31].

Mənbə 44 Yerevanda Lenin meydanı. 1980-ci il[32]

[31] Международный день памятников и исторических мест. — [Elektron resurs]: wttp://ru.wikipedia.org/ — Giriş rejimi: http://ru.wikipedia.org/wiki/Международный_день_памятников_и_исторических_мест.

[32] Yerevanda Lenin meydanı. 1980-ci il. [Elektron resurs]: http://di-sok.livejournal.com — Giriş rejimi: http://disok.livejournal.com/5839.html.

Mənbə 45 Yerevanda Respublika meydanı. 2014-cü il[33]

Mənbə 46 Erməni sovet tarixçisinin Lenin haqqında 1970-ci ildə səsləndirdiyi fikir

Böyük Leninin adı bütün xalqlar üçün azadlıq simvoludur. Bəşəriyyət tarixində xalqlara azadlıq və xoşbəxt həyata doğru yol göstərən leninizm ideyaları kimi ictimai inkişaf ideyalarının hərtərəfi təsiri mövcud olmayıb… Leninin ölməz ideyaları erməni xalqına yalnız azadlıq və xoşbəxt həyat bəxş etmədi, həmçinin onu tam olaraq fiziki məhvdən xilas etdi. İqtisadi cəhətdən geridə qalan, küllüyə çevrilən Ermənistan sovet hakimiyyəti dövründə yüksək inkişaf etmiş elm və mədəniyyətə sahib olan qabaqcıl sənaye respublikasına çevrildi[34].

Mənbə 47 Müasir erməni ictimai xadimin Lenin haqqında fikri

SSRİ dövründə siyasi məhbus olmuş Ermənistan Milli Məclisinin parlament üzvü Azat Arşakyan Leninin obrazını fərqli təqdim edir. Onun fikrincə, Leninin inqilabı ona əsaslanırdı ki, o, öz siyasi rəqiblərini məhv etdi. O, erməni xalqına az bəla gətirmədi. Bu, faciə idi. Lenin qanlı inqilab etdi və rəqiblərinin hamısını məhv etdi. Leninizm başdan-ayağadək qanın içindədir[35].

[33] Площа Республики. Ереван. Фотобанк Лорі. https://lori.ru/.

[34] Агаян Ц.П. В.И. Ленин и освобождение армянского народа. [Elektron resurs] http://lraber.asj-oa.am. — Giriş rejimi: http://lraber.asj-oa.am /1622/1/19.pdf.

[35] Ретроспективный взгляд: образ В. И. Ленина продолжает пробуждать воспоминания. — [Elektron resurs]: http://armenpress.am/arm/news — Giriş rejimi: http://armenpress.am/arm/news /716071/.

Müzakirə üçün sual

Ə ə u ü i ə l ə ə
ə y ş s ə , u i ə l ə s x h h ı ı?

S

A	İ p i y v ə s o u ı u
B	O i ə l ə ı, o l q ş ü s i ə u z : y ə v ə y y ı i p y l ə ş ə l i ə . B i
C	B c ü i ə l ə i y l ə i ə s x l y ı ö v ı ə l ə i i ə ş ə l z ı ı.
D	Ö z c ü l ə i z .

M z u s i f y o l ş ı z l ö z ö v
ə l i ə

Sergey Paracanovun yaradıcılığı zaman və mədəniyyətlərin yolayrıcında

Sergey Paracanovun yaradıcılığında mədəniyyətlərin dialoqu necə səslənir?

1. F o
i s
F o

Mənbə 1[1]

◆ **Tarixi məlumat**

Görkəmli kinorejissor, ssenarist, rəssam Sergey Paracanov (Sergo Paracanyan) 1924-cü ildə Tbilisidə anadan olub. 1942–45-ci illərdə Dəmiryol nəqliyyatı mühəndisləri institutunda, daha sonra — Tbilisi konservatoriyasının vokal şöbəsində, Opera teatrı nəzdində fəaliyyət göstərən Xoreoqrafya məktəbində təhsil alıb. 1945-ci ildə Moskva koservatoriyasına keçib, sonra isə Ümumittifaq Dövlət Kinematoqrafya İnstitutunun rejissorluq fakültəsinə daxil olub.

[1] "Sergey Paracanov: dialoqun salnaməsi" kitabından foto. [fotoalbom] / Yuri Meçitov [ön söz: E.Ryazanov]. Tbilisi: GAMS-print, 2009. Səh. 280.

1949-cu ildən A.P.Dovjenko adına Kiyev kinostudiyasında işləyir, həm bədii, həm də sənədli flmlər çəkir. 60-cı illərdə Paracanov Ukraynanın dissident hərəkatına fəal dəstək olur. Onun adı SSRİ rəhbərlərinə ünvanlanmış elm və yaradıcı ziyalıların siyasi təqibinə qarşı yönələn məşhur "139-ların məktubunu" imzalayanların sırasında birinci dururdu. 1965-ci ilin oktyabrında "Ukrayna" adlı Kiyev kinoteatrında baş tutan "Unudulmuş əcdadların kölgələri" flminin premyerası mühüm hadisəyə çevrildi. Seansın əvvəlində Ukranya hüquq müdafəçiləri Ukrayna ziyalılarının təqibinə qəti etirazlarını bildirərək çıxış etdilər. A.Dovjenko adına kinostudiyada "Kiyev freskaları" flminin çəkilişinə qadağa qoyulduqdan sonra 1966-cl ildə Sergey İosifoviç Ermənistana getməyə məcbur olur. 1968-ci ildə "Erməni flm" kinostudiyasında o, "Sayat-Nova" flmi üzərində işləyir. Bu flmdə həmçinin görkəmli gürcü aktyorları çəkilib.

S.Paracanov açıq və fəal sovet hakimiyyətini tənqid edir, senzura və yaradıcılığa qoyulan hər bir məhdudiyyətə qarşı çıxış edirdi. 1973-cü ildə kinorejissor Kiyevdə uydurma ittihamla həbs olundu və beş il müddətinə azadlıqdan məhrum edildi. Beynəlxalq protest kampaniyasının nəticəsində o, 1977-ci ilin dekabr ayında azadlığa buraxıldı. İkinci dəfə onu 1982-ci ildə Tbilisidə həbs etdilər, lakin bir neçə aydan sonra mədəniyyət xadimlərinin fəal beynəlxalq etirazı və gürcü yaradıcı ziyalılarının onun azadlığını tələb edən kampaniyada fəal iştirakına görə azad etməyə məcbur oldular. Moskva və Kiyevdə yaşamaq ona qadağan edildiyinə görə Paracanov doğma Tbilisidə yaşayır. Ona "Gürcüstan-flm" kinostudiyasında işləmək imkanı yaradılır və, rejissor bir sıra gözəl flmlər lentə alır.

Rejissorluq və flm çəkilişlərindən başqa Sergey Paracanov həmçinin öz flmləri üçün ssenarilər yazırdı və rəssam idi. O, külli miqdarda rəsm və kollajların müəllifdir.

Sergey Paracanov 1990-cı ilin 21 iyulunda Yerevanda vəfat edib. O, "Etiraf" adlı avtobioqrafik əsər üzərində işin əvvəlində vəfat etdi. Görkəmli kino xadimi Yerevanda erməni xalqının dahilərinin panteonunda dəfn edilib.

Blok 1. Sergey Paracanov — sərhədlərsiz yaradıcılıq: kino

2. S
O s ı x

3. S
O ö z ü ə ə x s u s uu ə ə ?

4. U y
c ə ə

5. K o ş s N y ə Z o iə i fi
ə ə iy y ə

6. c o vu i c ə s

Mənbə 2 S.Paracanovun filmoqrafiyası[2]

“Moldova nağılı” — diplom işi, 1951.

Andriyeş, 1954. — Moldova xalq nağılı əsasında bədii film.

“Dumka” kapellası”, 1957. — Ukraynanın milli akademik kapellası (xalq və klassik əsərləri musiqili müşahidə olmadan ifa edilən xor — musiqi kollektivi) haqqında sənədli film. 1920-ci ildə yaranıb və indiyədək fəaliyyət göstərir.

Ukrayna rapsodiyası, 1961. — Anton adında ukraynalı əsgərin taleyi və məhəbbəti haqqında bədii film. İkinci dünya müharibəsi zamanı o, əsir düşür və Almaniyada orqançı tərəfndən xilas edilir.

Unudulmuş əcdadların kölgələri, 1964. — Düşmənçilik edən iki qutsul ailəsindən olan İvanka və Mariçkanın bədbəxt və faciəli məhəbbəti haqqında Ukrayna yazıçısı M.Kotsübinskinin eyni adlı povestinin motivləri əsasına çəkilmiş bədii film.

Kiyev freskaları (tamamlanmayıb), 1966. — yeni donmuş kadrlar üsulu ilə çəkilmiş Böyük Vətən müharibəsi haqqında bədii film (tamamlanma üçün qadağan edilib).

Akop Ovnatyan. Tbilisidə yaşayan 19-cu əsrin ən tanınmış erməni portretçi rəssamı haqqında sənədli film. 1967.

Nar rəngi (Sayat-Nova), 1969. — Tbilisidə doğulan XVIII-ci əsrin erməni aşığı Sayat-Nova haqqında bədii film.

Suram qalası haqqında əfsanə, 1984. — gürcü əfsanəsi əsasında çəkilmiş bədii film. Əfsanəyə görə, Suram qalası yalnız onun içərisinə sağ gözəl gənc oğlan hörüldüyü təqdirdə tikilə və alınmaz qalaya çevrilə bilər.

Pirosmaninin mövzuları üzrə arabeskalar, 1986. — XIX-cu əsrin sonu — XX-ci əsrin əvvəllərində yaşamış və rəssamlığı özü öyrənmiş görkəmli gürcü rəssamı haqqında sənədli film.

Aşıq-qərib, 1988. — Musiqiçinin sərgüzəştləri haqqında Azərbaycan xalq nağılı əsasında M.Y.Lermontov tərəfndən yazılmış eyni adlı nağılın motivləri əsasında çəkilmiş bədii film.

Mənbə 3 Ukraynalı kulturoloq Vadim Skuratovski “Andriyeş” filmi haqqında

Şeirlərlə yazılmış heyranedici nağıl. … “İşığın” təcəssümü olan balaca çoban Andriyeş bütün canlılara nifrət edən “Qara qasırğa” — İblis ilə varlıq mübarizəsinə başlayır. Balet, pantomima, olduqca şərti “mərasim”, hər kadrın tam şərti zaman və məkanı — bütün bunlar bu mübarizənin məqamları və üsullarıdır. “Andriyeş” — “Unudulmuş əcdadların kölgələri”nin qəribə balkan və moldavan janr əlamətidir[3].

[3] Bu siyahı S.Paracanov tərəfndən çəkilən sənədli filmlərin tam siyahısını əks etmir.

[3] Vadim Skuratovski. Unudulmuş filmlərin kölgələri. Sit.: “Sergey Paracanovun ekran dünyası”. K., 2013. — səh. 39, 40. (rus dilində).

Mənbə 4 Ukraynalı kinoşünas L.Bryuxovetskaya
“Unudulmuş əcdadların kölgələri” filmi haqqında

…Ola bilər ki, gələcəkdə yalnız folklorçular deyil, həmçinin xalq incəsənətinin dəyərini bilən hər kəs bu filmi öyrənəcək və onun köməyi ilə qutsulların[4], adət-ənənələri, onların özünəməxsus incəsənəti haqqında təsəvvür yaradacaqlar. Axı o da get-gedə zamandan uzaqlaşır, və muzey ekspozisiyaları ekranda əks olunan qəhrəmanların həyatı kimi tam təsəvvür yarada bilməyəcəklər. Filmdə nə butaforiya[5], nə də muzey eksponatları istifadə edilib. Xoşbəxtlikdən, Karpat sakinlərindən bir çox ikona, kilsə atributları, müxtəlif qutsul geyimi və əşyası (kiptar adlanan qolsuz köynəklər, krisan adlanan papaqlar, ehtiyyat-yubkalar, çeres adlanan qayışlar, muncuq, bartka adlanan baltacıqlar) tapıb filmdə göstərmək mümkün oldu. Bu sərvətləri uzaq kəndlərdən filmin çəkilişlərinə gələn insanlar gətirdi. Nəticədə tamaşaçıda gerçəklik hissi yaranır ki, bu hissi heç bir ustalıqla belə düzəldilən butaforiya yarada bilməz[6].

Mənbə 5 Ukraynalı ədəbiyyatşünas və dissident İvan Dzüba
“Unudulmuş əcdadların kölgələri” filmi haqqında

Qutsul[7] Romeo və Cülyettasının — İvanka və Mariçkanın həyacan doğuran əhvalatı bütün poetikliyi və özünəməxsus dəyəri ilə yanaşı Paracanov üçün xalq rəvayət və dastanları, xalq məişəti, incəsənəti və mərasimləri dünyasına özünəməxsus “bələdçi” oldu. Bu isə, öz növbəsində, onu sadəcə keçmiş kimi yox, həmçinin bu günün mənbəyi, bu günün mənəvi problemləri və müəmmaları kimi, insan varlığının əbədi olan aktual problemlərini qabartmaq, insan ruhunun ən vacib dəyərlərini tapmaq üçün bir arena kimi maraqlandırırdı[8].

Mənbə 6 Fransız kino nəzəriyyəçisi Erik Bülo Sergey Paracanovun
“Sayat-Nova” filmi haqqında

…“Sayat-Nova” filminin kadrlarının kompozisiyasını yaradaraq rejissor birbaşa erməni miniatürlərindən ilham alır. Erməni mədəniyyətinin mərkəzi məqamlarından olan miniatür sənətinin apogeyi orta əsrlərə təsadüf edir. Filmin parlaq mənzərələri qara konturları olan həmin xətti və sxematik şəkli təsvir edirlər…

…Şairin Sayat-Novanın insanların müdafəçisi olan müqəddəs Georgiyə bənzədilməsi cəlb etməkdə davam edir. Çünki bu, şairə qarşı olan əsl milli münasibətdir… Şair müqəddəs Georgi kimi erməni xalqının müdafəçisinə, qoruyucusuna çevrilir. Şair vəfat etsə də, onun əbədi mahnısı xalqın yaddaşında qalır[9].

---

[4] Qutsullar Karpat ərazisində yaşayan ukraynalıların etnik qrupudur.

[5] Butaforiya xüsusilə hazırlanan və teatr tamaşalarında istifadə edilən saxta əşyalardır (heykəltəraşlıq əsərləri, mebel, qab-qacaq, bəzək əşyaları, silah və s.).

[6] Larisa Bryuxovetskaya. “Unudulmuş əcdadların kölgələri” bədii manifest kimi. Sit.: “Sergey Paracanovun ekran dünyası”. K.: 2013. — səh. 31. (rus dilində).

[7] Qutsullar Karpat ərazisində yaşayan ukraynalıların etnik qrupudur.

[8] İvan Dzüba. Axtarış günü. Sit.: “Sergey Paracanovun ekran dünyası”. K.: 2013. — səh. 16. (rus dilində)

[9] Erik Bülo. “Sergey Paracanovun “Sayat Nova”sı”. Sit.: “Sergey Paracanovun ekran dünyası”. K.: 2013. — səh. 144, 152. (rus dilində).

Mənbə 7 Sergey Paracanov "Kiyev freskaları" filmi haqqında

"Kiyev haqqında bir film çəkmək mənim çoxdankı arzumdu. Şəhər ekranda dəfələrlə olub — tarixi, mənzərəli, memarlıq, sənaye şəhəri kimi. Lakin mən Kiyevin qəlbinə diqqətlə baxmaq istəyirəm"[10].

Mənbə 8 İngilis kino tarixçisi və rejissoru Qerbert Marşallo "Nar rəngi" filmi haqqında

Hər yerdə — Leninqradda, Moskvada, Kiyevdə — deyirdilər ki, biz mütləq "Nar rəngi" filminə baxmalıyıq. …Bu, Yerevanda "Erməni film" kinostudiyasında çəkilmiş filmin rusdilli versiyası idi. Başlanğıcda gedən titrlərdə deyilirdi ki, burada söhbət nəğmə çarı Sayat-Nova kimi tanınan erməni şairi Arutün Saadyan haqqında gedəcək. O, 1712–1795-ci illərdə yaşamış və aşıq (xalq nəğməkarı), məhəbbət lirikasının müəllif və öz əsərlərini lyutnyaya (uda) bənzər milli musiqi alətinin müşayiəti altında ifa edən insan kimi tanınırdı. Əvvəllər o, toxucu işləyib, daha sonra gürcü çarı İraklinin saray şairi olub. 1768-ci ildən monastırda yaşayıb, 1795-ci ildə isə fars işğalçıları tərəfndən öldürülüb. <Rus şairi> Valeri Brüsov onun haqqında yazırdı: "Sayat-Nova aşıq poeziyasını ona qədər olmayan yüksəkliklərə qaldıran xanəndə idi. Öz dühasının gücünə o, xalq nəğməkarı sənətini yüksək şair istedadına çevirdi. …Öz nümunəsilə Sayat-Nova xalq müğənnisinin səsində necə gücün olduğunu birinci sübut etdi"[11].

Mənbə 9 Kinoşünas Neya Zorkaya Paracanovun filmləri haqqında

"Suram qalası haqqında əfsanə"ni Paracanov on beş illik fasilədən sonra, qorxulu və acılı illərdən sonra çəkdi[12]. Lakin bu gec çəkilən lentdə nə yorğunluq, nə də əbədi axtarış prinsiplərindən geri çəkilmə izlərini tapmaq olmur. Süjetin əsasında doğma şəhəri qorumaq üçün qurban edilən gözəl gənc oğlan haqqında arxaik rəvayət durur. Paracanovun milli mədəniyyəti, estetikanı, üslubu incə hiss etməsi burada gürcü rəsm və teatr ənənələrinə, demək olar ki, inanılmaz olan adekvat rejissor həllində əks olunub. Və əgər "Unudulmuş əcdadların kölgələri" həqiqi Ukrayna filmi idisə, əgər "Nar rəngi"ndə erməni dini ruhu və gözəlliyi haqqında anlayışın özü təcəssüm edilibsə, "Suram qalası haqqında əfsanə" özündə gürcü gədimliyinin poeziyasını, milli folkloru, mənzərəsi, freskasının nəfs fakturasını cəmləşdirir[13].

Mənbə 10 Sergey Paracanov "Unudulmuş əcdadların kölgəsi" filmi haqqında

"Niyə mən bu filmi çəkmişəm? Sadəcə olaraq, çəkmişəm. İncəsənət bizdən ucada olan, hətta şüurumuzun sərhədlərindən də uca olan nədirsə. Hava kimi, onsuz biz yaşaya bilməzdik. İncəsənət onu sevənlərin hamısı üçün mövcuddur. Mən ermənıyəm,

[10] Sit.: "Sergey Paracanovun ekran dünyası". K.: 2013. — səh. 75. (rus dilində)
[11] Qerbert Marşall. Sergei Paracanovun işi. Sit.: "Sergey Paracanovun ekran dünyası". K.: 2013. — səh. 157. (rus dilində).
[12] (Həbs, düşərgədə olduğu müddət, çəkdiyi filmlərin nümayişinə qoyulan qadağa, yaradıcılıq fəaliyyətinə icazə verilməmə nəzərdə tutulur).
[13] Zorkaya N.M. Sovet kinosunun tarixi. Sit.: "Sergey Paracanovun ekran dünyası". K.: 2013. — səh. 13. (rus dilində).

lakin niyə mən Ukrayna filmi çəkməyim ki? İncəsənət xalqdan qat-qat ucadır, lakin eyni zamanda o, xalq xarakterinə malikdir”[14].

Blok 2. Sergey Paracanov — həyat və yaradıcılığın coğrafiyası

7. [illegible]

8. [illegible]

9. [illegible]

10. [illegible]

11. [illegible]

Mənbə 11 Sergo Paracanov Tbilisi haqqında

Mən böyük şəhərdə doğulub boya-başa çatmışam. Bu şəhərdə asuriyalı və ukraynalı, kürd[15] və rus, erməni və azərbaycanlı, gürcü və yunan, türk və polyak, ispaniyalı və alman, eston və yahudi bir böyük ailə, bir ev kimi yaşayıb və yaşayır. Bu şəhərin öz koloriti, öz ətri, öz sevgisi və azadlığı var. Bu şəhərin bir meydanında rus, erməni və gürcü kilsələri, yahudi sinaqoqu və müsəlman məscidi yerləşir. <…> bu, möcüzədir, həmişə mənim içimdə olan möcüzə[16].

Mənbə 12 Tanınmış Sovet və Rusiya rejissoru Eldar Ryazanov S.Paracanov haqqında

Paracanov faciəli, ağlasığmayan taleyi olan böyük kinorejissordur. Doğulduğu yerə görə Tbilisili, milli mənsubiyyətinə görə — erməni, ÜDKİ-da təhsil aldığına görə isə — Moskvalı. <…> Sonra çox illər Kiyevdə yaşayıb. Əfsuslar olsun ki, Sovet İttifaqında onu yalnız həmkarları — kinematoqrafçılar tanıyırdı. <…> Onun poetik, özünəməxsus, alışılmamış kinosu kiçik kinoteatrlarda nümayiş etdirilirdi. Buna görə də, o zamanlar necə deyirdilər, “Paracanov dar dairələrdə geniş tanınırdı”. Düzdür,

[14] Sit.: “Sergey Paracanovun ekran dünyası”. K.: 2013. — səh. 69. (rus dilində).

[15] Kürdlər müasir İran, İraq, Türkiyə, Suriya və regionun bəzi digər ölkələrinin dağlıq ərazilərində (Kürdüstan) yaşayan irandilli tayfaların ümumi adıdır.

[16] Paracanov S. Etiraf: Kinossenarilər. Məktublar / S.Paracanov. SPb.: Azbuka, 2001. Səh. 196. (rus dilində).

bu “dar dairələrə” dünya kinematoqrafının bütün qaymaqları daxil idi. Fellini, Vayda, Forman və Tarkovski ona heyran idilər[17].

Mənbə 13 Sergo Paracanov: “Mənim üç vətənim var…”

“Mənim bioqrafyam nədir? “Dard”[18] onun əbədi formasıdır. <…> Mənim üçün Ermənistan incəsənət və tarixdir, mənim dostlarımdır, mənim sevinclərimdir, bizim yaradıcılıq itkilərimizdir… Burada mən harmonik ahəngdə gürcü və erməni rəssamlarını və öz avtoportretimi nümayiş etdirirəm… Hamı bilir ki, mənim üç vətənim var. Mən Gürcüstanda doğulmuşam, Ukraynada işləmişəm və Ermənistanda ölməyə hazırlaşıram”[19].

Mənbə 14 Gürcü kinoşünası Kora Seretelinin xatirələrindən

Paracanov yerli Tbilisi sakinidir. Tbilisi və ya, Paracanovun öz şəhərini adlandırdığı kimi — Tifis onun üçün kainatda xüsusi yer idi… O, Gürcüstanın paytaxtının çoxmillətli yerlərindən birində böyümüşdü ki, burada üç mədəniyyətin (gürcü, erməni ermiram”

Mənbə 16 Kino tarixçisi Naum Kleyman S.Paracanov yaradıcılığının xarakteri haqqında

Demək olar ki, Paracanov transqafqazlı rejissordur, çünki onun flmlərində həm gürcü, həm erməni, həm Azərbaycan motivləri, həm İran təsirləri, həm çox maraqlı türk sədaları əks edilir, və o, Ukrayna kinosunun çox gözəl ustadıdır. Bundan əlavə, o, Mokva kino məktəbinin yetirməsidir. Əlbəttə ki, o, hər-bir böyük sənətkar kimi, Yer kürəsinin tamamilə hər bir yerində başa düşülən beynəlmiləl hadisədir[22].

Mənbə 17 Erməni rejissoru Levon Qriqoryan S.Paracanovun filmləri haqqında

Onun slavyan etnosunun xarakterinin poetik impulsları və xüsusiyyətlərini olduqca dolğun ifadə edən "Unudulmuş əcdadların kölgəsi" flmi Ukrayna kinosunun zirvələrindən biri oldu. Paracanov bu kinematoqrafın klassiklərindən sayılır, və onun büstü Dovjenko adına studiyada qoyulub. Ermənistanda o, erməni kinosunun klassiklərinə aid edilir. Onun "Nar rəngi" flmi erməni kinematoqrafyasının ən yüksək nailiyyəti oldu. Yerevanda açılan Paracanovun muzeyi ən çox ziyarət edilən muzeylərdən biridir. Gürcüstanda o, gürcü xarakterinin xüsusiyyətlərini son dərəcə dəqiq ifadə edən "Suram qalası haqqında əfsanə" flmini çəkdi. Və bu flm də gürcü kinematoqrafının ən yaxşı nailiyyətlərindən biri oldu. Paracanovun heykəli Tbilisinin mərkəzindəki meydanların birini bəzəyir. Və, nəhayət, ən fenomenal hadisə budur ki, xristian mədəni ənənələri ilə dərin bağlı olan sənətkar olaraq o, ən son işi olan "Aşıq-Qərib" flmində islam mentalitetinin mahiyyətinə də bu qədər dərin daxil olaraq islam mədəniyyətində hadisəyə çevrilən flm yaratdı. Bunun ən yaxşı heykəli və dəlili odur ki, son vaxtlar ən yaxşı festivallarda mükafatlara layiq görülən İran rejissorları Paracanovu açıq-aşkar öz mənəvi Qurusu[23] adlandırırlar və həmişə onun haqqında dərin hörmətlə danışırlar. Təşbihlərlə danışsaq, təsdiq edirlər ki, "onun şinelindən çıxıblar"[24].

Blok 3. Sergey Paracanov — sərhədsiz yaradıcılıq: kinodan kənar incəsənət

12. B ə s ə l ə s ı övə iə (v ə s
iə ? O s iz ə ı ə iə

13. - c i ə ii iy ə o
üçü İ
O, X

14. s y ı ə ə ı c ı o vu y ı
ə ə i ə y ə
şüş s üü z ?

[22] Naum Kleyman. Şərhlər. Götürülüb: "Sergey Paracanovun ekran dünyası". Məqalələr məcmuəsi. İdeya müəllif və tərtibçi — Yuri Morozov. K.: 2003, səh. 177. (rus dilində)

[23] Quru — müəllim, mənəvi rəhbər.

[24] Qriqoryan L. Paracanov / L.Qriqoryan. Moskva: Molodaya qvardiya, 2011. Səh. 1–2. (rus dilində).

Mənbə 18 İtaliya rəssamı Pinturikkio. Oğlan portreti. 1500-cü il.



Mənbə 19 İtaliya rəssamı Rafael Santi. Sikstin madonnası. XVI-cı əsrin əvvəlləri. Drezden qalereyası.



Mənbə 20 S. Paracanov. "Peşmanlıq" kollaji. Pinturikkio və Rafaelin mövzuları üzrə variasiya[25]



◆ Məlumat

KOLLAJ (fransız sözü collage — yapışdırmaq) tətbiqi incəsənət əsərinin müxtəlif fraqment və materiallardan istifadə etməklə (müxtəlif yastı — fotolar, biletlər, parçalar, qəzet və rəngli kağız parçaları və s. və ya həcmli — məftil, ağac, ip, metall və s. yapışdırmaların tətbiqi yolu ilə) yaradılması texnikası.

[25] Nar rəngində sərgi: Sergey Paracanovun kollajları. Elektron resurs "İntervyu" ("Müsahibə"). http://www.interviewrussia.ru/ Giriş rejimi: http://www.interviewrussia.ru/art/vystavka-cveta-granata-kollazhi-sergeya-paradzhanova.

15. ?, ?, ?, ? s y ı ə t ə l ə H i ə c ə u y u u l?

16. S
i n ö v ü l ə ı ə ş l o l u u?
Ə s s l ı ı.

Mənbə 21 Aktrisa Alla Demidovanın xatirələrindən

Onun əlləri nəyə toxunubsa, hamısını çərçivəyə qoymaq lazımdır, çünki bunlar hamısı incəsənət əsərləridir. <…> Parçalar, aplikasiyalar, naxışlar, daşlar, köhnə xalçalar — bütün bunlara onun marağı hədsiz idi. Hollandiyada o, birə bazarına[26] gedib orda satılan hər şeyi aldı. Səfərdən qayıdandan sonra onun torbaları yük liftinə yerləşmədi. Lakin o, bütün aldıqlarını səpələdi: bir topaya gümüş sırğalar və hansısa ucuz şüşə parçaları yığıldı: “Siz başa düşmürsünüz, bizim kekelkalar (Gürcüstanda kənddən gəlib özlərini şəhərli sayan, özündən razı qadınlara deyilirdi) f k i r l ə ş ə c ə k l ə r ki, bu s a p f r və brilliantlardır”[27].

Mənbə 22 S. Paracanov. Freska “Rəqs edən kürd[28] və kürd qadını”. 1979-cu il[29]

Mənbə 23 S. Paracanov. Afişanın əsasında yaradılan şəkil kollajı

[26] Köhnə əşyaların satıldığı kiçik bazarlar.

[27] A.Demidova. Güzgü arxasından baxan kölgələr. Sit.: Nar rəngi: Paracanovun dünyası 23 fəsildə. Elektron resurs. (rus dilində) http://vozduh.afsha.ru/ Giriş rejimi: http://vozduh.afsha.ru/cinema/cvet-granata-mir-paradzhanova-v-23-glavah/.

[28] Kürdlər müasir İran, İraq, Türkiyə, Suriya və regionun bəzi digər ölkələrinin dağlıq ərazilərində (Kürdüstan) yaşayan irandilli tayfaların ümumi adıdır.

[29] “Sergey Paracanov: dialoqun salnaməsi” kitabından foto. Səh. 26.

Əsərin (mənbə 22) maraqlı taleyi var — o Paracanovun Tbilisidəki eyvanının divarında yaradılmışdı və hər zaman yeni elementlərlə tamamlanırdı. Müəllif bunu «freska» adlandırırdı. S.Paracanovun ölümündən sonra sənətçinin pərəstişkarları sənətkarın ölümündən sənra bu əsəri suvenir şəklində apardılar. Kollaj (mənbə 23) Şota Rustavelli adını daşıyan Gürcüstan milli teatrının afişası əsasında yaradılıb[30].

17. S

18. S

i s

Ə s s

19. , , və s y ə l ə i ə

20.

21. B o u “

Mənbə 24 “Quş ilə portret”[31]

Mənbə 25[32]

[30] “Sergey Paracanov: dialoqun salnaməsi” kitabından foto. Səh. 81.

[31] Götürülüb: Yekaterina Nosko. Sergey Paracanov. Varlığın mistifikasiyası. Elektron jurnal Styleinsider. http://www.styleinsider.com.ua/ Giriş rejimi: http://www.styleinsider.com.ua/wp-content/uploads/2015/03/pic5.jpg.

[32] “Sergey Paracanov: dialoqun salnaməsi” kitabından foto. Səh. 62.

Mənbə 26[33]



Mənbə 27[34]



Blok 4. Sergey Paracanov — azadlığın cəzası

22. [illegible] s [illegible] o [illegible]?
[illegible] s [illegible] s [illegible]

Mənbə 28 **Polşalı kinotənqidçisi və jurnalist Yanuş Qazda Paracanovun Kiyevdəki mənzili haqqında**

Burada Paracanovun mənzilinə qayıtmaq lazımdır. Kiyevdə, Taras Şevçenko bulvarında, Qələbə meydanı və sirklə üzbə-üz yerləşən mənzilinə. Paracanovun mənzili yalnız görkəmli insanın mənzili deyildi. Paracanov öz şəxsi, ayrı aləmini yaratmağı bacarmışdı. O gədər germetik[35] ki, insan özünü orada azad hiss edə bilirdi. O gədər açıq ki, orda digər insanlar da ola bilərdi. Demək olar ki, hər gün, axşamlar, Paracanovun mənzilindən bir çox adam keçirdi. Onlar bura elə gəlirdilər ki, elə bir bu yersiz yaşaya bilmirdilər, nəfəs ala, düşünə bilmirdilər, fikirlərini cəmləyə bilmirdilər. Kəndardan içəri daxil olanda, onların hamısı başqa aləmə daxil olduqlarını dərk edirdilər. Və, sözün düzü, onları birləşdirən bu başqa aləmə olan ehtiyac idi. Həssas, istedadlı, axtarışda olan, narahat insanlar üçün bir oazis. Ədəbsizlik və bərbəzəyə[36]

[33] Y. Meçitov. Paracanov balın kralı idi. Müsahibə. 12 fevral 2014-cü il. Elektron resurs. http://www.interviewrussia.ru/ Giriş rejimi: http://www.interviewrussia.ru/movie/yuriy-mechitov-paradzhanov-byl-korolem-bala 1/3.

[34] "Sergey Paracanov: dialoqun salnaməsi" kitabından foto. Səh. 14.

[35] Heç bir şey keçirməyən, möhkəm, bağlı.

[36] Burada — üstdə olan, aldadıcı, saxta.

yer verməyən məskən. Bura daxil olmaq üçün istedaddan başqa insan mərhəmətli, hörmətcil, səmimi olmalı idi[37].

Mənbə 29 Tanınmış Sovet və Rusiya rejissoru Eldar Ryazanov S.Paracanov haqqında

Həyatda Seryoja qeyri-adi insan idi, özünü ifadədə tam azad idi, hədiyyə etməyi çox sevirdi və dayanmadan da bunu edirdi. O, gözəlliyi hiss edən insan idi, əsl rəssam, əsl Gözəlliyin əsiri idi. Məişətdə isə o, hədsiz dərəcədə ekstravaqant şəxsiyyət idi, onu görəndə ilk təəssürat son dərəcə heyrət doğururdu. <…> O, gündəlik adi həyatda həmişə bayram fikirləşib yaratmağa çalışırdı. <…> Əgər insanlar onun görkəmli rejissor olduğunu bilmirdilərsə, onların bəziləri, hətta əksəriyyəti onu sadə şəhər dəlisinə bənzədirdilər. <…> O, qeyri-azad yaşaya bilmirdi, heç vaxt düşünmürdü ki, nəyi demək olar, nəyi isə — olmaz. <…> Sonralar Bella Axmadulina[38] Seryoja haqqında yazacaq: "O, azad olduğu üçün günahkar idi"[39].

Mənbə 30 Kinooperator Qarri Kuntsev Paracanovun şəxsiyyəti haqqında

Amma maraqlısı da budur ki, bütün bunlar… ona öz ətrafında qəribə, cəlbedici, bitmək bilməyən maraqlı karnaval yaratmağa kömək edirdi. Bu karnavalda hamı üçün səhfsiz yer müəyyən edilirdi: təlxəyə təlxək yeri, krala isə kral yeri. <…> Təlxəklərin kralı olsa da, o, heç vaxt kralların təlxəyi olmayıb. <…> Onun üçün əsl sərvət azadlıq idi… O, azadlığın doğma oğlu idi. <…> Azadlıq onu dünyaya gətirmişdi. <…> Əslində, KQB-ni də, digər partiya liderlərini də hiddətə gətirən Paracanovun qeyri-ordinarlığı, onun cahil olmaması idi. Onun itaətsiz düşüncəsi və ruh azadlığı, azad insana xas olan tərzdə yaşamaq istəyi və bacarığı idi. Onlar Paracanovun şəxsiyyətə edilən hər-hansı zorakılığa qarşı kəskin nifrətini hiss edir və bacardıqları qədər onu sındırırdılar, onun sözlərilə desək, incəsənətdən, cəmiyyətdən, həyatdan "abort edirdilər"[40].

Mənbə 31 S.Paracanov haqqında xatirələrdən

Eldar Şengelaya[41] yazırdı: "Onu siyasi baxışlarına görə həbs etmədilər… Sergonu sənəti ilə o vaxtkı hökümətin qoyduğu çərçivələri qırmağına görə həbs etdilər. Onun sənəti onların gözünə girirdi. Bu, hər şeyi pozan kino idi, və hər şeyi pozduğuna görə də onu həbs etdilər". "Həbsxanadan çıxandan sonra "Paracanov kimdir?" sualına kinorejisor ona xas olan yumor hissi ilə cavab verirdi: "Sovet həbsxanasında Ukrayna millətçisi kimi cəza çəkən Gürcüstanda doğulan erməni"[42].

---

[37] Sit. — "Sergey Paracanovun ekran dünyası". Məqalələr məcmuəsi. İdeya müəllifi və tərtibçi — Yuri Morozov. K.: 2013, səh. 70-71. (rus dilində)

[38] Bella Axmadulina (1937–2010) Sovet və Rusiya şairəsi, yazıçısı, tərcüməçisidir.

[39] Sit. — Eldar Ryazanov. "Şən insan". "Sergey Paracanov: dialoqun salnaməsi" kitabına ön söz. Elə orada — super üz qabığı. (rus dilində)

[40] Qarri Kuntsev. Paracanov vardı… Dokumental povest: "Drujba narodov", № 9, 201. (rus dilində)

[41] Eldar Şengelaya gürcü kinorejissoru və ssenaristidir.

[42] Tengiz Verulava. "Sergo Paracanovun Cokondasının təbəssümü". Elektron resurs. Giriş rejimi: http://burusi.wordpress.com/cinema/sergei-parajanov/ — gürcü müəllifndən tərcümə.

23. [illegible]

24. [illegible]

Mənbə 32 Sergey Paracanov Tbilisiyə qayıtmağı haqqında

…30 ildən sonra mən 1924-cü ildə doğulduğum şəhərə qayıtdım. Yaşlı qayıtdım, arxamda da sanki iki qanad vardı: bir tərəfdən — şöhrət, triumf və tanınma, digər tərəfdən isə — qulun, məhbusun, zekin alçaldılması. Mənim heç bir rəsmi adım, mükafatım yoxdur. Mən heç kiməm. Mən Gürcüstanda, Tbilisidə, valideynlərimin köhnə evində yaşayıram, və yağış yağanda, mən çətirlə yatıram və xoşbəxtəm, çünki bu, Tarkovskinin filmlərinə bənzəyir[43]…

Mənbə 32 Sergey Paracanov

[43] Gürcüstanda "Paracanov" filminin çəkilişləri başlayıb. Kiyevskaya pravda. (rus dilində) Elektron resurs. Giriş rejimi: http://kpravda.com/v-gruzii-nachalis-semki-filma-paradzhanov/

Mənbə 34 **Fotografia a fost făcută de către İurii Mecitov la15 mai 1981. Paradjanov a numit-o „fotografia secolului”**[44]

Yekun müzakirə

Nəyə öə

S

[44] “Sergey Paracanov: dialoqun salnaməsi” kitabından foto. Səh. 101.

Çoxmədəniyyətli cəmiyyət şəraitində identikliklər

Bir insan və ya bir qrup insan identikliyin hansı növlərinə malik ola bilər, və bu növlər bizim gündəlik ünsiyyətimizdə bir-biri ilə necə uyğunlaşır?

Blok 1. Onlar kimdir?

1. [illegible]

2. [illegible]

Mənbə 1 [1]



Mənbə 2 [2]



[1] Müəllif Olqa Kovalevskayanın şəxsi arxivindən, 2007-ci il.

[2] Man in traditional Azerbaijani costume. [Elektron resurs] Wikimedia Commons. — Giriş rejimi: http://commons.wikimedia.org/wiki/File:Old_man_with_traditional_azerbaijani_costume.JPG.

3. ɨvə ɬ s yɪɹəɫtələə
s ɬəi o luqɪɹə əɹɬi?

Mənbə 3[3]

Mənbə 4[4]

[3] [Elektron resurs]: https://www.fickr.com. Коллекция Bruce Reeve. — Giriş rejimi: https://www.fickr.com/photos/58609798@N00/14377482084/. Se tipăreşte cu acordul autorului.

[4] Сумские кондитеры, 2010 г. — [Elektron resurs]: http://cxttrs.sumy.ua. — Giriş rejimi: http://cxttrs.sumy.ua/konditer.

4. İ [5] s ə- s ı s

5. v ə s y ı ə ə i f o

6. S
ü y ə ə ə s ı ə ə

Mənbə 5 [6]



Mənbə 6 [7]



[5] Submədəniyyət cəmiyyətdə əsas mədəniyyətdən ıız dəyərləri, rəmzləri və davranəıoə ilə fərqlənən bir qrup insanən mədəniyyətidir.

[6] [Elektron resurs] Wikimedia Commons. — Giriş rejimi: http://commons.wikimedia.org/wiki/File:BSA_riders_at_2007_Ace_Cafe_reunion.jpg.

[7] V.Derevyankonun fotosu, 2010-cu il.

7. İ v ə ß s y ı ı ə t ə l ə ə

8. B z f ə q l ı ə s l ə h q q ı ı ş l ə ı ? Ə ə h ə , o h s ı ı ?

Mənbə 7 [8]

Mənbə 8 [9]

9. S

10. S

[8] Olqa Kovalevskayanın şəxsi arxivindən, 2007-ci il.

[9] Донецкий государственный университет управления, «Університет третього віку» [Elektron resurs] https://www.facebook.com. — Giriş rejimi: https://www.facebook.com/dsum3a/photos/pb.943562825654251.2207520000.1424012904./943669975643536/?type=1&theater.

Mənbə 10 Milli identiklik

Fərdlər üçün milli identiklik son dərəcə mühümdür, çünki [sosial mənşəyi], cinsi, nailiyyətləri, statusu və yaşından asılı olmayaraq insanın heysiyyət duyğusunu təmin edir. Milli identikliyin ən mühüm cəhətlərindən biri odur ki, insan özünü millət adlanan süni yaradılmış böyük ailənin bir parçası olduğunu hiss edərək [sosial] fərqlilikləri dəf etməyi bacarır. Milli identiklik millətin nümayəndələri arasında yaxınlığa, simpatiyaya və həmrəyliyə şərait yaradır[11].

[…] Millətin "vətəndaş" modelinin yaranması üçün insanların yalnız sosial və mədəni deyil, həmçinin siyasi mənada bir-birilə həm real, həm də xəyali əlaqəsi olmalıdır. Bunun sayəsində millət və kollektiv milli identiklik anlayışları çox yaxın, bir-biri ilə bağlı anlayışlara çevrilir. Axı millət müəyyən sosial, mədəni və siyasi birlikdən ibarətdir və bu birliyin üzvləri tərəfindən qəbul edilən identikliyin üzərində fəaliyyət göstərir[12].

Mənbə 11 Dini-konfessional[13] identiklik

Dini identiklik dini şüurun bir kateqoriyasıdır ki, bu kateqoriyanın tərkibi bu və ya digər mədəniyyətin dini ideya və dəyərlərinə uyğun gəlir, həmçinin də o, konkret din və dini qrupların tərkibinə daxildir. Birinci halda bu göstəriş "Mən möminəm" ifadəsilə müəyyən edilir. Digər vaxt isə bunu ifadə edir: "Mən xritstian katolikəm", "Mən buddustəm", "Mən müsəlmanam" və s.[14].

Mənbə 12 Şəhər identikliyi

Fərdi əhatə edən reallıqda və onun təcrübəsində identikliyin mövcudluğu üçün zəruri olan kateqoriyaların olması subyektiv hal kimi, yəni şəhər ilə bağlılıq hissini yaradan şəhər identikliyini formalaşdırır. […] Uzun müddət şəhərdə yaşamaq, şəhər ilə bağlı təcrübələrin müxtəlifiyi, onun sakinləri ilə sosial əlaqələrin genişliyi və intensivliyi, mədəni biliklər, ehtiyyaclar və maraqlar, müxtəlif məlumat axınlarına daxil olma dərəcəsi və s. — bütün bunlar şəhər identikliyinin formalaşması və mövcud olmasında öz rolunu oynayır[15].

[11] Ґібернау М. Ідентичність націй. — К. Темпора, 2012. — С.222−223.

[12] Соціокультурні ідентичності та практики. За ред. А.Ручки. — К.: ІС НАН України, 2002. — С. 25. (Пер. с укр. автора).

[13] Konfessiya (lat. confessio — məzhəb) müəyyən dini nəzəriyyənin çərçivəsində məzhəbin xüsusiyyətləri, həmçinin bu dinin tərəfdarlarının birliyidir.

[14] Папаяні І. В. Проблема концептуалізації релігійної ідентичності. — [Elektron resurs]. — Giriş rejimi: http://dspace.nbuv.gov.ua/bitstream/handle/123456789/29612/14-Papayani.pdf?sequence=1. (Пер. с укр. автора).

[15] Мусиездов А. А. Социологическая концепция городской идентичности. — Х.: ХНУ имени В. Каразина, 2013. — С. 317–319.

Mənbə 13 Gender identikliyi

Gender[16] identikliyi insan tərəfndən özünün kişi və ya qadın qrupuna mənsub olmasının dərk edilməsidir. Bu anlayış şəxsiyyətin özünüdərk aspektini ifadə edir. Bu aspekt insanın bu və ya digər cinsə mənsub olduğu, maskulinlıq[17] / femininlıq[18]. haqqında görüşlər ilə bağlı olan konkret cinsi spesifk səciyyələrin və davranış xüsusiyyətlərin daşıyıcısı kimi özünü hiss etməsini təsvir edir. İdentiklik uşağın anadan olmasından formalaşmağa başlayır. Gender sosiallaşması prosesi başlanır ki, bu proses zamanı uşağa bu və ya digər cəmiyyətdə qəbul edilmiş "kişi" və "qadın" haqqında təsəvvürlərə uyğun olması üçün məqsədyönülü tərbiyyə verilir. Məhz cəmiyyətdə mövcud olan etalonlar əsasında uşağın öz gender identikliyi və rolu, davranışı, həmçinin öz-özünə qiymət verməsi haqqında təsəvvürləri formalaşır[19].

Mənbə 14 Yaş identikliyi

Yaş identikliyi bu və ya digər yaş kateqoriyasına subyektiv olaraq bölünən mənsubiyyəti ifadə edən şəxsiyyətin sosial identikliyinin komponentidir. Yaş identikliyi şəxsiyyətin sosial identikliyinin bir komponentidir və digər komponentlərlə birlikdə (gender, etnik, milli, dini, sosial-iqtisadi və s.) onun strukturuna daxildir[20].

Mənbə 15 Peşə identikliyi

Peşə identifkasiyası şəxsiyyətin peşə xarakteristikalarının (norma, rol və statuslarının) varisliyini şərtləndirən peşə qrupu, iş ilə obyektiv və subyektiv birliyidir[21].

Mənbə 16 Mədəniyyət identikliyi

Mədəni identiklik anlayışı daha geniş anlayış olan kollektiv identikliyin bir hissəsidir. Bu anlayış aşağıdakı prinsipə əsaslanır: fərd kollektiv mədəniyyətin əsas elementlərini özününkü hesab edərək, onlara bağlanaraq bu elementləri dərk edir. Beləliklə, fərd özünü bu birliyin tərkib hissəsi kimi görür. Eyni zamanda fərd özünü digər birliklərdən fərqli olduğunu hiss edir (başqalıq)[22].

---

[16] Gender (ingilis dilində gender, genus — "növ" latın sözündən) insanın cəmiyyət içərisində davranışı və bu davranışın qəbul edilməsini müəyyən edən sosial cinsdir. Bu, digər insanlarla (dostlar, həmkarlar, sinif yoldaşları, valideynlər, yoldan keçən insanlar və b.) münasibəti müəyyənləşdirən cins və rol davranışıdır. "Gender" "cins" (ing. sex) sözündən fərqlənir, çünki cins insan orqanizminin morfoloji və fzioloji xüsusiyyətlətrinin cəmi, mayalanma prosesi zamanı insan fərdinin rolunu müəyyən edən onun genetik olaraq determinləşdirilmiş əlamətlərinin cəmi deməkdir.

[17] Maskulinlıq (lat. sözü masculinus — kişi) kişiyə xas olan bədən, ruhi və davranış xüsusiyyətlərindən ibarət kompleksdir (yəni kişini qadından və ya heyvanlarda erkəyi dişidən fərqləndirən zahiri cəhətlər).

[18] Feminlik (lat. sözü femina — qadın) qadına aid edilən psixoloji xüsusiyyətlər kompleksidir: yumşaqlıq, emosionallıq, incəlik, zərifik, səmimilik, vəfalılıq. Bu xüsusiyyətlər kişidə qadını qoruyub müdafə etmək istəyi yaradır.

[19] Микляева А. В., Румянцева П. В. Социальная идентичность личности: содержание, структура, механизмы формирования. — [Elektron resurs] (Кафедра психологии человека РГПУ им. А. И. Герцена). — Giriş rejimi: http://humanpsy.ru/miklyaeva/soc_ident_02.

[20] Микляева А. В. Актуализация возрастной идентичности: ситуативный контекст. — [Elektron resurs]. — Giriş rejimi: http://psihologia.biz/psihologiya-psihologiya-obschaya_693/miklyaeva-aktualizatsiya-vozrastnoy–16069.html.

[21] Жукалина О. Становление профессиональной идентичности студентов-психологов. — M.: 2008. — [Elektron resurs] ("Praktiki psixologiya və psixoanaliz institutu" qeyri-dövlət tədris müəssisəsi). — Giriş rejimi: http://tatyanabarlas.narod.ru/diplom/Zhukalina.htm.

[22] Гнатюк О. Прощання з імперією. Українські дискусії про ідентичність / О. Гнатюк. — К.: Критика, 2004. — С. 50–51.

Blok 4. Kiçik tədqiqat

16. F ə z i i s iz
o x u y u. B s o u ş
ö y ə iy iiz
iə övüü s iz
ü s iə ə y
ü s iə l ə ə ö

Mənbə 17 Müsahibə materialları (Donetsk vilayəti, 2013-cü il; Luqansk, 2004-cü il)[23]

“A”

İntervü (müsahibə) alan: Milli mənsubiyyətiniz.

Respondent (kişi, 33 yaş): Qaraçı.

İntervü alan: Sizin üçün qaraçı olmaq nə deməkdir? Qaraçı olduğunuzu necə müəyyən edirsiniz?

Respondent: Bilmirəm. Mənim fikrimcə, qaraçı olmaq allah verqisidir, sadəcə, mən qaraçıyam, və bundan heç yerə qaçmaq mümkün deyil.

“B”

İntervü alan: Milli mənsubiyyətiniz.

Respondent (qadın, 33 yaş): Yəhudi.

İntervü alan: Sizin üçün yəhudi olmaq nə deməkdir?

Respondent: Bu, həyat tərzidir.

İntervü alan: Bu, nədə özünü göstərir?

Respondent: Hər şeydə, bayramların keçirilməsində, mədəniyyətdə, yemək mədəniyyətində və s. Yəhudi dini hər-hansı konfessiya deyil, həyat tərzidir. Sən yəhudi və ya yəhudi dininin daşıyıcısı ola bilməzsən, bunlar bir-birinə bağlı şeylərdir.

İntervü alan: Sizin üçün bu qrupun nümayəndəsi olmaq nə deməkdir?

Respondent: Çətin sualdır, çünki nə cavab verəcəyimi bilmirəm. Bu qrupda müxtəlif insanlar var, bəzilərinin təhsili var, bəzilərinin yoxdur. Yəni… Amma, heç nəyə baxmayaraq, bu mənim mədəniyyətim, mənim həyatımdır, mən bu qrupda boya-başa çatmışam və yaşayıram.

“C”

İntervü alan: Milli mənsubiyyətiniz.

Respondent (qadın, 55 yaş): Ukraynalı.

İntervü alan: Sizin üçün ukraynalı olmaq nə deməkdir?

Respondent: Mən fəxr edirəm ki, ukraynalıyam. Həmişə uşaqlara da deyirəm ki, mənim ailəmdə hamı ukraynalıdır. Mənim atam da, anam da, babalarım da, ulu babalarım da — hamı ukraynalıdır. Xüsusən də, Kiyevdən gəlmədirlər […].

[23] Müsahibə nəticələri 2003-cü ildə O. Mixeyeva tərəfindən Donetsk vilayətində və 2004-cü ildə Luqanskda toplanıb

“Ç”

İntervü alan: Milli mənsubiyyətiniz.

Respondent (kişi, 29 yaş): Ukraynalı.

İntervü alan: Sizin üçün ukraynalı olmaq nə deməkdir? Ukraynalı olduğunuzu necə müəyyən edirsiniz?

Respondent: Sözün düzü, şəxsən mənim üçün bu, yaşayış yeridir. Yəni mən özümü millətçi saymıram. Buna görə də mənim bütün parametrlər üzrə ukraynalı olduğumu demək… yəni bu ancaq coğrafi məna daşıyır.

“D”

İntervü alan: Milli mənsubiyyətiniz.

Respondent: Məktəbəqədər yaşlarımda milliyyətim haqqında çox da düşünmürdüm. İlk növbədə atam tərəfdən, xüsusilə də babam sağ olanda, həmişə deyirdi ki, “hansı millətdən olduğunu unutma”. Ailəmizdə erməniyə ən çox mən oxşayıram, buna görə də o deyirdi: “Hər-hansı addımı atmaq istəyəndə, unutma ki, sən ermənisən”.

“E”

İntervü alan: Qadın özünü necə reallaşdırmalıdır — öz [ənənəvi] rolunda və ya ondan kənar — insan kimi?

Respondent: Şəxsən mən belə fikirləşirəm ki, kişi və qadın arasında zahiri görünüşdə, davranışda, psixoloji reaksiyalarda və hətta özünü reallaşdırma sahələrində asan görünən fərqlərin formalaşmasında əsas rolu tərbiyyə oynayır. Bəlkə də bu, çox radikal səslənəcəq, lakin mən əminəm ki, hər uşaqda kişi və ya qadın deyil, hər şeydən əvvəl insan tərbiyyə etmək lazımdır.

“Ə”

İntervü alan: Siz qadın üçün qeyri-adi peşə sayılan taksi sürücüsü peşəsini necə seçdiniz?

Respondent: Hər şey uşaqlıq illərində başladı. Banal səslənsə də, mən həmişə rəfqələrimdən fərqlənmişəm, oğlanlarla dostluq etməyi xoşlamışam. Sonra atamın qarajı, onun təlimatlarının zamanı gəldi. Avtobus sürüçüsü işləmişəm, sonra kiçik avtobusların dövrü başladı. İndi isə mən sərnişin daşıma üzrə ən iri şirkətlərin birində taksi sürücüsü işləyirəm. Və bu işim mənə böyük zövq verir.

“F”

İntervü alan: Sizin üçün müəllim olmaq nə deməkdir? Bu peşənin mahiyyəti nədir?

Respondent: Uşaqlıqda mən həkim olmaq istəyirdim. Sonra müharibədə həlak olan babamın arzusu haqqında eşitdim. O istəyirdi ki, bizim ailəmizdə kimsə şəcərəni davam etdirsin — müəllim olsun. Və mən ibtidai sinif müəllimi oldum. Çalışıram ki, balacaların hər birinin üzərində çox işləyim. İstəyirəm ki, onların hamısı xeyirxah, səmimi insanlar olsun, ölkəsini sevsinlər, onun qayqısına qalsınlar, tarixini və mədəniyyətini bilsinlər. Həmçinin istəyirəm ki, mənim yetirmələrimdən biri gələcəkdə müəllim olsun.

17. ‡- c ü v ə ł- c ü ll o u ı ə ı ə l ə i ə
i s
ı) l ə ş ə ı i s ı ı ə x ı
ü u ı ə l ə ə
p, öv l ə
s ç i. B

Yekun müzakirə

S
S



Bölmə II

MƏDƏNİYYƏT VƏ SİYASƏT

B ö ə “ s iy s ə

S

c ə ə ş ə ü x

iy y ə

D

v ə y q ə ə , ə iy y ə
v ə y i ə i
i B ö ə i ö y ə ə , s iz s iy s ə
c ə o u q i ə ə ə c ə

- X I X X X - c i ə s l ə ə M i
q ? B ə y ş ə i s ə ə ?
- K ç ə v ə y u ə iy y ə
c ə ə s
- İ c
- C ə iy y ə
q ş ü s i ə
- A
- İ c ə s ə ə
i s
- S
- S
q q ə l ə i ş ?
- C ə iy y ə
- D

XIX–XX-ci əsrlərdə Milad və Yeni il bayramlarının mürəkkəb taleyi

XIX–XX-ci əsrlərdə Milad və Yeni il bayramları hansı dəyişikliklərə məruz qalıb? Bu dəyişikliklərin səbəbləri nədir?

1. B y l ə ?
2. B z t y l i y ə s v ?
3. t y l ?
4. B z M v ə M İ y ə üçü s v ?

Tarixi məlumat

Tarixçilərin fikrincə, Yeni il ənənələrinin yaşı 5000 mindən az deyil. Bu ənənələr əkinçilik mədəniyyətinin yaranması ilə bağlıdır. Bir çox xalqlarda yeni il 1 sentyabrdan və ya bahar və yaxud payız gecə-gündüzünün bərabərliyindən sonra başlayırdı.

Yeni ilin qışın ortalarında qeyd etmək ənənəsi e.ə.45-ci ildə Qədim Romada Yuli Sezarın təşəbbüsü ilə yaranıb. Yeni qəbul edilən və təsisçisinin şərəfinə Yulian təqvimi adlandırılan təqvimdə hər ay Allahlardan birinin adını daşıyıb və Yeni il yanvarın 1-dən başlanıb. Belə sayılır ki, Yeni ili şənlənərək və evləri bəzəyərək qeyd etmək ənənəsi məhz o zamanlar yaranıb.

Orta əsr Avropasında Yeni ilin qeyd edilməsi bütpərəstlərlə assosiasiya edilirdi. Buna görə də 567-ci ildə katolik kilsə 1 yanvarda yeni ili qeyd etməyi qadağan etdi. Lakin son orta əsrlərdə yeni ili yanvarın 1-dən başlamaq ənənəsi qaytarılır. Milad bayramı xristianlar tərəfindən İsa Peyğəmbərin Vifeyemdə doğulması şərəfinə qeyd olunur. Bu, xristian dünyasının on iki ən böyük bayramları arasında Pasxadan sonra ikinci əhəmiyyətli bayramıdır və IV-cü əsrdən başlayaraq xristian dininə itaət edən xalqlar tərəfindən qeyd edilir. Miladda hədiyyə vermək ənənəsi Bibliyada körpə İsaya hədiyyə gətirən volxvlar (cadugərlar, falçılar, mütəfəkkirlər) haqqında rəvayətə əsaslanır.

Avropada quraşdırılan Milad küknarı (yolkası) haqqında ən qədim sənədlər XVI-cı əsrin əvvəllərinə aiddir. Həmişə yaşıl küknar ağacı həyatın özünü və qaranlıq və zülmətdən dirçəlişi simvollaşdıran müqəddəs ağac sayılırdı. XVII-ci əsrdə Milad küknarı Almaniyada, Skandinaviya ölkələrində və bəzi Baltik ölkələrində artıq Miladın yayılmış rəmzi idi. Protestant ölkələrində Milad küknarının populyarlığı daha çox idi. Bu, küknarda şamların yandırılmasının ilk dəfə Martin Lüter[1] tərəfindən icad edildiyi haqqında əfsanə ilə bağlı idi.

Rusiya imperiyasında Yeni ilin yanvarın 1-dən qeyd olunması Birinci Pyotrun 1699-cu il 15 dekabr tarixli fərmanı ilə təsis edilib.

[1] Martin Lüter ilahiyyətçi, Avropada Reformasiyanın təşəbbüskarı və xristianlığın protestant qolunun banisidir.

Blok 1. Milad və Yeni il Rusiyada

5. Ru s iy M ünüə qy o

6. s y ə ə ə
şy ü y viv ə y ? Cv z ı ə s s .

7. v ə M ü ə ə s ı
v ə M y o s

Mənbə 1 Miladın qeyd olunması ənənələri haqqında

Milad küknarını qurmaq ənənəsi Rusiyada yalnız XIX-cu əsrin 20-ci illərində Peterburq almanları tərəfindən yayılıb. İlk dəfə Milad bayramı küknarla imperator ailəsində açıq qeyd edilməyə başlayıb. Birinci Nikolayın dövründə Qış sarayında hər il imperatorun uşaqları, qardaşı və bacısı uşaqları üçün küknar və hədiyyələrlə dolu bayramlar keçirilməyə başlayıb.

Daha sonra bu ənənə Peterburq zadəganları arasında yayılmağa başladı. Hətta Jukovskinin Puşkinə ünvanladığı məktubunda da deyilir: "Şənbə günü yolka olacaq". Bu zamanlar Milad ağacı Rusiyanın evlərində çox nadir hal idi, lakin dəbli yenilik kimi surətlə populyarlıq qazanırdı və 1840-cı illərin sonlarından Peterburq bazarlarında küknar ağacı satılmağa başladı. Müasir yazırdı: "Peterburqda hamı küknara aşiq olub. Məmurun kasıb otağından başlayaraq təmtəraqlı salonadək — Peterburqun hər yerində Milad axşamları küknarlar parıldayır, işıqlanır və titrək işıq verir"[2].

Mənbə 2 Birinci Nikolayın ailə həyatından səhnələr. Aniçkov sarayında Milad küknarı[3]

[2] С. Борисова. Рождественская ёлка. Возвращение / [Электронная газета] Родительский Комитет Украины / январь №1 (1) — 2013. — С.5. — Giriş rejimi: http://zlatoust.dp.ua/gazeta/1360332839/2013-01.Gazeta-RKU.pdf.

[3] Картина художника А. Чернышева. 1840–1850 гг. [Elektron resurs] Русская живопись. Знаменитые русские художники и репродукции их картин. — Giriş rejimi: http://art19.info/chernyshev/picture/sceny-iz-semejnoj-zhizni-imperatora-nikolaya-i-rozhdestvenskaya-elka-v-anichkovom-dvorce.html.

Mənbə 3 Böyük knyaginya[4] Olqa Aleksandrovna Romanovanın xatirələrində çar küknarının təsviri

Soçelnikə[5] hər şey hazır idi. <…> Lakin uşaqlar da, digərləri də İmperator tərəfindən zəngin çalınmasını gözləməli idilər. Və bu vaxt, etiket qaydalarını yaddan çıxararaq, hamı banket zalının qapılarına doğru qaçırdı. Qapılar taybatay açılırdı və "biz sehirli dünyaya daxil olurduq". Bütün zal rəngarəng şamlarla parıldayan və qızılı və gümüşü suyuna salınmış meyvə və yolka oyuncaqları ilə dolu Milad küknarları ilə bəzədilmişdi. Təəccüblü heç bir şey yox idi! Altı küknar ailə üçün və daha çox qohumlar və saray əhli üçün nəzərdə tutulmuşdu. Hər küknar ağacının yanında ağ süfrə ilə örtülmüş və hədiyyələrlə dolu balaca masa var idi. <…> Üç gündən sonra küknarları saraydan yığışdırmaq lazım idi. Uşaqlar bu işlə özləri məşğul olurdular. Çarın övladları isə əllərində qayçı ilə nərdivana çıxıb yolkalardan bütün bəzəkləri sökürdülər. Zanbaqlara oxşayan gözəl şamdanlar və dəbdəbəli bəzəklər <…> nökərlərə paylanırdı. Onlar olduqca xoşbəxt idi! Onlara bu cür sevinci bəxş etdiyimizə görə biz də çox xoşbəxt idik[6]!

Mənbə 4 Müasir tədqiqatçı Rusiya cəmiyyətində Yeni il küknarı haqqında

Küknar qurmaq ənənəsi insanı təəccübləndirən sürətlə paytaxtdan əyalət şəhərlərinə, daha sonra mülkadarların malikanələrinə, varlı ailələrdən daha az imkanı olan ailələrə yayılır. Bunun sayəsində yolka getdikcə daha çox insanı cəlb edir. Onun şərəfinə olan bayramın ictimai statusu da genişlənir: valideynlər tərəfindən uşaqlar üçün təşkil olunan ailəvi bayramla yanaşı uşaq yolka bayramları da ənənə şəklini alır. Bura qohum, tanış və iş yoldaşlarının uşaqları dəvət edilirlər, 1860-cı illərdən isə tədris-tərbiyyə müəssisələrində də yolka tədbirləri təşkil edilməyə başlayır. Nəticədə 10–15 ildən sonra küknar təmamilə özününkiləşdirilir. Lakin rus keçmişində heç bir ideoloji dayağa malik olmadığına görə o, sadəcə dəbli yenilik, sevilən "alman təşəbbüsü", böyüklər tərəfindən uşaqlara bəxş edilən sevinc olaraq qalır[7].

Mənbə 5 XIX-cu əsrin sonu-XX-ci əsrin əvvəllərində Rusiya cəmiyyətində küknara qarşı münasibət haqqında

Əvvəl Milad küknarı Rusiyada varlı zadəganların bayram mədəniyyətinin atributu kimi qəbul edilirdi. Sonralar bayramın demokratlaşması və onun təbəqə sərhədlərinin genişlənməsi nəticəsində bəzəkli yolka burjua evini getdikcə tez-tez bəzəyirdi. Getdikcə uğurlu sahibkarlar (tacir, ticarətci, bankir) və gəlirli peşələrin

[4] Böyük knyaginya imperator ailəsinin üzvü olan ailəli qadının soy tituludur. Burada — imperator Üçüncü Aleksandrın qızı Olqa Aleksandrovna Romanova (1882–1960).

[5] Soçelnik Milad xaçaturan axşamıdır. Ukraynada "Svyatveçer" ("Müqəddəs axşam") adlanır. Soçelnikdə şam yeməyinə xüsusi mərasim yeməkləri verilir.

[6] Йен Воррес: Мемуары Великой Княгини Ольги Александровны, 1960. Глава 2. Классная комната и внешний мир. [Elektron resurs] «Библиотека Якова Кротова»: http://krotov.info. — Giriş rejimi: http://www.rodon.org/vi/pvk.htm.

[7] Душечкина Е. В. Дед Мороз: этапы большого пути. (к 160-летию литературного образа) — Журнальный зал М.: НЛО. 2001.№47. [Elektron versiya]: http://magazines.russ.ru/nlo/2001/47/dush.html. Adaptasiya edilmiş mətn.

sahibləri (həkim, vəkil, dövlət qulluqçuları) öz gündəlik məişətində zadəgan həyat tərzini təkrar etməyə, müxəlləfatın dəbdəbəsi və gözəlliyi ilə isə öz daha soylu müasirlərini geridə qoymağa çalışırdılar. Zəngin bəzədilmiş küknar fərdi və ailəvi maddi rifaha meylləri təcəssüm edir və bu rifahın mövcudluğunu təsdiq edirdi. O, bir tərəfdən ailələri birləşdirən və onları "yadlardan" ayıran, digər tərəfdən isə ailənin soyundan asılı olmayaraq onun ictimai nüfuzu, əhəmiyyəti və zənginliyi haqqında təsəvvür yaradan simvol idi. Bununla yanaşı ev yolkası… "yeni", intellektual elitaya mənsub olmağın bir rəmzi idi[8].

8. (-l s yl ə l ə s iz ə s

9. V

üş y iə

10. B ə z ə i Ü s i v o li ə s ı

11. (-l s yl ə ə l ə ə ı y i ə ö y ə iz ?

12. Ru s iy i y i ə s i ə s ı x ü s

l y l y i ə s i ə s

Mənbə 6 Yolka bəzəklərinin simvolikası haqqında

İlk əvvəl rus Milad küknarının budaqlarında asılan oyuncaqlar dini, İncildə təsvir olunan süjetləri ifadə edirdilər, yolka ağacının özü isə başdan ayağadək dini simvolika ilə dolu idi.

Ağacın zirvəsini Vifeyem ulduzu bəzəyirdi, ətəyin çarpazı isə İsa Peyğəmbərin keçirdiyi dəhşətlərin simvolu kimi çarmıxı təsvir edirdi. İsanın doğulduğu haqqında xəbər yayan insana bənzər qanadlı mələklər Allahın hökmünü ifadə edirdilər.

Hörük şəkilli naxışlar (muncuq, zəncir, çələng, tac) müqəddəsliyin, əzabın, ölümün, dirilmənin və ölümün atributları kimi yolkada balaca bayraqlar ilə (inam uğrunda mübarizənin müqəddəs simvolları) yanaşı yerləşirdi. Yolka zəngləri (zınqırovları) həqiqəti söyləyən ilahi səsi, həmçinin İsanın doğulduğu haqqında ilk xəbər tutan və ona birinci sitayiş edən Fələstin çobanları tərəfindən qoyunların boynuna asılan zınqırovları xatırladırdılar. Xüsusi cənnət yeməyi olan meyvələrdən yolkada mütləq almalar (Qurtuluş və İdrakın simvolu) və üzüm (Tövratda Həyat ağacına bərabər olan Yer məhsulunun emblemi kimi təsvir edilirdi) ilə təmsil olunurdular. Quş (Blaqoveşeniye Göyərçini) ilahi dairələrdən gələn göstərişlərin daşıyıcısı, quzu isə (ilahi quzu) İsanın simvolu idi. Xristianlığın ən mühüm simvolları İsanın, Kilsənin, Bərəkət və Etiqadın simvolları olan şamlar idi ki, öz qısa ömürləri ilə onlar tənha iztirablı insan gəlbini simvollaşdırırdılar. Onlar Vifeyem keşişlərinin Müqəddəs gecədə yollarını işıqlandıran ulduzlar və tonqalların işıqlarını ifadə edirdilər[9].

[8] Алла Сальникова. История ёлочной игрушки. М.: НЛО. — 2011. С. 32–33.

[9] Алла Сальникова. Elə orada, səh. 49.

Mənbə 7 Müasir tədqiqatçı Yeni il küknarı haqqında

Lakin hamı yolkaya qarşı sevincli, coşqun münasibəti bəsləmirdi. Onu rus köhnə adətlərinin, meşələrin tərəfdarları, ən əsası — ona Qərbdən gələn adət kimi baxan Pravoslav kilsəsi qəbul etmədi. Kilsənin yolkanın xristianlaşdırılması prosesinə qarşı çıxması tədricən Milad bayramlarının öz dini əhəmiyyətini itirməyi qorxusundan irəli gəlirdi. Küknar yalnız Miladla deyil, həmçinin Yeni il və fəsil simvoluna çevrilərək qışla, məkan baxımından isə qış meşəsi obrazı ilə əlaqəndirilirdi. Bu, dərhal yolka oyuncaqlarında öz əksini tapdı: onların arasında qar, qoza, göbələk, müxtəlif heyvanlar və digər meşə atributları əmələ gəldi[10].

Mənbə 8 1910-cu ilin qəzet xəbəri

"Vseobşaya malaya qazeta" 1910-cu ilin 30 dekabrında yazırdı: "Miladın ilk və ikinci günü Əlahəzrətlərin iştirakı ilə Çarskoye Seloda Əlahəzrətin Xüsusi konvoyunun kazakları, dəmiryol batalyonu, saray polisi və saraylarda xidmət edən digər insanlar üçün yolkalar işırlandırıldı". "Küknarlar yüzlərlə muncuqla, müxtəlif gözəl yolka bəzəkləri və yolka şirniyyatı ilə bəzədilmişdi. Onun yanında yerləşən böyük masada hədiyyələr düzülmüşdü: gümüşdən düzəldilmiş müxtəlif əşyalar, süfrə qaşıqları, çayniklər və qənd qabları". Daha sonra bildirilirdi ki, imperator kiçik rütbəli insanları bayram ilə təbrik etdi. Onlar lotareya çarxına yaxınlaşıb hədiyyənin nömrəsi olan bilet çıxarırdılar. Zabitlər masanın üzərindən həmin hədiyyəni tapırdılar. Bundan sonra böyük knyajnalar hədiyyəni təqdim edirdilər[11].

Mənbə 9 Şaxta Babanın tarixi

Bir versiyaya əsasən, müasir rus Şaxta Babasının "ulu babası" rus xalq nağıllarının qəgrəmanı havanın, qışın və şaxtanın sahibi olan Morozko və ya Moroz Krasniy Nos idi. İlk əvvəl onu Ded Treskun adlandırıb uzun saqqallı və rus şaxtaları kimi sərt xasiyyətli balaca boylu qoca kişi kimi təsvir edirdilər. …Şaxta Babanın yaşadığı yer haqqında birmənalı şəkildə demək çətindir, çünki bu haqda çoxsaylı əfsanə var. Bəziləri deyir ki, Şaxta Baba Şimal qütbündəndir, digərləri deyir ki o, Laplandiyada[12]. yaşayır. Aydındır ki, Şaxta Baba il boyu qış olan Uzaq Şimalda yaşayır.

<…> Rus Şaxta Babasının mənşəyi Avropa Santa Klausundan qəti şəkildə fərqlənir. Əgər Santa Klaus xeyirxah əməllərinə görə müqəddəs elan edilən real şəxsiyyət idisə (Müqəddəs Nikolay Mirski[13]), rus Şaxta Babasının kökü bütpərəstlikdən gəlir; o, xalq inanc və nağıllarının personajıdır. <…> Bu gün də rus Şaxta Babası uzun

[10] Душечкина Е. В. Дед Мороз: этапы большого пути. (к 160-летию литературного образа) — Журнальный зал М.: НЛО, 2001. — №47. [Elektron versiya] http://magazines.russ.ru/nlo/2001/47/dush.html. Adaptasiya edilmiş mətn.

[11] С. Евгеньев. Царская ёлка. [Elektron resurs] Formatsız: http://lenoblast.bezformata.ru. — Giriş rejimi: http://lenoblast.bezformata.ru/listnews/tcarskaya-elka/388973/.

[12] Laplandiya Skandinaviya yarımadası və Finlandiyanın şimalında yerləşən ərazidir.

[13] Müqəddəs Nikolay Mirski IV-cü əsrin xristian övliyasıdır. Baş keşiş (yepiskop) Mirski (Kiçik Asiya). Rəvayətlərə görə, uşaqlara və talesizlərə himaye edir. Onun adı ilə bir-birinə hədiyyə vermək adəti bağlıdır. Pravoslav xristianlığı onu Möcüzə göstərən Nikolay kimi tanıyır.

kürkdə, keçə çəkmələrində və əsa ilə gəzir. O, ayaq ilə, hava ilə və ya üç atın qoşulduğu xizək ilə yeriməyi xoşlayır… Onu həmişə nəvəsi Qar Qız[14]. müşayiət edir. Şaxta Baba uşaqlarla oynayır və Yeni il gecəsində yolkanın altına hədiyyələr gizlədir[15].

Blok 2. Sovet hakimiyyəti və Yeni il bayramları. 1-ci hissə. Qovulma

13. “K o s v y övu

Mənbə 10 Sovet hakimiyyətinin ilk illərində bayramda baş verən dəyişikliklər haqqında

1922-ci ildə Milad gününün “komsomol[16] Miladına” (və yaxud — “Komsvyatkalara”[17]) çevrilməsi kampaniyası keçirildi.

Bu bayramın həyata keçirilməsi (müqəddəs Pravoslav bayramını adlandırdıqları “Keşiş Miladına” əks olaraq) bayramların “qəsdən dəyişdirilməsi” ideyalarına uyğun idi. Bu, sovet ideoloqlarının fikrincə, əhaliyə… sovet ideologiyasını qəbul etməyə kömək edə bilərdi. Komsomol özəkləri “komsvyatkaların” qeyd edilməsini qeyri-iş günü olan yeni stil ilə dekabrın 25-də təşkil etməli idilər. Tədbirlər Milad bayramlarının “iqtisadi köklərini” ifşa edən məruzələrlə çıxışlardan, siyasi satiraların səhnələşdirilməsindən, kilsə motivlərinə yazılmış komsomol mahnılarının ifasından ibarət idi. Bayramın ikinci günü küçə gəzintiləri — karnavallar təşkil olunurdu. İştirakçılar Antanta, Kolçak, Denikin, qolçomaq, nepman, büdpərəstlərin Allahlarının və hətta Milad qazı və donuz balasının kostyumlarını geyinirdilər. Klub, məktəb və uşaq evlərində “komsomol yolkaları” keçirilirdi. Yeni bayram ritualları yaradaraq sovet ideoloqları ənənəvi təqvim (həm xalq, həm də kilsə) adətlərindən istifadə etməyə çalışırdılar. <…>

Lakin küknara qarşı xoş münasibət uzun sürmədi. Artıq 1924-cü ilin sonlarında dəyişikliklər hiss edildi. “Krasnaya qazeta” məmnuniyyətlə qeyd edirdi: “Bu il hiss olunur ki, Milad mövhümatları, demək olar ki, bitib. Bazarlarda nadir hallarda küknar görmək olar. Şüursuz insanların sayı getdikcə azalır”. Tədricən “komsomol miladı” bayramı da ləğv edildi[18].

---

[14] Qar qız (Snequroçka) (İnqilabdan əvvəl “Snejnaya devoçka” — “qar qız”) uşaq səhər tamaşalarında xalq nağılı, Ostrovskinin pyeslərinin və Rimski-Korsakovun operalarının fraqmentlərinin əsas personajı kimi iştirak edirdi. Yalnız 1935-ci ildən sonra Qar Qız Şaxta Babanın köməkçisinə çevrilir. Bu cütlük ilk dəfə 1937-ci ilin əvvəlində Moskvada İttifaqlar Evində keçirilən yolka bayramında birlikdə çıxış etməyə başladı.

[15] «История Деда Мороза» — Славянский мир. [Elektron resurs]. — Giriş rejimi: http://slavs.org.ua/ded-moroz.

[16] Komsomol (qısaldılmış) — Gənclərin Kommunist İttifaqı — 1918-ci ildə bolşeviklərin Kommunist partiyasının rəhbərliyi altında yaradılmış gənclərin siyasi təşkilatıdır.

[17] Svyatkalar əksər slavyan xalqları tərəfindən qeyd edilən bayram günləridir. Miladdan Xaçaçurana qədər, Yeni il daxil olmaqla qeyd edilir.

[18] Е. В. Душечкина / Из истории русской елки (1920-е — 1930-е годы) / Журнал Живая старина. 2002, № 4, С. 9. — [Elektron versiya]. — Giriş rejimi: http://annales.info/rus/small/elka.htm.

14. l s y lı ə t ə ə h s ı ı ə ı i ə ü “ ə z iz ”, x
lı ı l ı? B “ x

15. “v” q ə z t
s y lı ə t ə l ə H i ə ı c ə lı ı?

16. S
ü ı s i ə
ı ə t ə l ə)?

Mənbə 11 Sovet hakimiyyətinin küknara və Şaxta Babaya qarşı münasibətinin dəyişməsi haqqında

Oktyabrdan sonrakı ilk illərdə yeni hakimiyyətin yolka və Şaxta Babaya qarşı münasibəti kifayət qədər loyal idi. Lakin 1927-ci ildə əsas vəzifələrindən biri köhnə bayramların məhvi və yenilərinin təsdiq edilməsi olan din əleyhinə kampaniya başlayanda, küknar və Şaxta Baba “dini mövhumat” və “kapitalistlərin xalq əleyhinə fəaliyyətinin” formalarından biri kimi qəbul edilməyə başladı… “Dini zir-zibilə” çevrilən Milad, yolka və Şaxta Baba məna etibarilə bir cərgəyə daxil oldular. 1927-ci ildə hazırlanan Milad genlərində din əleyhinə təbliğat Materiallarda qeyd edilirdi: “Uşaqları aldadırlar ki, onlara hədiyyələri Şaxta Baba gətirib. Uşaqların dindarlığı məhz yolkadan başlanır… Hakim istismarçı təbəqələr “əziz” yolka və “xeyirxah” şaxta babadan həmçinin zəhmətkeşlərdən “kapitalın sözəbaxan və dözümlü nökərlərlərini” yaratmaq üçün istifadə edirlər”[19].

Mənbə 12 Kommunist Y.Qordiyenkonun 1928-ci ildə “Pravda” qəzetinə yazdığı məktubdan bir hissə

Allaha inanmayan və şagirdlər və fəhlələr arasında din əleyhinə təbliğat aparan bir insan kimi məni bir şey təəccübləndirir: niyə “Pravda” qəzeti[20] bütün SSRİ-yə elan edir ki, Univerpoçt yolka bəzəkləri təklif edir. Univerpoçtu yolkaların bəzədilməsi üçün müxtəlif bərbəzək və lazımsız şeylər yayaraq köhnə adətlərin saxlanılmasına təkan verdiyi üçün məsuliyyətə cəlb etməyi təklif edirəm[21].

17. “U ş ı o s
l y lı ü s i ə
i f ə l?
i l ş

[19] Душечкина Е. В. Дед Мороз: этапы большого пути. (к 160-летию литературного образа) — Журнальный зал М.: НЛО. 2001. №47. [Электронная версия] http://magazines.russ.ru/nlo/2001/47/dush.html.

[20] Sovet hakimiyyəti dövründə əsas rəsmi qəzet.

[21] Гордиенко Е. «Правда», № 300 (4132) стр. 5 от 23 декабря 1928 г.

18. [illegible] c ü f o
özləi
[illegible]əq s ələ çəli?

19. [illegible] s yl[illegible]əməə [illegible] s ıçıış s ə
o [illegible]u?

20. “ A
ə s s p[illegible] s o
[illegible]əi

21. [illegible], [illegible] və [illegible] s yl[illegible]əmələi o xşvə f

22. S
[illegible]əmələ)?

Mənbə 13 “Uşaqların dostu” adlı uşaq jurnalına ünvanlanan məktubdan bir hissə, 1929-cu il

Kefi Milad yaxınlaşır — elə bu köhnə həyatın özü kimi köhnə, lazımsız bir gün. Onun ardınca köhnə “yeni il” sürünür — onun kimi lazımsız, ziyanlı, özü ilə sərxoşluq, proqul, xəstəlik gətirən bir gündür. Adətən, bu köhnə dini bayramlar əksər insanlar tərəfndən uşaqlar üçün “yolkaların” təşkili ilə qəbul edilir. <…> Yolka bayramları ilə biz uşaqlarımızı yalnız şikəst edirik: onlarda köhnə bayramlara qarşı məhəbbət tərbiyyələndiririk, sağlam, təmiz havadan məhrum edirik, yaşıl əkililərə qarşı yırtıcı münasibət tərbiyyə edirik… Uşaqlar üçün qış bayramları təşkil edin, lakin bu bayramları Milada həsr etməyin. <…> “Uşaqların dostu”[22] cəmiyyətinin hər bir üzvü dini bayramların və “yolkaların” ləğv edilməsi uğrunda təşviqatda iştirak etməlidir. Təşviqata uşaq təşkilatlarını da cəlb etmək lazımdır. Cavan meşələrin məhvinin qadağan edilməsini tələb edən lozunq və plakatlarla nümayişlər təşkil edin. Birlikdə təzyiq göstərərək biz beşilliyin sonunadək əsası alman burjuaziyası tərəfndən qoyulan “yolkalar”ın təşkili kimi barbar adətin ləğv edilməsinə nail olmalıyıq. Bu imkan yaradacaq ki, biz tezliklə həm dini bayramları, həm də ki, dinin özünü məhv edək[23].

[22] “Uşaqların dostu” məktəb, təşkilat və müəssisələrə uşaqların kommunist ruhlu tərbiyyəsində kömək məqsədilə 1924-cü ildə yaradılan könüllü cəmiyyət idi. 1930-cu ildən “Uşaqların dostu” Ümumrusiya cəmiyyəti adlandırılırdı. Aylıq “Uşaqların dostu” jurnalını nəşr edirdi. 1935-ci ildə öz fəaliyyətini bitirdi.

[23] “Burjuaziya yolkası rədd olsun!”. «Друг Детей» Ленинград № 3, 1929. — С.13.

Mənbə 14 Uşaq bağçalarının yetirmələri din əleyhinə nümayişdə. Moskva, 1929-cu il[24]



Plakatlarda yazılar:

Sol plakat: "Valideynlər, bizi çaşdırmayın, Milad və yolka təşkil etməyin".

Sağ plakat: "Uşaqları Allahın yox, müəllimin köməyilə tərbiyyələndirin".

Mənbə 15 "Uşaqların dostu" jurnalından şəkil, № 12, 1929-cu il



Şəkildə yazı: Burjuaziya yolkası rədd olsun!
Aşağıdakı şeir:
Milad küknarına
Mənasız pul xərcləməyin,
Konki və ayaq xizəkləri
Bizə daha yaxındır.

[24] Fotoşəkil — Uşaq bağçalarının yetirmələri din əleyhinə nümayişdə. Moskva, Bauman rayonu. 1929-cu il. [Elektron resurs]. — Giriş rejimi: http://tankfront.livejournal.com/25807.html?title.



Mənbə 16
“Allahsız dəzgahın yanında” jurnalının üz qabağı, 1930-cu il

1) Yolkanın üzərində yerləşdirilən lövhəcikdə yazı: “Milad üçün küknar kəsmək QADAĞANDIR!”.

2) Qırmızı bayraqda yazı: “Sosialist tikintisi”.

23. M y i iy ə iz liq y o luuu (ə ə) ?
ə y i “ ə qı” o luuu y i (ə ə).
ü s iə

24. - c il o u ı o liə

Mənbə 17 Miladın gizli qeyd olunması haqqında

1929-cu ildə hakimiyyət Miladı əksinqilabi bayramı elan edərək onu qadağan etdi. 25 dekabr iş günü elan edildi. Məktəblərdən yolkalar tamamilə yox oldu… Uşaqlar üçün “Milad əleyhinə gecələr” təşkil etməyə başladılar. İndi Milada keçən gecə

(dekabrın 24-dən 25-nə keçən gecə) müdriyyət sovet işçilərini küçələrlə gezərək qadağan olan bayramı qeyd edənləri güdməyə məcbur edirdi. Qulaq asmayanları böyük çətinliklər gözləyirdi. Onları işdən çıxara, hətta həbs edə də bilərdilər. Lakin vətəndaşları Svyatkalardan ayırmaq, demək olar ki, mümkün deyildi. Repressiyalara baxmayaraq onlar bayramı sakit, gizli qeyd edirdilər: musiqisiz, nəğməsiz, bərk örtülü pəncərələrlə… yolkanı dolaba qoymaqla[25].

Mənbə 18 1930-cu illərin əvvəllərində Miladın qeyd olunması haqqında şahidlərin xatirələrindən

Miladda biz böyük, hündür yolka qururduq. O illər dini mərasimin bir hissəsi sayılaraq yolkanı qadağan etdilər, lakin əmim <…> onu almaq üçün kəndə gedirdi, bağlı şəkildə rozvalnilərdə (xizək növü)[26], gətirərək mətbəxə köməkçi pilləkən vasitəsilə çıxırdı ki, heç kəs görməsin. Yolkanın küçədən görünməməsi üçün yemək otağının pəncərələri pərdə ilə örtülürdü. Sonra ən maraqlı anlar yetişirdi: otağın mebeli yığışdırılırdı, mərkəzdə küknar ağacı qurulurdu. Adətən, yolka bizim hündür yapma naxışlı tavanımıza dirənirdi. Onu ailə üzvlərinin düzəltdiyi oyuncaqlarla bəzəyirdilər. Ən fəal sənətkar Vera Afanasyevna idi (Vera xala). O, bu sənətə kursda yiyələnmişdi. Hamı böyük yemək masası ətrafında otururdu və gərgin iş başlanırdı. Oyuncaqlar kartondan, pambıqdan, rəngli kağızdan, qozlara yapışdırılan nazik qızılı və gümüşü kağızlardan düzəldilirdi[27].

Blok 2. Sovet hakimiyyəti və Yeni il bayramları. 2-ci hissə. Qayıdış

25. S
iə izi(ə 9)? M ə
s o v
ə c iə əiə s ?
26. - c uiəii c iyı s iyıqşü
əvvəliy i s ı
s yıiəiələ)?

[25] А.Макаров / Под угрозой репрессий Рождество в городах отмечали, тщательно занавешивая окна и ставя елку в… шкаф / Электронный портал журнала «Факты и комментарии» — http://fakty.ua. — Giriş rejimi: http://fakty.ua/156786-pod-ugrozoj-repressij-rozhdestvo-v-gorodah-otmechali-tcshatelno-zanaveshivaya-okna-i-stavya-elku-v-shkaf.

[26] Rozvalnilər xizək növüdür.

[27] Земская Е.А. Михаил Булгаков и его родные: Семейный портрет. — М.: Языки славянской культуры, 2004. — 169 с.

Mənbə 19 “Pravda” qəzetində dərc edilən SİKP MK-nin[28] Siyasi Bürosuna üzv olmaq üçün namizəd olan Pavel Postışevin “Gəlin Yeni ilə uşaqlar üçün yaxşı yolka şənliyi təşkil edək!” adlı məktubundan

28 dekabr 1935-ci il

İnqilabdan əvvəl burjuaziya və burjuaziyanın məmurları Yeni il bayramları zamanı həmişə öz uşaqları üçün yolka şənlikləri təşkil edirdilər. Fəhlələrin uşaqları rəngarəng, parlaq yolkaya və onun ətrafında şənlənən varlıların uşaqlarına pəncərədən həsrətlə baxırdılar. Niyə Sovet ölkəsinin zəhmətkeşlərinin uşaqlarını məktəb, uşaq evləri, körpələr evləri, uşaq klubları, Pionerlər evləri bu gözəl tədbirdən məhrum edirlər? <…>

Uşaqlar üçün gözəl əyləncə olan yolkanın bu cür haqsız unudulmasına son qoyulmalıdır. Komsomolçular, pioner işçiləri[29] Yeni il ərəfəsində uşaqlar üçün kütləvi yolka şənlikləri təşkil etməlidirlər. Məktəblərdə, uşaq evlərində, Pionerlər evlərində, uşaq klublarında, uşaq kino və teatrlarında — hər yerdə yolka şənlikləri olmalıdır! Belə bir kolxoz olmamalıdır ki, orada Yeni il ərəfəsində idarə ilə komsomolçular uşaqlar üçün yolka şənliyi təşkil etməsin…

Əminəm ki, komsomolçular bu işdə ən fəal iştirak edəcək və uşaq yolkasının burjuaziya mövhumatı olması haqqında axmaq fkri aradan qaldıracaqlar. Beləliklə, gəlin uşaqlar üçün gözəl Yeni il şənliyi, bütün şəhər və kolxozlarda yaxşı sovet yolka şənlikləri təşkil edək[30].

Mənbə 20 Sovet illərində bayramın rolu haqqında

1935-ci ilin sonunda yolka şənlikləri nəinki bərpa olundu, onlar aşağıda təqdim edilən daha çox sadə və dəqiq tərifə uyğun bayrama çevrildilər: “Yeni il yolkası ölkəmizdə şən və xoşbəxt uşaqlığın bayramıdır”. Müxtəlif idarə və sənaye müəssisələrinin əməkdaşlarının uşaqları üçün Yeni il şənliklərinin təşkili mütləq idi. İndi küknar ağacı yalnız sovet Yeni il bayramının deyil, həmçinin bütövlüklə sovet həyatının zəruri elementinə çevrildi. Bayramı adətən Həmkarlar ittifaqının[31] fəallarından ibarət olan “yolka komissiyası” təşkil edirdi: proqram hazırlayırdı, yolka gətirirdi, Şaxta Baba ilə təmin edirdi, hədiyyələr hazırlayırdı. <…>. Bayram günlərində küknar obrazı qəzet və jurnalların səhifələrindən, demək olar ki, düşmürdü.

<…> Yolkanın Milad ilə bağlılığı unuduldu. Milad ağacı sovet dövlətinin əsas üç bayramlarından biri (Oktyabr və Bir may ilə yanaşı) olan Yeni il bayramının atributuna çevrildi. “Milad ağacının” təpəsindəki səkkiz qüşəli Vifeyem ulduzunu Kremlin güllələrində təsvir olunan beş qüşəli ulduz əvəz etdi. <…> Bir neçə il də keçdi, və 1947-ci ildə 1 yanvar “təqvimin qırmızı günü”, yəni qeyri-iş günü elan edildi, İttifaqlar evində[32] qurulan yolka isə “ölkənin əsas yolkası” statusunu aldı[33].

[28] SİKP MK — Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi.

[29] Məktəblərdə və pionerlər evlərində uşaqlarla işləyən tərbiyyəçilər.

[30] Постышев П,П. «Давайте организуем к Новому году детям хорошую елку!» Письмо в газете Правда 28.11.1935. — С. 1.

[31] Həmkarlar ittifaqları SSRİ-də işçilərin qurumları idi.

[32] İttifaqlar evi XIX-cu əsrdə ballar və zadəganların yığıncaqları, sonralar isə konsertlərinin keçirildiyi binadır. 1919-cu ildə bina həmkarlar ittifaqlarına verildi. Binanın adı məhz bundan irəli gəlir. 1936-cı ildən başlayaraq İttifaqlar Evinin Sütunlu zalında uşaqlar üçün bəzədilmiş yolka ilə Yeni il şənlikləri keçirilirdi.

[33] Е. Душечкина.Три века русской ёлки. [Электронный портал] журнал «Наука и жизнь»: http://www.nkj.ru. — Giriş rejimi: http://www.nkj.ru/archive/articles/12680/.

Mənbə 21 Yeni il yolkasının bəzədilməsi haqqında Xalq Maarif Komissarlığının[34] təlimatından, 1937-ci il

Küknarın təpəsini beş qüşəli qırmızı və ya gümüşü parlaq ulduz ilə bəzəmək lazımdır. <…> Göz oxşayan şeylərin müxtəlifiyini və bolluğunu ən qeyri-adi ardıcıllıqda saxlamaq zəruridir — paraşüt və ayı, kəpənəklər və şax-şaxlar və s. <…> Yolkanın ətəyinin bəzədilməsinə xüsusi diqqət yetirmək lazımdır. Bu gözəl ağacın möcüzəliyi və qeyri-adiliyi bütövlüklə qorunub saxlanılmalıdır[35].



Mənbə 22 Polşanın “Kuryer Lodzya” qəzetinin 4 yanvar 1939-cu il tarixli buraxılışında SSRİ-də Yeni il bayramlarının qeyd olunması haqqında dərc edilən yazıdan

(Yeni ilin qeyd edilməsinə) qoyulan qadağa yalnız son illərdə ləğv edildi. Kommunist partiyası bütün dünyaya nümayiş etdirmək istəyirdi ki, Stalinin apardığı iqtisadi siyasətin məqsədləri yerinə yetirilib, SSRİ-də hamı firavan yaşayır. Bundan əlavə, yanvarın 1-nə keçən gecə “Yeni ilin kollektiv qarşılanması” dəstəklənməyə başladı. <…> Buna görə Yeni il gecəsində bütün kommunist klublarında və hətta məktəblərdə şənliklər təşkil olunurdu. Bura bir əyləncə məqamı da daxil idi — bayram yolkası. <…> Lakin kommunist Yeni ili Avropa Yeni ilindən çox fərqlənir. Ölkə rəhbərliyi bu bayrama kommunist xarakteri verməyə çalışırdı, buna görə də bütün əyləncələr sovet siyasətini əhatə edən təşviqat mühazirələrilə başlanırdı, tamaşaçılar isə əylənməyə bütün bu çıxışları və Stalinin şərəfinə səslənən “İnternasionalı” dinlədikdən sonra başlaya bilərdilər.

Bayramın qayıdışından sonra Sovet İttifaqında xüsusi Yeni il mərasimi təsdiq edildi: saatlar 24.00-a yaxınlaşanda kommunist natiq Stalinin və kommunizmin şərəfinə sağlıq deyir, həmçinin qarşıdakı ildə bütün dünyada kommunist inqilabının başlanmasını arzulayırdı[36].

[34] Xalq Maarif Komissarlığı müasir Təhsil Nazirliyinin vəzifələrini icra edirdi.

[35] «Елка в детском саду и школе» — Пособие. М.:Учпедгиз. 1937. — С. 9–10.

[36] «Советский Новый 1939-й год» («Kurjer Łódzki», Польша) 31/12/2012 / ИноСМИ.ru / [Elektron variant]. — Giriş rejimi: http://inosmi.ru/russia/20121231/203594718.html. Adaptasiya olunmuş mətn.

Mənbə 23 “Ölkənin əsas yolkası” haqqında

1937-ci ilin oktyabrında Stalinə “Əsas yolkanı harda quraq?” sualını verdilər. O, cavab verdi: “Bizdə bütün yolkalar əsasdırlar”. Bu sözlər birmənalı qarşılanaraq əmr kimi qəbul edildi. Tez bir zamanda təşviqat eskadrilyalarının[37] paraşütçülərindən Şaxta Baba dəstələri yaradılmağa başlandı ki, ölkənin ən ucqar rayonlarına Yeni il hədiyyələri çatdırılsın. Təşkilatçıların fkrincə, bu aksiya sovet aviasiyasının və paraşütçü-desantçıların imkanlarını əyani şəkildə təbliğ etdirirdi. Digər yaşayış məntəqələrinə 1938-ci ilin gəlişi münasibətilə təşviqat qatarları, təşviqat avtomobilləri, aero-xizəklər, sərnişin təyyarələri, xizəkçilər, hətta maral qoşumları ilə xüsusi kuryerlər yola düşdü. <…> Lakin İttifaqlar Evində təşkil olunan yolka rəqabətdən kənar idi. İlk addımdan möcüzələr canlanırdı, uşaqlar zallarda darıxmırdılar: zalların birində heyvanat parkından gətirilmiş ecazkar heyvanlara tamaşa edir, digərində xalq nağılları və populyar uşaq əsərlərinin qəhrəmanları ilə görüşürdülər, üçüncü zalda onları cürbəcür atraksionlar gözləyirdi. Lakin şənliyin əsas bəzəyi projektorların işığında parlayan üzərində fəhlə və kəndli, kommunist simvolikası təsvir olunmuş on min yolka oyuncağı ilə bəzədilmiş gözəl küknar ağaçı idi. <…> Hətta müharibə illərində də bütün çətinliklərə baxmayaraq uşaq Yeni il səhər şənlikləri keçirilirdi. 1945-ci ildə isə İttifaqlar Evində Yeni il şənliyinin bayram vüsəti Qələbənin yaxınlaşmasına işarə verirdi[38].

Mənbə 24 İttifaqlar Evinin Sütunlu zalında qurulan Əsas yolka. 1941-ci il[39]



◆ M ə lu

İlk rəsmi yolka 1937-ci ildə Moskvada İttifaqlar Evinin Sütunlu zalında qurulub. Bu il bəzi Yeni il ənənələri meydana gəldi. Yolkanın təpəsini səkkiz qüşəli qızıl Vifeyem ulduzunun əvəzinə kommunizm və sovet hakimiyyətinin simvoluna çevrilən beş qüşəli qırmızı ulduz bəzədi. 1937-ci il yanvarın 1-də Kremldə təşkil edilən bayram şənliyində güllə saatlarının zəngini bir qədəh şampan ilə qarşılamaq ənənəsi yarandı.

* GÜLKİ MK — Gənclərin Ümumittifaq Lenin Kommunist İttifaqının Mərkəzi Komitəsi — Kommunist Gənclər İttifaqının (komsomolun) rəhbər orqanı idi.

37 Təşviqat hərəkət etməyə həvəsləndirmək, ideyaları yaymaq, ictimai əhval-ruhiyyəyə təsir etmək deməkdir.

38 «Какая страна, такая елка». — Журнал «Огонёк», № 51, 1997 г.

39 E.Yevzerixin tərəfndən çəkilən fotoşəkil. Москва. Колонный зал Дома Союзов, 1941 г. [Elektron portal] http://www.christmasheaven.ru/articles.php?article_id=277. — Giriş rejimi: http://www.christmasheaven.ru/images/articles/Ded_Moroz_fotografja_Je.Evzerihina_Moskva_Kolonnyj_zal_Doma_Sojuzov_1941_g.jpg.

Mənbə 25
“Oyuncaq” jurnalında dərc edilən nümunəvi Yeni il yolkasının şəkili. №8, 1937-ci il[40]

Mənbə 26 Siyasi əhəmiyyətli bayram

Komsomolun və pioner təşkilatının rəhbərliyi altında kommunist səhər şənliklərinin ən “yuxarılarda” təsdiq edilən ssenariləri meydana çıxdı… Bu ssenarilərdə mütləq xeyr və şərin mübarizəsi göstərilirdi. Şaxta Baba ilə Qar qız[41] çoxsaylı düşmənlərlə mübarizə aparır, onların hiylə və fitnələrinə qalib gələrək bayram gözləyən uşaqların yanına gəlirdilər. İdeya sadə və aydın idi: dünya imperializmi gənc sovet dövlətinə

[40] Götürülüb: Алла Сальникова. История елочной игрушки. Там же. — С. 95.

[41] Qar qız (Snequroçka) (İnqilabdan əvvəl “Snejnaya devoçka” — “qar qız”) uşaq səhər tamaşalarında xalq nağılı, Ostrovskinin pyeslərinin və Rimski-Korsakovun operalarının fraqmentlərinin əsas personajı kimi iştirak edirdi. Yalnız 1935-ci ildən sonra Qar Qız Şaxta Babanın köməkçisinə çevrilir. Bu cütlük ilk dəfə 1937-ci ilin əvvəlində Moskvada İttifaqlar Evində keçirilən yolka bayramında birlikdə çıxış etməyə başladı.

zərər yetirmək istəyir. Lakin sovet vətəndaşları, həmişəki kimi, daha güclü olurlar. Təbii ki, hər bir səhər şənliyi Stalinin təri f ilə sona çatırdı. Yeni ilin gəlməsində "bütün sovet uşaqlarının ən yaxşı dostu"nun əli olmasına inanan bir nəsl böyüdü. Hər-halda, Şaxta Baba və Qar qız uşaqlara aşağıdakı mahnını oxuyaraq yolka ətrafında fırlanmağı təklif edirdilər: "Yolkanın ətrafında mehriban duraq, ölkəmizlə birlikdə mahnı oxuyaq: Böyük Stalin, eşq olsun! Əziz Stalin, eşq olsun!"[42].

Mənbə 27 Özündə sovet simvolikası daşıyan yolka oyuncaqları

1935-ci ildə Lenin və Stalinin portretlərilə yolka oyuncaqlarının istehsalına başlanıldı. Lakin tez bir zamanda onlar yığışdırıldılar, çünki bir tərəfdən şarlar tez-tez sınırdılar, digər tərəfdən isə "Lenin və Stalini yolkadan asmaq" ifadəsi pis səslənirdi.

Mənbə 28 Sovet oyuncaqları haqqında

30-cu illərdə sənətkarlar hakimiyyətin və "şəxsən Stalin yoldaşın" istəklərini həssaslıqla hiss edirdilər. Əgər xalqların atası deyib ki, xokkey yaxşıdır, dərhal yolka xokkeyçiləri düzəldilirdi. "Sirk" kinokomediyasını təri f əyib — dərhal küknarlar klounlar, akrobatlar, hətta zənci balaları ilə bəzədilirdi. Xristian simvolikasını sovet simvolikası əvəz etdi. Yolka oyuncaqları arasında budyonovka geyinmiş qırmızı əsgər, matros, "pioner qız Maşa", ənənəvi kostyumlarda SSRİ xalqlarının nümayəndələrinin f qurları ("Dostluq" dəsti), üzərində qırmızı ulduz olan təyyarələr, dirijabllar, balaca bayraqlar var idi. 1930-cu illərdə sovet dükanlarının rə f ərində ölkənin şüşə zavodlarının istehsal etdiyi məmulatlara rast gəlmək olardı — şarlar, tanklar, balaca elektrik lampalarından ibarət olan hörüklər <…>. Ən təəccüblüsü odur ki, yolka bəzəklərinə tələbat Böyük Vətən müharibəsi illərində daha da artdı. İnsanlar onları məktəb və uşaq evlərində təşkil olunan Yeni il səhər şənlikləri üçün toplayırdı, bəzədilmiş yolkalar ilə hospitallarda olan yaralıları sevindirirdi. Qeyd edək ki, müharibə illərinin ən populyar yolka oyuncaqları paraşütçülər idi. Onlar çox sadə hazırlanırdı: adi oyuncağa stroplar (ip) vasitəsilə əski parçaları bərkidilirdi. Cəbhədə olan döyüşçülər, düşmənin arxa cəbhəsində olan partizanlar yolka üçün oyuncaq düzəldərək improvizasiya edirdilər. Hətta şüşədən hazırlanmış gilizlər də istifadə edilirdi. Onlardan əla hörüklər alınırdı[43].

[42] А. Владимиров / НОВЫЙ ГОД: ТРУДНАЯ ДОРОГА К ЕЛКЕ/ Web-журнал «Інтелектус». — Giriş rejimi: http: // www.patent.net.ua/intellectus/inteligibilisation/populus/1445/ua.html.

[43] А. Котельникова, А. Константинов, Д. Овчинников / Ракеты, спутники и кукурузные початки. Зарисовки из истории елочной игрушки / [Электронный портал АИФ] http://www.perm.aif.ru. — Giriş rejimi: http://www.perm.aif.ru/ny2014/tellings/1067355.

Mənbə 29 Sovet Yeni il açıqçası. 1941-ci il



Mənbə 30 Sovet Yeni il açıqçası. 1943-cü il.[44]



30. 194- c iv ə 194- c ü l ə i
i s
ə lq ə l ə ri?

31. M ü li ə n i ç ə
Ol b y n c ə h z l şv ə o nu n c
üçün n ə y i s iv o lşı? - c ü l
ə s s hın.

Mənbə 31 İkinci Dünya müharibəsi zamanı cəbhədə Yeni ilin qeyd edilməsi haqqında xatirələrdən

Qütb arxası sahələr qışda nədir? Qırx dərəcədən aşağı şaxtalar, keçilməz qarlar. Gənc zenitçilər qazmalarda yaşayırdılar — alçaq tavan, dəmirdən düzəldilmiş soba, ikiyaruslu yataq yerləri. Bir qazmada yeddi nəfər yaşayırdı.

[44] Mənbə 29, 30 — İkinci Dünya müharibəsi dövründəki sovet poçt açıqçaları — Cəbhədəki yeni il. [Elektron resursu] «Историческая Правда» http://www.istpravda.ru. — Giriş üsulu: http://www.istpravda.ru/artifacts/1465/.

Yeni il müharibədə də Yeni ildir. Bəzədilmiş yolka, Şaxta Baba və Qar qızsız bayram olar? Mərminin qilizinə zenitçilər çox xırda tozağacı bərkitdilər, onu bayram "payoku"nda verilən konservlərin üzlərilə bəzədik. "Yolkanın" təpəsinə isə parıldayan üz qabığı olan konfet yerləşdirdik. Bayram süfrəsində konservləşdirilmiş kolbasa bankaları, Amerika istehsalı olan tuşonkalar, kəllə qənd və spirtlə dolu kiçik mehtərə var idi.

Yeni ilin qəhrəmanları olan Şaxta Baba və Qar qızı qardan düzəltdik. Xoşbəxtlikdən, qışda Qütb arxası sahələrdə qar bol olur — beldən yuxarı qar təpələri var idi. Yeni il təbriki də var idi — tezliklə qələbə qazanıb sağ-salamat evə qayıtmaq[45].

Blok 3. XX-ci əsrin ikinci yarısında Yeni il bayramının qeyd olunmasının Sovet ənənələri

32. [illegible]

33. [illegible]

34. [illegible]

Mənbə 32 Bayramın 1950–1960-cı illərdə oynadığı rol haqqında

Nikita Xruşovun[46] hakimiyyətdə olduğu dövrdə qərara gəldilər ki, Yeni il bayramının ənənələrini yaratmaq lazımdır: küknar, Şaxta Baba, şənlənən uşaqlar, karnavallar. Yeni il açıqçalarının hamısında yalnız gülümsəyən insanlar təsvir olunurdu. Sistem belə işləyirdi: yuxarıdan kimsə gülümsəməyi əmr etdisə, bütün ölkə gülümsəməlidir, insanlar Stalindən sonra başqa zamanda yaşadıqlarını hiss etməlidirlər. Bunun üçün də ənənələr, bəhanələr icad edilirdi[47].

Mənbə 33 SSRİ-də Yeni il bayramının qeyd olunması haqqında jurnalistin qeydləri

50-ci illərdə ölkə müharibənin çətinliklərindən sonra biraz özünə gəldi. Yeni il xüsusi sovet təntənəsi ilə qeyd olunmağa başlandı. Bu sevimli qış günündə əslində addımbaşı rast gəlinən məişət çətinlikləri görünməməli idi. < …> İnsanlar çalışırdılar ki, uşaqlar üçün dövlət tərəfindən keçirilən hər-hansı bir yolka şənliyinə bilet tapsınlar. Ən nüfuzlusu, əlbəttə ki, Kremldə təşkil olunan yolka şənliyi idi. Hər bir uşaq yolka şənliyinə getməli və ordan müxtəlif şirniyyatlarla dolu ənənəvi hədiyyə

[45] Фронтовой Новый год. Elə orada. Adaptasiya olunmuş mətn.

[46] N.S.Xruşov 1954–1964-cü illərdə SSRİ-nin rəhbəri olub. Onun dövründə ictimai-siyasi həyatın liberallaşdırılması baş verib.

[47] Отрывок из статьи «Новый год в советской России: продолжение» / Петербург в позитиве 09.01.2014 / [Elektron portal] Şəhər+. http://www.gorod-plus.tv. — Giriş rejimi: http://www.gorod-plus.tv/blog/108.html.

ilə geri qayıtmalı idi. <…> Uşaq yolka şənliyi və müva f q hədiyyə bayramın ritualına çevrildi. <…>

Lakin sovet dövrünün əsas, xüsusilə də bayramqabağı əlaməti, əlbəttə ki, növbələr idi, çünki bayramlarla əlaqədar dükanlarda hansısa bir yenilik vardı. Uzun növbədə durandan sonra alınan əşya və ya ərzaq isə əsl bayram idi[48]!

Mənbə 34 Küknar oyuncağının tarixi haqqında

1940-cı illərin ikinci yarısından başlayaraq küknar üçün Moskva Kremlinin Spasskaya qülləsi formasında təpə istehsal etməyə başladılar. Bu simvolun əhəmiyyəti hamı üçün aydın idi, onun şərhlərə ehtiyacı yox idi. <…> Həmin dövrdə "kənd təsərrüfatı mövzusunda" çoxsaylı oyuncaqlar istehsal edilirdi: kök, pomidor, soğan, xiyar, noxud qınları, buğda dərzləri, limon, alma, armud və, əlbəttə ki, Xruşov dövründə "tarlaların kraliçası olan" qarğıdalı.

1950-ci illərin ikinci yarısı — 1960-cı illərin əvvəllərində "siyasi" yolka oyuncağı qismən sovet dövrünün gözəllik haqqında təsəvvürlərinə əsaslanan "məişət" oyuncağı ilə əvəz edilir… Sovet yolkalarını oyuncaq çaydanlar, səhənglər, qəfədanlar, güldanlar və konfetlə dolu səbətlər, zəngli saatlar, çılçıraqlar və stolüstü lampalar bəzəməyə başladı. Lakin bu o demək deyildi ki, SSRİ-nin gücünü və qüdrətini təbliğ edən oyuncaqlar keçmişdə qaldı. Bu zamanlar yolka oyuncaqlarının istehsalı zamanı ən populyar mövzulardan biri kosmosun fəthi mövzusu idi[49].

Mənbə 35 1960–1970-ci illərdə Sovet dövlətində istehsal edilən yolka oyuncaqları

Mənbə 36 Kosmonavt şəklində yolka bəzəyi[50]

[48] Е. Ласкина; Отрывок из статьи Новый год: Из России в СССР. [Elektron portal] http://www.casual-info.ru/index.php. — Giriş rejimi: http://www.casual-info.ru/moda/wardrobe/168/5012/.

[49] Алла Сальникова. История ёлочной игрушки. М.: НЛО, 2011. — С. 128–129.

[50] Традиции празднования. [Elektron portal] http://www.christmasnostalgia.com/ArticleBusyBeeTrader%20USSR%20Ornaments.htm. — Giriş rejimi: http://www.christmasnostalgia.com/USSROrnaments8.JPG.

35. 3- c i f o
ıə üçü quu? B f o

36. 3 s yı ıə tə ty m h s ı xü s

37. S
ü
qş o h s ı ü s iə

38. 34 s yı ıə tə lə Hiə ıə ə ə c ə ə u y u ə I?

Mənbə 37 **Yeni ilə bir gün qalmış son iş gününün fotoşəkili. Kimyə kombinatının elektrik sexinin işçiləri. 1970-ci illərin əvvəlləri. Ukrayna**



Mənbə 38 **1960–1980-ci illərdə Yeni ilin qeyd edilməsinə hazırlıqlar haqqında**

Sovet Yeni ili mahiyyətcə şəhər bayramı idi. Bu, təbiidir: kənd sakini üçün istər 31 dekabr, istər 1 yanvar digər qış günlərindən fərqlənmir. Gündəlik mütləq olan kənd təsərrüfatı işlərindən imtina etmək olardısa, bu, hər il qeyd olunan bayram xatirinə edilmirdi… Buna görə də Yeni ilin qarşılanmasının sovet ənənəsi haqqında yalnız 1960-cı illərin əvvəlindən bəhs etmək olar ki, bu vaxtlar şəhər əhalisinin sayı kənd sakinlərinin sayından çox oldu. Həmçinin məhz 1960-cı illərdə Xruşov "ottepelının" ("mülayimləşməsinin")[51] başlanğıcı ilə şəxsi həyat və özəl bayramlar sadəcə qəbul edilmir, hətta rəsmi ideologiyaya daxil olur. <…> Və əlbəttə ki, SSRİ dövrünün Yeni il ənənələrinə "Bu, hədiyyədir (ərzaqdır, suvenirdir və s.), ancaq Yeni il üçündür!"

[51] "Ottepel" ("Mülayimləşmə") SSRİ tarixində N.Xruşovun adı ilə bağlı olan ictimai-siyasi liberallaşdırma dövrünün adıdır.

ifadəsini də aid etmək olar. Total defsit sovet vətəndaşlarını öyrətdi ki, bayram üçün zəruri olan məhsulları bayramdan əvvəl yox, onu elə görəndəcə almaq lazımdır. Ərzaqlar soyuducuda və ya eyvanda, əşyalar isə dolab və ya anbar otaqlarında, küknar ağacları isə pəncərənin arxasında və ya eyvanda asılı vəziyyətdə saxlanılırdı. Demək olar ki, ailənin bütün üzvləri hədiyyələr haqqında xəbərdar idi, lakin bu, şən əhval-ruhiyyəni azaldmırdı: insanları yeni əşya əldə etmək imkanı çox sevindirirdi! <…> SSRİ-də Yeni il ən ümumi bayram idi (demək olar ki, yalnız Qələbə günü istisna təşkil edirdi, lakin bu günü ancaq 1965-ci ildən etibarən qeyd etməyə başladılar)… Bu sadəcə olaraq bayram deyildi, bu digər günlərdə nadir hallarda hazırlanan xörəkləri dadmaq və yeni bir hədiyyə almaq imkanı idi[52]…

Mənbə 39 “Neva şəfəqləri” məişət xidmətləri birliyinin Şaxta Babaları, Leninqrad şəhəri, 1984-cü il[53]

[52] КАК ПРАЗДНОВАЛИ НОВЫЙ ГОД В СССР / МТРК «МИР». — [Elektron portal] http://ge.mirtv.ru/. — Giriş rejimi: http://ge.mirtv.ru/news/9576505.

[53] «СССР. Наша Родина». [Elektron resurs] http://savok.name. — Giriş rejimi: http://savok.name/60-novyy-god.html.

Mənbə 40 Şaxta Babanı evə necə dəvət edirdilər

Yeni il yolkaları sistemindən başqa Şaxta Babanı evə dəvət etmək xidməti də mövcud idi. Burada bütün təşkilatçılıq məsələləri valideynlərin çiyinlərinə düşürdü — Şaxta Baba və Qar qızın evə gəlişini sifariş vermək, onun təqdim edəcəyi hədiyyəni müəyyən etmək və xidmətin pulunu ödəmək lazım idi. SSRİ-də bu bazarın alternativi yox idi. Şaxta Babaların hamısı dövlət tərəfndən bu cür xidmətlər göstərmək üçün səlahiyyət verilmiş "Şəfəq" frmasından gəlirdi. Bu mövsüm işinə teatr məktəblərinin tələbələri qəbul edilirdi.

Evə gələndə Şaxta Baba və Qar qız uşaq ilə kiçik səhər şənliyi keçirirdilər. Onlar uşağı taburetə çıxararaq əvəlcədən hazırlanmış şeiri söyləməyə sövq edirdilər, sonra isə ona hədiyyə təqdim edirdilər. Şaxta Baba üçün əsas təhlükə uşaq tərəfndən hətta ifşa edilmək yox, valideynlərin onu qonaq etmək istəyi idi[54].

39. [illegible] s y ı f o

Mənbə 41 Uşaq bağçasında Yeni il səhər şənliyi. 1958-ci il. Çerkas vilayəti, Ukrayna[55]

Mənbə 42 Uşaq bağçasında Yeni ilin qeyd edilməsi. 1969-cu il. Tbilisi. Gürcüstan[56]

[54] А.Сидорчик / Сделано в СССР. Детский Новый год по-советски/ Материал был опубликован 13 в журнале АИФ — электронный портал сайта: http://www.aif.ru. — Giriş rejimi: http://www.aif.ru/ny2014/tellings/1025419.

[55] Q.V.Kononskayanın ev arxivindən.

[56] A.Camahidzenin ailə arxivindən.

Mənbə 43 Gələn Şaxta Baba üçün şeirin söylənilməsi. 1969-cu il, Moskva. Rusiya[57]



Mənbə 44 Ailə bəzədilmiş yolkanın yanında. 1973-cü il. Vinnitsk vilayətində kənd, Ukrayna[58]



40. s y ə
Gö ə ə ə s y ə ə

x
x ü s u s iy y ə

[57] Y. V. Kuşneryovanın ailə arxivindən.
[58] P. A. Kostyukun ailə arxivindən.

Mənbə 45 Açıqçalar vasitəsilə Yeni il təbrikləri[59]

Ünvan: Tbilisi şəhəri, Gürcüstan

Təbrik açıqçasının mətni:

"Salam, əziz Robert, Asmati! Sizin valideynləriniz, ana, ata, uşaqlarınız. Hamınızı Yeni il, yeni xoşbəxtlik münasibətilə təbrik edirik. Səmimi qəlbdən bütün ailənizə yaxşı və möhkəm can sağlığı arzulayırıq. Uzun ömr arzulayırıq. Çutkeraşvili ailəsi". (Qazaxstan SSR, Ust-Kamenoqorskdan açıqça).

Ünvan: Tbilisi şəhəri, Gürcüstan

Təbrik açıqçasının mətni:

"Teymur, səni və bütün ailəni, Anzorla Nanini bu gözəl bayram münasibətilə səmimi qəlbdən təbrik edirəm. Sizə can sağlığı, xoşbəxtlik, bol-bol uğurlar arzulayıram. Şanlı Gürcüstanın sağlığına. Mariya" (Rusiya SFSR, Maqadandan açıqça).

[59] A.Camahidzenin ailə arxivindən.

Küçə və meydanların adlarında dövrlərin dialoqu necə əks olunur

Küçə və meydanların adları hakimiyyətin keçmişə və bu günə münasibətini necə əks etdirir?

Tarixi məlumat 1

Şəhərin küçə və meydanlarının adlarında ayrı-ayrı ölkələrin siyasi, sosial, iqtisadi və mədəni tarixini "oxumaq" olar. Adlar və çox vaxt siyasi konyukturanın[1] nəticəsi olaraq onların dəyişdirilməsi hakimiyyətin öz dövrünün dəyərlərinə, qəhrəmanlarına və mədəniyyət xadimlərinə qarşı münasibəti, həmçinin bu ölkənin tarixi inkişafının istiqaməti haqqında təsəvvür yaradır. Belə ki, qeyri-sabit siyasi konyuktura adların tez-tez dəyişdirilməsinə gətirib çıxarır. Adətən, bu hallara qeyri-demokratik dövlətlərdə rast gəlinir. Bundan əlavə, küçə və meydanların adları və onların dəyişdirilməsi ölkənin yalnız daxili siyasətini deyil, həmçinin xarici meyllərini də əks etdirə bilər.

Blok 1. Küçə və meydanların adları

Mənbə 1 Nezalejnost maydanı (Müstəqillik meydanı) Kiyevin əsas meydanıdır[2]

[1] Konyuktura cəmiyyətin siyasi məkanında müəyyən məqam, dövr zamanı əmələ gələn mühit, şərait, vəziyyətdir.

[2] Roman Salixovun fotosu. Müəllifn icazəsi ilə nəşr edilir. — Giriş rejimi: https://www.fickr.com/photos/salikhov/13287522684.

Mənbə 3 Tbilisinin əsas meydanı və ona bitişik küçələrin planı, 1907-ci il[4]

[Sənəddən bir sitat və ya maraqlı bir hadisənin qısa təsvirini verin. Qeydləri sənədin hər hissəsində etmək olar. Parlaq sitatlar təşkil edən qeydləri formatını dəyişmək üçün „Yazılarla iş” adlı hissəni istifadə etmək lazımdır.]



Mənbə 4 Tbilisinin əsas meydanı və ona bitişik küçələrin planı, Sovet dövrü



[4] Soqolaki Tbilisinin köh ərdən ibarət olan ticarət k

Mənbə 5 Tbilisinin əsas meydanı və ona bitişik küçələrin planı, 2014-cü il



◆ Tarixi məlumat 2

Müxtəlif dövrlərdə Tbilisinin əsas meydanı və ona bitişik küçələr aşağıdakı xadimlərin adlarını daşıyıb.

Velyaminov Aleksey, Qolovin Yevgeniy, Loris-Melikov Mixail, Paskeviç-Yerevanski İvan — Qafqazın işqalına yönəlmiş müxtəlif hərbi əməliyyatlarda və Rusiyaya qarşı üsyanların yatırılmasında iştirak və komandanlıq edən generallar, hərbi və dövlət xadimləri.

Qanov Boris — hərbçi, XIX-cu əsrdin əvvəllərində Gürcüstanda fəaliyyət göstərən kolonial administrasiyanın yüksək rütbəli məmuru.

Puşkin Aleksandr Sergeyeviç — böyük rus şairi.

Lenin Vladimir, Kirov Sergey kommunist partiyası və Sovet dövlətinin tanınmış xadimləridir.

Dumbadze Vladimir (Lado) [5]**, Kesxoveli Vladimir (Lado)** — gürcü inqilabçıları, Qafqazda sovet hakimiyyətinin qurulması və möhkəmlənməsində iştirak edən bolşeviklər.

Rustaveli Şota XII-ci əsrin böyük gürcü şairi, "Pələng dərili cəngavər" adlı epik poemanın müəllifdir.

Dadiani Şalva — XX-ci əsrin birinci yarısının gürcü yazıçısı, dramaturqu, rejissoru, teatr xadimi, Gürcüstanın xalq artisti, SSRİ Ali Sovetinin deputatı.

Leonidze Giorgi (Qoqla) XX-ci əsrin birinci yarısının gürcü yazıçısı, şairi və ictimai xadimidir. Gürcüstanın xalq şairi, Gürcüstan Elmlər Akademiyasının həqiqi üzvü olub.

Tabidze Qalaktion XX-ci əsrin birinci yarısı və ortalarının gürcü şairidir.

Abxazi Konstantin (Kote) — gürcü ictimai, siyasi və hərbi xadimi, milli-azadlıq hərəkatının liderlərindən biri. 1923-cü ilin mayında sovetlərə qarşı üsyanın yatırılmasından sonra bolşeviklər tərəfindən güllələnib.

[5] Küçə Lado Dumbadzenin adını 1936–1959-cu illərdə daşıyıb.

6. ſ s yı ıəṁələ ə

7. S

(- c ü

Mənbə 6 Tbilisinin köhnə rayonunda yerləşən park[6]



Gürcü və Azərbaycan dillərində qeyd: Heydər Əliyev adına Park.

Mənbə 7 Tbilisidə yeni küçə



Gürcü və ingilis dillərində qeyd: prezident Corc U.Buş[7] küçəsi.

[6] 6 və 7 saylı mənbələr N.Şoşiaşvilinin fotolarıdır.

[7] Corc U.Buş Amerika respublikaçı siyasətçisidir, 2001–2009-cu illərdə ABŞ-ın 43-cü prezidenti olub.

◆ Tarixi məlumat 3

Tbilisinin tarixi rayonlarından biri olan Abanotubanidə yerləşən parkın adı Azərbaycan və Gürcüstan arasında dostluq və strateji partnyorluq əlaməti olaraq 2004-cü ildə Azərbaycan prezidenti H.Əliyevin şərəfinə dəyişdirilib. Gürcüstanın ərazisindən keçən Azərbaycandan Türkiyəyə çəkilən Bakı-Tbilisi-Ceyhan neft kəməri Gürcüstan üçün böyük əhəmiyyət kəsb edib. Parkda H.Əliyevin büstü ucaldılıb.

2005-ci ildə Tbilisinin küçələrindən biri ABŞ-ın prezidenti C.Buşun şərəfinə adlandırıldı. Bu addım Gürcüstana göstərilmiş hərtərəfi köməyə görə minnətdarlıq əlaməti olaraq və ABŞ prezidentinin Tbilisiyə rəsmi səfərinin şərəfinə atılmışdı.

Blok 2. Küçə və meydanlarda ucaldılan abidələr

8. [illegible]

9. [illegible] p ü

Mənbə 8 Daşkənd şəhərinin mərkəzində ucaldılan heykəllər: general-qubernator K.P. fon Kaufman, 1913-cü il[8]

Mənbə 9 Daşkənd şəhərinin mərkəzində ucaldılan heykəllər: Karl Marks, 1976-cı il[9]

[8] [Elektron resurs] Aquilaaquilonis: Русский Ташкент. — Giriş rejimi: http://novchronic.ru/print9453.htm.

[9] Vikipediya. [Elektron resurs]. — Giriş rejimi: https://upload.wikimedia.org/wikipedia/ru/b/bb/Taskent_Central_Square_Karl_Marks_monument_1976.jpg.

Mənbə 10 Daşkənd şəhərinin mərkəzində ucaldılan heykəllər: Əmir Teymur (Tamerlan), 2014-cü il[10]

◆ Tarixi məlumat 4

Daşkənd şəhərinin mərkəzində yerləşən Əmir Teymur Parkında ucaldılan abidələrin tarixi

Ucaldılma tarixi	Abidə
1913	İlk Türküstan general-qubernatoru K.P. fon Kaufmana həsr edilən heykəl
1919	İnqilab mübarizlərinə həsr edilən abidə — “Azad edilmiş Zəhmət” monumenti (“Oraq və çəkic”)
1927	Oktyabr İnqilabının 10-illiyinə həsr edilən abidə
1930	“Beşilliyi 4 ilə yerinə yetirək!” çağırışı ilə V.İ.Leninin büstü
1940-cı illərin sonları	İ.V.Stalinin heykəli
1961	Kommunizmin quruculuğu Proqramının şərəfinə ucaldılan obelisk. Onun üzərində Proqramdan iki dildə mətn əks olunub (xalq arasında “Rus-özbək lüğəti” adlandırılıb)
1968	Karl Marksn heykəli
1994	Əmir Teymurun (Temerlanın)[11] heykəli

[10] Vikipediya. [Elektron resurs]. — Giriş rejimi: https://upload.wikimedia.org/wikipedia/commons/2/29/Monument_to_Amir_Temur_15-08.JPG.

[11] Teymur (1336–1405) (Teymur Ləng, yəni Topal Teymur, Avropada onu Tamerlan adlandırırdılar) bəşəriyyət tarixində ən görkəmli sərkərdələrdən biridir. Qızıl Orda üzərində qələbə qazanıb. İran, Zaqafqaziya, Hindistan, Kiçik Asiya və başqa ölkələrə yürüşlər edib. Paytaxtı Səmərqənd şəhəri olan dövlət yaradıb.

Mənbə 11 Tbilisinin əsas meydanında V.Leninin heykəli (Sovet dövrü)[12]

Mənbə 12 Tbilisinin əsas meydanında Müqəddəs Qeorqinin obeliski bu gün[13]

[12] Flikr elektron fotoşerinqi. — Giriş rejimi: https://www.flickr.com/photos/frerieke/3644112373. Воспроизводится с разрешения автора.
[13] N.Şoşiaşvilinin fotosu.

Mənbə 13 Tbilisidə A.Sobçakın heykəli[14]

“Arvad” necə “yoldaş” oldu…
İnqilabdan sonrakı qadının surəti

İctimai münasibətlərdə baş verən dəyişikliklər qadın surətinə necə təsir edir?

1. Tə s viə ə bxıı (l v ə l s yl ı ə t ə l ə). Bi i f ə ?

2. R ə s s l qıın h s ı üçün y ı ə ıüıün o h o luıu? Fiiz i ə s

Mənbə 1 **Müqəddəs Nikolayın kilsəsində Müqəddəs Annanın mehrabı, Kalkar şəhəri, Almaniya, XVI-cı əsrin birinci yarısı** (*fraqment*)[1]



Mənbə 2 **Pastoral; rəngarəng çini qrup. XVIII-cı əsrin ortaları**[2]

[1] http://commons.wikimedia.org/wiki/File:Kalkar_st_nikolai_020.JPG.

[2] Фото из «Большая иллюстрированная энциклопедия древностей». Изд-во «Артия»: Прага, 1980. Цветная врезка XXXIX.

◆ Tarixi məlumat

XX-ci əsr cəmiyyətdə böyük dəyişikliklərin baş verdiyi dövrdür. 1914–1918-ci illərin Birinci Dünya müharibəsi nəticəsində əhalinin strukturu dəyişdi, çoxlu sayda kişi həlak oldu, qadınların vəziyyəti dəyişdi. Qadınlar bir çox yeni sənətlərə yiyələnib cəmiyyətin həyatında daha əhəmiyyətli və böyük rol oynamağa başladı. Qadınlar tərəfindən cəmiyyətdəki yerinin, öz gender rolunun dərk edilməsi bütün XX-ci əsr boyu dəyişib. Lakin mühüm dəyişikliklər, transformasiyalar 1920–1930-cu illərdə baş verib.

Rusiya imperiyasında 1917-ci ildə baş verən inqilab ölkənin və bütün dünyanın həyatına çox böyük dəyişikliklər gətirdi. Rusiyada hakimiyyətə gələn bolşeviklər kommunist dövlətinin qurulması və "yeni insanın" tərbiyyəsini özlərinin əsas vəzifəsi sayırdılar. Bu "yeni insan" ümumi məqsədə tabe olmalı, öz maraqları ilə deyil, cəmiyyətin və dövlətin maraqlarına uyğun hərəkət etməli, köhnə ənənəvi dəyərlərdən uzaqlaşıb kommunizmin "işıqlı gələcəyinə" yönələn yolun doğru olmasına şübhə etməməli idi. Bu "yeni" sovet insanının tərbiyyə etmək üçün ən təsirli vasitələrdən biri təbliğat idi. Söz, monumental incəsənət, kinematoqraf və insana təsirin digər yollarından istifadə edərək bütün XX-ci əsr boyu məhz təbliğat yeni dəyərlər və dünyaya yeni baxış, yanaşma formalaşdırırdı.

Blok 1. Monumental təbliğat

▼

3. [illegible]

4. [illegible]

5. [illegible]

6. [illegible]

7. [illegible]

8. [illegible]

9. [illegible]

Mənbə 3 V. İ. Lenin[3] gələcəyin incəsənəti haqqında

Bu ideya çoxdan mənim ağlıma gəlib. <…>. "Günəş şəhəri" əsərində Kampanella[4] yazır ki, onun fantastik sosialist şəhərinin divarlarında gənclər üçün təbii elmlər və tarix üzrə əyani vasitə olan, vətəndaşlıq hissini yaradan, bir sözlə, yeni nəsillərin

[3] Vladimir İlyiç Lenin (1870–1924) Sovet dövlətinin yaradıcısıdır.

[4] Tomazzo Kampanella (1568–1639) italiyalı filosof və yazıçı, cəmiyyətin xəyal etdiyi gələcək quruluş haqqında "Günəş şəhəri" əsərinin müəllifdir.

maarifənməsi və tərbiyyəsində iştirak edən freskalar təsvir edilib. Mənə elə gəlir ki, bu elə də sədalöf yanaşma deyil və müəyyən dəyişikliklər ilə biz tərəfdən öyrənilə və tətbiq edilə bilər… Fikirləşdiyim şeyi mən monumental təbliğat adlandırardım. <…> Mən indi mədəniyyətin sosialist üslubuna uyğun olan mərmər və qranit, qızıl hərfər, tunc heykəllər haqqında heç düşünmürəm. Bunun üçün hələ tezdir, amma mənə elə gəlir ki, indi biz monumental təbliğatın ikinci, daha möhkəm, daha püxtələşmiş, daha səmərəli dalğasını reallaşdıra bilərik[5].

Mənbə 4 RSFSR XKŞ[6]-nın "Çarlar və onların nökərlərinin şərəfinə ucaldılmış heykəllərin sökülməsi və Rusiya Sosialist İnqilabına həsr edilmiş heykəllərin layihələrinin işlənib hazırlanması haqqında" Dekretindən.

14 aprel 1918-ci il

Rusiyanın simasını dəyişdirən böyük dönüşün şərəfinə Xalq Komissarları Şurası qərara alır:

— Heç bir tarixi və bədii tərəfdən maraq kəsb etməyən çarlara və onların nökərlərinin şəfərinə ucaldılan heykəllər meydan və küçələrdən götürülməli və onların bir hissəsi tətbiqi xarakterli anbarlara aparılmalıdır…

— Xalq Komissarları Şurası istəyir ki, May ayının 1-dək ən çirkin bütlər götürülsün və yeni heykəllərin ilk modelləri xalqa təqdim edilsin[7]…

Mənbə 5 A.V.Lunaçarskinin[8] "Alov" ("Plamya") qəzetində dərc olunmuş məqaləsindən, 1918-ci il

Biz paytaxrın park və münasib yerlərində Rusiyanın və dünyanın böyük şəxsiyyətlərinə, xüsusilə İnqilabın qələbəsində böyük əməyi olan insanlara həsr edilmiş heykəllər, əbədiləşdirmədən daha çox geniş təbliğat məqsədi daşıyan kiçik bədii heykəllər ucaldacağıq. Bizə zahiri təmtəraq, materialın qiymətinin böyük olması yox, bu heykəllərin keyfiyyəti və təsirliliyi lazımdır.

Biz ümid edirik ki, daha sakit zamanlarda bu heykəllərin əksəriyyəti əbədi mərmər və tunclara çevriləcək[9].

[5] Sit.: Луначарский А. В. Воспоминания и впечатления. 1968. [Elektron resurs] http://ruslit.traumlibrary.net/book/lunacharskiy-vpech-i-vosp/lunacharskiy-vpech-i-vosp.pdf стр.403–404.

[6] XKŞ — Xalq Komissarları Şurası 1918–1946-cı illərdə ilk sovet hökümətinin adı. Müvafq dekretlər Ukraynada (1919-cu il), Azərbaycanda (1920-ci il), Gürcüstan və Ermənistanda (1921-ci il) da qəbul edilmişdi.

[7] Известия ВЦИК. — [Elektron resurs] «Консультант Плюс»: Правовые ресурсы/некоммерческие интернет-версии. Giriş rejimi — http://base.consultant.ru/cons/cgi/online.cgi?req=doc;base=ESU;n=3394.

[8] A.V.Lunaçarski (1875–1933) sovet dövlət xadimi, 1918–1929-cu illərdə xalq komissarı və maarif naziri işləyib.

[9] Sit.: Два памятника Карлу Марксу. — [Электронная библиотека с книгами по скульптуре]. — Giriş rejimi — http://sculpture.artyx.ru/books/item/f00/s00/z0000010/st002.shtml.

Blok 2. “Arvad yoxsa yoldaş”?

10. [illegible]

11. [illegible]

12. [illegible]

13. [illegible]

14. [illegible]

15. [illegible]

Mənbə 6 Sovet inqilabçısı A.Kolontay[10] sovet qadın fəhlələri və kəndliləri haqqında. 1921-ci il

Sovet Rusiyasında ümumi əmək mükəlləfyyətinə keçid qadının vəziyyətində bəşəriyyət tarixində ən böyük dəyişikliyi yaratdı. … Cinsiyyətindən asılı olmayaraq hamının əməyə cəlb olunması həyatın və kişi-qadın münasibətlərinin bütün adət edilmiş vəziyyətini alt-üst edir. Artıq qadının həm kapitalist sahib, həm də ailə başçısı olan ərdən asılılığı aradan qaldırıldı. Yalnız bir sahib gəldi ki, bütün zəhmətkeş sinfn maraqlarına uyğun olaraq, ona həm kişi, həm də qadın fəhlələr tabe olmalıdır. Bu sahib Sovet əmək respublikasıdır[11].

Mənbə 7 1917-ci il inqilabından sonra yaranan yeni qadın tipi haqqında müasir tədqiqatçılar

1917-ci ilin inqilab qasırğası “qadın məsələsindən” də yan keçmədi: qadınlar tarixi hadisələrin fəal iştirakçıları idi, onlardan bir çoxu isə ictimai həyatın ön planına çıxan liderlərə çevrildi. Tez-tez bu alovlu inqilabçılar az və ya çox bir ənənəvi

[10] Aleksandra Kolontay (1872–1952) sovet dövlət və ictimai xadimi, dünyanın ilk qadın səfri, SSRİ-nin Norveç və İsveçdəki səfri. 1920–1930-cu illərdə RK(b)P MK-nin nəzdində Qadın şöbəsinin rəhbəri olub. Bu şöbənin vəzifəsi qadınların bərabər hüquqlu olmaları, onların təhsil səviyyəsinin artırılması, əmək və məişət şəraitinin yaxşılaşdırılması uğrunda mübarizə aparmaq idi. “Qadın məsələsi”nə aid bir çox məqalə və çıxışların müəllifdir.

[11] А. Коллонтай. Избранные статьи и речи. — М., Политиздат, 1972. — С. 337.

ziddiyyətlə qarşılaşmalı olurdular. Bu, şəxsi həyat (yəni qadın taleyinin ayrılmaz hissəsi olan sevgi, ailə, uşaqlar, məişət problemləri) və yeni istimai fəaliyyət arasında yaranan ziddiyyət idi. Ətrafdakılar çox vaxt ikincisini ataraq qadınların yalnız birincisinə qadir olduqlarını iddia edir və həqarətlə onların "arvad" olduqlarını yadlarına salırdılar. Buna görə də qadınlara "yoldaş" deyəndə onlara daha xoş gəlirdi. Bu çağırış onların bərabər münasibətə olan hüquqlarını və cəmiyyətdə yeni mövqelərini göstərirdi. Həqiqətən də, bu vəziyyət yeni idi: buna qədər hələ heç vaxt Rusiyanın qadınları kütləvi şəkildə ictimai-siyasi həyatda iştirak etməmişdilər. Yeni qadın tipi formalaşdı — fəal, məsuldar işçi[12].

Mənbə 8 Sovet hakimiyyətinin ilk illərində sovet qadınının surəti haqqında Amerika tədqiqatçısı

Sovet qadın qəhrəmanı periodik nəşrlərin səhifələrində əvvəl tibb bacısı, ordu komissarı[13], hətta döyüşçü kimi göründü. O, təvəzökar, möhkəm, vəfalı, cəsarətli, zəhmətkeş, enerjili və çox vaxt gənc idi. Öz şəxsi xoşbəxtliyi haqqında düşünmürdü. Əgər ona cəbhədə ehtiyyac vardı, o təəssüf hissi ilə olsa da, uşaqlarını tərk edə bilərdi; o, fiziki çətinliklərə dözə bilir, çəkinmədən döyüşür, əsir düşdükdə isə — işgəncə və hətta ölümü qəbul edirdi, çünki inanırdı ki, onun verdiyi qurban daha yaxşı dünyanın qurulması üçün bir töhfədir[14].

Mənbə 9 M.Bulqakovun "İt ürəyi" əsərindən

Romanda təsvir olunan əhvalatlar Moskvada 1920-ci illərin ortalarında, qış aylarında baş verir. Filip Filippoviç Preobrajenski insanlara heyvanların daxili orqanlarını köçürmə yolu ilə insan orqanizminin cavanlaşdırılması üsulunu aşkar edib. Professor Moskvanın mərkəzində yerləşən yeddi otaqlı mənzildə yaşayır. Sovet hakimiyyəti yerli mənzil komitələrinin vasitəsilə "sıxlaşdırma" siyasəti aparırdı, yəni mənzillərə yeni sakinlər köçürülürdü. Bu səhnə inqilab mənzil komitəsinin nümayəndələri iki otağı boşaltmaq tələbi ilə professorun evinə gələndə baş verir.

Gələnlər xalçanın üzərində dayandılar.

Başında dörddə bir arşın hündürlüyündə gür saçı olan dedi: "Biz sizin yanınıza gəlmişik, professor. İş ondadır ki…"

Filip Filippoviç onun sözünü öyüd-nəsiyyətlə kəsdi: "Cənablar, siz belə havada qaloşsuz çox nahaq gəzirsiniz. İlk növbədə, sizə soyuq olacaq, ikincisi isə, siz mənim xalçalarımı çirkləndirdiniz, mənim xalçalarım isə hamısı fars xalçalarıdır".

[12] Бородина А., Бородин Д. Баба или товарищ? Идеал новой советской женщины в 20–30-х годах. // Женские и гендерные исследования в Тверском государственном университете — Тверь: 2000. — С. 45–51. Адапт. текст.

[13] Komissar (fransız dilindən) bir qayda olaraq, hərbi hissədə fəaliyyət göstərən dövlətin xüsusi səlahiyyətli nümayəndəsi.

[14] Clements B. E. The Birth of the New Soviet Woman. Цит.по: Бородина А., Бородин Д. Баба или товарищ? Идеал новой советской женщины в 20–30-х годах. — Giriş rejimi: — http://www.a-z.ru/women_cd1/html/borodini.htm.

Gur saçı olan susdu, və gələnlərin dördü də təəccüblə Filip Filippoviçə baxdılar. Sükut bir neçə saniyə davam etdi, onu yalnız Filip Filippoviçin masanın üzərindəki ağacdan düzəldilmiş naxışlı qaba vurulan barmaqlarının səsi pozdu.

Nəhayət, gələn dörd nəfərdən ən gənci, şaftalıya bənzəyən dedi: “Birincisi, biz cənab deyilik…”

Filip Filippoviç onun da sözünü kəsdi: “Birincisi, siz kişisiniz ya qadın?”

Gələnlər yenə susub ağızlarını açdılar. Bu dəfə də gür saçlı birinci özünə gəldi.

O, qürurla soruşdu: “Nə fərqi var, yoldaş?”

Dəridən hazırlanmış gödəkcə geyən şaftalıya oxşayan gənc oğlan, qızararaq, etiraf etdi: “Mən qadınam”. Onun arxasınca nədənsə gələnlərdən biri də — papaq geyinmiş sarışın oğlanın da rəngi bərk qızardı.

“Bu halda siz kepkada qala bilərsiniz. Lakin sizdən isə, hörmətli cənab, baş geyimini çıxartmağı xahiş edirəm”[15].

Mənbə 10 1920–1930-cu illərinin sovet gəncliyi haqqında V. Ketlinskayanın “Cəsarət” romanından

Romanda bir çox maraqlı qadın surəti var. Lakin Tonya Vasyayevanın surəti xüsusilə seçilir. Komsomolçu qız yeni şəhər tikmək üçün Uzaq Şərqə gəlir. İşində fədakarlıq göstərməsinə baxmayaraq o, digər qız və oğlanlarla dil tapa bilmir, işdən sonra onlarla birlikdə tonqalın yanında istirahət etmir. Öz əqidəsinə uyğun yaşadığına baxmayaraq o, özünü bədbaxt hiss edir.

O (Tonya Vasyayeva), məhəbbət axtarırdımı? İndiyə qədər o, bu haqda heç fikirləşməmişdi və ya demək olar ki, fikirləşməmişdi. O məhəbbəti zəif ik əlaməti kimi özündən qovurdu. Keçmişə nifrət edirdi, tam unudulmamış keçmişin üfunət iyini özündə əks etdirən meşşanlığa nifrət edirdi, rəfqələrinin yüngüllüyünə, naz etməsinə və geyimlərinə, oğlanların qərarsızlığına nifrət edirdi. Ona elə gəlirdi ki, mübarizə (və bütün dünyada kommunizmin qələbəsi uğrunda mübarizə) bitməmiş zarafat etmək, naz etmək, əylənmək cinayətdir. Ailə qurmaq xəyanətdir. Əgər onun əl-qolu ailə, uşaqlar, məhəbbətlə bağlıdırsa, ondan necə döyüşçü ola bilər!

O, özünə qarşı tələbkar idi, incəliyə, nəvazişə və rahatlığa doğru meylləri qəlbindən çıxartmağa çalışırdı. O, yumşalmaqdan, öz nifrətini, öz qətiyyətini, öz gücünü itirməkdən qorxurdu[16].

[15] М. Булгаков. Собачье сердце. Он-лайн библиотека LoveRead.ws. — Giriş rejimi: http://www.loveread.ec/read_book.php?id=1530&p=6.

[16] Вера Кетлинская. Мужество. [Электронная библиотека] ModernLib.ru. — Giriş rejimi: http://modernlib.ru/books/ketlinskaya_vera/muzhestvo/read/. — С. 30.

Blok 2. Zamanın surətləri

16. [illegible]

17. [illegible]

18. [illegible]

Mənbə 11 “Fəhlə və kolxozçu” heykəli. V.Muxina. XTNS, Moskva şəhəri, 1937-ci il.[17]

Mənbə 12 “İnqilab meydanı” (“Ploşyad Revolyusii”) metro stansiyasında M.Manizerin “Tələbə qız kitab ilə” əsəri, Moskva şəhəri, 1930-cu illər[18]

[17] Şəkil 11, 13 – fotobank http://lori.ru/5678563.

[18] 12, 17, 20 — Yuliya Kuşnereva tərəfindən təmin edilən şəkil.

Mənbə 13 “Metrostroy” klubunun giriş qapısının üstündə qız metro inşaatçısı fiquru, Kiyev şəhəri, 1950-ci illər



Mənbə 14 Kolxozçunuun ailəsi. Tamar Abakeliya, 1939-cu il[19]



Mənbə 15 Ana uşaqları ilə, Tbilisi şəhəri[20]



Mənbə 16 “İki dovşan arxasınca” filminin personajlarına həsr edilmiş V.Skulskinin əsəri, Kiyev şəhəri, 1999-cu il[21]



[19] TENGİZ VERULAVA/ BURUSİ [Электронный блог]. — Giriş rejimi: http://burusi.wordpress.com/2009/11/21/tamar-abakelia-3/.

[20] Şəkil A. Lordkipanidze

[21] [Elektron ensiklopediya]. — Giriş rejimi: http://upload.wikimedia.org/wikipedia/commons/.

Mənbə 17 **“Staxanovçular kənd təsərrüfatında” pannosu. “Elektrozavodskaya” metro stansiyası, Moskva şəhəri**



Mənbə 18 **Gürcü rəqs ansamblının baniləri İliko Suxişvili və Nino Ramişvili. Heykəltəraş — Zurab Sereteli, 2011-ci il.**[22]

[22] [Электронный блог]. — Giriş rejimi: http://www.liveinternet.ru/users/mirabilisfowers/post204823602/.

Mənbə 19 Fəhlə və kəndli qadın. Ukrayna Ali Radasının binasının yan girişində yerləşən V.Znobanın əsəri, 1985-ci il[23]

Mənbə 20 Fəhlə və kolxozçu. "Ukrayna" pavilyonunun binasında heykəllər qrupu, XTNS, Moskva şəhəri, 1930-cu illər



Mənbə 21 "Krok" universiteti yaxınlığında tələbələrə həsr edilmiş heykəl. Heykəltəraş — V.Şur. Kiyev şəhəri, 2000-ci illər[24]

Yekun müzakirə

İ c s ə ə
ə y ş s i ə i ə ı?

[23] İ.Volkovun fotosu.
[24] Şəkil N. Verbovskoy.

Stalin haqqında xatirələr və ona həsr edilən abidələr

Cəmiyyətdə baş verən dəyişikliklər keçmişə və onun təcəssümü olan abidəyə qarşı münasibətə necə təsir edir?

Tarixi məlumat

İ.V.Stalin (İ.Cuqaşvili) XX-ci əsrin ən tanınmış tarixi şəxsiyyətlərindən biridir. Onun adı ilə Sovet dövlətinin və cəmiyyətinin ən faciəvi səhifələri bağlıdır. Stalin kütləvi repressiyalarla bilavasitə əlaqəli şəxsdir. O, tarixə "stalinizm" adı ilə girən SSRİ-də totalitar siyasi rejimin yaradıcısıdır. Lakin bu gün olduğu kimi, XX-ci əsrin ikinci yarısında da Stalinin şəxsiyyətinə və onun fəaliyyətinə birmənalı qiymət verilməyib. Anti-humanist və mənəvim ʇ ʻ siyasi˜ rejimsiMoumısında ₴ günᔑ A˯ p ﺱ ɕ A˯ p p Stalina ₴ vi ş ¯ ˚

ă 3 ˚

ʜ i˜Ǫ " d i˜Ǫ s᪶d.d ł p " ıqol

1

ٰ ɹ ɕ

sayəsində gürcülər Sovet İttifaqında üstün xalq sayılıblar. “Şəxsiyyətə pərəstişin” ləğv edilməsinə tərəf yönələn rəsmi kampaniya SSRİ-də gürcülərin əleyhihə ab-hava yaratdı, Gürcüstan SSR-nın hüdudlarından kənarda yaşayan gürcülərə təzyiqlər mütəmadi hal aldı. N.S.Xruşovun Stalinə ünvanladığı şəxsiyyətə pərəstişin yaranmasına dair ittihamları Gürcüstanda bir çoxları tərəfndən milli hisslərinə təhqir kimi qəbul edildi.

1956-cı ilin martında “rəhbərin” vəfatının üçüncü il dönümü ilə əlaqədar Tbilisidə və Gürcüstanın digər şəhərlərində mitinq və nümayişlər başladı. Onlar 5 gün davam etdi. Martın 9-da hökümət nümayişçiləri atəşə tutdu. Həlak olanların sayı indiyədək məlum deyil (150-dən 1000 nəfərədək). Həmin gün Tbilisidə, Kür sahilində yerləşən parkda Stalinin heykəli söküldü: heykəl tank vasitəsilə yerə yıxıdıldı.

50-ci — 60-cı illərin birinci yarısında Sovet İttifaqının bir çox şəhərlərində Stalinin şərəfnə ucaldılan heykəllər söküldü. 1960–1970-ci illərdə Stalin əleyhinə çıxışlar sənqidi, lakin “rəhbərin” adı bəraət qazanmamışdır. 1980-ci illərin sonlarında, yenidənqurma və aşkarlıq dövründə cəmiyyətdə İ.Stalinin fəaliyyəti yenidən kəskin tənqid edilməyə başladı.

1991-ci ildə müstəqillik elan edildikdən sonra Gürcüstanda “stalinizm” sovet keçmişi ilə bir tutuldu. Bu dövrdə gürcülər SSRİ-nin digər xalqları kimi “xalqların atası”nın qədar siyasətindən əziyyət çəkiblər.

Blok 1. Sevimli rəhbər

1. N ə y i“ ə y ə li t ə iy y ə ” h ı ı l (ı ə t ə !)?
ı ə i ə l ı P?

2. A

3. ë ý p
B ç ı x ış f

4. S
(ł, ś s y l ı ı ə t ə l ə)? M ə t ə l ə ə ü v fq i

5. S
s y l ı ı ə t ə l ə)? O l ı ı s ö z l ə

6. S

7. S
ö z l ə i ə ? C v l ı ı z ı ə s s h ı ı.

Mənbə 1 İ.V. Stalinin muzeyindən alınan məlumat

1952-ci ilin noyabrın 2-də Qori şəhərinin mərkəzində İ.V.Stalinin monumenti açıldı. Monumentin arxasında yerləşən inzibati bina hələ tam təmir edilməmişdi, buna görə də onun ön tərəf qırmızı parça ilə örtüldü, sol və sağ tərəfdən İ.V.Stalin və

V.İ.Leninin portretləri, mərkəzdə beş güşəli ulduz və Sovet İttifaqının herbi, ətrafda isə on altı respublikanın bayraqları yerləşdirildi.

Qori əhalisi üçün bu hadisə bayrama çevrildi. Bayram şənliklərində Moskva və Tbilisidən gələn yüksək vəzifəli şəxslər, həmçinin elm, ədəbiyyat və incəsənət xadimləri, əmək qəhrəmanları, adi şəhər sakinləri iştirak edirdilər. Təntənəli tədbiri Gürcüstan Kommunist partiyasının Qori şəhər komitəsinin katibi D.Romelaşvili açdı. Sonra İ.V.Stalin muzeyinin direktoru, tanınmış şairlər G.Leonidze, İ.Noneşvili və başqaları çıxış edərək Stalinə həsr edilmiş şeirlər söylədilər. Tanınmış rus yazıçısı Viktor Qoltsev Sovet İttifaqının Yazıçılar Birliyinin adından bu günlərdə dəyərli hədiyyə alan zəhmətkeşləri salamladı[5].

Mənbə 1-A
Qori şəhərinin mərkəzi meydanında ucalan İ.Stalinin heykəli[6]

Mənbə 2 Qori şəhərində İ.Stalinin monumentinin açılması ilə əlaqədar keçirilən mitinqdə çıxışdan: Gürcüstan Kommunist partiyasının Qori şəhər komitəsinin katibi D.Romelaşvili

Sovet İKP-nın[7] XIX-cu Qurultayının tarixi qərarlarını rəhbər tutaraq, böyük Stalinin tarixi sözü ilə ilhamlanaraq, rəhbərin dogma şəhərinin sakinləri bütün sovet xalqı ilə birlikdə kommunizmin qurucularının qurultayının qərarlarını və Stalin yoldaşın göstərişlərini yerinə yetirmək üçün böyük şövqlə çalışmağa davam edirlər.

…Kommunist əməyinin ən yaxşı nümunəsini Lenin şəhərinin[8], monumental-heykəltəraşlıq zavodunun kollektivi göstərdi: üç ay arzində Stalin yoldaşın yüksək keyfiyyətli fquru hazırlandı[9].

[5] Бюллетень государственного музея им. И. В. Сталина. № 1(5) / Гори, 2012 — С. 54.

[6] Jak Dyupakyenin fotosu. Götürülüb: Электронный ЖЖ. Записки скучного человека. Путешествия Жака Дюпакье по Советскому Союзу. 1964. Гори — Тбилиси. — Giriş rejimi: http://humus.livejournal.com/3294341.html.

[7] On üç illik fasilədən və İkinci Dünya müharibəsindən sonra Kommunist partiyasının ilk qurultayı 1952-ci ildə keçirilib.

[8] Burada Leninqrad (müasir Sankt-Peterburq) şəhəri nəzərdə tutulur.

[9] "Stalinets" qəzeti (Qori şəhər komitəsinin və şəhər zəhmətkeş deputatlarının icraçı komitəsinin orqanı). 1952, 4 noyabr, № 219, səh. 1.

Mənbə 3 Qori şəhərində İ. Stalinin monumentinin açılması ilə əlaqədar keçirilən mitinqdə çıxışdan: İ. V. Stalinin ev-muzeyinin direktoru A.Savaneli

…Şəhərimizin sakinləri olduqca xoşbəxtdirlər ki, qüdrətli dövlətimizin həyatverici günəşinin doğduğu şəhərdə yaşayır və çalışırlar. Biz, rəhbərin doğma şəhərinin sakinləri, bu sevincli gündə böyük Stalini salamlayır və onun monumenti qarşısında and içirik ki, kommunizmin uğurlu qurulması üçün dahi rəhbərin ətrafında daha sıx birləşəcəyik…

Eşq olsun xalqın sevimli rəhbəri, zəhmətkeş bəşəriyyətin atası və müəlliminə! Eşq olsun bizim günəşimiz — böyük Stalinə[10]!

Mənbə 4 Qori şəhərində İ. Stalinin monumentinin açılması ilə əlaqədar keçirilən mitinqdə çıxışdan: üzçəkənlər briqadasının briqadiri R. Puqaçov

Ölkəmizi kommunizmə doğru qətiyyətlə aparan Stalin yoldaş zəhmətkeş kütlələr üçün xoşbəxtlik və həyatın, sevinc və sülhün əbədi simvoludur. Rəhbərlik etdiyim briqadaya rəhbərin monumentinin hazırlanması tapşırılanda, sevincimin həddi-hüdudu yox idi. Briqada dərhəl əzmlə çalışmağa başladı.

…Yüksək templərlə tikinti aparmağımız, gündəlik planların artıqlaması ilə yerinə yetirilməsi, fəhlələrin yorulmaz əməyi — bütün bunlar tikintinin uğurlu nəticəsini təmin etdi.

Bu dəqiqələrdə biz əməyimizin bəhrəsini görüb böyük sevinc hissi duyuruq. Zəhmətkeşlərin, kommunizmin yolunda yorulmadan çalışan Stalin Yoldaşa ürəkdən can sağlığı və uğurlar arzulayıram[11].

Mənbə 5 Qori şəhərində İ. Stalinin monumentinin açılması ilə əlaqədar keçirilən mitinqdə çıxışdan: Qori qızlar orta məktəbinin VIII-ci sinif şagirdi Nanuli Xaxutaşvili

Gözlərimizin önündə bütün dünyanın qabaqcıl insanlarının sevimli rəhbəri və müəllimi olan Stalinin monumenti ucaldılıb. Buna görə biz, Qori şəhərinin gəncləri, çox sevinirik, çünki əminik ki, Stalin bizim bu günki xoşbəxt dövrümüzün və bundan da yaxşı əbədi gələcəyimizin simvoludur[12].

[10] "Stalinets" qəzeti (Qori şəhər komitəsinin və şəhər zəhmətkeş deputatlarının icraçı komitəsinin orqanı). 1952, 4 noyabr, № 219, səh. 1.

[11] Elə orada.

[12] Elə orada.

Blok 2. 1956-cı ildə

8. ïX i ə lu
v ə i s ə i s ə ə ii v ə iy y ə

9. N. X
ə ə ə c ə ə ə s s ıı?

10. S
M ü ə lif ş ə
üş s üü z ?
i üçü v ə iy ə .

Mənbə 6 Partiyanın XX-ci Qurultayında N.S.Xruşovun nitqindən

Stalinə insanlarla səbrli iş aparmaq, onları inadla və diqqətlə tərbiyyə etmək, onları məcburiyyət ilə yox, ideya mövqelərindən çıxış edib bütün kollektivlə təsir göstərərək öz arxasınca aparmaq bacarığı kimi Leninin cəhətləri tamamilə zidd idi. O, Leninin inandırma və tərbiyyələndirmə metodundan vaz keçib ideya mübarizəsi mövqelərindən inzibati təzyiqə, kütləvi repressiyalar, terror yoluna keçirdi. Əxlaq normaları və sovet qanunlarını pozaraq, o, cəza orqanlarının vasitəsilə daha geniş və inadla hərəkət edirdi… minlərlə günahsız sovet vətəndaşı özbaşnalığın və qanunsuzluğun qurbanı oldu. Bunların hamısı, gürcülərin öz yerlilərini adlandırdığı kimi, "gürcü xalqının böyük oğlu" Stalinin "dahi" rəhbərliyi altında baş verdi[14].

Mənbə 7 Sovet şairi Sovet İKP-nın XX-ci qurultayından sonra Gürcüstandakı meyllər haqqında: A. T. Tvardovskinin gündəliyindən, 1962-ci il, iyul

Əsas təəssürat — bir qədər qəm-qüssənin, ifadə olunmayan sözlərin və deyilməmiş şeirlərin, gizliliyin mövcudluğudur. Stalinin dövrü çoxdan olub-keçmiş böyüklüyün əsrlər boyu tarixi kədərini hiss etmiş gürcü vətənpərvərlərinin (və ya millətçilərinin?) milli heysiyyəti üçün böyük kompensasiya idi. Bu, Stalinin onlara, digər xalqlarla yanaşı, əzab verməsi, onda heç gürcü hiss etmək istəyinin mövcud olmaması ilə yanaşı baş verirdi.

Stalindən dərhal sonra — xalqlar arasında tutduqları birinciliyin birdən-birə itirilməsi hissi, bundan sonra isə təqsir hissi, və qorxular, və gizli dərd. Və — sükut. Mənə elə gəlir ki, heç bir kəs bu mövzunu heç dilinə gətirməyə cəhd göstərməyib. Lakin ondan yan keçmək mümkün deyil… Onlar hesab edir ki, bu qadağan olunmuş mövzudur. Lakin poeziya heç bir şey olmamış kimi davrana bilmir. Əlbəttə ki, millətçilikdə günahlandırılmamaq üçün dükanlarda ətin olmadığını deməyə qorxanlar bu mövzudan heç danışa bilməzlər[15].

[13] Tabu — qadağa.

[14] "Pravda" qəzeti Sovet İKP Mərkəzi Komitəsinin orqanıdır. 1956-cı il, 15 fevral, № 46, səh. 1–3.

[15] Л. М. Млечин. Министры иностранных дел. Внешняя политика России. От Ленина и Троцкого до Путина, и Медведева. М. 2011. [Elektron resurs]. — Giriş rejimi: http://sci-book.com/vneshnyaya-politika/vosstanie-1956-goda-58771.html.

11.
12. Gü c ü pulli s i s
13. Gü c ü s
Gü c ü s
14. iıə y ə öə üz i s
15. ı, ı, ı, ı, ı və ı s yııəıələ iHiə ı c ə u y u ıəlP

Mənbə 8 Tbilisi hadisələri haqqında müasir xatirələr

1956-cı ilin fevralında Xruşov Stalini kütləvi repressiyaların keçirilməsində və xalqların köçürülməsində açıq ittiham etdi. Bir ay keçməmiş Tbilisinin mərkəzində Stalinin otuz metrlik monumenti qarşısında çoxlu narazı insan toplaşdı.

Bu, bir neçə gün davam etdi. Artıq mart ayının 9-da şəhərdə bütün fabrik və zavodlar dayanmışdı, institut və məktəblər işləmirdi. Bütün insanlar Stalinin adını müdafə etmək üçün mitinqlərə gedirdilər. Onların arasında Leyla Matiaşvili və onun qardaşı Cəmal da var idi. Leylanın 16 yaşı tezə tamam olmuşdu. Onun sözlərinə görə, o zamanlar nəyin baş verdiyini və bütün bunların nə ilə nəticələndiyini az adam anlayırdı. <…> Martın 9-na keçən gecə mitinqdə 20 gənc oğlandan ibarət qrup təşkil olundu. Onlar əsas teleqrafın binasını ələ keçirib onun vasitəsilə gürcü xalqının Sovet İttifaqından ayrılmaq qərarını bütün dünyaya bəyan etməli idilər. Elə bu zaman atışma başladı.

Matiaşvili xatırlayır: “Elə bil kağızdan düzəldilmiş paketləri partladırdılar, belə səslər gəlirdi. Qonşularımızla birlikdə biz pəncərədən baxmağa başladıq. Əsgərlər bizi pərdələrin arxasında görüb pəncərələrə güllə atmağa başladılar. Yadımdadır, artıq səhər biz küçələrdə tankları gördük. Atam qardaşımı xəstəxanalarda axtarmağa getdi. Onun meyitini o, Mixaylovskaya xəstəxanasının morqunda tapdı. Yalnız ayaqqabılarının altına əsasən atam anladı ki, bu, onun oğlu idi”. Tbilisidə komendant saatı elan etdilər. Güllələnlərin qohumlarına dəfn mərasimlərini keçirməyə qadağan etdilər. Leyla danışır ki, bir həftədən sonra səhər saat 8-də onun on doqquz yaşlı qardaşının tabutu ilə təcili yardım maşını gəldi. Ora valideynlərini otuzdurub qəbiristanlığa apardılar[16].

Mənbə 9 Gürcü publisisti 1956-cı il 9 mart hadisələri haqqında

1956-cı il martın 9-da Tbilisidə Stalinin keçmiş sadiq şagirdi və silahdaşı olan N.S.Xruşovun hakimiyyəti dövründə hökümət orqanlarının mitinqə yığışan yüzlərlə yeniyetmə və gənclərə qarşı patronların (özüdə partlayan!) istifadəsinə heyf gəlmədi, halbuki bu gəncləri az qala analarının doğum evindən qayıdandan sonra Stalinin bütün sovet xalqlarının diqqətli atası, müdrik, dahi rəhbər və müəllim, sovet gənclərinin ən yaxşı dostu olduğuna inandırırdılar, və onlar mitinqə bu insanın ləyaqətini qorumaq

[16] В Грузии вспоминают события 9 марта 1956 года. — [Elektron qəzet] «Эхо Кавказа»: 09.03.2010 — http://www.ekhokavkaza.com. — Giriş rejimi: http://www.ekhokavkaza.com/content/article/1978843.html.

üçün yığışmışdılar… tarix Peterburqda 1905-ci il yanvarın 9-da[17], nə qədər insanın həlak olduğunu dəqiq bilir, lakin yarım əsrdən sonra, 1956-cı il martın 9-da baş verən hadisələrdə nə qədər insanın həlak olduğunu yalnız təxmini bilir, çünki onların əksəriyyətini Kürün bulanıq dalğaları Xəzər dənizinə apardı[18].

Mənbə 10 SSRİ KQB-nın (DTK) məxfi materiallarından

Gürcüstanda mitinq iştirakçılarının tələblərindən:

1. Stalin mükafatlarını bərpa etmək;
2. Konstitusiyanın əsl adını bərpa etmək — Stalin konstitusiyası;
3. Böyük Sovet Ensiklopediyasına İ.V.Stalinin həyat və fəaliyyəti haqqında dolğun məlumat daxil etmək;
4. 9 may gününü Stalin qələbəsinin günü adlandırmaq…

1. Stalinin adını aşağıdakı obyektlərə vermək:
a) Zaqafqaziya dəmir yolu;
b) Zestafoni şəhərində ferroərinti zavodu;
c) Samtrediya — Cuqaşvili şəhəri;
d) Universitetskaya küçəsi — Stalin prospekti;
e) Kutaisi avtozavodu;
f) Suxum dağına Stalinin adını qaytarmaq;
g) Dinamo stadionuna Stalinin adını vermək;
h) Tbilisidə pioner evi.

2. Şəhərin mərkəzi meydanında Stalinin monumental abidəsini ucaltmaq[19]

Mənbə 11 Gürcü şairi Simon Çikovaninin Tbilisidə 9 mart hadisəlri haqqında şeiri

Səhvimizi bağışla, Vətənim,
Mtkvari[20] çayı ətrafında aprel olmayacaq.
Sənin sahillərini qanlı gölməçələr qazdı,
Bu yaraları əzizləyərək bədənini təmizləyirəm.

[17] "Qanlı bazar günü" (9 yanvar 1905-ci il) — ilk Rusiya inqilabının əvvəli nəzərdə tutulur.

[18] Буачидзе К. Такое длинное, длинное письмо Виктору Астафьеву и другие послания с картинками в черно-белом цвете /К. Буачидзе. Тбилиси.: Ганатлеба, 1989. — С. 61.

[19] К 55-летию мятежа сталинцев в Грузии. — [Elektron resurs] Amnesia. Лучшее из прошлого. Рубрика Сталиниана — http://www.pavelbers.com/Staliniana%2019.htm. — Giriş rejimi: http://news.nswap.info/wp-content/uploads/2011/03/stgr1.jpg.

[20] Mktvari Gürcüstanın əsas çayı olan Kür çayının gürcü adıdır. Kür sahillərində Gürcüstanın bir çox şəhəri, o cümlədən paytaxt Tbilisi yerləşir.

Blok 3. Durğunluq və yenidənqurma dövrlərində[21]



Mənbə 12 Tanınmış sovet yazıçısı K.Simonovun[22] 1965-ci ildə Stalin haqqında dediklərindən

Müharibə haqqında mürəkkəb həqiqətin bir hissəsi, o hissəsi ki, onunla üz-üzə gəlməyə hazır olmayan ədib müharibənin tarixi haqqında yazmağa heç cəhd də göstərməməlidir, Stalinin müharibə illərində fəaliyyətilə bağlıdır. Bizim borcumuz sənədlərə və canlı şahidlərə müraciət edərək Stalinin rolunu obyektiv şəkildə, bütün müsbət və mənf tərəf ərilə, yaxşı və pis cəhətləri, nə də ki, şəxsiyyətin özünün iri miqyasını azaltmayaraq, nə də çoxaltmayaraq öyrənmək və təhlil etməkdir. Fikrimcə, müasir əsərlərdə Stalinin Ali baş komandan kimi imzaladığı bu və ya digər sənədlərdən adını çıxarmaq səhvdir. Və ya, bir sıra hallarda rast gəldiyimiz kimi — mən şəxsən Stalinlə bağlı halları nəzərdə tuturam, onun adını "Qərargah" sözü ilə əvəz etmək ("Qərargah" qərar verdi, "Qərargahdan" zəng etdilər və s.) heç düzgün deyil. Aydındır ki, belə edəndə, bunu subyektiv olaraq şəxsiyyətə pərəstiş ilə mübarizənin bir elementi hesab edirlər[23].

Mənbə 13 Sovet dövlət xadimi A.A.Qromıkonun[24] fikri

Stalinin şəxsiyyəti indi, onilliklər, bəlkə də, yüzilliklər boyu müxtəlif, o cümlədən də ziddiyyətli fkirlərə səbəb olacaq. İri miqyaslı insan olaraq o, heç şübhəsiz ki, tarixdə bir hadisə idi.

[21] Durğunluq dövrü L.İ.Brejnev və onun davamçılarının hakimiyyəti zamanı "inkişaf etmiş sosializm" dövrüdür (1964 — 1987-ci ilin yanvarı). Yenidənqurma Sovet İKP MK-nin Baş Katibi M.S.Qorbaçovun təşəbbüsü ilə 1987–1991-ci illərdə həyata keçirilən islahatların və sovet partiya rəhbərliyinin yeni ideologiyasının ümumi adıdır.

[22] Konstantin Simonov (1915 — 1979) görkəmli rus sovet yazaçısı və ictimai xadimi, Böyük Vətən müharibəsi illərində hərbi müxbir, Lenin və bir neçə Stalin mükafatları laureatı, müxtəlif dövrlərdə bir neçə sovet qəzet və jurnalının baş redaktoru olub.

[23] Симонов К. М. Глазами человека моего поколения. Размышления о И. В. Сталине/ К. М. Симонов. Москва: Изд. Агенства печати Новости, 1988. — С. 305–306.

[24] A.A.Qromıko SSRİ-nin tanınmış dövlət xadimi olub. 1957–1985-ci illərdə SSRİ Xarici işlər naziri, 1985–1988-ci illərdə isə SSRİ Ali Şurasının Rəyasət Heyətinin sədri oub.

<…> Stalinin adını çəkərək, faşist işğalçılarına qarşı mübarizə aparan Qırmızı ordunun əsgərləri və partizanlar öz həyatlarını qurban veriblər… Bir tərəfdən güclü intellekti, güclü iradəsi olan inqilabçı, təhlükəli və güclü düşmən üzərində qələbə əldə etmək üçün qətiyyətli əzm nümayiş etdirən, müharibə illərində müttəfqləri ilə dil tapa bilən, müharibədən sonrakı illərdə ölkə üçün layiqli yer qazanan rəhbər, digər tərəfdən isə — qəddar, hiyləgər, qoyduğu məqsəd uğrunda gətirdiyi qurbanların sayını hesaba almayan, çoxlu sovet insanının ölümünə gətirib çıxaran dəhşətli özbaşınalıq edən insan — şəxsiyyətə pərəstişin nəticəsi bu idi. Əlbəttə ki, ölkəmiz və xalqımız bu qanunsuzluqları — günahsız, vətənpərvər, sosializmə sadiq kommunist və bitərəf insanların kütləvi məhvini ona heç vaxt bağışlaya bilməyəcək[25].

Mənbə 14 “Durğunluq” dövrü haqqında xatirələrdən

L.Brejnevin dövrü başlayandan (1964-cü il) şəxsiyyətə pərəstiş mövzusu öz aktuallığını itirdi. Yeni hakimiyyət bu ziddiyyətli və rezonans doğuran məsələyə görə vəziyyətin gərginləşməsindən çəkinirdi. Xüsusi hallardan başqa Stalinin adı heç yerdə çəkilmirdi. Məsələn, 1965-ci ilin mayında faşizm üzərində Qələbənin 20-illiyi ilə əlaqədar oxuduğu məruzədə L.Brejnev “Sovet xalqının böyük rəhbəri, təşkilatçısı və sərkərdəsi” ifadəsini Stalin ilə deyil, Kommunist partiyası ilə bağladı. Stalinin adını Böyük Sovet Ensiklopediyasından çıxarmadılar, lakin ona həsr olunan məqalə artıq neytral idi, yəni onu nə tərifəyirdi, nə də tənqid edirdi. 1979-cu ildə Stalinin anadan olmasının 100-illiyi ilə əlaqədar sovet televiziyası, mətbuatı və radiosu qısa məlumat yaydı, lakin hər-hansı bir təmtəraqlı tədbir keçirilmədi[26].

Mənbə 15 1989-cu ildə Moskvada nəşr edilən toplunun üz qabığı





[25] А.А.Громыко. Памятное. Новые горизонты. Книга 1. М.: 2015 — Kitabın əlektron versiyası. — http://www.litmir.co/br/?b=254413.

[26] 2014-cü il martın 26-da Kakaşvili Lela tərəfndən Tbilisi şəhərində (Gürcüstan) Canelidze Otardan (60 yaş) alınmış XX-ci əsrin 60-70-ci illərində Kommunist partiyasının Stalinə qarşı olan münasibəti haqqında müsahibəsindən.

Mənbə 16 “Stalinə pərəstişi dərk etmək” məqalələr toplusunda İkinci dünya müharibəsindən əvvəlki dövr haqqında

Stalin və ona əks-səda kimi səs verən Molotov[27] öz nitqlərində və tostlarında, demək olar ki, açıq Hitlerin rəhbərlik etdiyi Almaniyanı, həmçinin İtaliyanı və bizim onlarla dostluğumuzu dəstəkləyirdilər. Buna cavab olaraq Ribbentrop[28] qeyd edirdi ki, Almaniya, İtaliya və … Sovet İttifaqının ideologiyasını bir ümumi cəhət (?!) birləşdirir — Qərbin kapitalist demokratiyalarına (!) qarşı olan mövqe. Faşist diplomatiyası “yahudi olan Litvinovu[29] işdən azad edib onun yerinə ari olan Molotovu təyin edərək çox müdrik addım atan” Stalini çox dəstəkləyirdi <…> Məsələn, Hitlerin yüksək diplomatik rütbəli tərəfdarlarından biri fon B. bildirirdi: “1939-cu il noyabrın 30-da Finlyandiyaya hücum edərək o (Stalin), bizi ağır vəziyyətdə qoydu… axı biz, almanlar, Finlyandiya ilə uzun illər idi ki, dost idik! Lakin biz fnləri qurban verdik, <…> çünki fürer[30] öz gücü və əminliyini məhz Stalin ilə qurulan əməlkdaşlıqdan alırdı! Və, əlbəttə ki, biz ona milyonlarla ton çörək və neft, xrom və manqana görə sonsuz minnətdar idik”[31].

Blok 4. Stalinin heykəli: olum ya ölüm?

23. [illegible]

24. [illegible]

Mənbə 17 Qori şəhər sakininin xatirələrindən

XX-ci əsrin 80-ci illərinin sonlarında Moskvadan Gürcüstana partiya MK-nin komissiyası gəldi. Bu komissiya respublikada partiya təşkilatlarının ideologiya sahəsində gördüyü işləri öyrənməli idi. Məsələni araşdırarkən digər məqamlarla yanaşı istehsalat və müəssisələrdə İosif Stalinin çoxsaylı şəkilləri olmasına diqqət yetirildi. Müzakirədən sonra, axşam saatlarında Dəmiryol vağzalının binasının qarşısında yerləşdirilən portret çıxarıldı. Dəmiryol kassasının yanında yerləşən qipsdən hazırlanmış böyük heykəli

[27] Molotov Vyaçeslav Mixayloviç 1939–1949, 1953–1956-cı illərdə SSRİ xarici işlər naziri olub.
[28] Yoaxim fon Ribbentrop 1938–1945-ci illərdə Almaniyanın xarici işlər naziri olub.
[29] Litvinov Maksim Maksimoviç 1930–1939-cu illərdə SSRİ xarici işlər üzrə xalq komissarı (yəni nazir) olub.
[30] “Rəhbər”, “lider” mənasını daşıyan alman sözü. 1934–1945-ci illərdə Almaniyada ölkənin və A.Hitlerin Alman Nasional Sosialist Fəhlə partiyasının rəhbərinin rəsmi titulu idi.
[31] Капустин М. К феноменологии власти. Психологические модели авторитаризма: Грозный – Сталин – Гитлер/ Осмыслить Культ Сталина. М.: Прогресс, 1989 — С. 387–388.

binadan çıxararkən tapşırığı yerinə yetirən insanlar onu sındırdı və bir neçə vətəndaş bunun şahidi oldu. Mərkəzi meydanın yaxınlığında yerləşən binaların sakinləri heykəlin çıxarılması və sınmasını görərək, sonra isə bütün vəzifəli şəxslərin təcili müşavirəyə yığışdığının şahidi olaraq ehtimal etdilər ki, Stalinin monumentini sökməyə hazırlaşırlar. Şayiə bütün şəhərə yayıldı. Qısa bir zamanda camaat Mərkəzi meydana toplaşmağa başladı. Təxminən bir saata meydan nümayişçilərlə dolu idi. Mitinq 3–4 gün davam etdi. Nümayişçilər bildirdilər ki, monumentin sökülmə təhlükəsinin olmadığına əmin olmamış meydandan getməyəcəklər. Bir neçə gündən sonra mitinq başa çatdı, İ.Stalinin monumenti isə öz yerində qaldı. Mitinqin yeganə nəticəsi şəhərin partiya rəhbəri David Çubinişvilinin tutduğu vəzifədən azad edilməsi, onun əvvəl Tbilisi Şəhər Şurasının İcraçı Komitəsinə keçirilməsi, bir neçə aydan sonra isə onun yüksək dərəcəli partiya fəaliyyətindən azad edilməsi oldu[32].

Mənbə 18 Leninin heykəli haqqında xatirələrdən

İndi xatırlayıram ki, 1991-ci ilin baharı idi. İnsanlar arasında şayiə yayıldı ki, Stalinin heykəlini yığışdırmalıdırlar. Şəhər əhalisi bu | ķ lm d

fkrincə…, onun taleyini yalnız Qori sakinləri həll etməlidir… Bir gənc monumentin oturağında qırmızı boya ilə "Soselo (Stalini uşaqlıqda belə adlandırırdılar — red.), pyedestldan düş!" yazandan sonra vəziyyət gərginləşdi. Hər şeyin yaxşı sona çatmasına və gənclərin tez bir zamanda dağılışmasına baxmayaraq, <gənclər> hədələdilər ki, əgər heykəl avqust ayınadək sökülməsə, onlar geniş miqyaslı aksiya keçirəcəklər[37].

Mənbə 20 Tələbə qızın fikri

Ölkəmizə qarşı bu qədər pislik edən insanın heykəli şəhərin mərkəzində ucalmamalıdır. Bu, sadəcə biabırçılıqdır. Bu, bizim nüfuzumuzu gözdən salır. Biz Stalinin əqidə varisi, onun davamçısı olan Putinlə müharibədə uduzmuşuq. Qoridə Stalinin heykəli Qüdsdə Hitlerin heykəlinə bərabərdir. Bir çox insanlar Stalinin həyata keçirdiyi repressiyaların qurbanı olub[38].

Mənbə 21 Təqaüdçünün fikri

Stalin "şəxsiyyətinə pərəstişin" Xruşov tərəfndən "ifşa olunmasından" danışaraq, Çörçill qeyd edirdi: "Xruşov ölü ilə müharibə apardı və uduzdu". Bu gün Stalinə böhtan atan şəxslər də bu müharibəni artıq uduzublar[39].

Mənbə 22 "Azadlıq İnstitutu"[40] adlı qeyri-hökümət təşkilatının fəalı Teya Tutberidzenin fikri

Çox acınacaqlı hal idi ki, hakimiyyət nümayəndələri Stalinin heykəlinin üzərindən gecə naməlum şəxslər tərəfndən bura tökülən boyanın izlərini təcili şəkildə yumağa və qaşımağa başladılar.

Maraqlıdır ki, yerli hakimiyyət nümayəndələrinə bu tapşırığı kim verib? Stalinin heykəlinin üzərinə yalnız boya tökmək kifayət deyil, bundan qat-qat çox tədbir görmək lazımdır. Stalinin heykəlinin Qorinin mərkəzi meydanında yerləşməsi biabırçılıqdır, ilk növbədə, Qori sakinlərinin özləri üçün[41]!

▼

25. S

26. S

, s y ə ə)? - c ı f

f o

[37] Гога Апциаури. «Сойди с пьедестала, Сосело!». Горийские студенты против Сталина. [Elektron resurs] http://www.radiotavisupleba.ge. — Giriş rejimi: http://www.radiotavisupleba.ge/content/article/1795545.html (gürcü dilindən tərcümə).

[38] 2013-cü il avqustun 10-da Kakaşvili Lela tərəfndən Qori şəhərində (Gürcüstan) İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin tələbəsi Tlaşadze Natiadan (21 yaş) alınmış onun Stalinin monumentinə qarşı münasibəti haqqında müsahibəsindən.

[39] 2013-cü il sentyabrın 27-də Kakaşvili Lela tərəfndən Qori şəhərində (Gürcüstan) təqaüdçü Robizon Rinoşvilidən (70 yaş) alınmış onun Stalinin şəxsiyyətinə qarşı olan münasibəti haqqında müsahibəsindən.

[40] "Azadlıq İnstitutu" Gürcüstanda ultraliberal yönümlü qeyri-hökümət təşkilatıdır.

[41] Памятник Сталину в Гори вызывает спор. — Новости. Радио «Голос Америки» [Elektron resurs] http://www.amerikiskhma.com. — Giriş rejimi: http://www.amerikiskhma.com/content/a-54-2009–12-01-voa13-93116549/524528.html (gürcü dilindən tərcümə).

27. D
və
ü c ülə s ın p o pul y lın ı

28. ⁄ v ə ⁄ s y lı ı ə t ə l ə ə
Ol l z ı s ın z ın? Niy ə?

Mənbə 23 Qori şəhərində Stalinin heykəlinin sökülməsi. 25.06.2010[42]

Mənbə 24 KİV-nin məlumatından

Qori stalinçiləri və kommunistləri yalnız səhər xəbər tutublar ki, dünən diktatorun monumenti sökülüb. Yaşlı insanlar göz yaşlarını saxlaya bilməyib deyirdilər ki, "Xruşovun edə bilmədiyini Saakaşvili etdi". Gecə saat ikidə Stalinin monumentinin sökülməsini şəhər sakinlərinin bir qismi alqışlarla qarşıladı. Onların fkrincə, monumenti daha tez sökməli idilər. Bir il bundan əvvəl bir sıra gənc monumentin muzeyə köçürülməsi tələbi ilə aksiyaya başladı. Bu gün həmin gənclər razı görünürdülər. Lakin, sakinlərin əksəriyyəti abidənin gecə vaxtı sökülməsindən narazı olduğunu gizlətmirdi. Onların fkrincə, əvvəl qərar qəbul edib müəyyən yer ayırmaq, sonra isə abidəni sökmək lazım idi[43].

[42] Şəkil № 703832. — [Elektron resurs] Библиотека изображений РИА Новости. http://visualrian.ru/ru.

[43] Нестан Цецхладзе. Местонахождение монумента Сталина неизвестно. — [Elektron resurs] http://www.netgazeti.ge. — Giriş rejimi: http://www.netgazeti.ge/GE/14/News/1791/ (gürcü dilindən tərcümə).

Mənbə 25 Gürcüstan KİV-nin məlumatından, 21 dekabr 2010-cu il

Gürcüstanın Qori şəhərində bu ilin iyulunda sökülən və bundan sonra itən İosif Stalinin heykəlini axtarırlar. Bu gün xalqların atasının 131 yaşı tamam olur. Kommunistlər üçün əziz gündə Qorinin fəal təqaüdçüləri nümayiş keçirməyi qərara alıb…

Bu gün Qorinin mərkəzi meydanında qırx-əlli nəfər insan yığışıb. Kommunistlər və sadəcə İosif Stalinin pərəstişkarları rəhbərin heykəlinin öz yerinə qaytarılması tələbi ilə aksiya keçirib.

Onların hamısının əllərində plakatlar və rəhbərin şəkilləri var idi. Nümayişçilərin sözlərinə görə, indi Stalinin monumentinin harda olduğunu onlara heç kəs deyə bilmir. Gürcüstanın vahid Kommunist Partiyasının birinci katibi Nuqzar Avaliani qeyd edib ki, "Stalinin ad günü müqəddəs gündür. Biz hər il bu günü qeyd edirik. Stalin sadə insanların xilaskarı idi. Bu gün Stalinin olmadığına görə nə qədər bədbəxtçiliklər baş verir".

İosif Stalinin heykəli 2010-cu il iyunun 24-də sökülüb. O zamanlar Qori hökümət orqanları bildirmişdilər ki, onun yerində 2008-ci ilin avqust hadisələrində həlak olan insanlara və Stalin repressiyalarının qurbanlarına həsr edilmiş memorial ucaldılacaq. Heykəl isə Stalinin ev-muzeyinin ərazisinə keçirilməli idi. Lakin yarım il keçib, monument isə hələ də ucaldılmayıb[44].

Mənbə 26 Qori şəhərindən 7 km aralıda yerləşən boş sənaye zonasının ərazisində tapılan Stalinin heykəli[45]

[44] В Грузии потеряли памятник Иосифу Сталину. [Elektron resurs] http://mir24.tv. — Giriş rejimi: http://mir24.tv/news/society/8291.

[45] Война памятников по-грузински. — [Elektron resurs] http://www.stena.ee. — Giriş rejimi: http://www.stena.ee/blog/vojna-pamyatnikov-po-gruzinski-80-zhitelej-za-pamyatniki-stalinu.

Mənbə 27 KİV-nin məlumatlarından

2013-cü il iyulun 2-də Qori şəhərində zəhmətkeşlərin görkəmli rəhbəri olan Stalinin doğma şəhərinin mərkəzi meydanında onun monumentinin bərpası tələbi ilə nümayiş keçirilib. Aksiyaya Gürcüstanın müxtəlif şəhər və kəndlərindən nümayəndələr də qoşulub. Mitinq Gürcüstanın Vahid Kommunist Partiyası və tərkibində Qori şəhərinin nüfuzlu sakinləri, həmçinin "Yeqorov və Kantariya", "Yeni solçular — Gürcüstan xalq vətənpərvər hərəkatı", "Gürcüstanın Sülh Komitəsi" kimi müxtəlif ictimai təşkilatların nümayəndələri olan təşəbbüs komitəsinin birgə təşkilatçılığı ilə keçirilib.

Çıxış edənlərin hamısı Gürcüstanın əksər əhalisinin bu məsələyə birmənalı münasibətini qeyd edib: Stalinin monumentini xalqlar arasında ədalət, dostluq, Rusiya və Gürcüstan arasında dostluq, sülh və əminəmanlıq rəmzi kimi bərpa etmək lazımdır. Qori şəhərinin regional televiziya kanalının keçirdiyi sorğuya əsasən, Qori şəhər sakinlərinin və Qori rayonunun əhalisinin 80 faizi bu ideyanı dəstəkləyir. Bütün Gürcüstan üzrə belə bir sorğu keçirilsə, elə həmin nəticə əldə ediləcək[46].

Mənbə 28 KİV-nin məlumatından, 10.09.2013-cü il

Gürcüstanın Telavi şəhərinin bələdiyyəsi Böyük Vətən müharibəsində həlak olanlara həsr edilən memorialın yanında yerləşən Stalinin heykəlini sökməyə qərar verdi. Heykəl sentyabrın əvvəlində veteranlar tərəfindən hökümət orqanlarının icazəsi olmadan ucaldılmışdı. Növbəti gün naməlum şəxslər monumentin üzərinə narıncı boya tökdülər. Bələdiyyə sədri isə bildirdi ki, heykəlin bərpası qanunsuzdur.

Telavidə baş verən hadisə bir daha nümayiş etdirdi ki, Gürcüstanın ictimai fikri üçün İosif Stalin ziddiyyətli fqur olaraq qalır[47].

Mənbə 29 Dövlət Gürcü Ədəbiyyatı Muzeyinin direktorunun fikri

Bu yaxınlarda Gürcüstanda ilk dəfə Stalin haqqında sosial sorğu keçirildi. Nəticələr rəsmi olaraq yanvarda dərc edildi. Onlar məni dəhşətə gətirdi. Məlum oldu ki, bizdə Azərbaycan və Ermənistandan, hətta Rusiyadan da çox Stalinə qarşı rəğbət hissi bəsləyən insanlar var.

Sorğunun nəticələrinə əsasən, Stalinə rəğbət bəsləyən insanlar arasında həm ali təhsilli, həm də orta təhsilli insanlar var — onların sayı təxminən eynidir. Bu onu göstərir ki, cəmiyyət Stalinin kim olduğunu anlamır, və bu simpatiyalar primitiv lokal-vətənpərvər səviyyədədir.

Belə bir gürcü olub, onun əlində çox böyük hakimiyyət olub — və onlar bununla qürur duyurlar. Məryam ana, çılpaq qızların və Stalinin şəkillərini yan-yana qoyanda, bu çox şeydən bəhs edir.

Xalqın düşüncəsində Stalin ümumiyyətlə kommunist ideologiyasından ayrılıb "öz adamımıza" çevrilib: o, Gürcüstanda nə SSRİ ilə, nə kommunizmlə assosiasiya

[46] Митинг в городе Гори «Восстановить монумент Сталину» — [Elektron resurs] Красное ТВ http://www.krasnoetv.ru/frontPage. — Giriş rejimi: http://www.krasnoetv.ru/node/18980.

[47] Георгий Кобаладзе. Памятник Сталину как символ веры. — Радио Свобода _http://www.svoboda.org. — Giriş rejimi: http://www.svoboda.org/content/article/25101369.html.

edilmirdi. Sovet hakimiyyətini sevməyən insanlar belə ona aşağıdakı prinsip üzrə rəğbət bəsləyirdilər: Rusiya bizi əzib, Stalin isə onları. Əlbəttə ki, bu tarixin çox primitiv şəkildə dərkidir.

Lakin, bizə xoş olub-olmamağına baxmayaraq, Stalin ən tanınmış gürcüdür. Əcnəbilərin təsəvvüründə Gürcüstan Rustaveli və Pirosmani[48] ilə deyil, məhz Stalinlə assosiasiya edilir. Və bu, tədricən identikliyin bir hissəsinə çevrildi. <…>

Təəcüblü olsa da, kommunizm ideologiyasının süqutu Gürcüstanda yenə də Stalinə pərəstişlə bağlıdır. Hakimiyyət 1956-cı ilin martında Tbilisidə Stalinin müdafiyəsinə yönələn və hökümətə qarşı keçirilən nümayişin iştirakçılarını güllələyəndə kommunizmi dəfn etdi[49].

Mənbə 30 Gürcü politoloqunun fikri

Yalnız sovet deyil, həmçinin postsovet keçmişindən çıxan ölkənin, qabaqcıl cəmiyyəti formalaşan islahatçı ölkə kimi regionda liderliyə iddia edən ölkənin əhalisinin 45 %-i birdən-birə Stalinə pərəstiş edir? Maraqlıdır ki, bu tədqiqatın nəticələri Gürcüstanda şübhə ilə qarşılandı, lakin narahatçılıq üçün səbəb yenə də var. [Niyə] Gürcüstanda Stalin bu qədər populyardır? Bunu Stalini diktator və totalitar hakimiyyətin simvolu kimi qəbul edən dünya birliyinə anlatmaq çətin olacaq. <…> Beləliklə, Stalinin heykəlinin bərpası ilə Gürcüstanın kiçik Qori şəhəri yenidən dünya KİV-nin diqqət mərkəzinə çevriləcək. Bu heykəl yalnız yeni hökümət orqanlarının imicinə böyük xələl gətirməyəcək, həmçinin Gürcüstanın dünyada qəbul edilməsinə də mənfi təsir göstərəcək.

Nə olursa olsun, Stalinin ruslar üçün İkinci Dünya müharibəsinin qəhrəmanı və "Möhkəm əlin" simvolu, gürcülər üçün — gürcü millətinin görkəmli nümayəndəsi olmağına baxmayaraq, bütün dünya birliyi üçün Stalin Tiran olaraq qalır[50].

Yekun müzakirə

S

İə c ə ıı?

[48] Şota Rustaveli XII-ci əsrin böyük gürcü şairi və dövlət xadimidir; Niko Pirosmani XX-ci əsrin dünyaşöhrətli gürcü rəssamıdır.

[49] Лаша Бакрадзе. У нас намного больше симпатий к Сталину чем в России. — Интервью директора Государственного музея грузинской литературы имени Георгия Леонидзе электронному порталу: http://www.openspace.ru. — Giriş rejimi: http://www.openspace.ru/article/744.

[50] Бека Чедия. Возрождение сталинизма в Грузии: политическая конъюнктура или воля нации? — [Электронный Портал о Восточном партнерстве] http://eastbook.eu. — Giriş rejimi: http://eastbook.eu/ru/2013/08/topic-ru/politics-ru/vozrozhdenie-stalinizma-v-gruzii-politicheskaia-konjunktura-ili-volia-nacii/.

Aşkar səssizlik: mədəniyyətlərin yolayrıcında duran abidə

Abidələr cəmiyyətdə baş verən dəyişikliklər haqqında nə və necə danışırlar?

1. S

) A

) A

c) Niy ə liə ıl ş y o x u?

2. B liə s iz ə l s ı li s

3. S

Mənbə 1 “Yüzilliyin addımı” abidəsi, Leypsiq şəhəri, Almaniya[1]

[1] O. Kovalevskayanın fotosu, 2013-cü il.

Blok 1. Abidə və zaman

4. A
iə?
5. Bliələ iöüüşüüqy i s ə i. Oln o xş c
6. S
7. Oli y şy i s lıə ə ılə s lə?

Mənbə 2 Donbas xilaskarlarına həsr edilən abidə. Donetsk, 1984-cü il.[2]

3

Mənbə 3 Abidə «Vətən-ana». Çerkasi

8. lvə s yıəılə ə
9. Oln lvə s yıəılə ə
10. lvə s yıəılə ə

[2] O.K.Mixeyevanın fotosu, 2014-cü il.

[3] Мемориал славы в г. Черкассы, Украина. — [Elektron resurs] Wikimedia commons. — Giriş rejimi: https://upload.wikimedia.org/wikipedia/uk/4/45/%D0%9C%D0%B5%D0%BC%D0%BE%D1%80%D1%96%D0%B%D0%BB_%D0%A1%D0%BB%D0%B0%D0%B2%D0%B8_%D1%83_%D0%A7%D0%B5%D1%80%D0%BA%D0%B0%D1%81%D0%B0%D1%85_%284%29.jpg.

11. S

12. S

İ

Mənbə 4[4] **Xolokost qurbanlarına həsr edilən abidə. Odessa, 2004-cü il.**



Mənbə 5 Siyası repressiyaların qurbanlarına həsr edilən abidə. Donetsk, 2005-ci il.



13. i v ə ı s y ı ə t ə l ə ə
iə f ə q ə ı ə ?

14. O ı o x ş c ə ı ə

15. O h s ı ə y ə l ə iö

16. S

[4] O.K.Mixeyevanın fotosu (Mənbə 4–5).

Mənbə 6 **«Bitlz” adlı Britaniya rok-qrupuna həsr edilən abidə. Donetsk, Ukrayna, 2006-cı il.** O.K.Mixeyevanın fotosu

Mənbə 7 **“Nənəyə” həsr edilən abidə. Kemerovo, Rusiya, 2008-ci il.**[5]

1-ci Bloka aid yekun sual

17. A

[5] Александр Пестич. Кемерово. [Elektron resurs] http://lex-under.livejournal.com. — Giriş rejimi: http://lex-under.livejournal.com/11874.html.

Blok 2. Abidə və böyük dəyişikliklər dövrü

18. ı v ə ¦ s y l ı o ı u ı
19. B f ə q l i ə ı ə i ə l ı ı?
20. B l i ə l ə h s ı i y v ə ə y ə l ə i ə s ı ə? B i y v ə ə y o x ş y ı y f ə q l i ə? C v ı ı z ı ə s

Mənbə 9 **«Ana-Ermənistan” abidəsi. Yerevan, Ermənistan, 1967-ci il.**[6]

Mənbə 8 **İ.Stalinə həsr edilən abidə. Yerevan, Ermənistan, 1950-ci il.**[7]

21. F o v ı?
22. B ə y l ş ə q ¦ y ı i o l ı ə l?
23. S ə s s l ı ı?
24. ı s y l ı ə t ə ı i o x u y u. ə y ş? A

[6] [Elektron resurs] — Vladimir Kezlinqin bloqu. — Giriş rejimi: http://kezling.ru/travels/caucasian-autumn–11/.
[7] İldə bir dəfə nəşr edilən “Sovet memarlığı” sənamısından foto. II, 1953-cü il. [Elektron resurs] http://synthart.livejournal.com/262821.html.

Mənbə 10[8] **Lvov vilayətinin alman-faşist işğalçılarından azad olunmasına həsr olunmuş memorial abidə. 1970-ci illər**[9]

Mənbə 11 Müasir ukraynalı tədqiqatçının fikri

Bu mərkəzin (Slavskoye) azsaylı abidələri arasında Sovet əsgərlərinə həsr edilmiş adi boz monument var ki, o, artıq 1990-cı illərdə içərisində yerləşdirilən həlak olanlar üçün ağlayan Allahın anasının heykəli ilə diqqəti cəlb edir. Ukraynanın qərbində Sovet əsgərlərinə həsr edilən abidələrin bu tipli təbii (mərkəzləşməmiş) "müasirləşməsinə" və ya, daha dəqiq desək, "yiyələnməsinə", "əhilləşdirilməsinə" təkcə Slavskoyedə rast gəlinmir.

Burada söhbət, hər şeydən əvvəl, müharibənin hümanistləşdirilməsindən, diqqəti özəl tarixə, "adi insanların" qəhrəmanlığına və əzablarına yönəltməkdən və, eyni zamanda, Sovet siyasi və hərbi rəhbərlərinin səhvlərini və qəddarlığını vurğulamaqdan gedir[10].

25. A

26.

27. s s i s ı

28. S

29.

[8] O.K.Mixeyevanın fotosu, 2008-ci il.

[9] Allahın anasının fquru memorial abidənin ətəyində 1990-cı illərin sonunda onun ucaldılmasına vəsait yığan sakinlərin təşəbbüsü ilə qoyulub. Bu fqurlar ənənəvi olaraq Qərbi Ukraynanın yolları və yaşayış yerlərində ucaldılır.

[10] Портнов А. «Родина-мать» vs Степан Бандера: экскурсия по избранным памятникам Второй мировой войны // Отечественные записки. — 2008. — № 5 (44). — С. 33–46.

Mənbə 12 **F.E.Dzerjinskinin[11]. heykəlinin sökülməsi. Moskva, Rusiya, 1991-ci ilin avqustu.** RİA "Novosti"nin fotosu

Mənbə 13 **V.İ.Leninin[12], heykəlinin sökülməsi. Kiyv, Ukrayna, 9 dekabr 2013-cü il.** RİA "Novosti"nin fotosu

[11] Feliks Dzerjinski sonralar "NKVD" və "KQB" adlanan və Sovet dövründə siyasi repressiyalarının simvolu olan Ümumrusiya Fövqəladə Komissiyasının (1917) banisidir.

[12] Владимир Ленин — основатель советского государства.

37. S
q o u s ı ş ə l ə i i̇ş f

Mənbə 15 **Yeni abidəyə həsr edilən abidə. Şarqorod, Ukrayna, 2009-cu il.**[14]



Yekun müzakirə

1.4 s y ı ə t ə l ə ə ı u ə l ə i o l u v ə
h q q ı ö y ə m i z ?

A
S

[14] J.Qədirovanın fotosu, 2009-cu il.

SSRI-də “xalqlar dostluğunun” təbliğində surət (obraz), söz və səs

▶ **İncəsənət, poeziya və musigi SSRİ-də “xalqlar dostluğu” nun təbliğində necə istifadə edilirdi?**

1.

2.

Blok 1. Sovet ideologiyasında “xalqlar dostluğu” anlayışı

3.

4.

◆ Tarixi məlumat

Sovet dövlətinin milli siyasətinin əsası “xalqlar dostluğu” və “proletar beynəlmiləlçilik” (milli maraqlardan üstün olan bütün ölkələrin zəhmətkeşlərinin beynəlxalq həmrəylik ideologiyası) elan edilirdi”.

“Xalqlar dostluğu” SSRİ-də çox millətli sovet dövlətinin yaradılmasını və inkişafını ideoloji tərəfdən əsaslandırmaq üçün istifadə edilən anlayışdır. 1922-ci ilin 30 dekabrında qəbul edilən “Sovet Sosialist Respublikalarının İttifaqının yaradılması haqqında bəyannamə”də bildirilirdi ki, “sinf cəhətdən beynəlmiləl olan Sovet hakimiyyətinin quruluşu sovet respublikalarının zəhmətkeş kütlələrini bir sosialist ailəsinin yaradılmasına yönəldir. <…> Sovet respublikalarının xalqlarının istəyi… etibarlı dəlildir ki, İttifaq bərabər hüquqlu xalqların könüllü birliyidir”[1].

Sosialist dövlətinin əsaslarından biri kimi “xalqların qardaşlıq şəklində əməkdaşlığı və bir-birlərinə qarşılıqlı köməyin göstərilməsi” prinsipi elan olundu. Əslində, bu prinsip rus xalqının SSRİ xalqları arasında böyük qardaş olduğunu və dövlətin vahidliyini təmin etdiyi ideyasını özündə əks etdirirdi. Ruslaşdırılma, yəni milli respublikalarda rus dili və mədəniyyətinin yayılması, milli dillərin istifadəsinin azaldılması siyasəti aparılırdı. “Xalqlar dostluğu” prinsipinin əsasında milli mədəniyyətlərin inkişafı da dəstəklənirdi, lakin dövlətin ciddi nəzarəti və sovet ideologiyasının güclü təsiri altında. Milli qeyri-bərabərlik və ya SSRİ-nin tərkibindən çıxmaq haqqında danışmaq cəhdləri

[1] Декларация и договор об образовании СССР. 30 декабря 1922 г. [Elektron resurs]. — Giriş rejimi: http://www.rusarchives.ru/statehood/09-02-deklaraciya-obrazovanie-sssr–1922.shtml.

burjuaziya millətçiliyi elan edilir və ciddi şəkildə cəzalandırılırdı. SSRİ-də milli münaqişələr haqqında məlumatlar gizlədilirdi.

"Xalqlar dostluğu" ideyasının sovet respublikalarının kütləvi məkanında mövcudluğu bu anlayışın yayılmasının və əhəmiyyətinin sübutudur. Məsələn, Ukraynanın Kiyev şəhərində "Xalqlar dostluğu arkası" abidəsi, "Xalqlar dostluğu" bulvarı və metro stansiyası var, Çerkası şəhərində — Xalqlar dostluğu adına Mədəniyyət sarayı, Moskvada — Xalqlar Dostluğu Universiteti var. 1972-ci ildə, Sovet İttifaqının yaranmasının 50-illiyi ilə əlaqədar xüsusi Xalqlar dostluğu Ordeni təsis olunub.

Mənbə 1 SSRİ-nin 1977-ci ildə qəbul edilmiş Konstitusiyasından

SSRİ özündə sovet xalqının dövlət vəhdətini təcəssüm edir, kommunizmin müştərək qurulması məqsədilə bütün millətləri və xalqları birləşdirir[2].

Mənbə 2 Elmi kommunizm üzrə lüğətdən[3]

SSRİ-də yaşayan bütün xalqların dostluğu və qardaşlığı, milli və irqi ədavətə qarşı dözümsüzlük ən mühüm əxlaq və sosialist birgəyaşayışının normalarıdır. SSRİ Konstitusiyasına əsasən, "hər bir SSRİ vətəndaşının borcu digər vətəndaşların milli ləyaqətinə hörmətlə yanaşmaq, Sovet çox millətli dövlətində yaşayan millətlərin və xalqların arasında dostluğun möhkəmləndirilməsindən ibarətdir"[4].

Mənbə 3 Sovet dövlət xadimi rus xalqının rolu haqqında

SSRİ xalqlarının mehriban ailəsinə böyük rus xalqı başçılıq edir. O, bütün sovet xalqlarının hörmətini qazanıb.

Rus xalqı Böyük Oktyabr Sosialist İnqilabının qələbəsində, ölkəmizdə sosializmin qurulmasında, Böyük Vətən müharibəsi zamanı Vətənin şərəf və müstəqilliyi uğrunda mübarizədə həlledici rol oynayıb. Rus xalqı Sovet İttifaqının bütün xalqlarının dostluğunu möhkəmlədən qüvvədir[5].

Blok 2. "Xalqlar dostluğu" nun təbliğinin sovet təcrübəsi

5. M ə l ə ə i q ə
B v ə ə l ə i p z

[2] Конституция (Основной Закон) Союза Советских Социалистических Республик. 1977. [Elektron resurs]. — Giriş rejimi: http://www.hist.msu.ru/ER/Etext/cnst1977.htm.

[16] Ukraynanın Krivoy Roq şəhərinin sakini, 1976-cı il təvəllüdlü Trofmenko Aleksandra ilə müsahibədən. "Ümumi tarix. Mədəni dialoqlar" layihəsi üçün.

[17] 1917-ci lədək Rusiyada şəhər kənarında mayın 1-də keçirilən inqilab ruhlu fəhlələrin qeyri-leqal yığıncağı çox vaxt polis tərəfndən təqib edilirdi. Sonralar o, şəhərdən kənar bahar gəzintisinə çevrildi.

[18] Yerevan sakinlərinin xatirələri: 1 May zəhmətkeşlərə lazımi dəyərin verildiyi bayram idi. (rus dilində) Elektron resurs: http://news.am/rus. — Giriş rejimi: http://news.am/rus/news/57680.html. Müraciət tarixi – 25 aprel 2014-cü il.

[19] Olster 1921-ci ilin vətəndaş müharibəsi nəticəsində parçalanan İrlandiyanın tarixi əyalətlərindən biridir. Şimali Olster Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının tərkibinə daxildir. XX-ci əsrin ərzində Şimali İrlandiyanın (Olsterin) ərazisində protestantlar və katoliklər arasında etnosiyasi və konfessiyalar arası münaqişə davam edirdi.

nümayişinin, həm də ki, xaç yürüşlərinin zəruri atributlarıdır... Belə tərtibat olmasa bayram təəssüratları dolğun olmur. Durğunluq[20] dövrünün bayramlarını müasir bayramlarla müqayisə etsək isə, yalnız Yeni İl olduğu kimi qalıb[21].

Mənbə 13 Şahidlərin 1950-ci illərin əvvəlləri haqqında xatirələrindən. Gürcüstan

Bu il [1952-ci il] may ayının ilk günləri Bakıda da, Tbilisidə də sərin keçirdi. Buna görə də bizim bayram geyimimiz, hərbi dillə desək, "qış geyim forması" adlanardı. <…>

Nümayişçilərdən ibarət cərgələr dayanacaqdan dayanacağa qədər yavaş-yavaş Stalin adına meydana, hökümət tribunalarına doğru gedirdi ki, gümrah tempdə, son sıçrayış kimi onların qabağından keçsinlər ("ləngiməmək, ləngiməmək, dayanmamaq"), mərkəz hissəsini gözlərilə yeyərək, fəal əl-qol açaraq güclü reproduktorlardan səslənən "əldə etmək,... inkişaf etdirmək,... çalışmaq,... üstün olmaq,... şərəfəndirmək, şərəfəndirmək, şərəfəndirmək..." çağırışlarına hamılıqla "Ura-a-a!" cavab versinlər.

Stalin adına meydanda hərbi parad başladı, reproduktorlardan şux marşların melodiyaları səslənirdi. Yədin ki, Günəş də "zəhmətkeşlərin istəklərini nəzərə alaraq", havanı yaman qızdırdı, məcbur olduq ki, paltolarımızı çıxardaq, halbuki onları əlimizdə saxlamaq olduqca rahatsız idi. Bizim cərgəmiz geniş küçənin ortasında tramvay yollarında dayanmışdı, yalnız transparantların[22] kölgəsində gizlənmək olardı, lakin, təbii ki, hamı üçün yer yox idi[23].

Mənbə 14 Şahidlərin 1960–1970-ci illər haqqında xatirələrindən. Rusiya

1 May gününə həsr edilən... möhtəşəm paradlar keçirilirdi. Kiçik şəhərimizdə keçirilən paradda onun bütün sakinlərini görmək olardı! <…> Zəhmətkeşlər öz müəssisələri üzrə qruplara bölünürdülər, hər bir insanın sinəsində Leninin profili ilə balaca qırmızı bayraq formasında döş nişanı var idi. Hava şarlarına doldururdular, ağacdan düzəldilmiş uzun dəyənəklərə bərkidilmiş rəhbər və partiya liderlərinin portretlərini, kağızdan hazırlanmış göyərçinləri, ağ boya ilə qırmızı materialın üstündə yazılan lozunqları aparırdılar. Onlar küləkdə dalğalanır və bəzən bir-birinə dolaşırdılar.

Əlbəttə ki, bayrama bir həftə qalmış qohumların hamısına 1 May, Qələbə günü və Böyük Oktyabr Gününə həsr edilən təbrik açıqçaları göndərilməli idi. Və, əlbəttə ki, biz də onların hamısından açıqçalar alırdıq. Hətta eyni şəhərdə yaşasaq da, təbrik göndərməyə nə mane olur ki? Bu məqam əlavə bayram əhval-ruhiyyəsi yaradır. Parad günləri hamıda gözəl və bayram əhval-ruhiyyəsi var idi. Yalnız qeyri-iş günü olduğuna görə deyil. Sadəcə olaraq havada sevinc və şən əhval-ruhiyyə var idi.

---

[20] Durğunluq dövrü SSRİ tarixində 1960-cı illərin sonlarından 1980-ci illərin birinci yarısınadək davam edən dövrün adıdır.

[21] Parapet. Bakı və bakılıların tarixi cəmiyyəti. Elektron resurs: http://www.baku.ru/ "Əsas meydanda Bir may bayramı" forumundan fraqmentlər. Giriş rejimi: http://www.baku.ru/frmpst-view.php?frmpst_id=8038040&id=8054490&v=1#8054490. Səh. 1-2. Sonuncu dəfə müraciət tarixi – 15 may 2015.

[22] Haşiyəyə çəkilən üzərində təsvirlər və yazılar olan parça.

[23] Eduard Karaş. Tbilisidə Bir may. [Elektron kitabxana] http://royallib.com. — Giriş rejimi: http://royallib.ru/book/eduard_karash/pervomay_v_tbilisi.html. — C. 5.

Bahar paradları mənim yadımda başımın üstündə rəngli hava şarları ilə mavi səma, çoxlu qırmızı bayraq və dəbli kafedə dondurma ilə qalıb. Poladdan hazırlanmış parlaq qabda olan dondurma çox dadlı idi. Valideynlərim bəzənib-düzənirdilər, anam pəncəyinə qızılı rəngdə olan gül bərkidib əsl "Dior"la ətirlənirdi (bu ətri ona pay vermişdilər, fransız ətirləri açıq satışda yox idi), atam isə hətta qalstuk taxırdı. Daha doğrusu, o qalstuku heç xoşlamırdı, mən isə çox istəyirdim ki, atam qalstukda olsun. Mən anamdan israrla xahiş edirdim, və anam atamın boynuna zəhləsi gedən "ilgəyi" bağlayırdı. Paraddan dərhal sonra "ilgək" cibə qoyulurdu. Lakin paraddan əvvəl hər şey gözəl idi! Dior, bəzək sancağı, qalstuk, hava şarları. Hamı xoşbəxt idi! May paradlarından sonra isə biz bağımızda kartof əkməyə gedirdik[24].

Blok 3. Bir may obrazları

16. M ü x
O s ı ə v-u iy y ə y ı? B c ə ə l ə ?

17. R ə s s s ı s
ü u o z v ə s v o

18. B o z v ə s v o x
B y y ö v ə

19.

Mənbə 15 1954-cü il[25]

Mənbə 16 1954-cü il

[24] SSRİ muzeyi. XX-ci əsr. Retro. Xatirələr. Nostalji (həsrət). [Elektron resurs] http://20th.su. — Giriş rejimi: http://20th.su/2013/05/01/parad-prazdnik-trudyashhixsya/.

[25] Götürülüb: "Bir may açıqçaları. Sülh, əmək, may!" [Elektron resurs]. — Giriş rejimi: http://radimich-ru.livejournal.com/51480.html?thread=18200.

Mənbə 17 1954-cü il



Mənbə 18 1950-1960-cı illər



Mənbə 19 1957-cü il



Mənbə 20 1958-cü il



Mənbə 21 1969-cü il



Mənbə 22 1979-cü il



Mənbə 23 1973-cü il



Mənbə 24 1957-cü il



Blok 4. Bir may və müasirlik

20. K İ
c ə u y u ə l?
21. M y o s ü ə
M o o v- c
c ə ə
22. s y ə ə fi
K o f s iy s
(ə) çı x ş ı ə ə ?
23. v ə s y ə ə l ə ə fi
24. XXI- c i ə s i ə v v ə l ə i ə M
ə s s .

Mənbə 25 KİV xəbəri: “1 May kapitala qarşı əməyin müştərək mübarizəsi günüdür!”, 4 may 2010-cu il

Mayin 1-də “Xalq müqavimətinin”[26] fəalları Kişinyov troleybus parkının (RTEC) işçiləri və “Moldkarton” AC-nin fəhlələri ilə birlikdə maaşların və digər ödəmələrin gecikdirilməsinə yenidən öz etirazlarını bildirmək üçün və qeyri-milliləşdirməyə[27] görə meydana çıxdılar. 3 nömrəli troleybus parkının mərkəzi girişində keçirilən yığıncaqdan sonra RTEC-in işçiləri artıq səhər saat 7-də meydanda idilər. Həmin gün RTEC-in işçiləri tətil elan etdilər. Onlar RTEC-in baş direktorunun simasında rüşvətxor və səriştəsiz rəhbərliyə qarşı öz etirazlarını bildirir, həmçinin tarifn yüksəldilməsi nəticəsində iki dəfə azalan maaşlarının qaldırılmasını tələb edirlər. <…> Həmçinin çox vaxt sürücülər sınan troleybusu öz hesablarına təmir etdirməli olurlar. Çünki onlara deyirlər: “Əgər sürməsən, maaş almayacaqsan”[28].

Mənbə 26 Şahidin mövqeyi. 1 may 2012-ci il

Çoxdandır ki, belə yaxşı təşkil olunan tədbirdə olmamışdım. Mayın 1-də, Zəhmətkeşlərin ümumdünya həmrəylik günündə Moldovanın Milli Həmkarlar Konfederasiyası Kişinyov şəhərinin mərkəzində yerləşən Böyük Milli Məclis meydanında mitinq keçirdi.

Əvvəl gözəl konsert baş tutdu. Yavaş-yavaş hər tərəfdən insanlar meydana doğru gəlirdi. Hər tərəfdə heç vaxt müşahidə olunmayan sakitlik vardı, heç kəs acıqlı deyildi. Siyasətbazlıq yox idi. İlk dəfə gördüm ki, heç yerdə pivə yoxdur. Əvvəllər hər tərəfdə quraşdırılan kiçik dükanlarda pivə satılırdı. İctimai yerdə spirtli içkilərin içilməsinə qarşı qadağa hiss olunurdu.

[26] Moldova Respublikasında 2003-cü ildə yaranan sol istiqamətli partiya – “Xalq müqaviməti” ictimai-siyasi hərəkatı.
[27] Qeyri-milliləşdirmə müəsisənin dövlət mülkiyyətinə qaytarılmasıdır.
[28] “Xalq müqaviməti” partiyasının məlumat resursu: http://rezistenta.info. — Giriş rejimi: http://rezistenta.info/work/63–1-maya-na-ploshhadi-velikogo-nacionalnogo-sobraniya-v-kishineve.htm.

Moldovanın Milli Həmkarlar Konfederasiyasının sədri Oleq Budza meydana gələn təxminən 6 min insan qarşısında çıxış edərkən qeyd etdi ki, “Həmkarlar İttifaqı öz tələblərini unutmur və iş şəraitinin əsaslı yaxşılaşdırılmasını, iş yerlərində təhlükəsizlik qaydalarına sözsüz riayət edilməsini, həmçinin minimal əmək haqları və təqaüdlərin artırılmasını tələb edir”[29].

Mənbə 27 KİV məlumatlarından. Bir may Moldovada geniş qeyd edilir. 1 may 2013-cü il

<…> Bir may günü ilə əlaqədar Moldovanın baş naziri vəzifəsini icra edən Yuri Lyanke təbrik məktubu göndərib. Məktubda deyilir: “Hər il mayın 1-də zəhmətkeşlər Beynəlxalq əmək gününü qeyd edirlər. Moldova Respublikasında da bu gün milli iqtisadiyyatin müxtəlif sahələrində çalışan zəhmətkeşlər əmək və proqressi salamlayır, həmrəylik və bir-birlərini dəstəklədiklərini nümayiş etdirirlər. Həmçinin onlar demokratiya dəyərlərini, o cümlədən də işləmək hüququnu və sosial ədalət prinsiplərini dəstəkləyirlər. Moldova xalqı öz zəhmətkeşliyi ilə seçilir. Büyün sahələrdə öz peşəsinin və öz işinin əsl fədakarları çalışır. Əmək bayramı zəhmətkeşlərə qarşı olan hörmətimiz haqqında bir daha söyləmək üçün yaxşı imkandır yaradır”[30].

Mənbə 28 Ukraynalı məktəbli qızın fikri

1 May günü məndə heç vaxt “xüsusi əhval-ruhiyyə” yaratmır. Heç vaxt nümayişlərə getməmişəm, ruh yüksəkliyi hiss etməmişəm. Mənə elə gəlir ki, bu bayram insanların həyatına xüsusi əhval-ruhiyyə və məna çoxdandır ki, gətirmir, ən azından mənim həmyaşıdlarım üçün bu belədir. Yeganə təəssürat iki qeyri-iş gününün olmasıdır ki, bu günləri ailə üzvləri və dostlarla keçirmək olar. Əsasən, bu təbiət qoynuna gedib kabab bişirmək və ailə üzvlərilə ünsiyyətdir[31].

Mənbə 29 Moldovalı məktəbli qızın fikri

Hal-hazırda da Əmək günü qeyri-iş günüdür. Həmin gün mitinq və ya digər nümayişlər təşkil olunmur, biz bu günü evdə, təbiətdə keçiririk, və ya flmlərə baxırıq, kitab oxuyuruq, teatra və konsertə gedirik. Şəxsən mən bu günü çox xoşlayıram, çünki məktəbə getmək lazım deyil. Adətən mən bacımla gəzməyə gedirəm və çoxlu kitab oxuyuram[32].

Yekun müzakirə

S

ə ə ş?

[29] Aleksandra Yefremova – http://dupelbiz.com saytının müəllif. — Giriş rejimi: http://dupelbiz.com/%D0%BD%D0%BE%D0%B2%D0%BE%D1%81%D1%82%D0%B8/v-kishineve–1-maya-2012-goda.

[30] Bir may Moldovada geniş qeyd edilir. AVA.MD informasiya analitik portal: http://ava.md/ — Giriş rejimi: http://ava.md/news/020331-pervomai-shagaet-po-moldove.html.

[31] Ukraynanın Dneprodzerjinsk şəhərinin sakini, 16 yaşlı Kozoroq Aleksandranın müsahibəsindən. Müəllif tərəfindən bu layihə üçün yazılıb. 2013-cü il.

[32] Moldovanın Yalovenı şəhərinin sakini, 16 yaşlı Badika Auqustinanın müsahibəsindən. Müəllif tərəfindən bu layihə üçün yazılıb. 2013-cü il.

Vahidlik və müxtəliflik

▶ **Cəmiyyəti vahid və müxtəlif nə edir?**

Blok 1. Etnos və millət

1. F o
   q ə ə i s ıı i y ı ə ı ə
   ı ə B
2. ə ı ə i
   i s ı ı ə ı ə B
3. Ü z ə ı ə övl ə
   o lu ı ə h s
   v ə l l (ı ə t ə) ? B c ü ı y i ı y ı ə ı
   i s ı ı ə ı ə i s

Mənbə 1 Moldovanın dövlət müstəqilliyinin elan edilməsi, 1991.[1]

S

ull ı ə üçü i s

Mənbə 2 Böyük milli yığıncaq meydanında çıxış, Kişinyov, Moldova[2]

[1] Национальная Собрания, Молдова, 1991 г. Провозглашение государственной независимости. Автор Михай Потырнике. [Elektron resurs] http://www.trm.md. — Giriş rejimi: http://www.trm.md/en/marea-adunare-nationala/marea-adunare-nationala-din-27-august–1991/. Veb-resursa daxil olma tarixi: 29.04.2014.

[2] «Мы молдаване» — [Elektron resurs] http://www.moldovenii.md/ru. — Giriş rejimi: http://www.moldovenii.md/resources/files/images/news/news6/20081011-280.jpg.

Mənbə 3 Üzərində Moldovan rəmzi təsvir edilmiş köynək[3]. Yazı: “Mənim vətənim Moldovadır”

▼

4. M ə lu

c ə l ə

5. l v ə l s y lı f
i s lı ü ə y y ə ı ı

Cv ı m ı z ı ə s s

◆ Məlumat

Etnos (yunan sözü ethnos — xalq) bir xalqa aid olan, müəyyən ərazidə yaşayan və ümumi mənşə, dil, məişət, mədəniyyət, psixoloji xüsusiyyətlərlə birləşdirilmiş insanların möhkəm birliyidir. Bir qayda olaraq, etnos ərazi və iqtisadi fəaliyyətin vəhdəti üzrə formalaşır, lakin tarixi proses zamanı bəzi etnoslar öz ərazisini itirərək digər ölkələrdə digər etnik qruplarla yaşamayır.

Millət bir çox etnoslardan ibarət olan siyasi cəhətdən təşkil olunmuş və dövləti olan xalqdır. Etnos öz dövlətini yaradaraq və insanları müəyyən ərazidə ümumi siyasi maraqlar ətrafında birləşdirərək siyasi millətə çevrilə bilər.

Vətəndaş cəmiyyəti iqtisadi, siyasi, sosial, mədəni əlaqələr və hüquqi münasibətlər əsasında qurulan yüksək dərəcədə özünü təşkil edən vətəndaşların cəmiyyətidir. İnsanlar ümumi rifahın əldə olunması üçün birləşirlər. Həmçinin bu, müxtəlif maraqlar ətrafında birləşən müxtəlif qeyri-dövlət və dövlətin nəzarəti altında olmayan vətəndaş birlikləri və təşkilatlarının cəmidir. Bu maraqlar dövlət fəaliyyətindən kənarda həyata keçirilir. Ola bilər ki, maraqlar vətəndaşların azadlığı, mülki və təhlükəsizliyinin qorunub saxlanılması üçün dövlətin maraqları ilə üst-üstə düşməsin[4].

▼

6. 4, 5, 6, 7 v ə l s y lı ə t ə l ə i ü u i v ə f ə q l i c
ı ə üçü n l z ı n ı? s p o

7. M ü ə y y ə ı ö v l ə
ı ə ı s u l i y y ə

8. İ ı s ı n t u v ə y i ə ı ö v l ə
B ə ı z l ə ı ə ə ı t ə l s ı ?

[3] [Elektron resurs] http://www.grenada.md. — Giriş rejimi: http://www.grenada.md/media/tshirt111.jpg

[4] Adaptasiya olunmuş mətn: «Політологія». — K.: «ВЦ Академія», 2001. — C. 126, 181, 184.

Mənbə 4 **Moldova vətəndaşının pasportunun üz qabığı**

Mənbə 5 **Ukrayna vətəndaşının pasportunun üz qabığı**

Mənbə 6 **Ermənistan vətəndaşının pasportunun üz qabığı**

Mənbə 7 **Gürcüstan vətəndaşının pasportunun üz qabığı**

Mənbə 8 **Azərbaycan Respublikasının vətəndaşının pasportunun üz qabığı**

Blok 2. Dövlət və çoxmədəniyyətli cəmiyyət

9. K o s
h ə h s i(, , , v ə s y ı ə ə)?

10.
v iy ', "i z ıq", " o s o i

11. B s ə ı ə ə " x q" v ə "i ə
s iy s ? C v ı z ı ə s

12. M ü s iöl ə l ə i ə lli s ii:
13. S
hüququn iiy ə iiq ə

Mənbə 9 Moldova Respublikasının Konstitusiyasından[5]

Maddə 10.

Xalqın vahidliyi və özünəməxsusluq hüququ

— Dövlətin əsasını Moldova Respublikası xalqının vahidliyi təşkil edir. Moldova Respublikası onun bütün vətəndaşları üçün ümumi və bölünməz vətəndir.

— Dövlət bütün vətəndaşların etnik, mədəni, dil və din özünəməxsusluğunun qorunması, inkişaf və ifadə hüququnu qəbul və təmin edir.

Mənbə 10 Ermənistanın Konstitusiyasından[6]

Maddə 41.

Hər bir insanın öz milli və etnik özünəməxsusluğunu qorumaq hüququ var.

Milli azlıqlara aid şəxslərin öz ənənələrini, dinini, dilini və mədəniyyətini qorumaq hüququ var. <…>.

Mənbə 11 Ukraynanın Konstitusiyasından[7]

Maddə11.

Dövlət Ukrayna millətinin, onun tarixi düşüncəsi, ənənələri və mədəniyyətinin möhkəmlənməsi və inkişafı, həmçinin Ukraynanın bütün yerli xalqları və milli azlıqlarının etnik, mədəni, dil və din özünəməxsusluğunun inkişafı üçün şərait yaradır. <…>.

Mənbə 12 Azərbaycan Respublikasının Konstitusiyasından[8]

Maddə 5. Xalqın vahidliyi

II. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir.

[5] Конституция Республики Молдова принята 29 июля 1994 года. [Elektron resurs] — http://lex.justice.md. — Giriş rejimi: http://lex.justice.md/viewdoc.php?action=view&view=doc&id=311496&lang=2

[6] Конституция принята референдумом 5 июля 1995 г. Конституционные изменения внесены референдумом 27 ноября 2005 г. [Elektron resurs] http://www.parliament.am. — Giriş rejimi: http://www.parliament.am/parliament.php?id=constitution&lang=rus.

[7] Конституция Украины принята 28 июня 1996 года. [Elektron resurs] — http://iportal.rada.gov.ua. — Giriş rejimi: http://iportal.rada.gov.ua/uploads/documents/27396.pdf.

[8] Конституция Азербайджана от 12 ноября 1995 года. [Elektron resurs] http://ru.president.az; http://ru.president.az/azerbaijan/constitution.

Maddə 21. Dövlət dili

II. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

Mənbə 13 Gürcüstanın Konstitusiyasından[9]

Maddə 34.

1. Dövlət mədəniyyətin inkişafına təkan verir, vətəndaşların mədəni həyatda azad iştirakı, mədəni özünəməxsusluğun ifadəsi və zənginləşməsi, milli və ümumbəşəri dəyərlərin qəbul edilməsi və beynəlxalq mədəni əlaqələrin dərinləşməsi üçün şərait yaradır.

14. M ü s i

i

15. v ə s y ə ö z ü ə x s u

c ə, o c ə y

16. “ X

ş i

ə

17. C ü ə

y , ə ç c ə ə

18. y ə ə ü x S

ə ə ş f c ə, “ x o ş i s

ü z ü ə s ü z ?

Mənbə 14 İngiltərə tədqiqatçısı B.Anderson millət haqqında

…Mən millət anlayışının aşağıdakı tərifini təklif edirəm: bu, xəyali siyasi birlikdir, o, qaçılmaz şəkildə məhdudlaşdırılmış, lakin suveren bir şey kimi xəyal edilir.

O, xəyalidir, çünki hətta ən kiçik millətin üzvləri belə heç vaxt öz millətindən olan insanların əksəriyyətini tanımayacaq, onlarla görüşməyəcək və hətta onlar haqqında eşitməyəcəklər, amma, eyni zamanda, hər birinin təsvirində onların ümumi birliyinin surəti yaşayır.

<…> Millət məhdudlaşdırılmış xəyal edilir, çünki hətta millətlərdən ən böyüyünün belə, məsələn, tərkibinə bir milyard insan daxil olan millətin müəyyən, lakin qeyri-sabit sərhədləri var. Bu sərhədlərdən kənarda digər millətlər var. Heç bir millət özünü bütün bəşəriyyət boyda zənn etmir.

[9] Конституция Грузии принята 24 августа 1995 года. [Elektron resurs] — http://frussia.webege.com. — Giriş rejimi: http://frussia.webege.com/countries/georgia/constitution/Georgia_constitution.html.

<…> O, suveren xəyal edilir, çünki bu anlayış Maarifçilik və İnqilabın Allah tərəfindən yaradılan iyerarxiya sülalə dövlətinin[10] leqitimliyini[11] <…>.

məhv etdiyi dövrdə meydana gəlib. <…>

Və, nəhayət, o, birlik kimi xəyal edilir, çünki hər millətin daxilində mövcud olan faktiki qeyri-bərabərlik və istismardan asılı olmayaraq millət həmişə dərin, üfuqi yoldaşlıq kimi dərk edilir. Son nəticədə, məhz bu qardaşlıq son iki əsr ərzində bir çox milyon insanlara xəyalın bu cür məhdud məhsulları uğrunda həyatını könüllü qurban verməyə imkan yaradır[12].

Mənbə 15 Müasir tədqiqatçılar "mədəni millətçilik" haqqında

Vahid dünya iqtisadi sistemini yaratdıqca, get-gedə daha çox qloballaşdırılmış[13] həyat tərzini inkişaf etdirdikcə biz "mədəni millətçilik" adlandırılan anlayışa daha çox yaxınlaşırıq… Nə qədər çox qloballaşırıqsa, iqtisadi baxımdan bir-birimizdən asılı oluruqsa, o qədər çox insan kimi davranırıq, öz fərdiliyimizi vurğulayırıq, dilimizi, kökümüzü, doğma mədəniyyətimizi qoruyuruq. Avropa iqtisadi baxımdan birləşəndən sonra almanlar özlərini daha çox alman, fransızlar isə özlərini daha çox fransız hiss edirlər.

Millətçiliyin mənfi tərəfləri aydın görünür: keçmiş Balkan ölkəsi olan Yuqoslaviyada etnik təmizləmələr və vətəndaş müharibəsinin dəhşətləri, Yaxın Şərqdə adətən dini səbəblərdən baş verən müharibələr, keçmiş Sovet İttifaqında baş verən üsyanlar, bir çox ölkələrdə mövcud olan irqçi fanatiklər.

Lakin mədəni millətçiliyin, xüsusilə də təhsil üçün müsbət cəhətləri də aydın görünür. Texnologiyalar inkişaf etdikcə, musiqi, rəqs, dil, incəsənət və ya tarixdə öz mədəni irsini qoruyub saxlamaq istəyi də çoxalır[14].

Mənbə 16 Futuroloq E.Toffler müasir cəmiyyət haqqında

…təsadüfi deyil ki, biz müxtəlifiyə doğru yönələn paralel tədbirlərə rast gəlirik — iqtisadiyyatda, incəsənətdə, təhsildə, kütləvi mədəniyyətdə və sosial qayda-qanunun özündə. Bu tədbirlər birlikdə qeyri-adi böyük tarixi prosesin bir hissəsini təşkil edir. Supersənaye inqilabı[15] insan cəmiyyətinin növbəti, özünün təbəqələşməsinin daha yüksək pilləsinə doğru irəlləyişi kimi qəbul edilə bilər[16].

[10] İyerarxiya sülalə dövləti deyərkən ənənəvi monarxiyalar nəzərdə tutulur ki, burada kral bir sülaləyə aiddir və onun hakimiyyəti bütün cəmiyyətə qarşı ali sayılır.

[11] Leqitimlik (latın sözü legitimus — qanuni) qanunilik, səlahiyyət.

[12] Андерсон Бенедикт. Воображаемые сообщества. Введение. — [Kitabın elektron nüsxəsi] http://www.gumer.info. — Giriş rejimi: http://www.gumer.info/bibliotek_Buks/Sociolog/anders/01.php.

[13] Qloballaşma sözündən (latın sözü globus — kürə) ümumdünya iqtisadi, siyasi və mədəni inteqrasiya və unifikasiya prosesidir. Bu proses kapitalizmin inkişafını və beynəlxalq xammal, kapital, əmək və xidmət bazarının yaradılması prosesini müşayət edir. Qloballaşma prosesi XX-ci əsr — XXI-ci əsrin əvvəllərində sürətlə inkişaf edir.

[14] Гордон Драйден. Джанетт Вос. Революція в навчанні. Львів: 2005. — С. 75. — Adaptasiya olunmuş mətn.

[15] Supersənaye inqilabı XIX-XX-ci əsrlərin sənaye cəmiyyətindən iqtisadiyyatın və cəmiyyətin yeni — informasiya növünə keçidi ifadə etmək üçün istifadə olunan termindir.

[16] Тоффлер Э. Шок будущего. — М.: 2003. — С. 326.

Mənbə 17 KİV-lərin məlumatlarından

Mayın 21-də BMT-də dialoq və inkişaf naminə Ümumdünya mədəni müxtəlifik günü qeyd edilir. Bu gün 2002-ci ildə Baş Assambleyanın qərarı ilə təsis edilib.

Bu gün çərçivəsində YUNESKO və BMT-nin Sivilizasiyalar Alyansı "Bir işi həyata keçir" lozunqu altında kampaniyanın icrasına başlayıb. Təşəbbüsün müəllifəri xoşməramlı insanların hamısına yalnız mədəni müxtəlifiyin dəyərlərini dərk edib digər mədəniyyətlərin nümayəndələrilə əməkdaşlıq etməyi öyrənməyi deyil, həmçinin bu ideyanın dünyada yayılmasına öz töhfəsini verməyi təklif edirlər.

YUNESKO-nun Baş direktoru İrina Bokovanın sözlərinə görə, məsələ bizi zənginləşdirən müxtəlifiyin və bizi birləşdirən insan haqlarının geniş qəbul edilməsini təmin etməkdən ibarətdir[17].

Yekun müzakirə

C ə iy y ə

Əsas dəyərlər və cəmiyyətdə baş verən dəyişikliklər

▶ **Dəyərlər nədir və onlar cəmiyyətə necə təsir edir?**

Blok 1. Dəyərlər nədir və biz onları necə başa düşürük



Mənbə 1 Müasir tarixçinin fikri

Dəyərlər insan davranışının əsasında duran ən mühüm baza ideyaları/inanclar/qənaətlərdir. Onlar dünyanı necə dərk etdiyimizi və dünyanın çağırışlarına necə cavab verdiyimizi müəyyən edir. Dəyərlərin nə olduğunu daha yaxşı anlamaq üçün onları fərqləndirən amillər haqqında danışmaq lazımdır. Dəyərlər maraqlar demək deyil. Maraqlar, adətən, maddi rifah və rahatlıqla əlaqələndirilir (pul, torpaq, vəzifə). Maraqları kompromisə gələrək bir-birilə barışdırmaq olur. Maraqlardan fərqli olaraq, dəyərlərin maddi qiyməti yoxdur, buna görə də onları hərraca qoymaq olmaz. İnsanlar öz maraqları ətrafında qismən asan barışa bilər, lakin söhbət dəyərlərdən gedirsə bir-birlərinin hətta ətini yeməyə hazırdırlar.

Aşağıdakı suala səmimi cavab verərək dəyərləri daha yaxşı müəyyən etmək olar: öz vaxtımı, sağlamlığımı, lazım gəldikdə isə hətta həyatımı nəyə görə qurban verməyə hazıram[1]?

Mənbə 2 Müasirin fikri. Zati-müqəddəsləri Papa II İoann Pavelin Birləşmiş Millətlər Təşkilatının 50-ci Assambleyasına Müraciətindən. 5 oktyabr 1995-ci il

Yeni minilliyin əsnasında biz bəşəriyyət tarixinin ən böyük hərəkətverici qüvvələrindən biri olan azadlıq axtarışının qeyri-adi qlobal sürətlənməsini müşahidə edirik. Bu fenomen dünyanın hər-hansı bir hissəsilə məhdudlaşmır və hər-hansı ayrı bir mədəniyyətin ifadəsi deyil. <…> Azadlığa olan ümumdünya meyl həqiqətən də, dövrümüzü fərqləndirən işarələrdən biridir.

Azadlıq insan ləyaqətinin və böyüklüyünün ölçüsüdür. Ayrı-ayrı şəxsiyyətlərin və xalqların axtardığı azadlıd şəraitində yaşamaq insanın mənəvi böyüməsi və millətlərin mənəvi gücü üçün gözəl çağırışdır. Bu gün hamımızın müraciət etməli olduğumuz ən əsas məsələ budur: azadlıqdan məsuliyyətli şəkildə necə istifadə etmək olar (həm şəxsi, həm də ictimai ölçüdə). Deməli, biz azadlıq mədəniyyətinin daxili memarı olan azadlığın mənəvi strukturu haqqında düşünməliyik. Azadlıq yalnız tiraniyanın və təzyiqin mövcud olmaması deyil. Və bu, bizim istədiyimiz hər bir şeyin edilməsinə icazə də demək deyil. Azadlığın onu fərqləndirən və yüksəldən daxili “məntiqi” var: azadlıq həqiqətə aiddir. Bu, insanın həqiqəti axtardığı zaman və insanın həqiqət içində yaşadığı zaman əldə edilib. Şəxsiyyət haqqında həqiqətdən ayrı olan azadlıq fərdlərin həyatında ifrat özbaşnalığa, siyasi həyatda isə daha güclülərin şıltaqlığına, gücün təkəbbürünə çevrilir. İnsan haqqında həqiqət həqiqətdir. O, azadlığa məhdudiyyət və ya ona qarşı təhlükə adlandırılmaqdan uzaqdır. Bu həqiqət bütün dünyada insanların ürəklərində yazılan mənəvi qanun ilə tanınır, o, həqiqətən də, azadlığın gələcəyinin qarantıdır[2].

Mənbə 3 Müasir tədqiqatçının həyat və elmdə ləyaqət haqqında fikri

Biz ləyaqətimizi itirərkən — asılı vəziyyətə düşərək istəmədiklərimizi edəndə, özümüzə məxsus olmayan fkirləri səsləndirəndə, başqasının baxış bucağından baxanda, öz qaydalarımızla yaşamayarnda, tənqidlərə dözəndə və şəxsi həyatımıza müdaxiləyə dözəndə — onu daha kəskin dərk edirik. Bu vəziyyətdə biz kəskin və aydın şəkildə hiss edirik ki, hər insanın yalnız özündən asılı olan və onun ayrılmaz hüququ olan müstəqil sahəsi var. Bu, onun ləyaqətinin sahəsidir. Görünür ki, bura insana öz şəxsi fkrini, münasibətini və qərarlarını formalaşdırmaq üçün lazım olan hər bir şey daxildir. Ləyaqət sahəsində daimi olan privacy, yəni insanın şəxsi həyatını təşkil edən xüsusilik və qeyri-rəsmilik, həmçinin onun hər hansı bir millətə və dinə mənsub olmasıdır.

[1] Ярослав Грицак. 26-й процент або як подолати історію. — К.: 2014. — С. 52–53. (Ukrayna dilindən tərcümə).

[2] Zati-müqəddəsləri Papa II İoann Pavelin Birləşmiş Millətlər Təşkilatının 50-ci Assambleyasına Müraciəti. (rus dilində) [Elektron resurs] www.krotov.info. — Yakov Krotovun kitabxanası, 2005. — Giriş rejimi: http://www.krotov.info/acts/20/voityla/oon.html.

Şəxsi ləyaqət hüququ insanın ən fundamental və ayrılmaz hüququdur. Hətta digər insanın həyatı onlardan asılı olan vəziyyətlərdə də, məsələn, müharibə zamanı, və ya məhkəmədə olduğu kimi, insanın həyatına son qoymaq hüququ olanda belə heç kəs onun ləyaqətini, özü kimi olmaq hüququnu, öz şəxsi sahəsini saxlamaq hüququnu əlindən ala bilməz.

Ləyaqət sahəsi toxunulmazdır, onun hüdudları pozula bilməz. Ləyaqət sahəsinə müdaxilə deyəndə, biz insanı müəyyən fkrə, münasibətə, qərara və ya hərəkətə vadar etməyi nəzərdə tuturuq ki, bütün bunlar onu ləyaqətin ifadələrindən biri olan azadlıqdan məhrum edir. Bura, əlbəttə ki, həmçinin müəyyən fkrə sövq etmək, insanın mövqeyinə müdaxilə etmək, qətilik, fkri, münasibəti və hətta şəfqət hissini zorakılıqla almaq daxildir[3].

Mənbə 4 Müasir iqtisadçının Avropa dəyərləri haqqında fikri

Avropa dəyərləri iki inteqral tərifə əsaslanır. Birincisi məsuliyyətli azadlıqdır. Avropalılar üçün azadlıq dadlı yemək kimi bir şey deyil, azadlıq onların yaşamağı üçün şərtdir, çünki onlar azadlıq olmadan özlərini reallaşdıra bilmirlər. Azadlıq həyatda yaranan bütün vəziyyətlərdə seçim imkanı deməkdir. Və onlar bu imkanı elə məhdudlaşdırırlar ki, başqalarına ziyan gətirməsinlər. İnsanlar özlərini könüllü məhdudlaşdıranda, bu məsuliyyətli azadlıq adlanır. Sonra dövlət işə başlayır və özünü könüllü məhdudlaşdırmaq istəməyənləri cəzalandırır. Lakin qanun yalnız bu halda işləyir ki, əhalinin əsas hissəsi onunla razı olsun. Əgər qanun əhalinin əksəriyyətinin ədalət hissinə uyğun deyilsə, o, sadəcə işləməyəcək.

<…> İkincisi məsuliyyətli əməkdaşlıqdır. Bu o deməkdir ki, siz əməkdaşlığa meyllisiniz, aktivsiniz, kompromisə hazırsınız, və kompromis sizin üçün məğlubiyyət demək deyil. Və siz hər-hansı razılığa gəlirsinizsə, deməli, bu işə məsuliyyətlə yanaşırsınız.

Məsuliyyətli azadlıq və məsuliyyətli əməkdaşlıqdan ibarət olan bu kompleks sosial kapital adlandırdığımız şəraiti yaradır. Bir sözlə bu, etibardır. Yaradılan institutlara[4], digər, tanış olmayan insanlara qarşı etibar. Etibarın mövcud olduğu cəmiyyətdə hər şey ucuz başa gəlir. Çünki inamsızlıq bir sıra instrument yaradır ki, onlar bahadır. Bu da o deməkdir ki, bu kapitala malik olan cəmiyyətlər ondan məhrum olan cəmiyyətlərdən zəngindirlər[5].

[3] Г.И. Абелев. О достоинстве в жизни и науке. — Очерки научной жизни. Глава III. М.: 2006. — [Elektron versiya]. — Giriş rejimi: http://garriabelev.narod.ru/abelev.pdf, C. 247.

[4] 3Burada dövlət və cəmiyyətin həyatını müəyyən edən sosial və siyasi təşkilatlar, qaydalar nəzərdə tutulur.

[5] Александр Пасхавер. С нашими ценностями мы не можем быть богатой страной. — [Elektron resurs] http://platfor.ma/magazine. — Giriş rejimi: http://reinvent.platfor.ma/aleksandr-paskhaverr/.

Blok 2. Cəmiyyət və dəyərlər

5. M ə
Tə s vi o lum i s ə l ə ı

6. S
Fiiz i ə s s hım.

7. ś v ə 7 s y lı ı ə m ə l ə ş ə i
hqqım k y ə l ə ı ə i ə f ə q l ə ı? B ı ə

8. K İ
ı ə m ə l ə)? B ə y ə l ə ı ü ə y y ə ı ı ə ı ı y ı ş s iy h s s
ı ə

Mənbə 5 Sovet dövrünün məktəblisinin xatirələri

İndiki kimi yadımdadır: 1975-ci ilin avqustu, əlaçı olduğuma görə məni Artekə[6] putkovka ilə mükafatlandırdılar, "Lazurnaya" dəstəsi, beynəlxalq giriş. Dəstəmizin SSRİ-nin bütün respublikalarından olan pionerlərini Nepal, Şri-Lanka, Birma, Yəmən və digər ölkələrin nümayəndələri qarşısında ölkəmizə qarşı qürur və vətənpərvərlik hissi birləşdirirdi. Kosmonavtika muzeyinə ekskursiyanı və sentrifguqada sınaqları, diktor Levitanla[7], kosmonavtlar V.Tereşkova və N.Titov ilə, marşal Q.Jukovla[8] görüşlər mənim ömürlük yaddaşıma həkk olundu. Bizi hər şeydə birinci olmağı öyrədirdilər; yarış hissi və intizam, ən yüksək nəticələri əldə etmək üçün səylər bizi həmişə başqa ölkələrin nümayəndələrindən fərqləndirib. Biz böyük maraqla digər ölkələrdə sürən həyat haqqında hekayələrə qulaq asır, onların rəqslərini, adət-anənələrini təəccüblə qarşılayırdıq. Nepaldan gələn qızın mənə hədiyyə etdiyi rəngli kiçik daşlar mənim üçün ən yüksək dəyərə malik əsl xəzinə idi. Biz Vladivostokdan olan oğlanla, Tbilisi və Yerevandan gələn qızlarla hələ uzun müddət yazışdıq[9].

Mənbə 6 Sovet dövrünün tələbəsinin xatirələrindən

Biz gələcəyimizə görə cavabdeh idik. 1982-ci ildə mən Kişinyov Dövlət Universitetinin tələbə tikinti dəstəsinin üzvü idim. Biz Qazaxstanın Arkalık şəhərinin kənd təsərrüfatı işçiləri üçün evlər tikirdik. Əsas vəzifə pul qazanmaq, bundan sonra isə dünyanı gəzmək, digər xalqların həyat və mədəniyyətilə tanış olmaq idi. Yerli əhali

[6] "Artek" Krımın cənub sahilində, Artek çayının yanında yerləşən beynəlxalq uşaq mərkəzidir. Bu, 1925-ci ildə yaradılan SSRİ-nin və dünyanın ən tanınmış pioner düşərgəsidir. "Artek"ə putyovka ilə ən fəal pionerləri mükafatlandırırdılar.

[7] Y.B.Levitan Ümumittifaq radiosunun tanınmış diktoru, SSRİ xalq artistidir. İkinci Dünya müharibəsi zamanı Levitanın səsi bütün Sovet İttifaqında məşhur idi.

[8] Q.K.Jukov sovet sərkərdəsi, Sovet İttifaqı marşalı, dördqat Sovet İttifaqı qəhrəmanı, Böyük Vətən müharibəsi zamanı (1941–1945) əksər hərbi əməliyyatların rəhbəri, 1955–1957-ci illərdə SSRİ Müda f ə naziri idi.

[9] Hal-hazırda Moldova Respublikasının Feleşt şəhərində fəaliyyət göstərən Uşaq Yaradıcılıq Evində müəllim işləyən Svetlana Danilyükun onun Faleşta şəhərinin 1 saylı orta məktəbin 6-cı sini f ndə oxuyarkən "Artek" düşərgəsinə putyovka ilə mükafatlandırıldığı dövr haqqında xatirələri. Müsahibə L.Qurskaya tərə f ndən yazılıb. 03.03.2014.

bizə çox yaxşı münasibət bəsləyirdi. Cürbəcür və gözəl təbiyyət, qoyun əti üzərində formalaşan dadlı mətbəx bizi valeh etmişdi. Biz əsl həyat məktəbi keçdik, tikinti-təmir işlərində böyük təcrübə qazandıq. 1984-cü ildə mən Vilnyus Dövlət Universitetinin təşkil etdiyi "Qeyri-ənənəvi xammal növlərindən qənnadı mallarının istehsalı" adlı Ümumittifaq elmi konfransında məruzə ilə çıxış etdim. Bu mövzunun sayəsində mən Ukrayna, Ermənistan, Rusiya, Litva, Latviya, Gürcüstan, Estoniya, Azərbaycan və Qazaxstanın emaledici sənayesi ilə daha ətraf ı tanış olmaq imkanı əldə etdim. Biz dostlaşdıq, bir çoxu ünsiyyətə davam edirdi, bir-birinin evinə qonaq gedirdilər. Hesab edirəm ki, bu millətlərarası ünsiyyət üzrə şəxsi təcrübəm məni zənginləşdirdi və gündəlik və əmək fəaliyyətimdə mənə kömək etdi[10].

Mənbə 7 KİV xəbərlərindən. Moldovada skaut hərəkəti haqqında, 2014-cü il

Bir çoxları deyinir: "Bu nədir, skautçuluq… Biz də hamımız pioner olmuşuq…". Lakin biz bir prinsipial fərqi unuduruq. Sən demə, skautların tərbiyyəsinin səmərililiyi pionerlərin tərbiyyəsindən qat-qat yüksəkdir. Skautçuluq sözə baxan sürünün deyil, parlaq şəxsiyyətlərin tərbiyyə sistemidir. Əslində, skautçuluq uşaq və yeniyetmələrə böyüklərin köməyilə romantika və sərgüzəştlər, oyun və ünsiyyət vasitəsilə böyük həyata hazırlaşmağa, öz fərdi bacarıqlarını inkişaf etdirməyə, məsuliyyətli olmağı öyrənməyə, Vətənini sevməyə və dünyanı daha da yaxşı etməyə imkan verən tərbiyyə sistemidir.

Skautlar uşaqları üç əsas prinsipi rəhbər tutaraq tərbiyyələndirir. Birincisi, skaut mənəviyyatlı və əxlaqlı bir insan olmağa söz verir. İkincisi, o, mütləq hiss etməlidir ki, yalnız özü üçün yox, digər insanlar, valideynlər, uşaqlar, ətrafında olan dünya üçün yaşayır. Və, üçüncüsü, o, özünə qarşı diqqətli olmalıdır. Əgər hər bir insan özünü daha da yaxşılaşdırsa, dünya da gec-tez yaxşılaşacaq, gözəlləşəcək. Skautçuluq hərəkatı ömürlük oyundur. Deyirlər ki, daxilində bir damla belə uşaqlıq hissi olan insan xoşbəxtdir. Əsas sözləri "yaxşılıq" olan skautlar məhz belələrindəndir, oğlanlar əsl kişi bacarıqlarını əldə edəcəklər. Diqqət mərkəzində doğma diyarın təbiəti və tarixi, xeyirxah əməllər, dostluq və qarşılıqlı köməklik durur[11].

Mənbə 8 "Moldavskiye vedomosti", KİV-də dərc olunan məlumatdan, 2012-ci il

Bu günlərdə Moldovada doğulmuş skripka ifaçısı Aleksandra Konunova (indi — Konunova-Dyumortye) alman şəhəri Hannoverdə keçirilən skripka ifaçılarının Yozef İoaxim adına nüfuzlu beynəlxalq müsabiqəsinin birinci mükafatına layiq görülüb.

[10] Kişinyov Dövlət Universitetinin Ticarət iqtisadiyyatı və əmtəəçilik fakültəsinin tələbəsi, hazırda Qloden şəhərinin ticarət işçisi Pavel Qurskinin xatirələrindən. Müsahibə L.Qurskaya tərəf ndən yazılıb. 04. 04. 2014.

[11] Moldova Respublikası Belts şəhərinin "Navigatorul-Nord" adlı ictimai təşkilatın rəhbəri A.Tsurkanın müsahibəsindən. [Elektron resurs] http://gzt.md/article. — Giriş rejimi: http://gzt.md/article/%D0%B1%D0%B5%D0%BB%D1%8C%D1%86%D1%8B/3753/.

Qələbəyə görə yerlimizə 50 min avro və 1765-ci ildə italiyalı usta Covanni Batista Quadanini tərəfindən hazırlanan skripka təqdim edilib. Müsabiqənin şərtlərinə görə, Aleksandra bu musiqi alətində üç il, yəni növbəti müsabiqənin keçirildiyi 2015-ci ilədək ifa edəcək. Onun arzusu evdə, Moldovada ifaçılıqla yeni məşğul olmağa başlayan uşaqlar üçün kamera musiqisi festivalı keçirmək, sonra isə qələbə qazanan uşaqları Avropalı peşəkarlarla tanış etməkdir.

İstedadlı skripka ifaçısı "MV"-yə asan olmayan qələbəsi, şəxsi həyatı və gələcək planları haqqında danışıb.

<…> *Hansı müsabiqə daha yaddaqalan olub?*

— Saysız-hesabsız müsabiqələrdə iştirak etmişəm. Həyat yoldaşımla tanış olduğum İşveçrədə keçirilən Tibor Varga və keçən il Buxarestdə keçirilən George Enescu yadımda qalıb. Və, əlbəttə ki, ən sonuncusu — Hannoverdə keçirilən Joseph Joachim müsabiqəsi hələ çox zaman yaddan çıxmayacaq. Çünki mənə doğma olan şəhərdə ifa edirdim: bundan əvvəl mən iki il Hannoverdə yaşamışam, və mənim əla dəstək qrupum vardı. Müsabiqə zamanı əvvəllər tez-tez çıxış etdiyim zalda ifa edirdim. Müsabiqə çox mürəkkəb və davamlı idi. Mən 11 əsər öyrənməli və müsabiqənin 5 turunu da keçməli idim. Ümumilikdə pauzalarsız proqram təxminən 180 dəqiqə canlı müsiqidən ibarət idi. Bu, böyük bir həcmdir, və mən hər şeyi yaxşı etməyə çalışaraq özümü yaxşı göstərdim[12].

Mənbə 9 KİV-lərin məlumatından. 31.08.2012

Bu gün Beltsıda milli dil bayramı qeyd olunur. Şəhərdə çoxsaylı mədəni tədbirlər təşkil edilib.

Səhər bayram tədbirləri "Moldtelekom"un yanında yerləşən xiyabanda klassiklərin büstlərinin önünə gül əklillərinin qoyulmasından başlayıb. Burada bir neçə yüz belçanlı[13], yığışmışdı, o cümlədən yerli hakimiyyətin və siyasi partiyaların nümayəndələri, şəhər müəssisələrinin əməkdaşları və s. Ənənəvi olaraq, parkda xalq sənətkarlarının əl işləri sərgisi təşkil olunmuşdu. Konsert proqramı V.Aleksandri adına Milli teatrın yanında başladı. Səhər proqramının ən yaddaqalan hissəsi "Jok" Milli akademik xalq rəqsi ansamblının çıxışı idi. İndi şəhərin Mədəniyyət saraylarında bələdiyyə yaradıcılıq kollektivlərinin çıxışları gedir. Bayram 18.00-da mərkəzi meydanda başlanan konsert ilə sona çatacaq[14].

[12] Дашевский О. Александра Конунова покорила Ганновер // Молдавские Ведомости, 6 ноября 2012 г. [Elektron resurs] http://www.vedomosti.md. — Giriş rejimi: http://www.vedomosti.md/news/Aleksandra_Konunova_Pokorila_Gannover/index.html.

[13] Belçanlılar Beltsı şəhərinin sakinləridir.

[14] Марина Морозова. Сегодня в Бельцах отмечают день национального языка. — Бельская независимая газета [Elektron resurs] http://esp.md. — Giriş rejimi: http://esp.md/2012/08/31/segodnya-v-belcax-otmechayut-prazdnik-nacionalnogo-yazyka/.

Blok 3. Avropa dəyərləri və ölkənin inkişafı

◆ Tarixi məlumat

İkinci Dnya müharibəsindən sonra Avropa dövlətlərinin xalqları və siyasi liderləri qarşıdurmanın, ədavətin və müharibələrin bütün təhlükəsini dərk etdilər. Avropa İttifaqı (Aİ) bu ölkələrin iqtisadi və siyasi təşkilatıdır. Avropa İttifaqı kontinentdə 50 ildən çox davam edən inteqrasiya fəaliyyətinin nəticəsidir. Sərhədləri olmayan birləşmiş Avropanın qurulması 1951-ci ildə başladı. Həmin il Parisdə Belçika, Almaniya, İtaliya, Lüksemburq, Niderland və Fransa Avropa Kömür və Polad İttifaqının yaranması haqqında səaziş imzaladılar. 1957-ci ildə Avropa İqtisadi Birliyinin qurulması haqqında elan edildi. Bundan sonrakı onilliklərdə Avropa ölkələri arasında iqtisadi və siyasi əlaqələr daha da möhkəmləndi.

1993-cü ildə Maastrix müqaviləsi qüvvəyə mindi. Bunun nəticəsində, praktiki olaraq, Avropa İttifaqı içində insanların, xidmətlərin və kapitalın azad hərəkatı üçün bütün maneələr aradan qaldırıldı. Aİ-na üzv olan dövlətlərin vətəndaşları Avropa vətəndaşlığına hüquq əldə etdilər, vahid pul valyutası — avro — qəbul edildi. Açıq iqtisadiyyat, işçi qüvvəsinin səmərəli istifadəsi və istehsalın düşünülmüş şəkildə təşkili — bütün bunlar Aİ-nın aşağıdakı mühüm məqsədlərinin yerinə yetirilməsinə xidmət edir: sülhün qorunması və vətəndaşların əsas hüquq və azadlıqlarının təmin edilməsinə zəmanət, terrorçuluq və mütəşəkkil cinayətkarlıqla mübarizə, irqçilik və ksenofobiyanın qarşısının alınması, ümumi rifahın qorunması və çoxaldılması. Avropa İttifaqı haqqında Müqavilənin 2-ci Maddəsində deyilir ki, İttifaq aşağıdakı dəyərlərə əsaslanır: insan ləyaqətinə, azadlığına, demokratiyaya, bərabərliyə, hüquqi dövlətin dəyərlərinə qarşı hörmət və insanların, o cümlədən azlıqlara mənsub olan şəxslərin hüquqlarına riayət etmək[15].

Hal-hazırda genişlənmiş Avropa İttifaqına 500 milyondan çox əhalisi olan 28 dövlət daxildir.

▼

9. ïX i ı ə lu
i
fi ə i

10. S
A

11. Niy ə B M T M o
M o o vıı
y x ıllşıi ə ? Fiiz i ə s s lıı ı.

[15] Avropa İttifaqı haqqında Müqavilənin 2-ci Maddəsi. [Elektron resurs] EUR-Lex http://eur-lex.europa.eu/homepage.html. — Giriş rejimi: http://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=URISERV:l33500 (ingilis dilindən tərcümə).

Mənbə 10 KİV-lərin xəbərlərindən, 2007-ci il

B.P.Xaşdeu adına Kaluqa Dövlət Universitetində "Pro-Avropa" interaktiv mərkəzi yaradılıb. Moldovada yaradılan ilk belə müəssisə geniş ictimaiyyətə Avropa inteqrasiyasının əhəmiyyətindən və imkanlarından məlumat verəcək. Təntənəli açılışda Moldova Respublikasının Prezidenti Vladimir Voronin, hökümət üzvləri, Kişinyovda təyin edilmiş diplomatik korpusun nümayəndələri, müəllim və tələbə heyəti iştirak edib. Layhənin direktoru Silviya Strelçukun sözlərinə görə, Mərkəzin yaradılmasının məqsədi ictimaiyyətin diqqətini Avropa inteqrasiyasının problemlərinə yönəltmək, həmçinin vətəndaşları Moldova Respublikasının Avropa İttifaqı üzrə Fəaliyyət planının reallaşdırılmasına cəlb etməkdən ibarətdir.

Mərkəz Avropa İttifaqına aid məlumatı təqdim edəcək. Açılışda çıxış edən Prezident Vladimir Voronin qeyd edib ki, Moldova Respublikasının inteqrasiya prosesinin qarşısı alınmazdır, yeni yaradılan müəssisənin fəaliyyəti sayasində isə bu proses ölkənin bütün ərazisinə yayılacaq. Bu Mərkəzin vasitəsilə Moldova əhalisi Avropa inteqrasiyası nəticəsində yaranan imkanları və faydaları dərk etməlidir.

Vladimir Voroninin sözlərinə görə, ilk Avropa məlumat Mərkəzinin açılışı Moldova hökuməti tərəfindən Avropa inteqrasiyası üzrə yerinə yetirdiyi tədbirləri möhkəmləndirəcək. Öz fəaliyyətilə bu Mərkəz, gələcəkdə yaradılması planlaşdırılan digərlər mərkəzlər kimi, vətəndaşlarımız tərəfindən bizim Avropa İttifaqına aid olmağımızın imkanları və faydalarını dərk edilməsinə təkan verəcək. Prezident qeyd edib ki, Avropaya inteqrasiya etmək məqsədinin reallaşdırılması üçün bu prosesə bütün ölkənin cəlb edilməsi mütləqdir. Vacibdir ki, Avropa dəyərləri, prinsip və standartları hər bir mərkəz və yerli, hökümət və qeyri-hökümət dərəcəli müəssisənin və, təbii ki, Moldovanın hər bir vətəndaşının gündəlik fəaliyyətinin ayrılmaz hissəsinə çevrilsin[16].

Mənbə 11 Siyasətçinin fikri: Prezident Nikolaye Timoftinin çıxışından. 03.11.2013

Bu gün Moldova Respublikasının Prezidenti Nikolaye Timofti Kişinyovda Böyük Milli Yığıncaq meydanında Moldova Respublikasının Avropa kursuna dəstək məqsədilə təşkil olunan mitinqdə nitq söyləyib:

"Hörmətli həmvətənlər, mən bu tədbirə adi vətəndaş kimi gəlmişəm. Ölkə və insanların taleyi haqqında söhbət gedəndə, əsas vəzifə deyil, bu xeyirxah işin reallaşmasına öz töhfəsini vermək kimi daxili istəyin olmasıdır. Mən bura hamı ilə birlikdə Moldova Respublikasının Avropaya inteqrasiya etmək milli ideyasını dəstəkləmək üçün gəlmişəm.

Son 25 il ərzində burada, Böyük Milli Yığıncaq meydanında biz ölkənin həyatında baş verən əsas həlledici məqamlarda yığışmışıq. Burada biz azad olmaq və gələcəyimizi

[16] Для нас важно создать Европу и европейские ценности у нас дома — «Независимая Молдова» [Elektron resurs] http://www.nm.md. — Giriş rejimi: http://www.nm.md/article/dlya-nas-vazhno-sozdat-evropu-i-evropeyskie-cennosti-u-nas-doma.

özümüz qurmaq istəyimizi bildirdik. Burada biz qərar verdik ki, dilimiz latın əlifbasına keçsin.

Bu gün biz yenə də yığışmışıq ki, milli azadlıq hərəkatının ilk illərində verdiyimiz Moldova Respublikasının həqiqətən Avropa ölkəsinə çevrilməsi haqqında müqəddəs andımızı təsdiqləyək.

Avropa inteqrasiyası iqtisadiyyatın bərpa edilməsi, insanların həyat şəraitinin yaxşılaşdırılması və öz konsepsiyası və istiqaməti olan cəmiyyətin qurulması üçün şansdır. Həmçinin söhbət bizim kollektiv və şəxsi təhlükəsizliyimiz, insanların və məhsulun azad hərəkatı, ölkəmizin müasirləşməsi və inkişaf etməsindən gedir.

Özümüzdən, evimiz və küçəmizdən başlayaq. Evimizə Avropa dəyərlərini daxil edək. O dəyərləri ki, bizə yad deyil, sadəcə biz onları unudub və ya əhəmiyyət verməmişik. Bizi yerimizdə addımlamağa sürükləyən xəstəliklərdən qurtulaq — bütün sahələrdə mövcud olan korrupsiyadan, dövlət müəssisələrində və gündəlik həyatımızda hələ də rast gəlinən nizamsızlıqdan və digər nöqsanlardan. Gələcəyimiz üçün məhvedici olan qanunsuzluğa yol verməyək.

<…> Beynəlxalq aləmin və bizim maraqlarımız ondan ibarətdir ki, Moldova Respublikası çiçəklənən, sabit və demokratik ölkəyə çevrilsin. Əminəm ki, özümüz və gələcək nəsillər üçün bu missiyanı yerinə yetirməyə gücümüz var.

Moldova Avropaya aiddir! Avropaya doğru irəli, Moldova[17]!»

Mənbə 12 Moldova və BMT əməkdaşlığı haqqında

Ədliyyə sistemində aparılan islahat və insan haqlarının müdafəsi, inklüziv[18] təhsilin tətbiqi, səhiyyə və sosial müdafə xidmətlərinin keyfiyyətinin artırılması, həmçinin təbiətin müdafəsinə yönələn proqramların reallaşdırılması və fövqəladə hallar risklərinin idarə olunması — bütün bunlar 2013–2017-ci illər ərzində BMT və Moldova ilə əməkdaşlığın əsas sahələridir. Müvafiq səaziş Kişinyovda imzalanıb.

Partnyorluq çərçivəsində ümumdünya təşkilat (BMT — *red*.) Moldovaya 218 milyon dollar ayıracaq ki, bu vəsait respublikanın Avropaya inteqrasiya proqramının birinci dərəcəli məsələlərinin həllinə yönəldiləcək[19].

12. [illegible]

13. [illegible]

[17] Moldova Respublikasının Prezidenturasının rəsmi saytı: — http://presedinte.md/rus. — Giriş rejimi: http://presedinte.md/rus/comunicate-de-presa/nicolae-timofti-sa-aducem-valorile-europene-la-noi-acasa.

[18] İnklyuziv dəxil olunan deməkdir. Burada — imkanları məhdud olan insanlara təhsil almağa imkanı yaradan ümumtəhsil tədris müəssisələrisir.

[19] ООН поможет развивать Молдове европейские ценности. — Отдел новостей и СМИ Радио ООН. 24/12/2012. — Giriş rejimi: http://www.unmultimedia.org/radio/russian/archives/128431/.

14. A
A

15. S

Mənbə 13 KİV-lərin məlumatından, 2014-cü il

Oxucuların sualı: İndi Avropa dəyərləri haqqında çox danışırlar… Sizdən xahiş edirəm ki, “Avropa dəyərləri” anlayışına nəyin daxil olduğunu izah edib onları, əgər mümkündürsə, xristian dəyərləri ilə müqayisə edəsiniz (L Repyaşkova, Kişinyov).

Cavablandırır: Moldovanın Avropa İttifaqı və BMT-də keçmiş nümayəndəsi Aleksey Tulbure.

— Avropa dəyərləri insan haqları deməkdir, onlara sözdə yox, əməldə riayət edilməkdir. Müstəqil ədliyyə də oradan irəli gəlir. Vətəndaş cəmiyyəti, demokratik institutlar, o cümlədən parlament və azad mətbuat, söz və yığıncaq azadlıqlarının da daxil olduğu fundamental azadlıqlar — bütün bunlar həmçinin Avropa dəyərləridir.

Bu, həm siyasi dialoqdur, o cümlədən hakimiyyət və müxalifət arasında, həm azlıqların hüquqlarına hörmətdir, qərar qəbul edilərkən azlıqların fikrini nəzərə almaq, azad seçkilər, hakimiyyət bölgüsü, tolerantlıq, qanuna tabe olmaq və digər amillərdir.

Moldovada olduğu kimi, Avropanı yalnız bir amil ilə ölçmək — axmaqlıqdır.

Xristianlıq dəyərləri həmçinin hamımıza yaxşı tanışdı. Öldürmə, oğurluq etmə, zina etmə və s. Bir çox avropalılar öz hərəkətlərilə sübut edirlər ki, bu dəyərlər Avropa dəyərləri ilə üst-üstə düşür. Ən vacib məsələ bir şey etmək istəyərkən onları yaddan çıxarmamaqdır[20]…

Mənbə 14 Müasirin fikri. Facebook sosial şəbəkəsindən

Qərb tipli sizilizasiyanın dəyərlər sistemində ən mühüm cəhət öz işinin peşəkar, keyfiyyətli və vaxtında yerinə yetirilməsidir. Və işin nədən ibarət olduğu əhəmiyyətli deyil — bu, Aerobusun idarə edilməsi və ya gündəlik zibil daşınması ola bilər. Əgər işini yaxşı görürsənsə, sən cəmiyyətdə hörmətli insansan və sənin əməyin layiqincə qiymətləndirilir. Buna görə də orada insanlar 30 il ofsiant işləyə və özlərini xoşbəxt hiss edə bilərlər[21].

[20] Аргументы и факты в Молдове. [Elektron resurs] http://aif.md. — Giriş rejimi: http://aif.md/chto-vxodit-v-ponyatie-evropejskie-cennosti/.

[21] Yaroslav Bondar. 14 mart 2015-ci il tarixində edilmiş yazı. https://www.facebook.com/bondar.yaroslav?fref=uf Müəllifin icazəsilə nəşr olunur.

Mənbə 15 **“Fərq və vəhdət”**[22]. Flickr.com fotoxostinqindən[23] götürülmüş foto

Mənbə 16 **“Demokratiyanın pazlları”. Berlinqtonda yerləşən abidə, Vermont ştatı, ABŞ. Heykəltəraş — U.F.Xerrik. 1990-cı il**[24]

Yekun müzakirə

Dəyələndirmə

[22] Foto — Freireke. Giriş rejimi: https://www.flickr.com/photos/frerieke/3644112373 Müəllifin icazəsilə nəşr edilir.

[23] Flickr — rəqəmli foto və video-çarxların saxlanılması və gələcək istifadəsi üçün işlədilən fotoxostinqdir. İlk Web 2.0 servislərdən biridir. Bloggerlər arasında fotoşəkillərin yerləşdirilməsi üçün istifadə edilən ən populyar saytlardan biridir.

[24] Foto — Adam Fagen. Giriş rejimi: https://www.flickr.com/photos/afagen/8376740776/ Müəllifin icazəsilə nəşr edilir

Bölmə III

MƏDƏNİYYƏT VƏ SİYASƏT

S

, o u əqq
ıəişə
ü
ıəuz qhi s lıı:hə y
lıə s iii s ıı hə y
ı. M üx
üıəlihə y
iiz ə h-iiizih y xşıh i vi Eyıi z, f əqi
ə z :yivə u, i s ı yıiliə ə yiy ələıə y ə, s ə yhə
quı qşıq o y ı.

- X
  ə yişə işvi?
- B f
- X
  yıiə işvi?
- Kşişüıəliıəişə

- M ü s iövüüz ə ip o vlıı ə
  s xlıı?
- X X X
- S
- M ü s iəıə q s iy
- Əıə q s iy s ıhə y ə : c ə
- M ü s işəhəıə əiy y ə

Ənənəvi məişət və yenilik

XIX–XX-ci əsrlərdə Cənubi Qafqaz xalqlarının gündəlik həyatında hansı dəyişikliklər baş verdi?

Blok 1. Cənubi Qafqaz xalqlarının geyimində dəyişiklik

1. İ s yiəiə ə s (ə)? M ü s əh xlç

2. s yhəələ ə ə s s ə yişə liə c ə yi

3. s yhəə y ə ə s s eyiəişə iə f əqlə liə?

4. s yhəələ ə ə s s i f ə o hüə y y ə i. Bqşqh

5. s yhəələ ə ə s s

Mənbə 1 Müsəlman xalça tacirləri. Yelizavetpol, XX-ci əsrin əvvəlləri[1]

[1] Записки скучного человека. Кавказ и Закавказье в работах Дмитрия Ивановича Ермакова. Часть 1-я. (rus dilində). [Elektron resurs]. — Giriş rejimi: http://humus.livejournal.com/2604783.html.

Mənbə 2 Qafqazda Avropa dəbi

1832-ci ildə mötəbər gürcü nəsillərindən yalnız dörd — beşi öz qızlarına dəbli fransız paltarları geyindirdi və onlara Avropa tərbiyyəsi verdi... Ayaqqabıların dəyişməsindən sonra kadril[2] və rus dilinin öyrənilməsi gəldi[3]…

Mənbə 3 Yerevanda 1902-ci ildə açılmış qızlar üçün rus-müsəlman məktəbi[4]

Mənbə 4 Cənubi Qafqaz əhalisinin geyimi

Mənim bir tatar tanışım var, ziyalı, ali savadlı insandır. Onun həyat yoldaşı institutu qızıl medalla bitirən savadlı qadındır. Qızları Tifisdə institutda təhsil alırlar. Onlar kənddəki mülklərində yaşayırlar. Bəzən Bakıya ya da Tifisə "canlanmaq" üçün gəlirlər. Mən onlarla Tifisdə qarşılaşdım. Qadın avropasayağı geyinmişdi, tanışlarını ziyarət edirdi və ictimai əyləncələrdən qalmırdı. Bununla belə, öz kəndində o, bağlı hərəm həyatı sürürdü. Orada o, tatar kostyumu geyinir və kənar insanların yanında üzünü örtürdü[5].

[2] Kadril XIX-cu əsrin axırlarınadək Rusiya və Avropada populyar olan fransız cütlük rəqsidir.
[3] Ольшевский М. Я. Воспоминания о Кавказе и Грузии / Русский вестник, 1869. — Т. 79. — № 1–2. — С. 435–435.
[4] [Elektron resurs] http://commons.wikimedia.org/wiki/File:Rus_moslem_school_in_Erevan.jpg?uselang=ru.
[5] Сборник материалов для описания местностей и племен Кавказа. Выпуск 20. Тифлис. — 1894. — С. 146.

Mənbə 5 Ənənəvi və avropasayağı: Tiflis şəhərinin iki təbəqəsi

Yeni şəhərdə tasakravilər və leçaklara[6], daz-az rast gəlinir, çadralar isə aradan qaldırılıb, bu, müsbət haldır; çuxalar[7] və şiştəpəli qoyun dərisindən tikilmiş papaqlara da çox az rast gəlinir... Yüksək gürcü və ya erməni zadəganlığı... Avropa kostyumunu və həyat tərzini mənimsədi. Bu baxımdan köhnə Tiflis tamam başqadır: rəngarəng tasakravi, ağ leçaklar, ağ kolenkor örtüklər — "çadralar"... Çoxa və qoyun yunundan fars papaqlarına oxşayan, lakin onlar kimi hündür olmayan papaqlara da rast gəlinir[8].

Mənbə 6 Cənubi Qafqaz xalqlarının geyimindən götürmə elementlər

Duxoborlar onların əhatəsində olan Qafqaz xalqlarının geyimindən az da olsa, nəsə götürüblər. Yay gödəkçəsi olan "beşmet" (həmişə göy rəngli, köynəyin üstündən geyinilirdi) Qafqaz kaftanı ilə tez-tez əvəz edilirdi[9].

Blok 2. Yeni məhsullar — yeni menyu

6. ïX i ə lu

7. ïX i ə lu
y

S

8. ïX i ə lu
s i o uh s ı x ö ə l ə i y ı ə l ə
ə l y u s u y i y ə l ə h s ı y i

◆ Tarixi məlumat

XIX-cu əsrin birinci yarısında Cənubi Qafqaza çoxsaylı rus əhalisinin köçürülməsi ilə əlaqədar təsərrüfat sahəsində götürülən elementlər və mədəniyyətlərin qarşılıqlı təsiri daha qabarıq görünürdü. Cənubi Qafqaz xalqları rus kəndlilərindən istehsalat alətləri, onlar üçün yeni olan bitkiləri (kartof, kələm, kök, günəbaxan və s.) yetişdirmək üçün əkinçiliyin daha mükəmməl üsullarını və texnikasını öyrəndilər. Buna müvafiq olaraq əkin sahələri genişləndi, səmərəlik və kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı artdı.

Çar hökümətinin dəvəti ilə XIX-cu əsrin 40-cı illərində Qafqazın Qara dəniz sahilinə çinli çaybecərənlər köçürüldülər.

[6] Tavsakravi (və ya taskravi) və leçaklar gürcü qadın baş geyiminin detalları.
[7] Çoxa (çuxa) mahuddan tikilmiş üst kişi geyimidir.
[8] Ольшевский М. Я. Кавказ с 1841 по 1866 г. / Военный сборник, 1894. — Т. 82. — С. 87.
[9] Вермишев Х. А. Земледелие у государственных крестьян Закавказского края / 1888. — С. 220–221.

Mənbə 7 Səyahətçinin qeydləri

Yerli müəllimlər burada kartofun yetişdirilməsi ilə məşğul olurlar. Və svanlar[10] müəllimlərdən bu yaxşı təşəbbüsü mənimsəyirlər.

Beçoda rus əsgərləri bostan bitkiləri yetişdirirlər. Svanetiyada bostan tərəvəzləri olan xiyar, soğan, kələm, kartof qəribə görünür.

Kələm və kartof bitkilərini əsgərlər yayıb. Burada indi ləğv edilmiş hərbi hissə saxlanılırdı. Əsgərlərin kələm, kartof və digər tərəvəzlərdən ibarət böyük bostanı var idi. Svanlar bu tərəvəzləri becərməyi və yeməklərdə istifadə etməyi onlardan öyrəndilər[11].

Mənbə 8 Bostançılıqda baş verən dəyişikliklər

KKartofun başqa bitkilər arasında becərmə faizi az olsa da (2,12%), yığılma faizinə görə (12,42%) yerli əhalinin diqqətini daha çox cəlb edir. Onu əsasən rus mühacirləri becərirlər. Onlardan da ermənilər, daha az tatarlar götürüb[12].

İri bostançılıqla əsasən tatarlar məşğul olur. Ermənilərin isə bağlarında balaca bostanları var. Yalnız bəzi hallarda onlar Sərdar bağında icarəyə torpaq götürürlər. Həm birincilər, həm ikincilər bostançılıqla səylə məşğul olurlar, çünki, cənubun hər yerində olduğu kimi, burada da göyərti (nanə, mərzə, tərxun, reyhan) və tərəvəzlər əhalinin yemək rasionunda olduqca vacib və zəruri yer tutur. Əhali həmçinin ruslara az və ya heç məlum olmayan faydalı çöl otlarından da istifadə edir[13].

Mənbə 9 Çay yığımında fəhlələr. Batum yaxınlığında çay plantasiyaları[14]

[10] Svanetiyanın əhalisi müasir Gürcüstanın tarixi ərazisinin şimali-qərbində yaşayır.

[11] Ткешелашвили И. С. Сванетия: поездка по Сванетии в 1900 и 1903 годах и краткий этнографический очерк/ Типография И. Н. Кушнерева и К°, 1905. — С.13.

[12] Сборник материалов, для описания местностей и племен Кавказа. Выпуск 25. Тифлис 898 год. С.115.

[13] А. Д. Ерицов «Экономический быт государственных крестьян Казахского уезда / Т. 2, Выпуск 3. 1886. — С. 152.

[14] D.Prokudin-Qorskinin fotosu. [Elektron resurs] Wikimedia. Giriş rejimi: http://upload.wikimedia.org/wikipedia/commons/a/a3/Group_of_workers_harvesting_tea_Chakva_Prokudin-Gorsky.jpg.

Mənbə 10 Makaron nüfuzlu Avropa məhsulu kimi

Naharın hər iştirakçısına böyük duzsuz şoti[15], verirdilər, yanına çaxır şüşəsi qoyurdular. Nahar bozbaş və ya çığırtma[16] ilə başlayırdı. Ən hörmətli qonaqlara naharın sonunda nadir hal kimi makaron verirdilər. Axşam qənd ilə çay içilirdi[17].

Blok 3. Evlərin interyerində dəyişikliklər

9. 1i s y ı ə t ə l ə ə s s lıq, C
e v l ə i i A

10. R i o y ş y ı ə l i i ü ı ə l i h ə y
o luu?

Mənbə 11 Yerli xalqların evlərinin yeni elementləri

Son illərdə başqa daxmalar[18] kimi, Msxeta[19] daxmaları da sürətlə inkişaf edirlər. Onların quruluşunda çoxdan başlanan ən vacib irəlləyiş ondan ibarətdir ki, qübbəyə oxşar damların ortasında olan dəlik indi daxmanın ortasında qalanan tonqalın tüstüsü üçün çıxarma dəliyi kimi deyil, yalnız işıq və hava üçün pəncərə rolunu oynayır və dəliyə şüşəli çərçivə qoyulur. Odun qalanması üçün enli və düz bacaları olan buxarlar istifadə edilir. Son onilliklərdə qışda isinmək üçün dəmirdən hazırlanmış balaca sobalardan istifadə edilməyə başlandı. Son zamanlar Msxeta daxmalarında baş verən dəyişikliklər arasında bəzi daxmaların yanında ümumi Avropa xarakterli tikililəri də qeyd etmək lazımdır[20].

Mənbə 12 Buxarlar ənənəvi ocaqların yerini tutur

Kaxetiyada[21] hələ 1830-cu illərdə evlərdə buxarlar quraşdırırdılar, lakin gündəlik məişətdə ailə yalnız sobadan istifadə edirdi. Belə hal 1880-ci illərdə də müşahidə edilirdi: buxarın olmağına baxmayaraq taxta döşəmənin üstünə torpaqdan döşənək düzəldib açıq soba quraşdırırdılar. XIX-cu əsrin axırlarında İmeretiya, Quriya və Meqreliyada[22] kəndli malikanələrində adətən iki ev olurdu: biri ənənəvi tipli pəncərəsiz, iki qapı və açıq ocaq ilə köhnə tikili, o biri isə buxarı, pəncərəsi və s. elementləri olan yeni tipli ev. Lakin ailənin bütün həyatı köhnə evdə keçirdi, yeni ev isə, əsasən, qonaqlar üçün nəzərdə tutulmuşdu.

[15] Şoti ənənəvi gürcü çörəyidir.
[16] Bozbaş və çığırtma müasir Azərbaycan və Gürcüstan ərazisində yaşayan əhalinin ənənəvi ət xörəkləridir.
[17] Зиссерман А. Л. Двадцать пять лет за Кавказом (1842–1867) / Типография А. С. Суворина, 1879. — С. 226.
[18] Msxeta müasir Gürcüstan ərazisində olan şəhərdir.
[19] Daxma — Qafqaz dağlılarının kənd evi.
[20] Пантюхов И. И. О пещерных и позднейших жилищах на Кавказе/ Типография М.Д. Ротинианца. 1896, — С. 84–85.
[21] Gürcüstanın tarixi vilayəti.
[22] Gürcüstanın tarixi vilayəti.

XIX-cu əsrin birinci yarısında İmeretiyada gündəlik həyata tədricən Avropanın "hündür" masası daxil oldu ki, bu masa İmeretiya evlərinin nüfuzlu elementi sayılırdı. Ən hörmətli, ehtiramlı qonaqlar yaşa görə məhz bu masanın arxasında otururdular[23].

Mənbə 13 Rus sobası[24]



Mənbə 14

1880-ci illərdə Axalkalaki qəzasında yerli ermənilər arasında daha ucuz və daha asan tikilən rus duxoborlarının yaşayış evləri yayıldı. Bir sıra kəndlərdə yerli tipli evlərdə rus sobaları quraşdırılırdı[25].

[23] Волкова Н.Г., Джавахишвили Г.Н. Бытовая культура Грузии XIX–XX веков: традиции и инновации. Академия Наук СССР/ Издательство «Наука». Институт этнографии имени Н.Н.Миклухо-Маклая. 1982. — С.211.

[24] Novqorodda "Vitoslavlitsı" xalq ağac memarlığı muzeyi. Ceki Britonun fotosu. Giriş rejimi: https://www.fickr.com/photos/25270435@N03/7988482335/in/photolist- /.

[25] Вермишев Х.А. Земледелие у государственных крестьян Закавказского края / 1888. — С. 40.

Mənbə 15 Gürcü daxmasının interyeri[26]

Mənbə 16 Petropavlovsk kəndində (indiki Muğan, Azərbaycan) **“Yeni Kainat” mehmanxanası.** S.M.Prokudin-Qorskinin fotosu, 1915 il.[27]

[26] Tbilisi etnoqrafiya muzeyi. Rita Villayertin fotosu.

[27] ABŞ Konqresinin kitabxanası. [Elektron resurs] http://www.loc.gov. — Giriş rejimi: http://www.loc.gov/pictures/collection/prok/item/prk2000001180/.

Blok 4. XIX-cu əsrin sonu — XX-ci əsrin əvvəllərində baş vermiş elmi-texniki tərəqqi və regionda yaşayan xalqların məişət mədəniyyəti

11. [illegible]

12. [illegible]

13. [illegible]

Mənbə 17 “Kaspi” qəzetinin 1885-ci il buraxılışında dərc edilən yeni kənd təsərrüfatı texnikası haqqında məqalədən

Kəndlilər indiyədək görmədikləri maşına təəccüblə baxırdılar. Yelizavetpoldan onun üçün dərzlər gətirilmişdir. ¼ saata 100 dərz döyülmüşdü. Ümumiyyətlə, taxıldöyən maşın hansısa bir fokus kimi kəndliləri yalnız təəccübləndirirdi. Sonra dənsovuran maşınları sınaqdan keçirməyə başladılar. Hamı maşınlardan məmnun qaldı. Nəhayət, üzümü əzən və şirə çıxardan maşınlara keçdilər. Maşınlar kifayət qədər yaxşı işləyirdi və üzüm bağlarını icarəyə götürən ermənilər heyran etdilər...

Taxıl döymənin yerli üsulunun məhsuldarlığı və xırdalanmış samana ehtiyac rus mühacirlərini ənənəvi toxmaqdan imtina etməyə və Azərbaycan kəndlilərindən “kam” adlanan taxıldöyən taxta almağa vadar etdi[28]…

Mənbə 18 1892-ci ildə Zaqafqaziya dəmir yolunda sərnişin axını[29]

Daşınmış pullu sərnişinlərin sayı	1222743 nəfər
Bir pullu sərnişin getdiyi orta məsafə	87 km
Pullu sərnişinlərin hamısının daşınmasından əldə edilən gəlir	1323163 rubl

Mənbə 19 Poçt-teleqraf idarəsi üzrə qadınların xidməti haqqında instruksiya

Poçt-teleqraf idarəsinə yalnız 18–30 yaş arası qız və dul qadınlar qəbul edilə bilər. Orta təhsil müəssisəsi və ya yeparxiya məktəbi səviyyəsində təhsil senzi tələb olunur. İdarəyə qəbul edilən qız və dul qadınlara yalnız həmin poçt-teleqraf idarəsində çalışan məmurlara ərə getdikləri halda işdə qalmağa icazə verilir. Qadınlar tünd rəngli bağlı sadə, mümkün qədər eyni fasonlu donlar geyinməlidirlər[30].

[28] Sit.: Гасан-бек Зардаби. Избранные статьи и письма. Баку, 1962. — С.73.

[29] Materiallar: Ф. А. Брокгауз И. А. Ефрон. Энциклопедический словарь.

[30] [Elektron resurs] Наш Баку. История Баку и бакинцев. — Giriş rejimi: http://www.ourbaku.com/index.php5/Почта_-_Телеграф_-_Телефон_(Баку).

Mənbə 20 Kinematoqraf Bakıda

Kino flmlərin nümayişi haqqında ilk xatirələrdən biri 1889-cu ilin noyabrında Bakıya məşhur fzik-mexanik K. O. Krauzenin gəlişi haqqında məlumatdır. Gəlişin məqsədi ən kiçik zaman ərzində Bakı tamaşaçılarını öz bədii şəkildə işlənmiş dumanlı əsərləri, o cümlədən 1888-ci il oktyabr ayının 17-də imperator qatarının aşması, Paris və Ti fis sərgilərinin görüntüləri adlı əsərləri ilə tanış etmək idi.

Artıq 1896-ci ildə Bakı sakinləri yeni texniki nailiyyət olan kinematoqrafdan geniş istifadə etməyə başlayırlar. Əvvəllər flmlər Bakıda o zaman mövcud olan teatr və klublarda nümayiş etdirilirdi, sonralar isə xüsusi kinoteatr və zallar yaradılmağa başladı[31].

Yekun müzakirə

C ə ıuüiQ f ąz x lqlıın ə ı ə ı ə viv ə ıü s i

[31] Колтунов С. П. Бакинские кинотеатры. Кинематограф в Баку. [Elektron resurs] Наш Баку. История Баку и бакинцев. — Giriş rejimi: http://www.ourbaku.com/index.php5/Бакинские_кинотеатры._Кинематограф_в_Баку.

Bəkı nefti və mədəniyyət

Bakı nefti şəhər həyatına necə təsir göstərdi?

1. S

Blok 1. Çoxmillətli Bakının meydana gəlməsi

2. s s s

3. s

Mənbə 1 **19-cu əsrin ikinci yarısı — 20-ci əsrin əvvəllərində Bakının əhalisi (min nəfər)[1]**



[1] По материалам: Йорг Баберовски. Цивилизаторская миссия и национализм в Закавказье: 1828–1914 гг. // Новая имперская история постсоветского пространства / Под ред. И. Герасимова,. — Казань: New Imperial History, 2004. — С. 322.

◆ Tarixi məlumat

Müasir Azərbaycanın ərazisindəki zəngin neft yataqları çoxdan məşhurdur. Orta əsrlərdə bu ərazidə, xüsusilə də Abşeron yarımadasında çoxlu miqdarda neft çıxarılırdı. O vaxtlar onu evlərin işıqlandırılması və dəri xəstəliklərinin müalicəsi üçün istfadə edirdilər.

Mənbə 2 XIX-cu əsrin ikinci yarısında neft mədənlərinin inkişafı

1853-cü ildə neft lampasının ixtirasından sonra neftə olan tələbat sürətlə artdı.

XIX-cu əsrin 60-cı illərindən başlayaraq Rusiyanın sənaye müəssisələrində neft sənaye miqyasında istifadə edilməyə başladı. Nəticədə neft məhsullarına tələbat və neftin çıxarılması artdı.

Neft məhsullarına tələbatın artması Bakıda neft emal edən sənayenin yaranmasına təkan verdi. İlk dəfə ağ neftin istehsalı başladı. 1859-cu ildə Bakıda rus sənayeçiləri Kokarev və Qubonin iri neft emalı zavodu tikdirdilər.

Ağ neft zavodunun istifadəyə verilməsi başqa xarici sənayeçiləri də aktiv fəaliyyətə sövq etdi. 1879-cu ildə əsası qoyulmuş "Nobel qardaşlarının neft istehsal cəmiyyəti" Bakıda neftçıxarma və neft emalı ilə məşğul idi, öz nəqliyyat və satış şəbəkəsini yaratdı. Bura neft boruları, tankerlər, vaqon-sisternələr, körpülər və dəmiryol qolları ilə neft bazaları daxil idi.

XIX-cu əsrin sonlarında neftçıxarma sahəsinə xaricilər, o cümlədən Rotşild və Rokfeller daxil oldular. Belə ki, 1886-cı ildə Rotşildlər "Batum neft sənayesi və ticarət cəmiyyəti" yaratdılar. Batumda neft anbarları tikildi və satış məntəqələri təşkil edildi[2].

4. [illegible]

5. [illegible]

6. [illegible]

7. [illegible]

[2] Mahmudlu Y. M. "Abituriyent" jurnalının xüsusi buraxılışı // Tarix. Bakı, 2010. — C. 340–341.

Mənbə 3 19-cu əsrin ortaları — 20-ci əsrin əvvəllərində Bakı əhalisinin milli tərkibi[3]



Mənbə 4 "Nobel qardaşlarının cəmiyyətinin" baş idarəçisi Qustav Tyornudun Bakı haqqında xatirələrindən

Ticarətin mərkəzi olan Bakı müxtəlif xalqları özünə cəlb edir... Hamı öz millətindən yapışır və, görünür ki, hətta onunla fəxr edir, Allaha şükr edirlər ki, onlara aid olduqları xalqın arasında doğulmağa icazə verib, istər erməni olsun, istər fars, tatar[4], gürcü, çərkəs, çeşen, ləzqi, osetin... türkmən, ərəb, zənci... türk, yunan, rus, italyan, fransız, rumın, müxtəlif almanlar, yahudilər, ingilislər, amerikalılar, isveçrəlilər, danimarkalılar, isveçlilər yaxud fnlər. Şirkətdə kifayət qədər müxtəlif xalqların nümayəndələri çalışır, lakin biz qardaşlıq dostluğu və böyük anlaşma şəraitində yaşayırıq. Rusiyada həmin illər çox az vilayət var idi ki, orada bu cür mehriban ruh hökm sürsün[5].

Mənbə 5 Şəhərdə etnik qrupların yerləşdirilməsi

Müsəlmanlar xan qalasını əhatə edən tarixi mərkəzdə və şəhərin qərbində yaşayırdılar. Sənaye sahəsində ruslar, şəhərin şimalında ermənilər yaşayırdı. Şəhərin yeni mərkəzinin tikintisi zamanı qarışıq əhali əmələ gəlir[6].

[3] Йорг Баберовски. Цивилизаторская миссия и национализм в Закавказье: 1828–1914 гг. // Новая имперская история постсоветского пространства / Под ред. И. Герасимова. — Казань: New Imperial History, 2004. — С. 322; Современный Азербайджан // Новый Восток. 1926. № 4. — С. 174.

[4] O vaxtlar belə şəhərin türkdilli əhalisini adlandırırdılar.

[5] Осбринк Б. Империя Нобелей / Б. Осбринк, Москва, 2003, — С. 79.

[6] Йорг Баберовски. Цивилизаторская миссия и национализм в Закавказье: 1828–1914 гг. // Новая имперская история постсоветского пространства / Под ред. И. Герасимова,. — Казань: New Imperial History, 2004. — С. 322.

Blok 2. Bakı şəhərinin görünüşü və məişətində baş verən dəyişikliklər

8. [illegible]

9. [illegible]

◆ Tarixi məlumat

Bakı şəhəri Bakı platosunun cənub yamacında olan quru və isti iqlimli, yalnız Abşeron yarımadasına xas olan küləkli yarımsəhra zonasında yaranıb. XV-ci əsrin ərəb coğrafyaçısı Əbd ər-Rəşid əl-Bakuvi şəhərdə su çatışmazlığı və onun ətrafının qeyri-münbitliyi haqqında yazır. Burada insanlar tunc dövründən buyana yaşasalarda, Bakı kiçik bir şəhər olub, XVIII-ci əsrdə onun əhalisinin sayı 5–7 min nəfərdən çox deyildi, XIX-cu əsrin ortalarında isə 7,4 min nəfər təşkil edirdi.

Lakin neft sahələrinin azad satışa buraxıldığı andan cəmi bir-neçə ildən sonra Bakını fabrik boruları əhatəyə aldı və şəhər ətrafdakı kəndləri tədricən ələ keçirərək inkişaf etməyə başladı. 1876-cı ildə yeni sənaye rayonu — Qara şəhər salındı. Bunun üçün xüsusilə inşa planı hazırlanıb təsdiqləndi. Tezliklə böyüyən şəhər yenə öz sərhədlərinə sığmadı, və bir dənə də sənaye rayonu — Ağ şəhər salındı. Şəhərin feodal hissəsinin labirint tikilişi ilə müqayisədə yeni rayonların planlaşdırılması irəli atılan mühüm addım idi. Yaxın Şərqin iri şəhərlərinin həmin dövrə aid tikililərində belə bir şey yox idi.

Mənbə 6
Bakının planı. 1890-cı illərin əvvəli[7]

Mənbə 7 Yeni memarlıq

Şəhərin mərkəz hissəsində yerləşən neft sənayeçilərinə və ticarətçilərə məxsus olan çoxsaylı iri binalar yalnız gəlir gətirməli deyil, həmçinin də onların sahibləri üçün özünəməxsus reklam olmalı idilər. Çoxmərtəbəli görkəmsiz tikililər arasında

[7] [Elektron resurs]. — Giriş rejimi: http://j0nka.livejournal.com/.

key f yyətli, çox hallarda bilərəkdən iddialı inşa edilən ev və bank binaları kəskin şəkildə seçilirdi. Onların memarlıq üslubu müxtəlif bədii üslübların əcaib qarışığını təşkil edir və şəhər mərkəzinin eklektik görünüşünü müəyyən edirdi. Memarlar sahibi olduqları binaların ölçüləri və xarici görünüşünün mürəkkəbliyi ilə öz zənginliyini və ictimai çəkisini vurğulamağa can atan sifarişçilərin istəklərini təmin edərək... müxtəlif (Avropa — red.) üslübları təqlid edərək layihələr hazırlayıb binalar inşa edirdilər[8]…

Mənbə 8 Tiflis vağzalı və konka. Bakı, 20-ci əsrin əvvəli[9]



Mənbə 9 Petrolea villası. 19-cu əsrin sonu — 20-ci əsrin əvvəllərinin açıqçası

Mənbə 10 Bakıda neft sənayesinin zadəganlarının həyatı

…Nobel qardaşlarının şirkətinin inzibati-texniki heyətini (o cümlədən Finlyandiya, İsveç, Norveç və Almaniyadan dəvət olunan personalı) bu rayonda[10] yaşamağa sövq etmək məqsədilə burada yaşayış qəsəbəsi salındı və yaşamaq üçün ən yaxşı şərait

[8] Л. Бретаницкий. Баку. Ленинград-Москва, 1970. — С. 41.

[9] История железных дорог. (rus dilində) [Elektron resurs] ЖЖ. — Giriş rejimi: http://elmaral.livejournal.com/8820.html; http://ic.pics.livejournal.com/elmaral/31583488/19875/19875_original.jpg.

[10] Bakının şərq qəsəbələri — sənaye rayonu.

yaradıldı. Yeni qəsəbə[11] Qara şəhərin şərq sərhədində, Keşlə qəsəbəsinin yaxınlığında yerləşirdi. Qəsəbənin ərazisində əməkdaşlar üçün evlər, məktəblər, teatr, xəstəxanalar tikildi, 1884-cü ildə isə Nobel qardaşlarının irsi iqamətgahı inşa edildi... Peterburqdan bağ üçün heykəllər, rəsm əsərləri, kitabxana üçün kitablar sifariş edildi. Otaqlar azərbaycanlı və fars ustalar tərəfindən hazırlanmış bahalı xalçalarla bəzədildi[12].

…"Villa Petrolea"nın sakinləri şəhərdən çoxlu qonaq dəvət edərək parkda tez-tez gəzinti və ballar təşkil edirdilər. Musiqi çalınırdı, ağaclardan asılmış rəngarəng fənərciklər işıq saçırdı, atəşfəşanlıq təşkil olunurdu və yeməklər təqdim edilirdi... "Villa"da ənənəvi təşkil edilən şən Milad yolkasını da xatırlayırdılar[13].

Bu binalar Azərbaycanda müasir memarlıq və inşaat mədəniyyətinin yayılmasına təkan verirdilər. Bu mədəniyyətin yayıcıları əksəriyyəti Peterburq və Moskva memarlıq məktəblərinin yetirmələri olan binaların müəllifləri idi[14].

10. [illegible]

11. [illegible]

12. [illegible]

13. [illegible]

14. [illegible]

Mənbə 11 Qara şəhərdə fəhlələrin həyatı

Bakının neft mədənləri M.Qorkinin yaddaşında "zülmətli cəhənnəmin dahiyanə yaradılmış şəkli..." kimi qalıb... "Buruqlar xaosunun arasında yerə fəhlələrin tarixdən əvvəlki insanların evlərinə çox oxşayan, bozarmış və yonulmamış daşlardan tez bir zamanda tikilmiş uzun alçacıq kazarmaları sıxılırdı... Yarıçılpaq uşaqlara baxmaq dəhşətli idi. Onlar ayaqları ilə gölməçələrdə yaşıltəhər yağlı seliyi yoğururdular, üç-beş nəfərlik qruplarla bir-birinə yapışaraq məyus-məyus evlərin kəndarında otururdular, yastı damların üstündə dəmir və taxta qalıqları ilə oynayırdılar. Ətrafdakı hər bir şey kimi, uşaqlar da neftə bulaşmışdılar, onların kirli sifətləri hər tərəfdə görsənərək, adamyeyən qardaşların əsirində olan uşaqlar haqqında zülmətli nağılı xatırlayırdı..."

...Bu dövrün hesabatlarında tez-tez qeyd edilirdi ki, neft sənayeçiləri tərəfindən tikdirilən kazarmalarda hər bir insanın bir kub sajindən (8m³ — *red*.) də az havaya

[11] Villa Petrolea adlandırılan qəsəbə.

[12] Мир-Бабаев М. Ф. Краткая история Азербайджанской нефти. Баку, Азернешр–2007. — 288 с.

[13] Игорь Абросимов. Частная жизнь бакинской семьи на фоне событий далекого прошлого. [Elektron resurs] http://www.bakupages.com. — Giriş rejimi: http://www.bakupages.com/blg-list.php?id=51646&usp_id=0&cmm_id=276.

[14] Л. Бретаницкий. Баку. Ленинград-Москва, 1970. — С. 43.

haqqı var idi. “Burada insanların necə yaşaya bilmələri təəcüb doğurur”, neft mədənləri yerləşən rayonda torpağın çirklənməsi “qəbirsanlıqların çirklənməsindən qat-qat yuxarıdır” və s.

1899-cu ildə keçirilən şəhərin neft sənayeçilərinin qurultayında “Bakı neft mədənlərində xidmətçilər və fəhlələrin ev şəraitinin yaxşılaşdırılması” üçün tədbirlər müzakirə edilirdi. Məruzənin əsasında bütün Balaxanı-Sabunçu rayonunun əhalisinin təxminən dörddə-bir hissəsinin yaşadığı evlərin tibbi-sanitar baxışının materialları dururdu. Məlum oldu ki, “təmamilə qənaətbəxş adlandırıla biləcək yaşayış yeri yoxdur. Evlərin əksəriyyəti heç bir şeyə yaramır!”[15].

Mənbə 12 Bakıda yeni nəqliyyat

Şəhərin əsas ictimai nəqliyyat növü atlı-dəmir yoludur... Faetonlar və yük atları gedir. Şəhərdə yaşayan Şimali Amerika Birləşmiş Ştatlarının vətəndaşı İosif de Vitt Bakı və Balaxanı-Sabunçu mədəni arasında avtomobil yolunun təşkili üçün konsessiya alıb. İndi 12 nəfərlik omnibuslar Molokan bağı və Petrovskaya meydanından yola düşəcəklər[16].

Mənbə 12a Qara şəhərdə fəhlələr və xidmətçilər üçün mağaza. XX-ci əsrin əvvəli[17]

[15] Л. Бретаницкий. Баку. Ленинград-Москва, 1970. — С. 40.

[16] Тамара Гумбатова. Баку в начале XX века [Elektron resurs] http://www.proza.ru. Giriş rejimi: http://www.proza.ru/2012/09/21/550.

[17] Национальный Музей истории Азербайджана. Книга-альбом. Гаджи-Зейналабдин Тагиев. Баку. 2010. С.53.

Blok 3. Bakının mədəni həyatı

13. “N o c əiy y ə
iş f s ı
14. M s
15. s y ıətələə ə s s
f əiy y ə

Mənbə 13 Müasir müəllif Villa Petrolea-da təşkil olunan mədəni tədbirlər haqqında

1897-ci il fevral ayının 15-də Villada musiqili bölmə ilə xalq oxumaları təşkil edildi. Üç ay əvvəl Lampe xanım xalq həvəskar xorunun yaradıldığını elan etdi. Cəmiyyətin əməkdaşları və fəhlələrdən 60-dan artıq insan buna səs verdi. Onların əksəriyyətinin nə musiqidən, nə notlardan xəbərləri yox idi, lakin anadangəlmə qabiliyyətlərinin, işə diqqətlərinin və səliqəliliklərinin sayəsində nəticə parlaq oldu. Həvəskar konsert iştirakçıların hamısına zövq verdi. Canlı təsvirlər ilə oxular hamının xoşuna gəldi.

1893-cü il oktyabr ayının 31-də Villa Petroleanın klub yerində ilk oxumalar təşkil edildi ki, bu tədbirlər mövcud olduqları dövrdə “Xalq oxumaları” adını doğrultdular. İştirak etmək arzusunda olanları Petrovskaya limanından Villa Petrolea bağına və geri “Bakı” buxar barkası vasitəsilə pulsuz gətirirdilər. 400-ə yaxın zavodda çalışan fəhlə yığıldı. Başlamazdan əvvəl protoierey Yunitski dua oxudu, daha sonra isə həvəskarlar tərəfindən Qoqolun “Soroçinsk yarmarkası” əsəri oxundu. Bu işin təşəbbüskarı “Nobel qardaşları cəmiyyətinin” əməkdaşı İ.F.Lampenin həyat yoldaşı A. A. Lampe idi. Noyabr ayının 14-də baş tutan növbəti oxumalara artıq 10 yaşından kiçik uşaqlar və südəmən uşaqlı qadınlar buraxılmırdı[18].

Fevralın 20-də Nobel qardaşlarının cəmiyyətinin Çernoqorodskaya məktəbinin müdirəsi A. A. Lampe ilk pulsuz xalq tamaşası təşkil etdi ki, burada rolları müəssisədə çalışan fəhlələr və xidmətçilər ifa edirdi. Bu səmərəli və faydalı əyləncə “meyxana və qumarxanalardan başqa heç bir şey görməyən” xalq üçün böyük əhəmiyyət kəsb etdi. Nobel qardaşlarının cəmiyyətinin 400–500 nəfərlik yığıncaq zalı bu dəfə 800 nəfəri yığdı[19].

Mənbə 14 Mesenatlığın inkişafı: Hacı Zeynəlabdin Tağıyev

Bakı neftinin H. Z. Tağıyevə gətirdiyi milyonlar onu lovğa və mərhəmətsiz etməmişdi. Əksinə, neft biznesindən əldə edilən gəlirlərin böyük bir hissəsini o, Bakının inkişafına və sevimli xalqının təhsilinə yönəltdi.

[18] Тамара Гумбатова. Villa Petrolea-памятник добрым делам семьи Нобель. (rus dilində) [Elektron resurs] http://www.proza.ru. — Giriş rejimi: http://www.proza.ru/2012/04/24/758.

[19] Тамара Гумбатова. Баку в начале XX века. (rus dilində) [Elektron resurs] http://www.proza.ru. — Giriş rejimi: http://www.proza.ru/2012/09/21/550.

Hacı Zeynəlabdin Tağıyevin doğma şəhərinin abadlığına və inkişafına verdiyi töhfələr son dərəcə dəyərlidir. Teatr, bank və birja binalarının inşası, dəmir yolunun, yanğın mühafzəsi xidmətinin, məşhur "Tağıyev pasajının", dəyirmanın açılması, konkanın tətbiqi, Şollar su borusunun çəkilişi, yalnız Bakıda deyil, həmçinin Sankt-Peterburqda, Dağıstanda, İranda məscidlərin inşası, qızlar gimnaziyasının yaradılması, qəzet və ziyalıların əsərlərinin nəşri, kasıb tələbələrin xaricdə təhsilinin maliyyələşdirilməsi, artistlərə sponsorluq etməsi — bütün bunlar və bir çox digər xeyirxah əməllər Hacı Zeynəlabdin Tağıyevə məxsusdur[20].

Mənbə 15 Yeni tədris müəssisəsi haqqında

1896-cı ildə Tağıyev Azərbaycanda qızlar üçün ilk tədris müəssisəsi açmağı düşünürdü. Həmin il o, şəhərdə memar İ. V. Qoslavski tərəfndən inşa edilmiş məktəb binasının (indiki Milli Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutu) yerləşdiyi torpaq sahəsini aldı. Bu məktəbin açılması yolunda yaranan çətinlikləri dəf etmək üçün Tağıyev inanılmaz səylər və valehedici inad göstərməyə məcbur oldu.

Nəhayət, 1901-ci ildə bütövlüklə Tağıyev tərəfndən maliyyələşən qadın rus-tatar məktəbi açıldı. Maarifçilik sahəsində apardığı fəal ictimai fəaliyyətinə görə o, 1880-ci ilin avqust ayında Bakı Mariinsk qadın gimnaziyasının fəxri himayəçisi, 1897-ci ilin aprel ayında ibtidai texniki məktəbin fəxri himayəçisi, 1901-ci ilin aprel ayında isə İmperatriçə Aleksandra Fyodorovna adına qadın rus-müsəlman məktəbinin fəxri himayəçisi elan edildi[21].

Mənbə 16 Zubalovların xeyriyyəçilik fəaliyyəti

Konstantin Yakovleviç Zubalov 1872-ci ilədək olduqca sadə yaşayırdı. Həmin il o, Bibi-Heybətdə (Bakı) torpaq sahəsi aldı ki, burada tezliklə zəngin neft damarı tapıldı. 1889-cu ildən K. Y. Zubalovun şirkəti orada neft çıxarmağa başladı, və Zubalovlar ailəsinin var-dövləti sürətlə artmağa başladı.

Zubalovlar nəslinin bütün nümayəndələri katoliklər, mömin insanlar olub.

Ömür boyu Zubalovlar kilsə tikiblər, onları təmir, bərpa və təchiz ediblər, monastırlara, din xadimlərinə və Rusiya ərazisində və onun hüdudlarından kənarda rahiblik edən insanlara köməklik göstəriblər.

1870-ci ildə Zubalovlar ailəsinin köməyi ilə Tbilisidə Müqəddəs Pyotr və Pavel Apostollarının kostyolu inşa edildi. Tikinti işləri K.Zubalaşvilinin[22] yorulmaz himayəsi altında gedirdi.

1897-ci ildə Lurdda (Fransa) Zubalovların vəsaitinə "Qəm kilsəsi" tikildi — mötəbər, iki mərtəbəli bina. Binanın mərkəz girişinin hər iki tərəfndə iki sütün yerləşir.

[20] Алиева Ругия. Памяти великого мецената.// Зеркало. — 2010. — 29 января. — С.7.
[21] Ибрагимов М. Дж. Предпринимательская деятельность Г. З. Тагиева.-Баку, Азернешр,1990, С. 58–59.
[22] Konstantin Zubalaşvili (1828–1901) həmin Zubalovdur, Levan, Stepan, Pyotr və Yakov Zubalov qardaşlarının atasıdır.

İkinci mərtəbədə altı vitrajlı pəncərə var. Onu üzərində qabarıq çarmıx olan xaç ilə bəzədilmiş hündür günbəz tamamlayır[23].

Mənbə 17 Şəmsi Əsədullayev və Ağa Yusif Dadaşovun xeyriyyəçilik fəaliyyəti

Şəmsi Əsədullayev XX-ci əsrin əvvəllərində Azərbaycanın neft maqnatlarından biri olub. Onun adı həmişə Nobel qardaşlarının adı ilə yanaşı çəkilib. Ş. Əsədullayev Rusiyaya neft daşımaq üçün buxarlı gəmidən istifadə edən ilk neft sahibkarıdır. Bakıdakı mülkləri ilə yanaşı Peterburqda Neva çayının sahilində, Qış Sarayının yanında möhtəşəm bina inşa edə bilib. Həyat yoldaşı Mariya üçün Moskvada hovuz və oranjereya ilə füsünkar imarət alıb. Bütün bunlarla yanaşı o, həmçinin xeyriyyəçilik ilə də sıx məşğul olub. Öz malikanələrindən birini Müsəlman mədəni mərkəzinə (Tatar evinə) bağışlayıb.

Ağa Yusif Dadaşov Azərbaycan milyonçusu, xeyriyyəçidir. Gəmiçilik ticarətindən əldə olunan gəlirin əsas hissəsi xalqın maarifənməsinə xərclənirdi (Qori müəllimlər seminariyası və "Qız məktəbi"). Bakı-Batum neft kəmərinin çəkilməsinə, Bakı Dumasının inşasına böyük vəsaitlər sərf edən Dadaşov həmçinin M. Qorkinin, D. İ. Mendeleyevin, neft geologiyası üzrə mütəxəssis İ. M. Qubkinin Bakıya səfərlərini maliyyələşdirib. Azərbaycanın maddi mədəniyyət abidələrinin qorunub saxlanmasında fəal iştirak edən Dadaşov Bibi-Heybət məscidini bərpa edib, Moskvada Buxara əmiri tərəfindən tikilən məscidə qırxlampalı çılçıraq və qiymətli xalçalar hədiyyə edib[24].

Mənbə 18 Bakı sakininin anası və xalası haqqında xatirələrindən

…Bir gün Xədicənin[25] gözünə bir elan dəyir. Elanda deyilirdi ki, neft sənayeçisi, millioner və mesenat Z. Tağıyev açdığı qızlar məktəbində işləmək üçün savadlı müsəlman qadınlarını dəvət edir. Maarifçilik və humanizm prinsipləri üzərində tərbiyyə alan Xədicə öz qəti seçimini edir: o, Bakıya köçür və Tağıyev məktəbinin müəllimi olur. Bu vaxtdan onun bütün gələcək həyatı pedaqoqika il bağlı olacaq.

Onun böyük bacısı Zeynab xanım Əbdurrəhmanova da Zeynəlabdin Tağıyevin dəvəti ilə Bakıya qayıdır, amma artıq diplomlu həkim-ginekoloq qismində. O, Tağıyev fabrik və mədənlərinin sadə qadın işçilərini müalicə edəcək. Lakin tezliklə onun adı elm və səhiyyə sahəsində geniş məşhurlaşacaq. O, var gücünü və böyük həkim istedadını səhiyyəyə həsr edəcək[26].

---

[23] Зубаловы — семья нефтепромышленников, меценатов, коллекционеров. [Elektron resurs] Bizim Bakı — http://www.ourbaku.com // Giriş rejimi: http://www.ourbaku.com/index.php5/.

[24] [Elektron resurs] Культурная и общественная жизнь Азербайджана, Меценатство, азербайджанские меценаты. Giriş rejimi: http://az-love.com/viewtopic.php?id=1532; həmçinin, Open.az, Наши миллионеры — благотворители. Giriş rejimi: http://open.az/novosti/kultura/131665-nashi-millionery-blagotvoriteli.html.

[25] Ağayeva Xədicə öz bacısı Zeynab Tambiyeva ilə birlikdə (qızlıq soyadları Əbdurrəhmanova idi) Peterburqda Smolnı nəcib qızlar İnstitutunda təhsil alıblar. Onlar, demək olar ki, bu təhsil müəssisəsinin tarixində yeganə müsəlman qız məzunlarıdır.

[26] Из очерка Хуршид ханум Агаевой о ее матери и тете. [Elektron resurs] — Giriş rejimi: http://www.ourbaku.com/index.php5/.

Mənbə 19 H. Z. Tağıyev və Bakının mədəni həyatı

Şəhərin mədəni həyatı kifayət qədər fəal idi, lakin teatr mövsümü bu il (1900 — red.) ən uğurlu idi. Tağıyevin şəxsi pullarına inşa edilmiş Tağıyev teatrında yanvarda səsi koloratur sopranosu olan İzabella Zvixerin iştirakı ilə opera tamaşaları uğurla həyata keçirildi[27].

Mənbə 20 "Nobel qardaşlarının neft cəmiyyəti" və Nobel mükafatları

Stokholm və Oslo şəhərlərində ilk Nobel mükafatları verildiyi 1901-ci ildən sonra Nobel soyadı məşhurlaşdı. Alfred Nobelin öz var-dövlətini, əsasən, dinamitin sayəsində qazanmağına baxmayaraq, Nobel mükafatlarının verildiyi kapitalın təxminən 17 faizini Alfredin iştirakı ilə onun böyük qardaşları Robert və Lyudviq tərəfndən yaradılmış "Nobel qardaşlarının neft cəmiyyəti" adlı sənaye imperiyası gətirib. Cəmiyyətin əsas kontoru Peterburqda yerləşirdi, lakin onun əsl mərkəzi Bakıda idi[28].

Yekun müzakirə

N f

[27] Т. Гумбатова. Баку в начале XX века [Elektron resurs] http://www.proza.ru. Giriş rejimi: http://www.proza.ru/2012/09/21/550.

[28] Под яркою звездой есть город золотой… [Elektron resurs]. Giriş rejimi: http://lilitochka.ru/viewtopic.php?id=478&p=5.

XX-ci əsrin əvvəllərində Azərbaycan qadını ailədə və cəmiyyətdə
(“ M o lla N ə sr ə

▶ **XX-ci əsrin əvvəllərində Azərbaycanda qadına qarşı münasibətdə hansı yeniliklər baş verdi?**

Blok 1. “Molla Nəsrəddin”[1] jurnali

1. K
v ə z iy y ə

2. S
q ı ı ı v ə z iy y ə

Mənbə 1 “Molla Nəsrəddin” jurnalından karikatura[2]

Nədir bunlar?

Ayə, deyəsən adamdırlar...

3. ı x i ı ə l u ı
ı ə q s ə l ə l ə ı ə ş o l u ı u u ı u i z h i.

4. S
N i y ə ı ə h z M o ‖ N ə s ə i

5. S

[1] Molla Nəsrəddin (və ya Xoca Nəsrəddin) müsəlman Şərqinin və Aralıq dənizi və Balkanlarda yaşayan bəzi xalqların folklor personajıdır, qısa yumoristik və satirik miniatürların, lərifələrin qəhrəmanıdır. Molla Nəsrəddin öz ağlı, fərasəti, çıxılmaz vəziyyətdən belə çıxmaq qabiliyyətilə seçilən kasıb müdrik insandır. Nəsrəddin haqqında lətifələr Azərbaycanda ən sevimli lətifələrdir. Gülməli vəziyyətlər, məzəli hərəkətlər, ağıllı və kəskin cavablar həmişə Mollaya aid edilir.

[2] Журнал «Молла Насреддин». Тифлис. 26 декабря 1906 года. № 38, — С. 6.

◆ Tarixi məlumat

Həftədə bir dəfə çıxan Azərbaycanın şəkilli satirik “Molla Nəsrədin” jurnalının əsası Azərbaycan jurnalisti, maarifçisi və satirik yazıçısı Cəlil Məmmədquluzadə (təxəllüsü — Molla Nəsrəddin) tərəfindən qoyulub. “Molla Nəsrəddin” jurnalının ilk sayı 1906-cı il aprel ayının 7-də Tifisdə (Tbilisi) nəşr edilib. Jurnal Azərbaycan dilində nəşr edilib və əvvəllər bütün müsəlman aləmində və Yaxın Şərqdə ilk və yeganə satirik jurnal olub.

Jurnalda XX-ci əsrin əvvəllərində Qafqazın məişət və iqtisadi durumu təsvir edilib, gerilik və cəhalət qınaq və gülüş obyektinə çevrilib. Din xadimləri C. Məmmədquluzadəni tənqid edən, onun ölümünü tələb edən fətvalar verib, jurnalın Tifisdə yerləşən redaksiyasında dəfələrlə axtarışlar keçirilib. “Molla Nəsrəddin” 1917-ci ildə rus senzurası tərəfindən qadağan edilib, 1921-ci ilə qədər İranda, 1922–1931-ci illərdə isə Bakıda nəşr edilib. Jurnal ilə Azərbaycan karikaturasının yaranma tarixini əlaqələndirirlər.

Mənbə 2 “Molla Nəsrəddin” jurnalının müəlliflərindən birinin öz xatirələrində Tbilisinin Qafqazın türk xalqları üçün əhəmiyyəti haqqında yazdıqlarından.

“Molla Nəsrəddin” 1906-cı ildə Tifisdə yaradılıb. Tifis Qafqazın mərkəzi və Qafqaz hökümətinin paytaxtıdır. Həmçinin bu şəhər Qafqazın türk xalqlarının mərkəzi sayıla belər. Bə bu, həqiqətən də belədir[3]…

Mənbə 3 ”Molla Nəsrəddin” jurnalının ilk sayının ilk səhifəsindəki şəkil. Bu şəkil Molla Nəsrəddinin sayəsində yuxudan ayılan Şərq cəmiyyətini simvolik təsvir edirdi[4]

Mənbə 4 “Molla Nəsrəddin” jurnalı haqqında müasir tədqiqatçı

Yuxulayan Şərqə, xüsusilə də müsəlmanlara yeni dünyanı göstərmək, onları bu dünyanın döyünən nəbzini hiss etməyə çağırmaq — budur Şərqin ilk satirik jurnalının əsas ideyası. Məhz buna görə də bütün Şərqə “Hey, mənim müsəlman qardaşlarım!” səslənərək, jurnal istibdad və əsarət ilə mübarizə aparmağa çağırdı. Bu jurnalın təsiri altında Gürcüstan, Dağıstan, Tatarstan və Orta Asiya xalqları da müxtəlif satirik jurnallar nəşr etməyə başlayırlar...

[3] Мамедкулизаде Дж. (Молла Насреддин). Драматургия и проза. Б.: АГУ, 1958. — С. 725.
[4] Журнал «Молла Насреддин», 7 апреля 1906 года, Тифлис.

Onun ədəbi qəhrəmanları kimlər idi? Xalqın qanını içənlər, onu acılarla dolu səfil həyatı yaşamağa vadar edənlər, xalqın azadlığa doğru cəhdlərini boğanlar, onu cəhalətin əsarətində saxlayanlar, elm, təhsil, tərəqqi, yeni dünyanın kəşfnə qarşı çıxanlar. Xalqın qəlbindən bəhs edən, onun əzablarını səmimi qayğı ilə işıqlandıran, işıqlandırmaqla yanaşı həmçinin bu əzablardan azad olmaq yollarını arayan jurnal tezliklə xalq arasında olduqca populyar olur[5].

Blok 2. XX-ci əsrin əvvəllərində azərbaycan qadinlarinin hüquqlari

6. [illegible]

7. [illegible]

8. [illegible]

Mənbə 5[6]

Sol tərəfdə — həbsxana. Sağ tərəfdə — müsəlmanların evi.
“Ay bacı, onlar necə də xoşbəxtdirlər ki, pəncərəli evləri var...”

[5] Казымова Ф. Р. Журнал «Молла Насреддин» и восточная печать / Филологические науки в России и за рубежом: материалы междунар. науч. конф., февраль 2012 г.). СПб.: Реноме, 2012. — С. 21.

[6] Журнал «Молла Насреддин». Тифлис. 9 августа 1909 года. № 10. — С. 5.

Mənbə 6 [7]

— Ana, pəncərəni aç, havam çatmır, dərs öyrənə bilmirəm.
— Oğlum, atan qoymur.



Mənbə 7 [8]

«Ana, vallah, mənə pul verməsən qanfet alım, dədəm gələndə deyəcəyəm ki, anam akuşkadan küçəyə baxırdı».

[7] Журнал «Молла Насреддин». 28 марта 1913 года. № 10, С. 4. Тифлис.
[8] Журнал «Молла Насреддин». 30 октября 1911. № 38, С. 5. Тифлис.

Mənbə 8 Məmmədquluzadənin personajlarından biri müsəlman xanımının hüquqları haqqında

…Əgər mənə yaqin ola ki, övrətim məni istəyir, onda heç zaddan qorxmaram; onda izn verərəm hər kəs ilə istəyir danışsın. Amma bir surətdə ki, onun mənə məhəbbəti yoxdur, — otaqdan kənara çıxmağına razı ola bilmərəm.

…Onu mənə on dörd yaşında könülsüz verəndə mənim qırx doqquz yaşım var idi; amma mənə ondan ötrü gəldi ki, bir kasıb qız idi. Mən özüm də bilirdim məni istəməyəcək, ancaq mənim pulumu istəyəcək, qızılımı istəyəcək. Amma nə eybi var, Allah müsəlmançılığa bərəkət versin; məndən savayı o kimi görəcək ki, məndən savayı özgəsinə məhəbbət yetirsin[9]!

9. ¦v ə ¦ s y ı ə l ə ip s o

10. ¦v ə ¦ s y ı ə l ə ə

11. ¦ s y ı ə ə iq ə l ə m m ı ə y

Mənbə 9[10]

Əhli-əyali İranda.
Arvad: Ay axund[11]! Yaz o mürdəşir üzünü yumuşa ki, ya bizə xərclik yollasın, ya da gəlib bizi aparsın öz yanına.

Özü — Tifisdə.
Dükançı: Ay meşədi[12], arvad-uşağından sənə kağız var, gör nə yazırlar...
Meşədi: şeşü beş, şeşü cahar[13].

[9] Журнал «Молла Насреддин». 11 апреля 1914 года. Тифлис // Цит. по: Мамедкулизаде Дж. Рассказы. Фельетоны. Повести. Пьесы. Б.: Азернешр, 1989. — С. 207.

[10] Журнал «Молла Насреддин». 11 января 1914 года. Тифлис. № 1. — С. 5.

[11] Axund İran və inqilabdan qabaqkı Rusiyada müsəlman din xadimi.

[12] Meşədi İranda yerləşən və şiyələr (İslamın bir qolunun tərəfdarları) üçün müqəddəs sayılan Məşhəd şəhərinin ziyarətindən sonra şiyələrə verilən titul. Məşhəd şəhəri şiyələrin ziyarət yeri kimi tanınır, çünki burada bir çox dini tikililər yerləşir.

[13] Yəni nərd (masaüstü oyun) oynayır.

Mənbə 10 [14]

Adə, Kəblə Heydər, bax, o qabaqda gedən mənim arvadımdır, donquzun qızı səhərdən axşama kimi işləyir, heç yorulmur.

Blok 3. Qadinlarin vəziyyətində baş verən yeniliklər

12. M ü s ə x G ə c ə ə
iy ə ? Niy ə o u ə iqu
X

13. i s ə ğö z x y i(ə ə 2). ğö z ə iə u u iy ə
ə

14. S
öü ə iə ?

15. v ə 2 s y
v ə z iy y ə

16. 3 s y ə ə l ə ə s s q
s y . B ə y ğə h s ı

17. S
o h ü s iə

[14] Журнал «Молла Насреддин». 6 июня 1910 года. № 22. — С. 8. Тифлис.



Mənbə 11[15]

Gəncədə. Qubernator xanımı ilə müsəlmanları ziyarət edir.



Arvad: A kişi, Qubernator ki arvadı ilə gəlmişdi, bəs məni niyə onlara aparmırsan?..
Ər: Sus yerində otur, mən səni aparsam, bu müsəlmanlara xoş gəlməz.

Mənbə 12 Müsəlman intelliqenti və xanımı[16]

Şəkillərin üzərindəki yazılar: Qafqazda öz kəndində. Parisdə.



[15] Журнал «Молла Насреддин». Тифлис. 31 января 1910 года. № 5. — С. 5.
[16] Журнал «Молла Насреддин». Тифлис. 25 января 1909 года. № 4. — С. 11.

Mənbə 13 Məmmədquluzadənin “Fatma xala” hekayəsindən

— Arvad nədi, həyətdən küçəyə çıxdı nədi, hələ bir para binamus müsəlmanlar övrətlərini yanlarına salıb aparırlar qohum-qardaş evinə... Övrətinki odur ki, qatasan evə, qapısını qıfıllayasan... Övrətə də etibar var ki, qoyasan çıxa küçəyə? Övrətinki odur ki, qatasan dama, qapısına qıfıl vurub açarını qoyasan cibinə[17]…

18. K y i ə fiv i(ə ə). B y i l və (s o f qu) ə ə l ə ə

19. S (ə ə). B s u s ə ə l ə ? P

20. Niy ə u s qı z ı s v ı ü s ə

21. S və z iy y ə

Mənbə 14[18]

Müsəlman anaları dərd eləyirlər ki, oğlanları rus gızı alırlar.

Rus anaları da dərd eləyirlər ki, qızları müsəlman oxumuşlarına gedəndən sonra çadra örtürlər.

22. s y ı ə ə i o x u y u . ə q ə v ə ə s s f ə q i c

[17] Мамедкулизаде Дж. Рассказы. Фельетоны. Повести. Пьесы. Б.: Азернешр, 1989. С. 55.

[18] Журнал «Молла Насреддин». 4 августа 1908 года. № 31, С. 8. Тифлис.

Mənbə 15 Cəlil Məmmədquluzadə qadınların emansipasiyası haqqında

…Övrət məsələsi barəsində Avropada söz danışan alimlər bütün Avropa və Amerikada məşhur floso fardır ki, kitabları bir neçə dilə tərcümə olunub, amma bizim içimizdə axır vaxtlarda övrət məsələsini kəşf eləyənlər məhz baqqallarla növhəxanlarımızdır ki, indiyə kimi onların adları yazıçılıqda heç öz məhəllə əhlinə də məlum deyil... Avropa floso farı övrət məsələsini danışanda çox millətlərin övrətlərindən söhbət açıblar, amma heç bir millətin övrətlərinin barəsində ədəbsizliklə və xarlıqla danışmayıblar; amma bizim floso farın yazıları başdan-axıra kimi Qərb övrətlərinə föhş demək və hörmətsizliklə danışmaqdır... Avropa üləmasının övrət məsələsinə dair yazılarını oxuyanda görürsən ki, bu zalımlar dünyanın hər bir güşəsindən xəbər verirlər; amma bizim floso farın yazdıqlarını oxuyanda adam elə bilir ki, deyəsən bunlar Bakı və Tifis şəhərlərinin gecələr qaranlıq küçələrində gəzən bir para kefi... arvadlardan savayı, dünyada heç bir özgə övrət görməyiblər. Və yagin ki, görməyiblər[19]!

Blok 4. Qadinlarin maarifənməsi

23.	s	yıı ə t ə ii ü ə llfi fi c ə , ı ə ə ii y y ə S
24.	s	yıı ə t ə ii ü ə llf üçü ı ə ə ii y y ə

Mənbə 16[20]



Ay uşaqlar, gəlin gedək kəndirbaza baxaq (Molla — kəndirbaz). Ağacın bir ucu qızların, bir ucu avamın qabağını kəsib.

[19] Журнал «Молла Насреддин», 13 апреля 1908 года, Тифлис. Цит. по: Мамедкулизаде Дж. Рассказы. Фельетоны. Повести. Пьесы. Б.: Азернешр, 1989. С. 194–195.

[20] Журнал «Молла Насреддин». Тифлис. 31 декабря 1911 года. № 47. — С. 4.

25. S

26. ivə s yıəmələə qıvə ziyyə
öə o ?

27. Bəyşəiyə höyüəyşəə ə
əyşə şvəiə?

Mənbə 17 [21]

Ay məlun oğlu, məlun!
Elə bir bu qalmışdı ki,
həyətlərdə arvadlara qəzet satasınız! Çıx eşiyə!..

Yekun müzakirə

X

uvə ziyyə

[21] Журнал «Молла Насреддин». 7 апреля 1911 года. № 13, С. 5. Тифлис

Doğma diyarın tarixində mədəniyyətlərin müxtəlifliyi

Keçmişin gündəlik məişət elementlərində müxtəlif mədəniyyətlərin qarşılıqlı təsiri necə əks olunur?

1. M u z ı y ı ə ?

2. D

(yunan sözləri εθνος — xalq və γραφω — yazıram) xalqların və onların ənənəvi maddi, mənəvi və sosial mədəniyyətinin xüsusiyyətlərini öyrənən elmdir.

B o r o qa ı (Borogani) kəndi Moldova Respub rayonunun kommunasının inzibati mərkəzidir. Boroqanı kəndi haqqında ilk sənədli yazı 1765-ci il ilə təsadüf edir. 2004-cü ildə keçirilən əhalinin siyahıya alınması zamanı alınan məlumata əsasən, Boroqanı kəndində 4528 nəfər insan yaşayırdı. Əhalinin etnik tərkibi: 98,65% — moldovalılar, 0,15% — ukraynalılar, 0,44% — ruslar 0,44% — qaqauzlar, 0,13% — bolqarlar, 0,18% — digər millətlər.

Kəndin Mədəniyyət Evində Tarix və etnoqrafiya muzeyi yerləşir ki, burada kənd sakinləri, yerli məktəbin müəllimləri və şagirdləri tərəfindən toplanmış 980 eksponat nümayiş etdirilir. Hər il muzeyə 1560 yaxın seyrici gəlir. Bu binada həmçinin Moldova yaşayış evinin interyeri yaradılıb ki, burada milli məişət əşyalarının zəngin kolleksiyası qorunub saxlanılır. Otağın tərtibatı kəndin ənənələri və adətləri ilə bağlıdır.

Blok 1. Moldova xalq geyimi haqqında

3. Z s y ı ə e e

4. 5 s y ı ə ə ə s s ı q, e .

5. M o o v x q o x q ı ı i o s

Mənbə 1 Moldovanın müxtəlif rayonlarına xas olan Moldova xalq kostyumları[1]

A.

Б.

Mənbə 2 Boroqanı kənd sakini Yefrosinya Buzilenin danışdıqlarından

Bizim kənd çox qədim kənddir. Deyilənlərə görə, kənd çoxdan mövcuddur, on yeddinci əsrdən bu yana. Bizim kəndimizin muzeyi var. Burada müxtəlif əşyalar, geyim, qab-qacaq, alətlər, xalçalar saxlanılır. Moldovalıların çox maraqlı xalq geyimləri var.

Qadınlar kətandan hazırlanan tam qol biçilmiş köynək geyinirdilər. Onu naxış və ya toxunmuş krujeva ilə, sinə, boyun və ətək hissəsində zəngin ornamentlə bəzəyirdilər. Köynəyin yuxarı hissəsi "stan" ("qamət") adlanır.

Köynəyin aşağı hissəsini düz evdətoxunmuş yubka ilə örtürdülər. Bayramlar üçün tikilən yubka xüsusi idi: iki düz ayrı-ayrı qumaş parçasından. Bu, köynəyin ətəyində olan ornamentləri göstərməyə imkan verirdi. Baş nazik uzun kətan örtük ilə örtülürdü.

Kişilər isə sinədə düz kəsik olan köynək, xəzdən tikilmiş qolsuz köynək, dar ağ şalvar və qoyun dərisindən tikilmiş papaq geyinirdilər[2].

Mənbə 3 Ənənəvi Moldova ayaqqabısı haqqında

Kişi ayaqqabısı opincile (**opinçi — postol**) adlanır və ev şəraitində emal edilmiş donuz və ya dana dərisindən əl ilə hazırlanırdı. Bu növ ayaqqabıya qonşu millətlərdə də rast gəlinir. Postollar ayağın altından bir az böyük, kənarlarda deşiklər olan dəri parçasıdır. Bu deşiklərdən dəri parçasını ayağın ətrafına yığan və ona ayaqqabı görünüşü verən balaca qağış keçirilirdi. Postollardakı büzmələr ayaqqabının iti burnunu (Moldovanın şimalında) və ya girdə burnunu (Moldovanın mərkəzində) formalaşdırırdılar. Postolları yun corab və ya ağ patavanın üstündən geyinirdilər. Postollar

[1] Tatiana Siqanunun fotosu.

[2] Boroqanı kəndində Y. Odajiu tərəfndən yazılmış 1955-ci il təvəllüdlü Yefrosinya Buzile ilə müsahibə (04.07.2013). Adaptasiya olunmuş mətn.

kasıb təbəqənin geyindiyi ayaqqabı idi. Bayramlar üçün qara dəridən çəkmə və ya botinka alırdılar[3].

Mənbə 4 Moldova xalq kostyumunun xüsusiyyətləri

Moldova geyiminin fərqli cəhətləri belin ölçüsünə uyğun biçim, qayış, ağ parçadan istifadə və dəsmal naxışlı baş geyimi. Moldovada subay qızların xalq kostyumunda baş örtüyü yox idi, bayram günlərində isə kostyumu muncuq, sırğa və üzüklər ilə bəzəyirdilər. Maraqlıdır ki, kostyumda yalnız iki-üç rəngdən istifadə etməyə icazə verilirdi, naxış isə çox vaxt qara rəngdə qoyulurdu.

Təmiz yundan və ya yun əsasında pambıqdan tikilən yubkalar xüsusi diqqət tələb edirlər. Ən populyar yubka modeli "catrină" idi ki, bu yubka bütöv tikilməmiş parçadan ibarət idi və onu ombaların ətrafı ilə sarıyırdılar. Ən əsası o idi ki, yubkanın bir ətəyi o biri ətəyinin üzərinə otururdu və bundan sonra yubka qayış ilə bərkidilirdi. Sərin havalarda qadınlar zəngin ornament ilə bəzədilmiş jiletlər geyinirdilər[4].

Mənbə 5 Moldova kostyumunun bəzənməyindən

Moldova kostyumunun dekoru təbii rənglərin (ağ, bej, boz, qara, qəhvəyi, sarı) harmonik ahənginə, həndəsi və bitki ornamentli motivlərə əsaslanır. Bəzədilmə texnikası bir, iki, üç rənglə sadə xaş ilə işlənən naxışlardan, cüt saplarda edilən sıx naxışlardan (broderie plină və ya butuc), şəkili eyni qalınlığı olan ensiz zolaqla bölən həndəsi naxışlardan və naturalistik sıx naxışdan ibarətdir. Hər bir qız qədim ənənəyə sadiq qalaraq öz kostyumuna orijinallıq və təkrarolunmazlıq verməyə çalışırdı. Bu ənənəyə əsasən, təsvir köçürülmür, onun sürəti çıxarılmır; təsvir icad edilir və ya "baxış ilə oğurlanır". Bu yazılmamış qanuna əsasən Moldova xalq sənətində iki eyni milli köynək, iki eyni kostyum, iki eyni xalçaya rast gəlmək mümkün deyil. Modellərin surətini çıxarmaq ayıb sayılırdı. Bunun yerinə oxşatma, yadda saxlama yolu ilə elementlərin təkmilləşdirilməsi və yenilərinin yaradılması tətbiq edilirdi və bu, yeni motivlərin və bədii kompozisiyaların əmələ gəlməsinə təkan verirdi[5].

6. (t, l, t s y ı ə t ə l ə)?

7. M M o l o v ə ş x
M o l o v y ə ç ə

[3] «Мы — молдаване» — [Elektron resurs] http://www.moldovenii.md/ru/. — Giriş rejimi: http://www.moldovenii.md/ru/section/201.

[4] Молдавский народный костюм — [Elektron resurs] http://womanadvice.ru. — Giriş rejimi: http://womanadvice.ru/moldavskiy-narodnyy-kostyum#ixzz3J9FgW4ky.

[5] «Мы — молдаване» — [Elektron resurs] http://www.moldovenii.md/ru. — Giriş rejimi: http://www.moldovenii.md/ru/section/199.

Moldova geyiminin elementlərinin adlarında digər xalqların dillərindən olan sözlər çox istifadə edilir. Məsələn, xəzdən tikilmiş kişi və qadın qolsuz geyimini ifadə edən *boande* sözü bolqar dilindən gəlib. Qadın baş geyiminin adı *girme* qaqauzların dilindən gəlib. Onların dilindən həmçinin üst geyiminin ərəb dilindəki *burnus* gəlib. Kişi şalvarının fransız dilində adı *qalife* Moldova dilində 19-cu əsrin axırında rus və ya alman dillərindən alınma vasitəsilə meydana gəldi.

Mənbə 6 Boroqanı kəndinin muzeyindən xəzdən hazırlanmış qolsuz köynək — boande



Mənbə 7 Boroqanı kəndinin muzeyindən sinəsində və qollarında Ukrayna ornamentli naxış olan qadın bluzası (üst köynəyi)[6]



Mənbə 8 Boroqanı kəndinin muzeyindən qadın baş geyimi — germe

[6] Boroqanı kənd muzeyinin kolleksiyasından 423 və 314 saylı eksponatlar. P.Çerbuşkanın fotosudur.

Blok 2. Xalçalar və Moldova mədəniyyəti

8. Ə ə v M o v y ş ı ş v i ə
M ü ə l i f ə i f i c ə , M

Mənbə 9 Rusiya publisisti və nəşiri İ.Aksakov XIX-cu əsrin ikinci yarısının Moldova yaşayış evi haqqlnda

Moldovalı nə qədər kasıb olsa da, onun evi xalça və mahir əl ilə işlənmiş müxtəlif parçalar ilə bəzədilir[7]…

Mənbə 10 Rusiya-Ukrayna yazıçı və etnoqrafı A. Afanasyev-Çujbinski XIX-cu əsrin ikinci yarısının Moldova məişəti haqqında

Evin divarlarının yanı ilə mütləq xalçalar ilə örtülmüş skamyalar durur... xalçalar divarlarda, üzərində naxışlı balış üzlərinə geydirilmiş yastıqlar olan yatağın üstündən asılıblar... Sobanın yanında bütün çıxıntılarda kiçik xalılar atılıb. Mən daha (zəngin) kəndlinin özünün yaşadığı yox, qonaqlar üçün nəzərdə tutulmuş evindən danışmıram. Orada xalçaların arxasından heçnə görünmür[8].

Mənbə 11 XIX-cu əsr — XX-ci əsrin əvvəllərində Moldova kəndlilərinin xalçaya münasibəti

…Bu xalçalara Bessarabiyada[9] çox dəyər verilirdi. Xalçaların sayı və ölçüsünə görə mülkədarın rifahına qiymət verilirdi. Belə xalça almaq çox çətin idi, çünki kəndlilər onları qoruyub saxlayır və qızlarına cehiz verirdilər. Yalnız quraqlıq ili olanda, onlar evlərində olan qiymətli əşyaları satırdılar[10].

9. B o o q ı ə ı s ə q l i ə
ə l ə ı i y y ə

10. M o l o v x l ç s
ı ə t ə l ə)? M o l o v x l ç
ə ş y l ı n v ə x l q ı ə ə i y y ə

11. B o x i o ı ə t ə l ə h i ə c ə

[7] E. A. Postolachi, N. M. Kalaşnikova, Covorul moldovenesc = Moldova xalçası = Le tapis moldave. Chişinău: Timpul, 1985. — C. 40.

[8] Афанасьев-Чужбинский А. С. Поездка в Южную Россию. Ч. 2. Очерки Днестра. СПб, 1863. — С. 47.

[9] Bessarabiya Avropanın cənub-şərqində Qara dəniz və Dunay, Prut və Dnestr çaylarının arasında yerləşən tarixi vilayətdir, Moldovanın cənub-şərq hissəsidir.

[10] E. A. Postolachi, N. M. Kalaşnikova, Covorul moldovenesc materialları əsasında.

Mənbə 12 Moldova xalçalarının ornamentləri haqqında

Moldova xalçalarının səciyyəvi xüsusiyyətlərindən biri ornamental[11] motivlərin müxtəlifiyidir. Onlardan hər biri ətraf mühitin, onun zənginliyinin əksidir. Ağac, gül, çələng, meyvə təsvir edən ornamentlər və kvadrat, üçbucaq təsvir edən həndəsi motivlər daha çox yayılmışdılar. İnsan, heyvan və quş fqurlarının təsvirləri tez-tez tətbiq edilən motivlərdən idi[12].

Mənbə 13 Boroqanı kənd sakini Mariya Dyakonunun danışdıqlarından

Bizim ailədə naxışlı toxuculuq nəsildən nəsilə keçib. Mən toxumağı nənəm və anamdan öyrənmişəm. Hər evdə toxuma dəzgahı var idi. Biz məmulatları kətan, çətənə və yundan toxuyurduq. Evimizin əsas bəzəyi xalça və dəsmallar idi. Xalçalarımız üçün bitki motivli ornamentlər xasdır — ağac, kol, dibçəklərdə güllər, çələng, budaq təsvirləri...

Biz ipliyi ev şəraitində bitki boyaq maddələri ilə rəngləyirdik. Əsasən, naxışdan asılı olaraq yeddi-səkkiz rəngdən ibarət olan sakit rəng qammaları seçirdik. Ailəmizdə nənəm tərəfndən 1906-cı ildə toxunan xalça qorunur. Bu xalça əsas şəkil olan *çələngin* növbələşməsinə əsaslanır. Komrat şəhərinin xalça fabrikində işləyərkən mən qaqauz xalçasının elementləri olan zolaq və damaları Moldova xalçalarında tətbiq etməyi qərar verdim[13].

Mənbə 14 Boroqanı kənd muzeyindən "Çələng" adlı Moldova xalçasının fraqmenti, 1906-cı il



Mənbə 15 Boroqanı kənd muzeyindən Moldova xalçasının fraqmenti[14]



[11] Ornament (yəni bəzək) təkrarlanan elementlərdən (həndəsi, bitki, gül və s.) ibarət olan naxışdır.

[12] Постолаки Е.А. Молдавское народное ткачество XIX — нач XX вв., Кишинёв, 1987, С. 43.

[13] Boroqanı kəndində Y.Odajiu tərəfndən yazılmış 1957-ci il təvəllüdlü Mariya Dyakonu ilə müsahibədən, 02.07.2013. "Ümumi tarix. Mədəni dialoqlar" layihəsi üçün.

[14] P. Çerbuşkenin Boroqanı kənd muzeyində çəkilmiş fotoları. "Ümumi tarix. Mədəni dialoqlar" layihəsi üçün.

Mənbə 16 Moldova xalçalarının bəzənmə xüsusiyyətləri haqqında

Xalçanın ölçü və təyinatı, motivlərin xarakteri, rəng qamması, mərkəzi şəkil və kənarları onun ornamental kompozisiyasını müəyyən edirdi. Yayılmış üsullardan biri xalça boyu bitki və ya həndəsi motivlərin növbələşməsi idi. Xalçaların çoxunun mərkəzi naxışı şaquli və ya üfuqi istiqaməti olan bir və ya iki motivin təkrarlanmasından ibarət idi.

Xalçanın əsas naxışlarla doldurulmayan hissələrində kiçik motiv-işarələr yerləşə bilərdi (yaranma ili, sahibin və ya toxucunun inisialları, ev əşyaları və s.). Xalçanın dekorativ həllində əhəmiyyətli rol onun kənarına verilirdi ki, o, mərkəzi şəkildən həm rənginə, həm ornamentinə görə seçilirdi. Adətən Moldova xalçalarının iki, üç ya dördtərəfi kənarı var idi.

Qədim zamanlardan xalçanın ornamental motiv və kompozisiyalarının adları var idi. XIX-cu əsrdə “Göy qurşağı”, “Kömbə”, “Fındıq yarpağı”, “Dibçək”, “Çələng”, “Hörümçək”, “Xoruzlar” kimi adlar daha çox yayılmışdı. Xalça toxuyarkan, Moldova ustaları artıq bəlli olan kompozisiya və ya ornamental motivi həmişə yeni üslübla yerinə yetirirdilər. Buna görə də onların hər əl işi unikal və təkrarolunmazdır[15].

Blok 3. Moldova yaşayış evi və ev əşyaları

12. M o l o v

13. K s s y ə s

14. B o o s v ə c ü ə l

Mənbə 17 Ənənəvi yaşayış evi haqqında

Moldova evi digər qonşu xalqların (rusların, ukraynalıların, polşalıların) evləri ilə parallel inkişaf edirdi. Buna görə də onların çoxlu oxşar cəhətləri var. <…> Oxşar cəhətlər Moldovalıların və qonşu etnosların, xüsusilə də qərb və cənub-qərb bölqələrində yaşayan ukraynalıların evlərinin planlaşdırılmasında da görünür. Qədimdən Dnestyanı ərazilərdə evlərin inşası üçün insanlar yerli tikinti materiallarından (gil, ağac, daş), damların örtülməsi üçün isə qamış, saman və çiləkəndən istifadə edirdilər[16].

[15] Материалы Российского этнографического музея. [Elektron resurs] http://www.ethnomuseum.ru. — Giriş rejimi: http://www.ethnomuseum.ru/moldavskoe-tkachestvo-i-kovrodelie.

[16] Moldova evi. İnşa xüsusiyyətləri. “Toloka-info” adlı ekoloji layihə. — http://toloka.info. — Giriş rejimi: http://toloka.info/ecohause/275–moldavhata.html.

Kasa mare (Casa mare — “böyük ev”) moldovalıların yaşayış evinin dəhliz və yataq otağı ilə birlikdə üç əsas otağından biridir. Kasa mare qonaqların gəbul edildiyi, bütün ailənin yığışdığı, toy mərasimlərinin keçirildiyi qonaq otağı rolunu oynayırdı. Divarlarda ikonalar, XIX-cu əsrin axırlarından başlayaraq isə fotolar da asılırdı.

Mənbə 18 Moldova evinin parad otağı haqqında

Moldova evinin “kasa mare” adlanan parad otağı həmişə sanki böyük bayram üçün bəzədilmiş vəziyyətdə idi. Burada ən əlamətdar ailə hadisələrini qeyd edirdilər. Bəzən onu iş otağı kimi istifadə edirdilər — xalça toxuyurdular, paltar və ya interyerin bəzək əşyalarını saxlayırdılar. “Kasa mare”də evdə olan ən qiymətli şeylər saxlanılırdı: divarları və döşəməni ev toxuculuğun məhsulu olan xalça və dorojka ilə bəzəyirdilər, qırmızı güşəni ikona və ənənəvi Moldova dəsmalları ilə bəzəyirdilər, masanın üstündə və skamyaların altında çox vaxt yeməklərlə dolu (qoz, fındıq, konfet, quru meyvələr və s.) saxsı qablar qoyulurdu. Naxışlı və ya oyma sandığın içərisində ananın sevə-sevə qızı üçün yığdığı cehiz saxlanılırdı. Cehizə əsasən əl işləri, xüsusən müxtəlif toxuma mallar, parçalar daxil idi[17].

Mənbə 19 Kasa mare. Boroqanı kənd muzeyi (Moldova Respublikası)



[17] Материалы Российского этнографического музея. [Elektron resurs] http://www.ethnomuseum.ru. — Giriş rejimi: http://www.ethnomuseum.ru/moldavskiy-dom-i-ego-ubranstvo.

15. B o o qı ə ı u z ı y i ə u u ı z ı ı m s ı ə ı ə) ö v c u l u u ı ə ə ı i ə h s ı u? B ı s i ə

16. Ü y ü ü l ə üçü ı ü x ı ə ı ə) ?

17. M o l o v ə l ə i ə q ü l i ə l ə ı ə ə ə c ə ə y y ı ı ş? F i z i ə s

Mənbə 21 Киуэ (ступа) из коллекции музея с. Бороганы

Mənbə 20 Boroqanı kənd sakini Raya Qriqoriunun danışdıqlarından[18]

Bütün kənd yerlərində olduğu kimi, bizim də kənddə sakinlər əsasən əkinçiliklə məşğul olurdular. Hər bir kəndli öz təsərrüfatı üçün əmək alətlərini özü düzəldirdi. Dənli bitkilərin üyüdülməsi üçün ustalar ağacdan hündürlüyü bir metrədək olan *kiue* adlı həvəngdəstə hazırlayırdılar.

Müəyyən emaldan sonra əmək aləti silindrik və ya güldana oxşar forma alırdı. Yuxarıdan 60 sm dərinliyi və 40 sm diametri olan taxıl tökmək üçün oyuq düzəldilirdi. Əl kiuesinin iş hissəsi möhkəm ağaç növündən hazırlanan dəstəcik idi. Dəstəcik ilə dənin samanını qılçıqdan ayırırdılar.

Üyütmə üçün bu əl alətləri, demək olar ki, hər evdə var idi. Lakin onların istifadəsi çox əziyyət tələb edirdi.

[18] Boroqanı kəndində Y.Odajiu tərəfindən yazılmış 1954-cü il təvəllüdlü Raya Qriqoriu ilə müsahibədən, 12.07.2013. "Ümumi tarix. Mədəni dialoqlar" layihəsi üçün.

Mənbə 22 Əl dəyirmanı — rışnitsa. Boroqanı kənd muzeyinin kolleksiyasından

Mənbə 23 Boroqanı kənd sakini Vasiliy Karpın danışdıqlarından[19]

Daha zəngin kəndlilərin rışnitsa adlanan əl dəyirmanı vardı. O, ağacdan hazırlanmış dəzgah və bir-birinin üstündə yerləşən iki dairəvari daşdan ibarət idi. Ortada deşik varidi ki, bura dən səpilirdi. Kənarda yerləşən qulpun köməyilə daşlar hərəkətə gətirilirdi. Öz oxu ətrafında fırlanaraq onlar dəni yarma və ya una üyüdürdülər.

Üyüdülmüş unu və ya yarmanı boşaltmaq üçün xüsusi qurğudan — ağacdan hazırlanmış tabaqdan istifadə edilirdi. XIX-cu əsrin ortalarında kənddə yel dəyirmanı tikdilər. Bura kəndlilər dəni üyüdüb una çevirmək üçün gətirirdilər.

Mənbə 24 Boroqanı kənd sakini İona Sandunun danışdıqlarından[20]

XX-ci əsrin əvvəllərində Boroqanı kənd sakinləri kənddən 9 km aralıda yerləşən Yarqara kəndinin sakinlərinin 15 %-nı təşkil edən bolqarlardan bəzi əmək alətləri almağa başladılar. Metaldan hazırlanmış əl dəyirmanı daha praktik idi. O, az miqdarda dəni üyütmək üçün istifadə edilirdi.

Mənbə 25 Boroqanı kənd muzeyinin kolleksiyasında qorunan metaldan hazırlanmış bolqar əl dəyirmanı[21]

▼ Yekun müzakirə

Gü ə li ə ş
o lu u?

[19] Boroqanı kəndində Y. Odajiu tərəfindən yazılmış 1952-ci il təvəllüdlü Vasiliy Karp ilə müsahibədən, 22.07.2013. "Ümumi tarix. Mədəni dialoqlar" layihəsi üçün.

[20] Boroqanı kəndində Y.Odajiu tərəfindən yazılmış 1950-ci il təvəllüdlü İona Sandu ilə müsahibədən, 02.07.2013. "Ümumi tarix. Mədəni dialoqlar" layihəsi üçün.

[21] 21, 22 və 25 saylı mənbələrin fotoları P. Çerbuşke tərəfindən "Ümumi tarix. Mədəni dialoqlar" layihəsi üçün çəkilib.

Lipovanlar keçmiş və gələcək arasında

Müasir dövrümüzdə lipovanların mədəniyyəti nə dərəcədə və niyə qorunub saxlanılır?

1. S

2. S

3. Ou s əlii ə ə ə

4. Ə

5. B ə s ı ə s əiə i f y ə

Mənbə 1 Rəssam V. İ. Surikovun "Boyar qadın Morozova" əsəri[1]

6. ïX i ı ə lu y ı o lu u? B ə vv ə l v:iy iiz c v ı ə y i ə l v ə ı ə iiz ?

7. þ o v ı ï? O ı ü s i M ə z i ə i ə ı ə v x

[1] [Elektron resurs]. — Giriş rejimi: https://upload.wikimedia.org/wikipedia/commons/c/c4/Vasily_Surikov_-_%D0%91%D0%BE%D1%8F%D1%80%D1%8B%D0%BD%D1%8F_%D0%9C%D0%BE%D1%80%D0%BE%D0%B7%D0%BE%D0%B2%D0%B0_-_Google_Art_Project.jpg.

◆ **Tarixi məlumat**

XVII-ci əsrin ortalarında Moskva çarlığında dini islahatlar həyata keçirildi. Rus pravoslav kilsəsinin patriarxı Nikon dini mərasim və kitabların yeknəsəqliyi üçün yeni qaydalar müəyyən etdi. Aşağıdakı göstərişlər verildi: iki balmaqla deyil, üç barmaqla (çimdik ilə) xaç çəkmək, kilsə ətrafında dini hərəkəti günəşə qarşı etmək lazım idi. Bundan əlavə, dini kitablarda bəzi sözlərin yazılışı dəyişdi. İslahatlar köhnə qaydaların tərəfdarlarının narazılığına səbəb oldu, hadisələrə isə "kilsənin parçalanması" adı verildi. Yenilikləri qəbul etməkdən imtina edən və rəsmi kilsədən ayrılan insanları köhnə təriqətçilər adlandırmağa başladılar. Bu insanlar dini islahatları dəstəkləyən hökümət tərəfindən təzyiqlərə məruz qaldılar. Parçalanma əhalinin geniş, o cümlədən yüksək təbəqələrini də əhatə etdi. Məsələn, boyar qadın Feodosiya Prokopyevna Morozova köhnə təriqətçilərin ən nüfuzlu başçılarından biri idi. Buna görə onu həbs etdilər və o, zindanda vəfat etdi.

Təzyiqlərdən canlarını qurtarmaq üçün köhnə təriqətçilər ölkənin kənarlarına və xaricə üz tutdular. Nikonun dini islahatlarından sonra bu insanlar XVII-ci əsrin sonları — XVIII-ci əsrin əvvəllərində Prut, Dnestr və Dunay çaylarının ətrafında məskunlaşdılar. Bessarabiyada yaşayan köhnə təriqətçilər "lipovanlar" adlandırılır. Onların əksəriyyəti Rusiya imperiyasının cənub və mərkəzi quberniyalarından çıxmış insanlardır. Onlar bu yerlərdə 1720-ci illərdən məskunlaşmağa başladılar. Hal-hazırda lipovanların əksəriyyəti Rumıniya, Moldova (Kuniça, Pokrovka, Yeni Qrubna və digər kəndlər), Ukraynanın Odessa vilayəti (əsasən, Vilkovo şəhəri və onun ətrafı) və Bolqarıstanın bəzi yerlərində yaşayır.

Yüzilliklər boyu lipovanlar dini və mədəniyyət baxımından kifayət qədər qapalı, lakin iqtisadi baxımdan açıq dünyasını yaradıb və qoruyub saxlayıblar. Müharibələrə, sərhədlərin dəyişilməsinə, dinə qarşı təcavüzlərə, qonşuların dil və mədəniyyət ekspansiyasına baxmayaraq lipovanların həyat tərzi az dəyişib. Nəsillərin dəyişilməsi, texniki yeniliklər və qloballaşma proseslərinin təsirinə baxmayaraq bu gündə o, bəzən intibah dövrünü yaşayaraq, yeni məbədlərin inşası və açılması ilə müşayiət olunaraq qorunub saxlanılır.

Blok 1. Lipovanların təsərrüfatı

▼

8. [illegible]

9. [illegible]

10. [illegible]

Mənbə 1a Tədqiqatçılar lipovanların XIX-cu əsrdəki təsərrüfatları haqqında

Hökümət məmurları tərəfndən Kuniçada hələ 1815-ci ildə aparılan təftiş onu göstərib ki, burada "sənaye üçün" kifayət qədər əkin[2], həmçinin külli miqdarda mal-qara var. 1890-cı ildə Kuniçaya gələn tanınmış kilsə tarixçisi S.D.Marqaritov həmçinin bildirib ki, "Kuniçada yaşayan köhnə təriqətçilər kifayət qədər zəngindirlər. Adambaşı 4 desyatini[3] olan insanlar az-az ticarətlə də məşğul olur". Keçən əsrdə səyahətçilər tərəfndən dəfələrlə qeyd edilən köhnə təriqətçilərin əkinçilik və bağçılığı sənət və ticarətlə uğurla birləşdirmək bacarığı indi də mövcuddur. Kuniça zəngin ticarət kəndi kimi tanınır[4].

Mənbə 2 Müasir qəzetdə nəşr edilən məqalədən

Bir sıra səbəblərə görə Kuniçanı qızıl kənd adlandırırlar. Birincisi, burada öz qızıl əlləri ilə tanınan zəhmətkeş insan resursu mövcuddur. Əsrlər boyu kuniçalılar gözəl bağban və bostançı olub, taxıl, giləmeyvə becərib, yağ döyüb, çox dadlı mürəbbələr, qurumeyvələr ilə ticarət edib, süpürgə toxuyub, gözəl, köhnə qaydalara uyğun ikonalar yaradıb. Ən əsası isə onlar həqiqi mömin və "köhnə pravoslav təriqətinin" böyük pərəstişkarları olub[5].

Mənbə 3 Pokrovka kəndində "iqtisadi möcüzə" haqqında

Pokrovkanın iqtisadi möcüzəsi nədən ibarətdir və necə izah olunur? Bir çox sakinlərin sözlərinə görə, əsas gəlir mənbəyi bağçılıqdır, əsasən də, alma bağları. Bir hektardan 20 tona yaxın məhsul yığmaq olar. Kənd sakinləri hesab edirlər ki, gələcəkdə mütləq konserv zavodu təşkil edilməlidir. Kənd sakinlərinin təsərrüfatında moruq, qəvalı, bostan birkiləri böyük yer tutur. Sakinlərin rəylərinə görə, 2008-ci ilin yayında kənd sakinləri kəndə gələn alverçilərə 500 tondan çox təzə moruq satıb. Bir mövsümdə bir ailə yarım tondan bir yarım tona qədər moruq yığa bilər. Bu gün böyük təsərrüfatı olan bağçılar üçün əsas satış bazarı Rusiyadır.

Pokrovka sakinləri hesab edirlər ki, iqtisadi rifahın əsas səbəbi onların köhnə təriqətçilər olaraq gündə iyirmi saat ərzində işləmək qabiliyyəti və bütün məsələlərə ciddi yanaşmaqlarıdır. Yalnız yanvar ayında onlar ağır fiziki işdən azad olurlar. Bağa həmişə qulluq etmək lazımdır. İnsanlar sovet dövrünə nisbətən daha çox işləyir, praktiki olaraq, heç dincəlmirlər. Onların məqsədi pul toplamaq deyil, övladlarına layiqli həyat bəxş etməkdən ibarətdir... "İnsanlarımız çox işləyir. Hamı torpaqdan qaçıb. Bizim üçün isə 6 sot[6] azdır. Biri bir hektar torpaq alıb, mən — iki, digəri isə on hektar alıb. Və, beləliklə, indi otuz hektaradək torpaq var. Qonşu kənddən alırlar"[7].

---

[2] Sənaye emalı üçün xammal olan bitkilərin əkini. Məsələn, günəbaxan və s.

[3] 1 desyatin təxminən 1 hektara bərabər olan sahə ölçüsüdür.

[4] Смилянская Е.Б., Денисов Н.Г. Старообрядчество Бессарабии: книжность и певческая культура. М.: Индрик, 2007. Sitat: http://www.starover.religare.ru/article7829.html.

[5] А.Романов «Старообрядцы — ветвь православия, прошедшая закалку огнём и мечом». [Электронный ресурс]. — Режим доступа: http://press.try.md/item.php?id=64488.

[6] Bir sot 0,01 hektara bərabər olan sahə ölçüsüdür.

[7] Расков Д. Экономическое чудо с. Покровка: к вопросу об адаптации к рынку старообрядцев Бессарабии // Научный альманах «Традиционная культура». — № 1(3), 2009. — С. 111.

Blok 2. Lipovanların məişəti

11. þ o v l n v l ə i c ə ə y ş (t ə t ə)?

12. þ o v l n v l ə i i ə y ş ə s i ə h s

Mənbə 4 Köhnə təriqətçilərin evlərinin inşası haqqında

Təxminən 200 il bundan əvvəl Kuniça kəndində evlər palıd tirlərindən tikilirdi. Lakin zaman keçdikcə tikinti materialı azalmağa başladı. Başqa coğrafi mühitə düşən köhnə təriqətçilər daha əlçatan materiala üz tutmalı oldular. Yeni materiallarla işləməyi bacarmayan köhnə təriqətçilər tikinti üsulunu qonşu əhalidən mənimsədilər.

<...> Praktiki olaraq, köhnə təriqətçilərin yaşadığı kəndlərin hamısında ağacdan hazırlanan evləri *gövdə* konstruksiyaları əvəz etdi. Bu evlərin gövdəsinin əsasını köndələn qoyulmuş ensiz taxtalarla bərkidilən şaquli sütunlar (dirəklər) təşkil edirdi. Bu dirəklərin arasına qamış, çubuq, çör-çöp doldurulurdu. Bundan sonra konstruksiya gil və samanla suvarılırdı. <...> Gövdə texnologiyasını *valk* (xalq arasında onu *çamur*[8] adlandırırlar) və *saman*[9] tikintiləri əvəz etdi. Bu cür tikinti üsulu qonşuluqda yaşayan moldovalılar, ukraynalılar, bolqarlar və digər xalqlar arasında da geniş yayılmışdı.

Bu gün köhnə təriqətçilərin yaşadığı kəndlərdəki evlərin əksəriyyəri müasir şəhər evləri kimi görünür. Şəhər, Avropa mədəniyyətinə keçidi sürətləndirən amillərdən biri əmək miqrasiyasıdır. Köhnə təriqətçilərin kəndlərindən çıxan gənclər qazanc dalınca Avropa ölkələrinə gedir, qayıdandan sonra isə öz evlərini Avropa evlərinə uyğun tikməyə başlayırlar. Əksər hallarda isə gənclər ənənəvi evlərə üstünlük verən valideynlərindən hətta utanırlar[10].

13. s y l ə t ə l ə ə ə t ə h s o c ə ə y ş?

14. B ü þ o v l n ə ə s i ə ə ş v i (s

15. þ o v l n ə ə ə s i v ə v l ə i i v ə f ə q i c ə h ə

16. þ o v l ə ə i l ə i q o u u h s x h s x h s ı h s ı c

[8] Çamır gil ilə samana deyilir.

[9] Saman gildən hazırlanmış samanlı çiy kərpicdir.

[10] Götürülüb: Душакова Н. Традиционное старообрядческое жилище Пруто-днестровского междуречья и левобережного Поднестровья (XIX – нач. XXI в.). — Кишинев, 2012. С. 78–85. Adaptasiya olunmuş mətn.

Mənbə 5 Köhnə təriqətçilərin hamam ənənəsi haqqında

<...> köhnə təriqətçilik kəndlərinin əksəriyyətində insanlar bu gün də qara hamamlarda[11] özlərini tərlədirlər, çimirlər. Köhnə sakinlər qeyd edirlər ki, bu cür hamamlar çox isti və sağlamlıq üçün xüsusilə faydalıdır. Burada "bütün mikroblar yanır". Əvvəllər hamamlarda bit, yel, soyuqdəymədən xilas olurdular. Lakin gənc nəsil artıq daha çox şəhər mədəniyyətinə üstünlük verir: onlar qara hamamları ağ hamamlara çevirir, duş qurur. Daha yaşlı nəsil bu innovasiyanı qəbul etmir...

Buna baxmayaraq, bu gün də köhnə təriqətçilərin ənənəvi mədəniyyətində hamamda özünü tərlətmək ənənəsi qorunub saxlanılır[12].

Mənbə 7 "Qazma" hamamın inşası[13]

Mənbə 6 Şahidin qeydlərindən, 2010-cu il

Artıq Kuniçada bizə təklif etdilər ki, "qazma" hamamın inşasına tamaşa edək. Əvvəl insanın boyuna uyğun kvadrat formasında çala qazılır. O, daş ilə doldurulur və burada tonqal yandırılır. Bir gündən az olmamaq şərtilə yanan tonqal sönəndən sonra daşlar bir neçə qat yeni biçilmiş otla örtülür. Hər şey brezentlə örtülür. Burada bir neçə gün özünü tərlətmək olar. İndi bu cür hamamın qazılması çox baha başa gəlir və özünə belə "qazma" hamam düzəltmək hər adamın işi deyil. Biz isə Semyon Vasilyeviç Pridorojnının, təbii ki, qara hamamında özümüzü tərlətməyə getdik. Qara hamam öyrəşdiyimiz "ağ" hamamdan fərqlənir: o, içəridən qızdırılır və, əlavə olaraq, tüstü ilə qızır[14].

[11] Qara hamam bacasız qızdırılan hamamdır, tüstü bayıra çıxmır, içəridə qalır.

[12] Душакова Н. Традиционное старообрядческое жилище Пруто-днестровского междуречья и левобережного Поднестровья (XIX — нач. XXI в.). — Кишинев, 2012. — С. 75.

[13] Denis Topalın fotosu. — Giriş rejimi: http://denistopal.livejournal.com/4373.html.

[14] Денис Топал. Кунича зимой. [Elektron resurs]. — Giriş rejimi: http://denistopal.livejournal.com/4373.html.

Mənbə 8 Tədqiqat materiallarından

Sözsüz ki, daha mömin və müha f zəkar köhnə təriqətçilər bu gün də hər-hansı innovasiyaların həyata daxil olmasına mən f yanaşır: istər plastik pəncərə, istərsə də ki, televizor və ya kompüter olsun. Buna baxmayaraq, hətta onlar bu cür qadağalara artıq ciddi əməl etmirlər. <...> biz artıq köhnə təriqətçilərin gündəlik məişətinə tədricən

daxil olan televizora aid qadağaya nəzər yetirdik (hansı ki, köhnə sakinlər tərə f n-dan "şeytan" əməli sayılır və ya "şeytan gözü" adlandırlır).

Baxışların bu cür transformasiyası və qadağalara qarşı münasibətin dəyişməsi dəyişən reallığa uyğunlaşmaq zərurətindən irəli gəlir. Gündəlik həyatda köhnə təriqətçilər müasir nailiyyətlərə əsaslanır. Buna görə də onların evlərinə tez-tez ən müasir texniki avadanlıq da daxil olur ki, hətta ənənəvi qurulan evlərdə də ona yer tapılır[15].

Blok 3. Lipovanların zahiri görünüşü

17. B s s iy y öç ə l ə ii ə ə lq ə lp o

18. þ o v n X X- c i ə s i
elektron
q o u u s x h n ?

19. F o
ə n ə n ə vi y i ə n ə q o u u s x h n, n ə ə y ?

Mənbə 9 Lipovanların ənənəvi geyimləri haqqında

Vilkovo[16] lipovanlarının geyimi və ayaqqabıları özündə daha çox rus klassik əlamətlərini saxlayıb: kişilərdə — yanyaxa köynəklər, armyaklar, qadınlarda isə — sarafanlar. Qədim fotolar göstərir ki, onların çoxu bura çarıqlarda gəlib. Burada isə çarıqlar yoxa çıxıb. Bu yerlərdə papuryankalar, yəni rus çarıqlarına bənzəyən uzun suqamışı yarpaqlarından toxunan ayaqqabılar yayılmışdı. Onlar köhnə təriqətçilərin ürəyincə oldu. Elə bu yarpaqlardan da evdə geyinmək və satış üçün nəleyinlər düzəldilirdi. Sözsüz ki, qoyun dərisindən hazırlanmış canlıqlar ("keptarlar") kimi yerli geyim növləri də rusların xoşuna gəldi. Uşaqlar, qadınlar, yaşlılar həvəslə müxtəlif "çunilər" (toxunma çarıqlar) geyinirdi. Ruslardan bu, rəngarəng mahud parçalarından tikilmiş, həmçinin toxunmuş ayaqqabıları moldovalılar və ukraynalılar mənimsədi[17].

[15] Душакова Н. Традиционное старообрядческое жилище Пруто-днестровского междуречья и левобережного Поднестровья (XIX — нач. XXI в.). — Кишинев, 2012. — С. 141.

[16] Vilkovo şəhərindən. Ukraynanın Odessa vilayətində yerləşir.

[17] [Elektron resurs] http://starover.kiev.ua. — Giriş rejimi: http://starover.kiev.ua./history.php?article=5.

Mənbə 10 Bessarabiyaya iş səfəri haqqında Vasili Korolyov atanın baş keşiş İrinarxa verdiyi hesabatdan, 1944-cü il

Belaya Krinitsadan sonra mən Dnestr çayının sahilində yerləşən Pokrovka kəndində köhnə təriqətçilərə məxsus kilsəyə getdim... Pokrovka yalnız köhnə təriqətçilərin yaşadıqları kənddir, burada 153 ev var, kilsə var, kilsənin keşişi 55 yaşlı yerli sakin Qriqori Petroviç Kolıxanin atadır... Bu kənddə, əsasən, Rusiyadan vaxtilə öz dini baxışlarına görə təzyiqlərdən qaçan insanlar yaşayır. Köhnə təriqətçilik ənənələrinin hamısı qorunub saxlanılır...

Kişilərin hamısı yağa bulanmış, yarı-kaftanlar geyinib, saçları yandan qırxılıb, hamısının da ayağı yalındır. Qadınlar kilsə üçün xüsusi geyimdədirlər, bellərində kəmər var, ayaqları isə yalındır. Bəlkə də, bu ancaq yayda belə olur[18].

Mənbə 11 İbadət evinin qadınlar üçün olan hissəsi, Yedintsı şəhəri, 1989-cu il[19]

Mənbə 12 Kuniça sakinləri ibadətdən sonra kilsədən çıxırlar, 2009-cu il[20]

[18] Sitat: Крестный ход в землях Бессарабии. Старообрядческое село Покровка (РПСЦ). [Elektron resurs] — Giriş rejimi: http://samstar.ucoz.ru/publ/49-1-0-362.

[19] Kitabından foto Смилянской Е.Б., Денисова Н.Г. «Старообрядчество Бессарабии: книжность и певческая культура».

[20] Denis Topalın fotosu. — Giriş rejimi: http://denistopal.livejournal.com/4229.html.

Blok 4. Qapalı dünya?

20. þ	o	vl öz əıəıəvitə əiy y ə		
	s	yl ıətələ)?		
21.	M	ü	s	iövürüz ə þ o vı əla
ıəlu				
22. Gəı	c	lə ə		
23.	M	ü	s	iövürüz ə “əıəıəvi x ü s
	s	yl ıətələ)?		
24. þ	o	vlı əıəıəvitə əiy y ə		
çıqlıı öıə				

Mənbə 13 Tarixçinin fikri

İş bundadır ki, son zamanlaradək lipovanlar digər məzhəblərin və millətlərin nümayəndələrilə ünsiyyət qurarkən çox ehtiyyatlı və qapalı idilər. XX-ci əsrin 50-60-cı illərinədək “özgəyə” heç bir qab su da verməzdilər, verəndə isə dərhal onu atırdılar. Lipovanların köhnə təriqətçi kəndlərindən olmayan insanlarla nigahları çox arzuolunmaz hadisə idi. Əlbəttə ki, bu gün çox şey dəyişib: millətlər və konfessiyalar arasında bağlanan nigahlar adi hal alıb, gənclərin çoxu şəhərlərə köçür, yayda sahilyanı kəndlər turistlərlə dolu olur...

Yaşadıqları dövrü sonuncu dövr elan edən köhnə təriqətçilər bu dünyada yaşamaq üçün bir üsul tapmalı idilər. Onlar həmişə “özgələr” ilə əlaqəni çətinliklə yaradırdılar, dini məsləklərə əsaslanan qapalı həyat tərzi isə uzaqlaşmağa daha çox təkan verirdi.

Köhnə təriqətçilər başqa bir etnik əhatəyə düşəndə, özünüqoruma prinsipi işə düşürdü: yaşamaq üçün öz məzhəbindən, dilindən bərk yapışmalısan, digər şeylər isə özgə və bu səbəbdən də ziyanlıdır. Bu gün də həm yaşlı, həm də orta yaşlı lipovanlardan eşitmək olar ki, onların xalqı seçilmiş və unikaldır: “Lipovanlar saf ruslardır”, “Lipovanlar, digərlərindən fərqli olaraq, Allah adamlarıdır”.

Mifoloji düşüncənin “saf insanlar”, “təmiz din” kimi kateqoriyaları bu birliyin bütövlüyünü təmin edən mexanizmlərdən biri idi. Axı bu kənd və kiçik şəhərlərin əhalisinin əksəriyyəti kilsələr və konfessiyalar arasında prinsipial fərqi izah edə bilmir[21].

Mənbə 14 Tədqiqatçının fikri

Qeyd edək ki, bizim fkrimizcə, köhnə təriqətçilərin ənənəvi mədəniyyətinin bir sıra elementlərinin qorunub saxlanılmasını yalnız dini faktorların təsiri ilə məhdudlaşdırmaq lazım deyil. Fikrimizcə, burada mühüm rol köhnə təriqətçi icmalarının yaranma şəraitinə məxsusdur. Axı təzyiq və təqiblərin fonunda icmaların daxilində əlaqələr möhkəmlənir, “özününkünün” və “özgəsinkinin” dərk edilməsi və onları

[21] Андреева Ю. Хроники одного путешествия, или в гостях у липован. [Elektron resurs]. — Giriş rejimi: http://starover.kiev.ua/history.php?article=4.

bir-birinə qarşı qoymaq istəkləri artır. Buna görə də "özününkünün", o cümlədən də ən əhəmiyyətli məsələlərdən biri kimi ənənəvi mədəniyyətin qorunub saxlanılması çox vacib idi. Ehtimal etmək olar ki, məhz buna görə də hal-hazırda köhnə təriqətçilərə qarşı münasibətin dəyişməsi və onların özlərini təzyiq altında hiss etməməsi səbəbindən köhnə təriqətçilərin yaşadıqları yerlərin çoxunda bəzi ənənəvi xüsusiyyətlər silinməyə başlayır[22].

Mənbə 15 Pokrovka kəndinin kilsə şurasının üzvü, kilsə baxıcısı Afanasiy İvanoviç Şerbakovun müsahibəsindən

Belə qoyulub. Mənim qardaşım Kişinyovda televiziya mərkəzinə elektrik sənayesi işçisi düzəlmək istəyirdi. Mən onu qoymadım, hətta pasportunu da əlindən aldım ki, gedə bilməsin. Digər qardaşım hərbi xidmətdən sonra getmək istəyirdi. Anam ağladı, atam ağladı, mən isə böyük qardaş kimi onu yola gətirirdim: "Axı necə ola bilər ki, sən başqa yerdə olasan, anam öləndə isə onunla vidalaşa da bilməyəsən"[23].

Mənbə 16 Jurnalda dərc edilən məqalədən

Lipovanlar — köhnə təriqətçilər sivilizasiyanın "xəstəliklərinə" tab gətirə bildilər, öz dinini qoruyub saxladılar. İndi Vilkovoda iki köhnə təriqətçilik məbədi fəaliyyət göstərir. "Lipovan" kilsələrində ibadət və mərasimlər bizdəki, yəni "çimdiklilərdəki"[24] kimi keçirilir. Bayramlar, ibadətlər, ikonalar — hər şey təmamilə eynidir. Sadəcə olaraq, onlar iki barmaq ilə xaç çəkirlər. Mənimlə söhbət edən yerli keşişin sözlərinə görə, onlar bundan heç vaxt imtina etməyəcəklər: "Bizim üçün bu, "xırda şey" deyil, prinsipdir! İki barmaqla xaş çəkmək uğurunda biz canımızdan keçdik, odda-alovda yandıq". Kilsəyə ən fəal yaşlı nəslin nümayəndələri gəlir. Lipovan gəncləri isə kilsəyə əsasən böyük bayram günlərində gəlirlər. Yeni dövrün ab-havası özünü göstərir. Gənc oğlanlar saqqal saxlamaq, gənc qızlar isə uzun donlar geyinmək istəmir. Və Komar babanın tənə ilə dediklərinə görə, hətta "valideynlərin xeyir-duası olmadan "çimdiklilərə" ərə də gedirlər"[25].

Yekun müzakirə

[illegible]

[22] Душакова Н. Традиционное старообрядческое жилище Пруто-Днестровского междуречья и левобережного Поднестровья (XIX — нач. XXI в.). — Кишинев, 2012. — С. 32–33.

[23] Расков Д. Экономическое чудо с. Покровка: к вопросу об адаптации к рынку старообрядцев Бессарабии // Традиционная культура. — 2009. — № 1. — С. 111–119

[24] Köhnə təriqətçilər üç barmaqla (çimdiklə) xaç çəkən pravoslavları "çimdiklilər" adlandırır.

[25] Бурлаку С. Путешествие в южную Бессарабию // Земля и Недвижимость Сибири — 2010. — № 6. — Giriş rejimi: http://www.vipstd.ru/journal/content/view/532/172/.

XX–XXI-ci əsrlərdə mədəniyyətlərarası nigah

XX–XXI-ci əsrlərdə mədəniyyətlərarası nigah necə və niyə dəyişdi?

1. [illegible]

Mənbə 1 Vasili Pukirev. Qeyri-bərabər nigah, 1862[1]



Mənbə 2 Yuri Pimenov. Sabahın küçəsində toy, 1962[2]



2. [illegible]

[1] [Elektron resurs] — режим доступа: https://ru.wikipedia.org/wiki/Неравный_брак_(картина). — Müraciət tarixi 15.11.2014.

[2] [Elektron resurs] — режим доступа: http://artmmuseum.ru/muzejjnye-novosti-yurijj-ivanovich-pimenov. — Müraciət tarixi 15.11.2014.

Mənbə 3 XX-ci əsrin əvvəlləri və sonunda Ukraynada qurulan ailələrin ümumi sayına görə millətlərarası nigahların faizi[3]



Blok 1. Ənənəvi ailə: Rusiya imperiyasında qarışıq ailələrin qurulma imkanları və onların qarşısını alan maneələr

3. Ru s iy ip iy s ı iə qu i i c z

4. X
ü ü o l iə P Qv i c i v ə iə ü s
ə vv ə l ü f ə iv ə iy ə ?

5. K ə ö z l ə
s ı l l ə ə

6. K ə ip

7. Ni p
ı ? O l v-öv l ə
ə s s ı .

8. M ə l ə ə q ş i n s ö v ü q q ı n l ə h s
(v ə s .)

9.
l s ı

[3] 1897–1900-cü illərin statistik məlumatlarına əsasən: Чорний С. Національний склад населення України в XX сторіччі. — Киев: НВП Картографія, 2001. — С. 48–49 та за даними перепису 1989 року: Розподіл населення за національністю та рідною мовою (0,1). Таблиця 19A050501_021. Банк даних / Державна служба статистики.

[4] Təbəqə üzvləri hüquq mövqeyinə görə seçilən sosial qrupdur. Hər-hansı bir təbəqəyə mənsubluq nəsillərlə ötürülür.

Mənbə 4 XX-ci əsrin əvvəllərinin mülki hüquqlar üzrə qanunlar külliyatından

1-ci fəsil. “Pravoslavlar arasında nigah haqqında”:

1. Müxtəlif imkanlı pravoslavlar hökümətdən icazə almadan mənsub olduqları təbəqələr və cəmiyyətlərdən çıxmadan ailə qura bilərlər. Bu əsasla həmçinin pravoslav olan xarici vətəndaşın həmin məzhəbə qulluq edən Rusiya vətəndaşı olan qadın ilə evlənməsinə icazə verilir. <...>

6. Valideynlərin, himayəçilərin və qəyyumların icazəsi olmadan ailə qurmaq qadağan edilir[5].

9. Hərbi və mülki xidmətdə olan şəxslərə rəislərin yazılı icazəsi olmadan ailə qurmaq qadağan olunur.

3-cü fəsil. “Qeyri-xristianların öz aralarında və onların xistianlar ilə ailə qurması haqqında”:

80. Əgər müsəlmanın və ya digər qeyri-xristian olan insanın xanımı və ya xanımlarından biri[6] Xristianlığı qəbul etsə, onun nigahı Pravoslav dini toy mərasimi olmadan da öz gücündə qala bilər. Lakin bu zaman öz imanında qalan ər öz üzərinə aşağıdakı öhdəçiliyi götürür: 1) bu vaxtdan sonra doğulan uşaqları Pravoslav etmək; 2) yalnız Xristianlığı qəbul etmiş xanımı ilə onun ömrünün sonunadək nigahda qalmaq, digər arvadları ilə isə (əgər varsa) nigahı pozmaq.

81. Əgər ər ya arvad yahudi məzhəbindən dönüb Pravoslavlığı qəbul edirsə, nigah partnyoru isə öz əvvəlki məzhəbində qalır, lakin ailəni saxlamaq istəyir, onlara aşağıdakı iltizam almaqla nigahda qalmağa icazə verilir: Xristianlığı qəbul edən partnyor digərini bacardıqca bu dinə gətirməyə çalışmalıdır; öz məzhəbində qalan isə bu nigahda doğulan uşaqları nə tovla ilə, nə hədə ilə, nə digər vasitələrlə yahudi məzhəbinə yönəndirməsin və Pravoslavlığı qəbul edən partnyoru onun məzhəbinə görə təngid etməsin və ona mənəvi zərbə endirməsin[7].

Mənbə 5 XX-ci əsrin əvvəllərinin ənənəvi cəmiyyətində millətlərarası nigahlar haqqında təsəvvürlər

Zaporojyenin Preslav kənd sakini Milev İvan İlyiç, bolqar (1896-cı il təvəllüdlü): “Biz əvvəllər də qonşu kəndlərdə yaşayan ukraynalılar ilə mehriban yaşayırdıq, onlarla yarmarka və bazarlarda tez-tez görüşürdük, bayram günlərində bir-birimizin evinə qonaq gedirdik, lakin onlarla ailə qurmurduq. Onda belə şeylər qəbul edilmirdi”.

Donetsk vilayətinin Stıla kəndindən yunan Nikolitsa Fedora Alekseyevna (1898-ci il təvəllüdlü): “Əvvəllər yalnız öz millətinin nümayəndəsinə və ya öz kəndlinə ərə

[5] Himayəçi və qəyyumlar valideynlərsiz qalan həddi-buluğa çatmamış uşaqların tərbiyyəsi və hüquqi müşayiəti üçün məxsusi təyin edilmiş insanlardır.

[6] İslamda bəzi şərtlərlə məhdudlaşdırılmış çoxarvadlılıq icazə verilir.

[7] Nəşrə adaptasiya edilib: Свод законов гражданских (св. зак. т. 10 ч. 1, изд. 1900 г. по Прод. 1906 и 1908 гг.). — С предметным указателем и с позднейшими узаконениями по день выхода в свет / Сост. А. Л. Саатчиан. — Издание неофициальное. — Санкт-Петербург: Издание Юридического книжного магазина И. И. Зубкова под фирмою «Законоведение», 1911. То же [Elektron resurs] — Giriş rejimi: http://civil-law.narod.ru/wist/szg/szg111.html. — Дата обращения 20.01.2014.

getmək olardı. Ancaq yaşı keçmiş qızlar yunan olmayan kişilərə ərə geridilər; bu halda adətən deyirdilər ki, “evdə qalmamaq” üçün kimə gəldi getdi”[8].

Mənbə 6 Kollektivləşdirilmədən əvvəl kəndlilərin xatirələrindən fraqmentlər

Varlılar kasıblarla evlənirdilərmi?

— Az-çox öz səviyyəsinə, senzinə uyğun adam seçirdilər. O vaxtlar ailələr sevgi üzərində deyil, məcburiyyət qarşısında qurulurdu. Atanın sözünü yerə salmaq olmazdı. Əgər öz xoşları ilə evlənməmişdilərsə, vaxt keçdikcə öyrəşib yaşayırdılar — sevib-sevməməkləri vacib deyildi (Maslo Mixail Pavloviç);

— Zəngin ailələrin qızları ilə evlənməyə çalışırdılar ki, torpaq olsun. Gəlin gözəl olmaya da bilərdi, təki torpaq olsun (Osadça Ustina Yefimovna);

— Bir-birlərindən xoşları gələndə evlənirdilər. Gəlin kasıb da ola bilərdi, təki oğlanın xoşu gəlsin. Hər cür olurdu, zənginlərlə də evlənirdilər, kasıblarla da (Smola Praskovya Fedotovna);

— Zəngin insanları bizim kasıb qızlar maraqlandırmırdı. Kasıblar orta təbəqənin nümayəndələri ilə ailə qururdular (Beskorovaynaya Praskovya Mitrofanovna)[9].

Blok 2. Millətlərarası ailələr SSRİ dövründə və bu gün

10. S

11. M ü x s y s s iə öüş

12. M c c s

13. M s

14. İ f o x s

Mənbə 7 SSRİ-də millətlərarası nigahlar haqqında

Müharibədən sonrakı illərdə müxtəlif millətlərin nümayəndələri arasında qurulan ailələr kütləvi hala çevrildi. 1959-cu ilin əhalinin siyahıya alınmasının məlumatlarına görə, belə ailələr ölkələrdə qurulan ailələrin ümumi sayının 10-%-ni, 1970-ci

[8] Пономарев А. Межнациональные браки в УССР и процесс интернационализации / А.Пономарев. — К. : Наукова думка, 1983. — С. 69.

[9] Нолл В. Трансформація громадянського суспільства. Усна історія селянської культури 1920–1930 років / В. Нолл. — К. : Родовід, 1999. — С. 109–110 (Перевод на русский язык авт.)

ildə 13,5%, 1979-cu ildə isə təxminən 15% təşkil edirdi. Qarışıq ailələrin sayının artmasının səbəbi millətlərarası nigahların sayının artması idi. Hal-hazırda millətlərarası ünsiyyət sosialist həyat tərzinin tərkib hissəsidir, qarışıq ailələr isə, demək olar ki, belə ünsiyyətin ən sıx növüdür. Partiyanın XXVII-ci qurultayında qəbul edilmiş KPSS-in proqramında deyilir: "SSRİ-nin bütün millətlərini və xalqlarını birləşdirən dostluq və qardaşlıq hissləri, millətlərarası ünsiyyətin yüksək mədəniyyəti, millətçilik və şovinizmin, milli eqoizmin təzahürlərinə, kommunist həyat tərzinə mane olan adət-ənənələrə qarşı dözümsüzlük — bütün bu hisslər hər bir sovet vətəndaşına xas olmalıdır. Partiya və dövlətimiz bu işdə maraqlıdır[10].

Mənbə 8 Ukraynalı və moldovalının ailə hekayəsindən

Mənim atam,Ştuçenko Nikolay Zaxaroviç (1930–1976) ukraynalı, anam isə, Babaru Tamara İlyiniçna (1937–1999) moldovalıdır. Valideynlərim Moskvada ezamiyyət zamanı tanış olublar. 1960-cı illərin əvvəllərində onlar evləniblər. Belə bir toy olmayıb. VVAQ-da formal qol çəkmə mərasimi keçirilib. Ailə Moldovada Kişinyovda yaşadığına görə ailədə yalnız rus dilində danışırdılar. Uşaqlar anadan olanda onların ad seçimi ilə problem yox idi. Uşaqların adını Yuri və Alyona qoydular. O zamanlar milli məsubiyyət haqqında danışmaq qəbul olunmurdu. Hamı Sovet İttifaqında yaşayırdı. Ukraynaya qohumların yanına gedəndə atam hərdən Ukrayna dilinə keçirdi. O, özü Ukrayna ənənələrinə riayət etmirdi, çünki biz şəhərdə yaşayırdıq, hər şey az-çox eyni idi. Milli zəmində konfiktlər olubmu? Xeyr. Heç vaxt belə bir şey olmayıb[11].

Mənbə 9 Azərbaycanlı-rus ailəsinin hekayəsindən

Hüseyov Samir Həsən oğlu (1973-cü il təvəllüdlü) — azərbaycanlı. Hüseynova Qalina Vyaçaslavovna (1973-cü il təvəllüdlü) — rus. Biz Moskvada konfransda tanış olmuşuq, 2003-cü ildə ailə qurmuşuq. Belə bir toy olmayıb, VVAQ-da formal qol çəkmə mərasimi keçirilib. Dini toy mərasimi ola bilməzdi, çünki mən müsəlmanam, xanım isə — pravoslav. Mən ondan dinini dəyişməsini istəməmişəm, lakin bu baş versə, mən şad olaram. Əgər buna adət demək olarsa, ailə quranda qadın mütləq soyadını dəyişir, çünki bu, onun ailə qurduğunun ilk əlamətidir. Həmçinin qadın mütləq bəxt üzüyünü barmağında gəzdirməlidir, bu isə mənim üçün elə də prinsipial deyil. Mənim üçün ənənələrdən ən vacibi oğlanların sünnət edilməsidir. Vaxt gələndə, oğlumu mütləq sünnət etdirəcəyəm. Hələ ki, oğlum balacadır, biz onunla rus dilində danışırıq, məktəbə gedəndə isə mən onunla Azərbaycan dilində danışmağa başlayacağam. Milli zəmində konfiktlər olubmu? Xeyr. Konfikt ər və arvad arasında ola bilər, rus və azərbaycanlı arasında yox. Başqa cür olsa, evlənmək niyə gərəkdir[12]?

[10] Сусоколов А. А. Межнациональные браки в СССР. — М.: Мысль, 1987. — С. 10.

[11] 2012-ci ilin dekabrında Kiyevdə Kovalevskaya Olqa tərəfndən "Ümumi tarix. Mədəniyyətlərin dialoqu" layihəsi üçün yazılan Y. N.Ştuçenkonun danışdıqlarından.

[12] 2012-ci ilin dekabrında Kiyevdə Kovalevskaya Olqa tərəfndən "Ümumi tarix. Mədəniyyətlərin dialoqu" layihəsi üçün yazılan S. H. Hüseynovun danışdıqlarından.

Mənbə 10 Gürcü-rus ailəsinin hekayəsindən

Mənim ərim Afvlediani Qeorgi Diviyeviç (1966-cı il təvəllüdlü) gürcüdür, mən isə Zapari Tatyana Albertovna (1977-ci il təvəllüdlü) rusam. Biz Donetsk şəhərində tanış olmuşuq, 1999-cu ildə ailə qurmuşuq. Toy olmayıb. VVAQ-da formal qol çəkmə mərasimi keçirilib. Ümumiyyətlə, mən bütün bu paltarları, gəlincikləri, gülləri anlamıram <…>. Mən rusam və bizim evdə hanı rus dilində danışıb. Qiya (ər) Rusiyada təhsil alıb, sonra Sovet ordusunda qulluq edib, buna görə də biz həmişə ailəmizdə rus dilində danışmışıq. Lakin ərim Ukraynada insanların ukrayna dilində danışmadıqlarına və ya az danışdıqlarına həmişə təəccüb edib <…>. Oğlumun adını qoyanda ərim israr etdi. Onun adı Lukadır (gürcü adı). Bu, əvvəl mənim xoşuma gəlmədi, lakin sonra başa düşdüm ki, belə daha yaxşıdır. Qızımın isə adını qardaşının adına uyğun seçdik. Onun adı Alikadır.

Biz ikimiz də sovet dövründə doğulub təhsil almışıq, həmişə rus dilində danışmışıq, buna görə də bizim milli tərbiyyə prinsiplərimiz yoxdur.[13]

Mənbə 11 Rus-erməni ailəsinin hekayəsindən

Mənim ərim Korneyev Aleksandr Viktoroviç (1968-ci il təvəllüdlü) rusdur. Mən isə Xalapyan (Korneyeva) Tatyana Sergeyevna (1978-ci il təvəllüdlü) ermənіyəm. Biz Donetskdə tanış olmuşuq, sonra Kiyevə köçüb 2003-cü ildə ailə qurmuşuq. Toy olmayıb. Sadəcə VVAQ-da qol çəkmişik. Qızımızın adını Sofya qoymuşuq, sadəcə olaraq bu ad mənim çox xoşuma gəlirdi... Biz danışmışdıq ki, qız olsa, adını mən qoyacağam, oğlan anadan olsa — ərim... Biz, demək olar ki, ümumi Ukrayna ənənələrinə riayət edirik. İş bundadır ki, mənim ailəm qarışıq olub: atam və babam erməni idi, anam isə rus <…>. Anamla atam həmişə rus dilində danışıblar, mən isə adi sovet məktəbini bitirmişəm. Erməni ənənələrini, demək olar ki, bilmirəm[14].

Mənbə 12 “Sərhədsiz ünsiyyət” televiziya süjetindən

Kadrarxası səs: “O, gürcüdür. Arvadı isə ukraynalıdır. İvanna və Arçil məhəbbət düsturudur. Münasibətlər eşq macərasına, eşq macərası isə böyük məhəbbətə çevrildi. Ailənin yaranmasının bütün mərhələləri xaricdə keçib. İsveçrə və ABŞ-da. İndi Ukraynada yaşayırlar. Arçil, İvanna və onların iki qızı öz aralarında dörd dildə danışırlar”.

Arçil Sinsadze, ər: “İvanna elə bir insandır ki, mənim gürcü olmağımı çox yaxşı anlayır. Uşaqlar da anlayırlar. Uşaqlarla yalnız gürcü dilində danışıram. İvanna isə Ukrayna dilində danışır”.

Klimpuş-Sinsadze ailəsində rus dili — millətlərarası ünsiyyət dilidir. Arçil və İvanna xaricdə yaşayarkən tanış olublar və bir-birilə ingilis dilində danışıblar. Sonra isə müvafq olaraq Ukrayna və gürcü dili ilə tanış olublar.

---

[13] 2012-ci ilin dekabrında Kiyevdə Kovalevskaya Olqa tərəfndən “Ümumi tarix. Mədəniyyətlərin dialoqu” layihəsi üçün yazılan T. A. Zaparinin danışdıqlarından.

[14] 2012-ci ilin dekabrında Kiyevdə Kovalevskaya Olqa tərəfndən “Ümumi tarix. Mədəniyyətlərin dialoqu” layihəsi üçün yazılan T. S. Xalapyanın danışdıqlarından.

İvanna Klimpuş-Sinsadze, arvad: “Fikrimcə, bizim özgəyə hörmətlə yanaşmağımızın səbəbi hər birimizin özünkünü çox sevməyindən irəli gəlir, buna görə də dil məsələsi bizim aramızda müzakirə edilmir. Mən gürcü dilini öyrənirəm, çünki ərimin uşaqlar ilə nədən danışdığını başa düşməliyəm”.

Kadrarxası səs: “Uşaqlar valideynlərdən geri qalmır. Solomiya və Melaniya, gürcü variantında isə — Salome və Melano ingilis, gürcü və Ukrayna dillərini bilirlər. Rus dilini özləri öyrəniblər”.

Arçil Sinsadze: “<…> Onlar bilinmir niyə və necə heç vaxt danışmadıqları rus dilini öyrəndilər. Bu dili Ukrayna məktəbindən gətirdilər”.

İvanna Klimpuş-Sinsadze: “Həftədə beş gün Ukrayna məktəbinə getməkdən əlavə, onlar iki gün də gürcü məktəbinə gedirlər”.

Arçil Sinsadze: “Bizim ailəmizdə belə sayılır: nə qədər çox dil bilsək, bu həyatda o qədər çox imkanımız olacaq”[15].

Yekun müzakirə

X

qışq(ə əiy y ə
ilə

Bünip

f o işs ıə

[15] “Sərhədsiz ünsiyyət”, 27.07.2012 tarixli süjet. “Vikka-Novosti” teleradioşirkəti. [Elektron resurs] — Giriş rejimi: http://vikka.ck.ua/ua/news.php?bl=1&pid=6&view=5783. — Müraciət tarixi 03.04.2014.

Sərhədyanı ticarət və millətlərarası əlaqələr

Sərhədyanı ticarət regionda vəziyyətin sabitləşməsinə necə kömək edir?

1. ïX i ə lu

o luuuu iz i.

Tarixi məlumat

Əsrlər boyu Qafqaz ərazisində, o cümlədən də Cənubi Qafqazda münaqişəli vəziyyətlərin və millətlərarası, icmalararsı və qruplararası münaqişələrin mürəkkəb tənzimlənmə modelləri formalaşıb.

XIX-XX-ci əsrlərin əvvəllərinin dövri nəşrlərində "ənənəvi" institut və mexanizmlərin köməyilə münaqişəli vəziyyətlərin tənzimlənməsinin yüzlərcə nümunəsinə rast gəlmək olar. XX-ci əsrdə də Ermənistan və Azərbaycan, Gürcüstan və Abxaziya, Gürcüstan və Osetiya sərhədlərində vaxtaşırı münaqişəli vəziyyətlər yarananda bu mexanizmlər öz təsirini göstərib. Cənubi Qafqazın müxtəlif ölkələrində yaşayan xalqların qədim sərhədyani ticarət ənənələri var. Millətlər arasında, o cümlədən ticarət sahəsində yaradılmış əlaqələrin nümunələri ənənələrin davamı olaraq sübut edirlər ki, hətta mürəkkəb münasibətlər, münaqişələr zamanı münaqişə edən tərəflər qarşılıqlı münasibətlər qura bilər.

Belə əlaqələrin nümunəsi kimi iki bazarı qeyd etmək olar: biri — Gürcüstan və Ermənistanın sərhədində yerləşən Sadaxlı və Baqrataşendə, diqəri isə Gürcüstan-Osetiya inzibati sərhədində yerləşən Erqnetidə fəaliyyət göztərən bazarlardır.

Sadaxlı Gürcüstan ərazisində, Ermənistanla sərhəddə yerləşən yaşayış məntəqəsidir. Əhalisinin sayı təxminən 10 000 nəfərdir. Burada, əsasən, azərbaycanlılar, həmçinin gürcülər və digər xalqların nümayəndələri yaşayır. Sadaxlı və Baqrataşen kəndlərini Debed çayı və bağlardan ibarət ensiz zolaq ayırır. Burada Ermənistan və Gürcüstan sərhəddində yerləşən üç nəzarət-buraxılış məntəqələrindən biri yerləşir. Bu məntəqə həmişə çox insan olur, çünki o, Yerevan-Tbilisi yolunda yerləşir.

Elə burada da, körpüyə yaxın ərazidə bazar fəaliyyət göstərməyə başladı. Sadaxlı bazarı aşağıdakı amillərə görə böyük maraq kəsb edir. Birincisi, bu bazar Ermənistanla sərhəddə yerləşirdi (Ermənistan-Gürcüstan sərhədini keçərək bazara daxil olursan). İkincisi, bazar azərbaycanlıların yaşadığı kəndin yanında yerləşirdi. Sadaxlı bazarı yalnız bu regionun sakinləri üçün gəlir mənbəyi deyildi. Həmçinin burada Abxaziya və Cənubi Osetiyadan olan qaçqınların bir qismi sitrus meyvələri və alma satırdılar. Faktiki olaraq, Ermənistan əhalisi, hətta hərbi əməliyyatlar dövründə belə Gürcüstanın milliyyətcə azərbaycanlı olan vətəndaşları ilə ticarət əlaqələrini kəsməyib. Bazar satıcıları ilə etdiyimiz söhbətlər bunu göstərir ki, ticarət əlaqələri həmçinin Azərbaycan vətəndaşları ilə də mövcud olub.

Hər iki bazar (Sadaxlı və Erqneti) 1990-cı illərin ortalarından 2000-ci illərin ortalarınadək fəaliyyət göstərib və Gürcüstanın hökümət qurumları tərəfndən bağlanıb.

Mənbə 1 XXI-ci əsrin əvvəllərində Qafqaz regionunun sərhədyanı bazarları



Mənbə 2 Sərhədyanı bazarda ticarət[1]

[1] Burada və bundan sonra müəllif və etnoqraf A. Dabaqyanın şəxsi arxivindən fotolar.

2. D

3. M ə t ə l ə ə ə s s lq
ö ə t

◆ M ə lu

Düşmən obrazı etnoslararası münasibətlərdə mənf stereotiplərin ifadələrindən biridir. "Düşməni" fərqləndirən əlamət onun dehumanistləşməsidir, yəni düşmənə müxtəlif mənf cəhət və keyfyyətlərin verilməsidir. "Düşmən" pislik, nifrət, hiylə, zorakılıq, ölüm və digər mənf hadisələrlə assosiasiya edilir. "Düşmən" insan, qrup, cəmiyyət üçün real və ya xəyali təhlükə yaradan hadisədir. O, qeyri-humanist cəhət və keyfyyətlərin daşıyıcısıdır, buna görə də "düşmən" güya "haqlı" olan ayrı-seçkilik və ya zorakılıq üçün obyektdir.

Mənbə 3 Bazar və "digərin" obrazı

Müxtəlif vəziyyətlərdən asılı olmayaraq, Sadaxlı həm ermənilər üçün, həm də azərbaycanlılar üçün gündəlik yaşam vasitəsidir. Biriləri digərlərinin hesabına yaşayır. Bu, neytral ticarət zonası siyasi vəziyyətin gərginləşməsinin tənzimlənməsinə kömək edir. Hər iki tərəf bunu gözəl dərk edir. Hələ ki, minlərlə insan Ermənistandan Sadaxlıya gəlir, məşğuliyyət növündən, ixtisasından, milliyyətindən asılı olmayaraq azərbaycanlılarla ünsiyyətdə olur, onlarla yaxınlıq edir, fkir mübadiləsi aparır, birlikdə ticarətlə məşğul olur. Ermənistan və Azərbaycan vətəndaşları üçün bu neytral zona görüş yerinə çevrilib... Bütün bunlar "düşmən" obrazına fərqli yanaşmaq üçün öz müsbət təsirini göstərir[2].

Mənbə 4 Sadaxlı və Baqratașen: sərhədyanı fenomenlər

Gürcüstan-Ermənistan sərhədində yerləşən və sakinləri əsasən azərbaycanlılardan ibarət olan Sadaxlı kəndinin bazarı Cənubi Qafqazda sabit fəaliyyət göstərən iqtisadi mərkəzlərdən biri kimi tanınırdı. Onun xüsusiyyətləti və funksional rolu haqqında az-az rast gəlinən fkirlərdə mühüm fakt kimi göstərilir ki, o, uzun illər Ermənistan-Azərbaycan ticarət birliyi kimi insanları özünə cəlb edib. Bu bazar erkən 1990-cı illərdən mövcud olub, lakin qızğın fəaliyyətə 1993-cü ildən başlayıb. Sadaxlı bazarı sayəsində yaranan imkanlar öz işlərini itirmiş Ermənistan və Gürcüstan vətəndaşlarının dərhal bura üz tutmasına gətirib çıxarıb. Azərbaycanlılar, ermənilər və gürcülər bura ticarətlə məşğul olmaq üçün, hər-hansı bir iş tapmaq üçün və ya öz işini qurmaq üçün gəlirdilər. "Ticarət əlaqələri", əsasən, gürcülər, azərbaycanlılar və ermənilər arasında yaranıb. Azərbaycanlılar satıb, ermənilər alıb, gürcülər isə "torpaqların sahibi kimi" prosesə "nəzarət edib"[3].

[2] Н. Булгадарян. Садахло. Зеркало и модель Южного Кавказа. — [Elektron resurs]. — Giriş rejimi: http://hcav.am/attachments/5d061 sadakhlo[1].pdf.

[3] Погосян Анна. Садахло как нейтральная зона армяно-азербайджанских контактов: использование торговли в качестве средства для трансформации конфликта. — [Elektron resurs] «Кавказский выпуск». — Giriş rejimi: http://caucasusedition.net/ru/blog/садахло-как-нейтральная-зона-армяно-а/.

Mənbə 5 “Qafqaz birliyi” necə formalaşıb

...Etnik müxtəlifik mədəniyyətin bəzi elementlərində özünü göstərdi; məsələn, yaşayış yerləri və evlərin tiplərində, geyim və müxtəlif materiallardan hazırlanan ev əşyalarında, müxtəlif konfessiyaların birgə mövcudluğunda (xristianlıq, islam, iudaizm, həmçinin digər inanclar). Eyni zamanda, Qafqaz xalqlarının ümumi tarixi taleləri, etnik yaxınlığı ümumqafqaz etnoqrafik və tarixi-mədəni birliyinin yaranmasının əsası oldu. Bu birlik, o cümlədən, metal və ağacın bədii emalında, zərgərlik sənətində, daş oymasında, xalçaçılıqda, naxışlarda özünü biruzə verdi. Ümumqafqaz ənənənin digər parlaq xüsusiyyəti qonaqpərvərlikdir. Bu ənənə ilə qonaqpərəstlik ənənəsi bağlı idi — hər-hansı münaqişəli vəziyyətlərin aradan qaldırılmasına kömək edən müxtəlif soy və hətta xalqlara aid olan insanlar arasında dostluq münasibətlərinin qurulması[4].

Mənbə 6 Biz və onlar: millətlərarası münasibətlərin düsturları

Bu məsələ ilə əlaqədar çöl gündəliyindən bir qeyd yadıma düşdü: stansiyada bir satıcı qadın ilə söhbət etdik (təxminən 50 yaş, azərbaycanlı). Ona insanlar yaxınlaşıb rus dilində müraciət etdilər. Onlar gedəndən sonra qadın onlara tərəf baxaraq dedi: “Bu, ermənilərdir...” Sonra gözlənilməz pauza yarandı, mənim reaksiyamı gözləyirdi... Problem əmələ gəlirmi sualıma o, dərhal cavab verdi: “Xeyr, onlar bizə nə deyə bilər ki?!” Bu cür ifadələrlə yanaşı digər fikirlər də vardı: “Ermənilər bura qonşu kəndlərdən gəlirlər. Bu yaxınlarda Baqrataşen kəndindən gələn ermənilər evimdə qalmışdı. Bizim onlarla yaxşı münasibətimiz var” (kişi, azərbaycanlı, 60 yaş). Və ya: “Ermənilər arasında çoxlu dostlarım var. Onları bu toya da dəvət etmişdim. Təəssüfər olsun ki, bu gün gələ bilmədilər” (kişi, azərbaycanlı, 55 yaş). Və ya, daha bir ifadə: “Bu yaxınlarda Kirovakandan olan rəfqəm (erməni) gəlib 300 $ borc istədi. Əlbəttə ki, mən verdim. Qaytarmayıb, nə edəcək ki... Biz onunla bazarda tanış olmuşuq, o öz əşyalarını mənim yanımda saxlayırdı. Beləcə də yaxınlıq yarandı”[5].

Mənbə 7 Biz və onlar: hətta münaqişə zamanı aparılan ticarət...

Sadaxlıda yaşayan azərbaycanlılar ermənilər ilə açıq al-ver edir. Bu haqda bu regionda düşmənçilik edən millətlərin bir-birilə münasibətlərini araşdırmaq məqsədilə Sadaxlıda monitorinq keçirən XVA-nın[6] Gəncə ofsinin sədri Akifə Əliyeva məlumat verib. Onun sözlərinə görə, hər gün Sadaxlıdan Bakıya 25 avtobus və 10 kiçik avtobus yola düşür ki, “Binə” ticarət mərkəzindən mal əldə etsinlər. Azərbaycandan Sadaxlıya ərzaq, geyim və məişət əşyaları, Ermənistandan isə balıq, kartof və kələm gəlir... Ümumiyyətlə, bazarda yeməkxana və restoranları saymasaq 3200-dək məntəqə

[4] Сайт Российского этнографического музея (материал подготовлен В. А. Дмитриевым). — [Elektron resurs] http://www.ethnomuseum.ru. — Giriş rejimi: http://www.ethnomuseum. ru/section69/23/269 /387.htm.

[5] Гусейнова С. Азербайджанцы и Армяне в Грузии: пространство совместного проживания. — Положительные примеры из истории сосуществования народов стран Южного Кавказа. Статьи ученых — историков и экспертов из Азербайджана, Армении и Грузии (Ереван, Армения). — Ереван, Антарес, 2009. — С. 156. — [Elektron resurs] http://rus.acgrc.am. — Giriş rejimi: http://rus.acgrc.am/ positive examples of coexistence_russian.pdf.

[6] Azərbaycanın XVA-nın (Xelsinki Vətəndaş Assambleyasının) Gəncə ofsi.

var. Satıcılar azərbaycanlılardır, əsasən, qadınlar və gənclərdir. Erməni alıcılarla onların dilində danışırlar. Ticarət dollar, lari[7] və dramla[8] aparılır. Sadaxlı azərbaycanlıları Ermənistanın yaxınlıqda yerləşən kəndlərinə alış-veriş üçün maneyəsiz keçir. Onların sözlərinə görə, bəzi ərzaqlar orada daha ucuzdur. Əgər qıraqdan baxsaq, Sadaxlı azad iqtisadi zonadır[9].

Mənbə 8 Müstəqil ekspertin Erqnetidə sərhədyanı ticarət haqqında fikri

Erqneti bazarı fəaliyyət göstərəndə Osetiya əhalisi Gürcüstan tərəfə meylli idi — lari işlədilirdi. Hər bir gürcü Sxinvala gedib Rusiyaya keçə bilərdi. Gürcülər və osetinlər ünsiyyət qurur, birlikdə ticarətlə məşğul olur, qohum olurdular. Qarşılıqlı inam bərpa edilmişdi. Sxinvalda artıq gürcü dili eşidilirdi. Yəni yaxınlıq perspektivləri mövcud idi. Abxaziyada da Erqneti bazarına oxşar bir yer yaradıb abxazları maraqlandırmaq lazım idi. Əlbəttə ki, qanunsuzluğun, narkotik və silahların yayılmasının qarşısı alınmalı idi. Lakin narkotiklərin satışına görə bazarı bağlamaq lazım deyildi[10].

Mənbə 9 Erqnetidən Şalva Kasradze adlı qaçqının fikri (82 yaş)

Mənim fikrimcə, Erqneti bazarının bağlanması səhv deyil, cinayətdir. İnsanların məşğuliyyəti vardımı? Məhz birgə fəaliyyət aramızda yaxın və dostluq münasibətlərinin bərpa edilməsi üçün zəruri şərt idi. Bazarı korrupsiya ilə mübarizəyə görə bağladılar. İnsanların işini əllərindən almaq — məgər bu, korrupsiya ilə mübarizədir[11]?

Mənbə 10 Erqneti bazarında ticarət haqqında

Erqneti bazarı Sxinval şəhəri və Qori rayonunun Erqneti kəndi arasında “Qızılgül inqilabı”na[12] qədər 7 il ərzində fəaliyyət göstərib. Bazarda, əsasən, Rusiyadan gətirilən aksizsiz[13] benzin, qənd, siqaret, un və buğda satılıb. Həmçinin digər, əsasən, qaçaqmalçılıq malları da satılıb: meyvə, dən, tərəvəz və s. Aralarında münaqişə olan osetin və gürcülər ünsiyyətdə olub yaşam üçün mühüm olan ərzaqlarla alış-veriş ediblər. Onların münasibətindən görünürdü ki, barışıq resursları hələ tükənməyib[14].

---

[7] Gürcüstanın pul vahidi.

[8] Ermənistanın pul vahidi.

[9] Xelsinki Vətəndaş Assambleyasının Gəncə ofisinin materialı. Sadaxlı. Cənubi Qafqazın güzgüsü və modeli. — Giriş rejimi: http://hcav.am/attachments/5d061sadakhlo [1].pdf.

[10] Высказывание независимого эксперта Закареишвили Паата в газете «Резонанси», 23 марта 2008г. — Sitat: Как мы жили вместе в Грузии в XX веке. — Тбилиси, 2011. — С. 13.

[11] Sitat: Как мы жили вместе в Грузии в XX веке. — Тбилиси, 2011. — С. 13.

[12] Qızılgül inqilabı 2003-cü ilin noyabrında Gürcüstanda baş vermiş inqilabdır. İnqilabın əsas səbəbi 2003-cü il noyabrın 2-də keçirilən Parlment seçkilərində baş vermiş saxtakarlıqdır. İnqilab zamanı Prezident Eduard Şevarnadze səlahiyyətlərini yerə qoyub, hakimiyyət Mixail Saakaşvilinin rəhbərliyi altında müxalifət qüvvələrinə keçib.

[13] Aksiz əsasən çoxişlədilən mallara şamil edilən dolayı vergidir (tütün, çaxır və s.). Satış qiymətinə daxil edilir və, faktiki olaraq, alıcı tərəfndən ödənilir. Aksiz müasir ölkələrin dövlət büdcəsinin mühüm gəlir mənbəyidir. Bir çox mallar üzrə aksizin ölçüsü malın dəyərinin yarısını, bəzən isə 2/3-ni təşkil edir.

[14] Леван Себискверадзе. Откроется ли Эргнетский рынок? 23.01.2013 (gürcü dilində). — Giriş rejimi: http://www.humanrights.ge/index.php?a=main&pid=16198&lang=geo.

Mənbə 11 İngiltərəli jurnalist Qafqazda sərhədyanı ticarətin əhəmiyyəti haqqında

Qafqaz kiçik, qeyri-stabil bir regiondur. Gürcüstan, Ermənistan və Azərbaycanda, həmçinin Rusiyanın ərazisi olan Şimali Qafqazda yaşayan millətlər vahid regionun qurulması məqsədilə özləri əməkdaşlığa can atmalıdırlar... Qafqaz əhalisi şansı əlindən buraxmamağa və biznesin aparılması imkanlarından həmişə istifadə etməyə çalışır. İki bazarın tarixi bunun bariz nümunəsidir. Birincisi Erqnetinin yaxınlığında, bilavasitə Cənubi Osetiya ilə inzibati sərhədin yanında fəaliyyət göstərirdi... [İkincisi] Gürcüstanla Ermənistan sərhədində, Sadaxlı kəndində idi: Gürcüstan ərazisində fəaliyyət göstərən bir gürcünün də gözə görünmədiyi Azərbaycan-Ermənistan bazarı. Azərbaycanlılar Ermənistandan gələn malları, ermənilər sonra Yerevanın bütün dükanlarda satılan Azərbaycandan gələn malları alırdılar. Hökümətin təzyiqi nəticəsində bazar məhdudlaşdırıldı, lakin təmamilə bağlanmadı. Bu, etnik əməkdaşlığının ləğv edilməsinin daha bir nümunəsidir.

Hüquqi baxımdan bu haqlı, qanuni addım idi, lakin, münaqişələrin tənzimlənməsi üzrə keçmiş nazir Qiorqi Xaindravanın sözlərinə görə, "əgər Erqneti bazarı olmasaydı, onu fkirləşib yaratmaq lazım idi". Ola bilər ki, bu bazar Qafqaz regionunun ticarətlə məşğul olan bütün xalqları arasında etibarın bərpa edilməsi prosesində ən miqyaslı tədbir idi. Ola bilər ki, yeni müharibəyə doğru hərəkət bu bazarın bağlanması günü başladı.

Siyasət ayrı bir prosesdir. Ümumi iqtisadi maraqlar və təhlükəsizlik [tələbləri] isə birgə inkişaf etməlidir. Cənubi Qafqaz incə mexanizmdir. Burada baş verən bir qırılma bütün mexanizmə təsir edir[15].

4. R i o ə l i s i s ə h ə y n b z l n
o h n s ı ə l ə ə

5. F o
s x h n s ı v ə ç

6. S

[15] თომას დი ვალი, კავკასია: გატეხილი რეგიონი, ლონდონი, დეკემბერი 2008. [Elektron resurs] Томас ди Валь. Кавказ: поломанный регион. Лондон, декабрь 2008 года. — Giriş rejimi: http://foreignpressge.blogspot.com/2008_05_01_archive.html (Gürc dilindən tərcümə — Y. Medzmariaşvili).

Mənbə 12 Sərhədyanı bazarda ticarət...

Mənbə 13 Sərhədyani bazarda ticarət...

Mənbə 14 Gürcüstanın Azərbaycan konqressinin sədri Babayev Əli Sadaxlı bazarının bərpası ideyası haqqında

Gürcüstan hökümətinin sərhədyanı əraziyə nəzarət edib qaçaqmalçılıq faktlarının qarşısını almağa gücü çatmadı. Onda mən başa düşmürəm ki, nizam-intizam yaratmağı bacarmayan bu qədər sərhədçi hökümətin nəyinə lazım idi. Qoy bazarı bərpa edib sərhədə nəzarət etsinlər, onlar bunu bacarırlar. Lakin qeyd etmək lazımdır ki, qaçaqmalçılıq problemi bazarın bağlanması ilə aradan qaldırılmadı. Hətta bu gün, bazarı nəzərə almayaraq, qeyri-leqal məhsulun mübadiləsi mövcuddur.

...Bazar bağlanandan sonra sərhədyanı ərazilərdə yaşayan sakinlərin əksəriyyəti xaricə işləməyə yollandı. Banklardan kredit götürən insanlar onları ödəyə bilmədiklərinə görə onların əmlakı müsadirə edildi. Dövlət onların heç olmasa məişət şəraitinin yaxşılaşdırılması üçün heç bir addım atmır. Bazarı bağladılar, lakin onun yerinə insanlara alternativ iş yerləri təklif etmədilər[16].

Mənbə 15 Yerli sakinlər Erqneti bazarının bərpa edilməsi perspektivləri haqqında

Yerli əhalinin sözlərinə görə, Erqneti bazarının həm müsbət, həm də mənf tərəf əri vardı. Onların fkrincə, əgər bazar bərpa edilsə, məhsullara aksizlər Erqneti kəndinin özündə qoyulmalıdır, çünki, əks təqdirdə, qaçaqmalçılığın sürətli artması olacaq, bazar isə korrupsiyanın yeni bir mənbəsinə çevriləcək.

Zaza Kaxabrişvili, Liaxvi dərəsinin sakini: "Ucuz qiymətlərə görə bütün Şərgi Gürcüstanın əhalisi Erqnetidə un, qənd və digər ərzaqlar alırdı. Biz, yerli sakinlər bazarın açılmasını dəstəkləyirik, baxmayaraq ki, 1990-cı illərdə olduğu kimi, Sxinvaldan ərzaqlarla bərabər narkotiklərin də gətiriləməsini heç istəmirik. O zamanlar bura gətirilən narkotiklərə görə gürcü və osetin gənclərinin çoxusu narkomaniyanın qurbanlarına çevrildi".

Qiorqi Kasradze, Erqneti kəndinin sakini: "...Mənim ailəm o dövr haqqında heç bir müsbət şey xatırlamır. Gecələr evdən çıxmaq olmurdu, çünki Erqnetidə dərəbəylik idi, və kimin nə ilə məşğul olduğunu müəyyən etmək olmurdu. Bir dəfə tanış osetinlər qırx ton benzin ilə doldurulmuş "Kamaz"ı saxlamağı xahiş etdilər. İkinci gecə maskalar geymiş yad adamlar gəlib maşını da, evdə olan bütün pulu da əlimizdən alıb getdilər. Bu cür hadisələrin təkrarlanmasından qorxuram. Biz indi də müdaf əsizik. Sonra nə baş verəcək, Allah bilir..."

Birmənalı olmayan münasibətə baxmayaraq, münaqişə zonasına yaxın gürcü kəndlərinin sakinlərinin əksəriyyəti Erqneti bazarının bərpası perspektivini müsbət qiymətləndirir. Onların fkrincə, bazar müharibə və ədavətdən qat-qat yaxşıdır[17]!

[16] ნონა სალაღაია, სადახლოს მოსახლეობა „საზღვრისპირა სავაჭრო ცენტრის" გახსნას ითხოვს, 23.04.2009 (Н.Салагая. Население Садахло требует восстановление «приграничного торгового центра»). — [Elektron resurs]. — Giriş rejimi: http://www.humanrights.ge/index.php?a=main&pid=7612&lang=geo. (Gürcü dilindən Y. Medzmariaşvilinin tərcüməsi).

[17] [Elektron resurs] Леван Себискверадзе, Откройтся-ли Эргнетский рынок? 23.01.2013 (на груз.). — Giriş rejimi: http://www.humanrights.ge/index.php?a=main&pid=16198&lang=geo. (gürcü dilindən Y. Medzmariaşvilinin tərcüməsi).

Mənbə 16 Bazar və sakinlərin həyat tərzi

2007-ci ildə bazar bağlandı. Bu o demək idi ki, yerli sakinlər buna hələ hazır olmadığı halda yenidən kənd təsərrüfatı ilə məşğul olmalı idi. Bazarın uzun müddət mövcud olması Sadaxlı əhalisinin həyat tərzini təmamilə dəyişdirmişdi. Sakinlər bazardan əldə etdikləri gəlirə o qədər öyrəşmişdilər ki, bu gün də nə vaxtsa onlar üçün adi olan təsərrüfat işlərinə həvəssiz yanaşırlar[18].

7. S
, v ə s y ə ə)?

8. F o
s
v?

Mənbə 17 Ermənilər və azərbaycanlılar arasında ticarət əlaqələri kəsilmir...

Səhər saat 8-də sərhədçilər qapıları açır, və iri torbalarla yüklənmiş 1000 nəfərdən artıq kütlə Ermənistanın Baqtataşen kəndindən qonşu Gürcüstanın Sadaxlı kəndinə yola düşür. Bəziləri növbəsiz keçməyə cəhd göstərsə də, Gürcüstan sərhədçiləri onları geri qaytarır... Qapıdan keçdikdən sonra ticarətçilər gürcü kəndi Sadaxlıda yerləşən böyük beynəlxalq bazara daxil olurlar. Sadaxlı bu bazardan başqa heçnə ilə seçilmir və Ermənistan və Azərbaycanla həmsərhəd ərazidə yerləşir. Sadaxlı bazarı unikal hadisədir. O, Ermənistan və Azərbaycan arasında uzun illərdir ki, Dağlıq Qarabağ ərazisi uğrunda mövcud olan münaqişəyə və iki ölkə arasında rəsmi əlaqələrin kəsilməsinə, Gürcüstanda baş verən "Qızılgül inqilabı" və qaçaqmalçılıqla aparılan mübarizəyə baxmayaraq azərbaycanlılar və ermənilər üçün yükboşaltma məntəqəsi olaraq qalır. Bazarın bağlanılması haqqında israrlı şayələr özünü doğrultmadı. Bazara rəhbərliyi gürcülər edir, alıcıların 95 %-ni isə ermənilər təşkil edir. Ermənistanın Dövlər gömrük komitəsinin məlumatına görə, hər həftə bu bazara 5500-dək insan gəlir. Rəsmi məlumatlara əsasən, 2004-cü ildə bu yolla Ermənistana 1,8 milyon dollarlıq mal gətirilib. Real rəqəmlər isə, yaqin ki, bundan qat-qat yüksəkdir[19].

[18] Погосян Анна. Садахло как нейтральная зона армяно-азербайджанских контактов: использование торговли в качестве средства для трансформации конфликта. — [Elektron resurs] «Кавказский выпуск». — Giriş rejimi: http://caucasusedition.net/ru/blog/садахло-как-нейтральная-зона-армяно-а/.

[19] [Elektron resurs] «Кавказский узел». — Giriş rejimi: http://www.kavkaz-uzel.ru/articles/79267/?print =true.

Mənbə 18 Keçmiş diplomat sərhədyanı ticarətin Gürcüstan üçün iqtisadi nəticəsi haqqında

Qiqi Kublaşvili, Gürcüstanın Özbəkistan və Tacikistanda keçmiş səfiri, Sxinval regionunda münaqişənin tənzimlənməsi məsələləri üzrə işləyən şəxs: "Bazar yalnız Rusiyanın mafoz klanlarını və separatçıları zənginləşdirəcək və, ən əsası, Gürcüstanın iqtisadiyyatına böyük zərər yetirəcək. Erqneti adlanan bazarın fəaliyyəti zamanı (2004-cü ilədək) qeydə alınmamış, gömrüksüz, o cümlədən dövlət üçün strateji əhəmiyyət kəsb edən məhsulun gətirilməsinə görə Gürcüstan büdcəsi milyardlarla dollar itirirdi.

Erqneti adlanan bazar ilə bilavasitə bağlı olan kriminalı xüsusilə qeyd etmək lazımdır. Məhz buradan narkotik maddələr daxil edilir və oğurluq maşınlar çıxarılırdı. Yalnız bu misal narahatçılıq üçün bəs edir"[20].

Mənbə 19 Britaniyalı tədqiqatçının kitabından

2001-ci ilin martında Ermənistanın maliyyə naziri Vartan Xaçatryan Sadaxlı bazarını "korrupsiyanın ocağı və [Ermənistana] qaçaqmalçılıq mallarının gətirildiyi əsas kanal" elan edərək onun bağlanılmasını tələb etdi. Nazirin sözlərinə görə, hər il bu bazardan 300-400 milyon dollar dəyərində vergi ödənilmədən mallar daxil olur, bu isə Ermənistan büdcəsinin bütün gəlirli hissəsinə bərabərdir. Sadə insanlar etiraz edə bilər, çünki Sadaxlı bazarı hökümətlərin etmədiklərini edir: insanlara özünü yedirdib geyindirmək imkanı verir[21].

9. B s ı s iy s ə
s y ı ə ə ə)?

10. S

Mənbə 20 Sadaxlı bazarının gələcəyi haqqında

"Qafqaz ticarət sərmayə mərkəzi" MMC-nin əsası 2010-cu ildə qoyulub. 2012-ci ildə bu şirkət təxminən 6000 müxtəlif millətlərdən olan insanı işlə təmin edən Sadaxlı kəndində bazarın bərpasında maraqlı olduğunu bildirib.

Bu şirkətə 50000 kv km torpaq sahəsi məxsusdur ki, burada tezliklə 15000 kv m sahəsi olan ticarət mərkəzi inşa ediləcək[22].

[20] Эргнетский рынок — самоубийство экономики Грузии?! [Elektron resurs] «Иверия», 14 ноября 2014 года. Giriş rejimi: http://iveria.biz/615--.html.

[21] Томас де Ваал.Черный сад. Цит. по: Том де Ваал. Заключение. Садахло: будущее. — Веб-сайт BBC. — Giriş rejimi: http://news.bbc.co.uk/hi/russian/in_depth/newsid_4685000/4685199.stm.

[22] [Elektron resurs] Facebook «Sadakhlo-Mall». — Giriş rejimi: https://www.facebook.com/pages/Sadakhlo-Mall/130432473807578.

Mənbə 21 Bazar regionun inkişaf stimulu kimi

Real həyat şəraiti cəbhənin hər iki tərəfndə olan insanları münaqişənin məntiqinə zidd ticarət əlaqələri qurmağa vadar edən stimul oldu. Məsələn, Ermənistan və Gürcüstan sərhədində azərbaycanlıların yaşadığı Sadaxlıda bazar var idi. Lakin ölkənin ciddi iqtisadi maraqları bu cür proseslərlə bağlıdır. "Ciddi iqtisadi maraqlar" deyəndə mən onu nəzərdə tuturam ki, bu bazarda ticarətin genişlənməsi regionun potensial iqtisadi yüksəlişini və Sadaxlıya bitişik kəndlərdə həyat şəraitinin yaxşılaşdırılmasını təmin edə bilərdi[23].

Mənbə 22 Vətəndaş fəalları Sadaxlı və Erqnetidə bazarların bərpa olunması haqqında

Marneulidən vətəndaş cəmiyyətinin fəalı Zaur Dərqəli: "Yadınızdadırsa, əvvəllər ...Sadaxlıda bazar var idi. Burada ermənilər, azərbaycanlılar və gürcülər bir yerdə ticarətlə məşğul olurdular. "Təkəli prosesi"nin[24] kontekstində sərhədyanı iqtisadi əlaqələrin bərpası sülhün bərqərar olmasına gözəl təkan verəcək".

"Böhranların idarə olunması təşəbbüsü" adlı fn təşkilatının regional layihəsinin meneceri Mixail Mirziaşvili: "Erqneti bazarı münasibətlərin qurulmasına kömək edirdi; az ya çox, tərəfər bir-birinin istəklərindən xəbərdar idi, gürcülər Sxinvala azad daxil ola bilirdi, osetinlər isə iqtisadi və ya digər səbəblərə görə Tbilisiyə gedə bilirdi. Belə cəmiyyətlər arasında qarşıdurmalar yaratmaq çətindir, lakin, buna baxmayaraq, biz onların qarşısını ala bilmədik"[25].

▼ Yekun müzakirə

S

[23] Погосян Анна. Садахло как нейтральная зона армяно-азербайджанских контактов: использование торговли в качестве средства для трансформации конфликта. — [Elektron resurs] «Кавказский выпуск». — Giriş rejimi: http://caucasusedition.net/ru/blog/садахло-как-нейтральная-зона-армяно-а/.

[24] Marneuli rayonunun (Gürcüstan) Sərhədyanı Təkəli kəndində Qafqaz ölkələrinin qeyri-hökümət təşkilatlarının nümayəndələri yığışıb. Onlar müharibə vəziyyətində olan Ermənistan və Azərbaycan dialoqunda iştirak edib.

[25] დავით მჭედლიძე, თექალი — დიალოგის საზღვისპირა კუნძული, (Д. Мчедлидзе. Текали — приграничный остров диалога). — Радио Свобода, 24.07.2012. [Elektron resurs]. — Giriş rejimi: http://www.radiotavisupleba.ge/content/tekali/24655360.html. (gürcü dilindən Y. Medzmariaşvilinin tərcüməsi).

Müasir əmək miqrasiyası və onun cəmiyyətə təsiri

Müasir əmək miqrasiyası Moldova cəmiyyətinə necə təsir edir?

1. ələ ə xıvə y i s s ləiz il.
2. F o

Mənbə 1 Kişinyovda dəmiryol vağzalında qohumlarla görüş.
P. Çerbuşkanın fotosu, 2014[1]

[1] İstirahət və ya məzuniyyət günlərində, milli və dini bayramlar zamanı miqrantlar evlərinə gəlirlər.

Mənbə 2 Miqrant işçilər Moskvada[2]

Blok 1. Miqrantlar öz ümidləri və dövlətlərin siyasəti arasında

◆ İxtisar

Əmək miqrasiyası bütün tarixi dövrərdə baş verən və insan fəaliyyətinin bir hissəsi olan adi prosesdir. Lakin SSRİ-nin süqutundan sonra uzanan islahatlar prosesi Moldova, Ukrayna, Gürcüstan, Ermənistan, Azərbaycan və digər postsovet ölkələrinin iqtisadi inkişafına mənfi təsir göstərdi. Vətəndaşların rifanının azalması ölkənin xaricinində müvəqqəti əmək miqrasiyasının geniş yayılmasına gətirib çıxardı. Bir çox moldavan, ukraynalı, gürcü, erməni, azərbaycanlı və digər ölkələrin nümayəndələri öz həyatlarını yaxşılaşdırmaq üçün xaricə getməyə başladılar.

▼

3. Əmək miqrasiyası ilə əlaqələnən

4. Xarici əməkmiqrasiyasının hansı növləri var?

5. Sizcə, əmək miqrasiyasının hansı müsbət və mənfi cəhətləri var?

6. Müasir əmək miqrasiyasının əsas xüsusiyyətlərini müəyyənləşdirin.

7. Əmək miqrasiyasında Rusiya Federasiyasının, Moldova Respublikasının və digər MDB ölkələrinin rolunu müəyyənləşdirin.

[2] О запрете на въезд в Россию можно узнать по интернету. [Elektron resurs] Газета MD. — Giriş rejimi: http://gzt.md/article/%D0%BE%D0%B1%D1%89%D0%B5%D1%81%D1%82%D0%B2%D0%BE/18144/.

Mənbə 3 Moldova ilə Avropanın xəritəsi (əmək miqrantlarının axınını göstərməklə)



Mənbə 4 Miqrantlar Rusiyanın Moskva vilayətinin FMXİ-nin[3] Əmək miqrasiyası məsələləri şöbəsinə hücum edirlər. Burada onlar işləməyə icazə alırlar[4]

[3] FMXİ — Federal Miqrasiya Xidməti İdarəsi.

[4] Путь гастарбайтера: от вокзала до вокзала. [Elektron resurs] FORBES http://m.forbes.ru/. — Giriş rejimi: http://m.forbes.ru/article.php?id=240561. Veb-resursa müraciət günü 01.04.2014.

Mənbə 5 Harda iş axtarmaq lazımdır?

Rusiya Federasiyasının verdiyi məlumatlara əsasən, hazırda 750 min Moldova vətəndaşı Rusiyada işləyir. Onların çoxusunun işləmək üçün icazəsi yoxdur. Rusiyada qastarbayterlərlə fəal mübarizə başlayıb. Rusiyanın bir çox reqionunda qanunsuz miqrantlar üçün düşərgələr təşkil edilib.

Avropada isə vətəndaşlımızın çoxu leqal yaşayır və işə də Avropa qanunvericiliyinə uyğun düzəlir. Bunun səbəbi heç də Avropa Birliyinə daxil olan ölkələrin Moldova vətəndaşlarına loyal yanaşması deyil: burada moldovalıların bir hissəsinin Rumıniya pasportu var ki, bu da onlara qanuni yaşamağa və işləməyə imkan verir[5].

Mənbə 6 Rusiya Federasiyasının Reqional inkişaf Nazirliyinin başçısı İqor Slünyayevin çıxışından

Qarşımızda duran əsas problem depopulyasiyadan[6]. çıxmaqdır. Əgər biz depopulyasiya problemini həll etməsək, qalan problemlər zaman keçdikcə öz aktuallığını itirə bilər. Bu problemin həlli üsullarından biri də miqrantların, bizim həmvətənlərimizin axınıdır. Keçmiş Sovet respublikaları böyük miqrasiya potensialına malikdirlər. Mən SSRİ-nin süqutundan sonra xaricdə qalan həmvətənlərimizin köçürülməsi proqramı çərçivəsində tənzim edilən leqal miqrasiyanı nəzərdə tuturam. Əfsuslar olsun ki, əmək miqrasiyasının axınları hələ də tənzimlənmir. Bu hal çox vaxt öz neqativ təsirini göstərir, kriminogen durumu və millətlərarası münasibətləri çətinləşdirir[7].

Mənbə 7 Moldova hökümətinin keçmiş əmək miqrantlarına dəstək üzrə fəaliyyət planından

Moldova hökuməti xaricdə işləyən həmyerlilərimizi evə qayıtmağa və ölkənin inkişafına öz töhfələrini verməyə yenidən dəvət edir. Əmək miqrantlarının qayıtma prosesini stimullaşdırmaq məqsədilə Əmək nazirliyi 2016-cı ilədək fəaliyyət planı hazırlayıb. Bu planda dünənki qastarbayterlərə dəstək olmaq üçün bir sıra tədbirlər nəzərdə tutulub.

Fəaliyyət planında sosial, tibbi və təhsil xidmətlərinin yaxşılaşdırılması, həmçinin Moldova Respublikasında işə düzəlmə imkanları haqqında vətəndaşların daha dolğun məlumatlandırılması nəzərdə tutulur. Bundan əlavə, hökümət dairələri vətəndaşların miqrasiya və inteqrasiyası məsələlərinə dair konsultasiya verən xüsusi ofslərin təşkilini planlaşdırır. Bu ofslər əhalinin ərazi məşğulluq aqentlikləri nəzdində yaradılacaq. Əmək miqrantlarının qayıtmasını stimullaşdıran digər tədbir onların xaricdə işləmələrindən əvvəl və ya işləyən zaman yiyələndikləri ixtisaslar və bacarıqların tanınması

[5] Судьбы мигрантов. [Elektron resurs] http://www.puls.md. — Режим доспупа: http://www.puls.md/ru/content/sudby-migrantov. Adaptasiya olunmuş mətn. (rus dilində) Veb-resursa müraciət günü 01.04.2014.

[6] Depopulyasiya hər-hansı bir ölkə və ya ərazinin əhalisinin tam sayının sistematik azalmasıdır.

[7] Россия ждет из СНГ соотечественников, но не нерегулируемую трудовую миграцию. [Elektron resurs] http://www.newsmoldova.ru. — Giriş rejimi: http://www.newsmoldova.ru/society/20130212/193004457.html. Adaptasiya olunmuş mətn. Veb-resursa müraciət günü 01.04.2014.

olmalıdır. Əmək, sosial müdafə və ailə nazirliyinin məlumatlarına əsasən, xaricdə işləyən vətəndaşlarımızın 60%-i vətənə qayıtmaq istəklərini bildiriblər[8].

Mənbə 8 Moldova Respublikasının Almaniyadakı səfirliyinin saytında 2013-cü il 8 fevral tarixində yerləşdirilən məlumatından

İqtisadiyyatın inkişafına yönəlmiş pul köçirmələrinin cəlb edilməsi üzrə "PARE 1+1"[9] proqramı 2015-ci ilədək üzadılıb.

Moldova Respulikasının hökuməti Moldovada biznesin açılması və ya inkişafı üçün sərmayə yetirmək istəyən miqrantlar və onların birinci dərəcəli qohumları üçün "PARE 1+1" proqramını uzadıb.

Proqram 1+1 prinsipi ilə yerinə yetirilir, yani pul köçürmələrindən gələn hər 1 ley[10] üçün proqramdan 1 ley ayrılacaq. Maliyyələşmənin maksimal məbləği 200 min ley təşkil edir. "PARE 1+1" proqramı çərçivəsində ayrılan qrant təməmnasızdır.

Bununla əlaqədar Kiçik və orta biznesin inkişafı təşkilatı xaricdə işləyən Moldova vətəndaşlarını və/və ya onların birinci dərəcəli qohumlarını fevralın 5-dən "PARE 1+1" proqramında qeydiyyatdan keçməyə çağırır[11].

Blok 2. Miqrasiya, ailə və demoqrafiya



[8] Министерство Труда Молдовы разработало план действий по поддержке бывших трудовых мигрантов, 21 апреля 2014, http://news.mail.ru/inworld/moldova/society/17917117/?frommail=1. Adaptasiya olunmuş mətn. Veb-resursa müraciət günü: 25.04.2014.

[9] Proqram əmək miqrantlarını vəsaitlərini Moldovanın iqtisadiyyatına sərmayə kimi yatırmağa cəlb etməyə yönəlib.

[10] Moldovanın pul vahidi.

[11] Moldovanın Almaniyadakı səfirliyinin saytı. — Giriş rejimi: http://www.germania.mfa.md/embassy-news-ru/494034/.

Mənbə 9 Əmək miqrasiyasının intensivliyi

2000–2011-ci illərə baxış əmək miqrasiyasının xeyli artdığını aşkarladı. Müvəqqəti ölkə xaricində iş axtarışında olan Moldova vətəndaşlarının sayı 3,8%-dən 8,3%-dək artıb, əhalinin iqtisadi cəhəttdən fəal hissəsinə nisbətən isə 8,4%-dən 25,2%-dək artım müşahidə olunub (bax — diaqram)[12].

Mənbə 10 [13] Müvəqqəti əmək miqrasiyasının Moldova Respublikası əhalisinin iqtisadi cəhətdən fəal hissəsinə nisbətən dinamikası, 2000–2011-ci illər



Mənbə 11 Miqrasiyanın nəticələri[14]

Moldova əhalisinin ümumi sayından (3,6 million) təxminən bir millionu doğma ölkəsini tərk edib xaricdə işləyir. Onların 66%-i əhalinin 20–40 yaşlı hissəsini təşkil edir. Əmək miqrantlarının çoxu mövsüm işlərinə Rusiyaya (bir qayda olaraq, kişilər, əsasən kənd yerlərindən), İtaliyaya (xüsusən qadınlar) və Yunanıstan, Portuqaliya və İspaniya kimi digər ölkələrə gedirlər.

Mənbə 12 Əmək miqrasiyasının cəmiyyətin social-demoqrafik strukturuna təsiri

Moldova əhalisinin uzunmüddətli əmək miqrasiyası doğum səviyyəsinə mənfi təsir edir. Qazanc dalınca ən fəal əmək qabiliyyəti olan yaşlı gənc əhalinin getməyi cəmiyyətin sosial-qemoqrafik strukturunun pozulmasına gətirib çıxarır. Əhaliniin strukturunda baş verən dəyişikliklər bütün yaşayış məntəqələrində müşahidə edilir, lakin kənd yerləri bu baxımdan daha çox əziyyət çəkirlər.

[12] Марианна Бучучану-Врабие. Трудовая миграция из Молдовы. — [Электронный журнал] Демоскоп Weekly, № 515–516. — Giriş rejimi: http://demoscope.ru/weekly/2012/0515/tema01.php. — Adaptasiya olunmuş mətn. Veb-resursa müraciət günü: 01.05.2014.

[13] Elə orada.

[14] Миграция легальная и нелегальная. — [Elektron resurs] http://2011.europa.md. — Giriş rejimi: http://2011.europa.md/subpagina/arata/32/Migratia%20legala%20si%20ilegala. (Перевод с рум. языка автора). Veb-resursa müraciət günü: 01.05.2014.

Miqrasiya axınlarının istiqaməti və gender üstünlüklərindən asılı olaraq bir çox kəndlərdə əmək qabiliyyəti (reproduktiv[15]) olan yaşda qadın və ya kişilərin mövcud olmaması kütləvi hal alıb. Əmək miqrasiyasına qoşularaq gənc nəsil evliliyi və uşaqların doğulmasını təxirə salır. Əmək miqrantlarının bir hissəsinin həmişəlik işlədikləri ölkələrdə qalmaqları barədə damışmağa bir çox əlamətlər imkan verir. Bu, Moldova üçün birbaşa demoqrafik itkilərdir. Bura həmçinin uşaqların artıq başqa ölkələrdə doğulması kimi dolayı itkiləri də əlavə etmək olar[16].

Mənbə 13 Karbun kəndindən (Yalovenski rayonu) əhalinin miqrasiyası[17]



Mənbə 14 Moldova Elmlər Akademiyasında keçirilən konfransda elmi işçilərin çıxışlarından

Bir problem də var — qəzanc dalınca gedən ana və ya atasız, bəzən isə hər iki valideyinsiz qalan uşaqların vəziyyəti. Valideyn himayəsindən məhrum olan uşaqların qeydiyyatı aparılmır. Onların sayı isə müxtəlif hesablamalara görə 100 mindən artıqdır. Yaşlı insanların sayının artması prosesi gedir. Proqnozlara görə, 2050-ci ilədək yaşlı insanların sayı iki dəfə artacaq[18].

[15] Reproduktiv yaş insanların fizioloji olaraq dünyaya uşaq gətirmək qabiliyyətində olan yaşdır.

[16] Гагауз О.Е. Низкая рождаемости в Молдове. [Электронный журнал] Демоскоп Weekly, № 515–516. — Giriş rejimi: http://demoscope.ru/weekly/2011/0457/index.php. Veb resursa müraciət günü: 25.04.2014.

[17] Трудовая миграция. Национальное бюро статистики. Кишинев. 2012.

[18] Эксперты обсудили аспекты миграции и ее влияние на социальную безопасность в Республике Молдова. — [Elektron resurs] http://ru.sputnik.md. — Giriş rejimi http://ru.sputnik.md/archive/20110616/. Veb-resursa müraciət günü: 26.04.2014.

Blok 3. Miqrasiyanın insanların yaşam tərzinə və rifahına təsiri

Mənbə 15 Miqrasiya proseslərinədək su təchizatı. P. Çerbuşkanın fotosu, 2014



Mənbə 16 Miqrasiya proseslərindən sonra su təchizatı. P. Çerbuşkanın fotosu, 2014



Mənbə 17 Rezen kəndinin sakini İrina Balan ilə müsahibədən[19]

Uşaqlıqdan mən quyudan su daşımışam, adətən 500–700 metr. Bu, adi hal kimi görünürdü, çünki bütün kəndlilər də bu işi görürdülər. Amma vaxt keçdikcə iki vedrə daşımaq çətinləşdi, mən yaşlaşmışam və su vedrələri ağırlaşdı, hətta quyuyun yanına aparan yol da uzun göründü.

Oğlum xaricə işləməyə getdikdən sonra vəziyyət təmamilə dəyişdi. Hər dəfə məzuniyyətə gələndə, evdə və onun ətrafında nəsə dəyişirdi. Əvvəl biz evimizi avrotəmir etdik, sonra isə həyəti abadlaşdırdıq. Bizim mentalitetimiz də dəyişdi. Məsələn, xalçaları daha divara bəzək üçün asmırdıq, yerə sərirdik, və bu mənə daha praktik gəlir. Amma ən xoşagələn hal o idi ki, su evə borular vasitəsilə çəkildi, evdə hamam və tualet tikildi, bu vaxra qədər isə tualet ancaq küçədə idi.

Əlbəttə ki, indi kranı açıb su yığmaq daha asandır, quyudan su daşımaqdan baha olsa belə. Oğluma bizim həyatımızı yaxşılaşdıran dəyişiklər üçün minnətdaram.

[19] 1958-ci il təvəllüdlü İrina Balanla müsahibə. P. Çerbuşka tərəfindən yazılıb. Rezen kəndi, 12 avqust 2014-cü il. (rus dilində).

14. ɜ, ɪ v ə ɪ5 s y lı ı ə ɪt ə ɵ ə æ ɪq ə s s iy s

15. X
ɬşv:iy ii ɪ

Mənbə 18 Ümumdünya bankının Moldova iqtisadiyyatı haqqında materiallarından

2010–2011-ci illərdə pul köçürmələri və sərmayələr daxili tələbatı qızışdırdılar, ixrac çox artdı.

Son illərin iqtisadi inkişafı əhalinin yoxsulluq səviyyəsini azaltdı və qarşılıqlı tərəqqini təmin etdi. Yoxsulluq və ifrat yoxsulluğun dərəcəsi (milli standartlar üzrə) aşağı düşdü. Moldova yoxsulluq dərəcəsinin azaldılmasına görə dünyada lider ölkələrdən birinə çevrildi. Həmçinin əhalinin az təmin olunmuş 40%-i tərəfindən istehlakın artması istehlakın orta səviyyəsinin artmasına təkan verdi... Belə nəticələr həm iqtisadi inkişaf və bununla bağlı əhalinin gəlirlərinin artması, həm də şəxsi pul köçürmələrinin artması ilə izah olunur.[20]

16. ɪ92 s y lı ı ə ɪt ə l ə ə ə s s ɬq
ɨq
iz ɬ ɪi.

Mənbə 19 Xəbərlərdə yayımlanan süjetdən

2013-cü ildə "PARE 1+1"[21] proqramı üzrə bundan əvvəlki il ilə müqayisədə üç dəfə çox layihə maliyyələşdirilib. Üç il ərzində proqram çərçivəsində 300-dən artıq sahibkar qrant şəkilində 53 million ley alıb. Onların əmanətləri isə 160 million ley təşkil edib. Beləliklə, dövlət tərəfindən qoyulan bir ley üç ley şəxsi sərmayə cəlb edib[22].

Mənbə 20 "PARE 1+1" proqramının Müşahidə komitəsinin iclası haqqında məlumatdan

Maliyyələşmə üçün təqdim edilən ərizələrin təhlili onu göstərir ki, əmək miqrantları vəsaitlərini əsasən kənd təsərrüfatına (20 layihə, 38%), xidmət sektoruna (16 layihə, 31 %) və istehsal/emala (13 layihə, 25%) yatırırlar. Turizm sahəsində yalnız 1 ərizə qeydiyyata alınıb[23].

[20] Ümumdünya bankının saytı. — Giriş rejimi: http://www.worldbank.org/en/country/moldova/overview.

[21] "PARE 1+1" proqramı haqqında. Bax — mənbə 8.

[22] Всё больше молдавских мигрантов подают заявки на участие в программе PARE 1+1. Новостной портал publika.md. — Giriş rejimi: http://ru.publika.md/link_1199311.html.

[23] [Elektron resurs] Независимый информационный портал http://www.noi.md/ru. — Giriş rejimi: http://www.noi.md/ru/news_id/32849.

Blok 4. Miqrasiyanın mədəni ənənələrə və insanların şüuruna təsiri

17. [illegible]

◆ [illegible]

Xaricdə işləyərkən moldovalı miqrantların bir çoxu yeni ailələr qurdular. Onlardan bəziləri bu ölkələrdə yaşamaq istədilər və əmindirlər ki, bura onların "evidir". Lakin müxtəlif səbəblərə görə xaricdən qayıdanda miqrantlar iddia edirlər ki, onların vətəni Moldovadır və məhz burada onların əsl evidir.

Evə qayıdan moldovalıları çox vaxt xaricdə münasibət qurduqları yeni dostlar müşayət edir. Çox vaxt yeni dostlar Moldova mədəniyyətindən, mənzərəli yerlərindən, milli mətbəxin elementlərindən, milli və ya yerli bayramlardan ("Bayraq günü", Mertsişor", "Şərab bayramı" və s.) xəbərdardırlar. Xaricdə onlar milli üslubda yeməklər bişirir, suvenirlər hədiyyə edir, milli kostyumlar geyinir, konsert və prezentasiyalarda iştirak edirlər.

Mənbə 21 2014-cü il mart ayının 1-də Hollandiyada moldovalı miqrantlar Mertsişor[25], hazırlamaq üçün emalatxana təşkil etdilər, sonra isə hazırladıqları bəzək əşyalarını Hollandiyadan olan dostlarına hədiyyə etdilər. 2014[26]

18. [illegible]

[24] Resipiyent ölkələr miqrantların köçdüyü ölkələrdir.

[25] Mertsişor (Mărţişor rum. Martie (Martiye) — «Mart») Moldovada baharın gəlişi münasibətilə keçirilən ənənəvi bayramdır. Mart ayının 1-də qeyd edilir. İnsanlar bir-birinə ağ və qırmızı rəngdə saplardan hazırlanmış geyim üçün bəzək əşyaları hədiyyə edirlər. Bu bəzək əşyaları da "mertsişor" adlanır.

[26] Moldova dövlət dəftərxanası nəzdində fəaliyyət göstərən Diasporlar ilə əlaqələr üzrə büronun rəhbəri Viktor Lutenkonun fotosu.

Mənbə 22
Pasxa bayramında evə gələn miqrantların qohum və dostlar ilə görüşü. (Rezen kəndi, Yaloven rayonu, Moldova Respublikası). P.Çerbuşkanın fotosu, 2013

19. Ⅹ v ə Ⅺ s y ı ə t ə l ə i q ə t ə m ı v ə

20. D
üçü Ⅹ s y ı ə t ə ə ı i s

21. Ⅹ v ə Ⅺ s y ı ə t ə l ə ə ə s s
ı ə s ə l i s ə t ə l ə i i z h i. M

Mənbə 23 **Moldovalı emiqrantın Aquarelle jurnalına verdiyi müsahibədən, 2006-cı il, may**[27]

— N ə b i l i rs i
mal i k o lmaq la z

— Mən Hollandiyada artıq yeddi il, ümumiyyətlə xaricdə isə on ildir ki, yaşayıram. İndi Hollandiya mənim evimdir. Əlbəttə, mən heç vaxt hollandlar üçün "özünki" ola bilməyəcəm, amma bu mənə heç lazım da deyil. Mənim üstünlüyüm ondadır ki, mən onların həyatını bilir və qəbul edirəm. Lakin mən başqa ölkələrdə də yaşamışam. Məsələn, mən tez-tez hollandlar üçün bir növ maarifçi oluram. Axı onlardan bəziləri Moldovanın nə olduğunu çox zəif təsəvvür edir.

— S i z ə ı axtsa M

— Bu haqda bir məqalə yazmaq olar, bu qədər fərqli ölkələrdir. Lakin hər ikisi özünə görə gözəldirlər. Hollandiya məni həmişə müxtəli f iyi ilə cəlb edib. Bu, son dərəcə gözəl ölkədir. Belə alındı ki, mən hələ Kişinyovda yaşayarkən tərcüməçi qismində bir çox hollandlılarla işləmişəm. Hollandlılar olduqca məsuliyyətli insanlardır və bu, mənim çox xoşuma gəlir. Onlar təbiətə, əşyalara, ətraf arında olan hər bir şeyə nə qədər incə

[27] Лучия Цуркан: Голландия стала для меня вторым домом. Адаптированный текст. http://www.aquarelle.md/персонажи/_Лучия_Цуркан%3A_Голландия_стала_для_меня_вторым_домом/?lg=ro Giriş rejimi — http://www.aquarelle.md/ Veb-resursa müraciət günü: 25.04.2014.

yanaşırlar! Elə buna görə də, yəgin ki, onlar şəxsiyyətə də olduqca qayğı ilə yanaşırlar. Birdə ki, onlar çox təvəzökardırlar. Hollandlılar xaricilərlə mehriban davranırlar. Burada nə kompleks, nə də ki, çox ciddi qaydalar var. Məsələn, vətəndaş nigahına münasibət sadəcə loyal deyil, Hollandiya cəmiyyəti üçün bu bir normadır. Heç kəs sənə necə yaşamaq haqqında diktə etmir. Hər kəsin seçim haqqı var.

Əgər hər şeyi əvvəldən başlamalı olsaydım, mən yenə məhz belə edərdim. Əlbəttə, bizim təpələrimiz, mənzərələrimiz üçün darıxıram. Lakin Hollandiyanı sevirəm, o, mənim ikinci evim oldu.

Mənbə 24 Moldovalı emiqrantın “Kişinyov xəbərləri” qəzetinə İtaliyadakı yaşayış haqqında verdiyi müsahibəsindən, 2011-ci il sentyabrın 16-sı

— S ə d d

— İtaliya sürprizlərlə doludur. Bu, zəngin mədəniyyəti olan ölkədir. Böyük diqqət gənclərə yetirilir. Lakin get-gedə başa düşürəm ki, burada mən bizim kimi, yani rus təbiətli insan tapa bilməyəcəm. Bizim mentalitetimiz italyanlarınkından olduqca fərqlidir.

— A

g ə l d i m i

— Qohumlara gəldikdə, onlar mənim üçün elə həmin insanlar olaraq qalıblar. Dəyişsələr də, yaxşılığa doğru dəyişiblər. Sözsüz ki, mən şəhərimizin dəyişilməsini görürəm. Yeni binalar tikilir, Kişinyov müasirləşir və bu məni sevindirməyə bilməz. Lakin burada qiymətlər praktiki olaraq, İtaliyadakı kimidir, bəlkə də daha yüksəkdir. Bu insanı kədərləndirir[28].

Mənbə 25 Miqrasiyanın nəticələri[29]

Положительным последствием миграции является то, что мигранты отправляют домой деньги (денежные переводы составляют 25% национального ВВП[30]), меняется менталитет людей, особенно мышления молодого поколения, образуется новая культура труда. Молодые люди становятся более мотивированы для того чтобы выучить иностранные языки, выучиться за границей, быть более терпимыми по отношению к другим культурам, они хотят начать свой бизнес и участвовать в развитии общества по западным образцам.

Yekun müzakirə

M i s iy ə

M i s iy s ı y v ə ə

[28] Мурзакова Ирина. «Милан стал для меня вторым домом» — elektron qəzet «Кишиневские новости» — http://kn.md. — Giriş rejimi — http://kn.md/Milan-stal-dlya-menya-vtoryim-domom. Son baxış 25.04.2014.

[29] Миграция легальная и нелегальная. Перевод с румынского языка. — Giriş rejimi: http://2011.europa.md/subpagina/arata/32/Migratia%20legala%20si%20ilegala Resursa müraciət günü: 01.05.2014.

[30] ÜDM (Ümumi daxili məhsul) bütün bir il ərzində ölkə daxilində iqtisadiyyatın bütün sahələrində son əmtəə və xidmətlərin (yani bilavasitə istifadə üçün ayrılmış) ümumi dəyəridir.

Əmək miqrasiyası və ailə

Əmək miqrasiyası ailəyə necə təsir edir?

1. İ- c i f o

2. A

ə y i s v o şl ə ?

Mənbə 1 **Areik öz köhnə evinin qabağında durub (sağ tərəfdə), Rusiyada qazandığı pullarla isə yeni ev tikir**[1]

Tarixi məlumat

Müasir dünyada əmək miqrasiyasının rolu get-gedə artır. BMT-nin məlumatına əsasən, 2014-cü ildə təxminən 214 milyon insan doğulduğu ölkədən kənarda yaşayıb. Miqrasiyaların bir çox növü iqtisadi səbəblərə görə baş verir.

Bir çox tədqiqatlar onu göstərir ki, əmək miqrasiyası problemi Qara dəniz regionu ölkələrində də mövcud olan əsas problemlərdən biridir. Hər il Ermənistan, Gürcüstan, Azərbaycan, Ukrayna və Moldovadan olan minlərlə insan öz ölkələri və ailələrini tərk edərək qazanc dalınca gedirlər.

Ermənistandan Rusiyaya və Sovet İttifaqının digər respublikalarına əmək miqrasiyasının tarixi hələ sovet dövründə başlayıb. O zamanlar ermənilər mövsüm işləri, xüsusilə də tikinti işlərilə məşğul olmaq üçün başqa ölkələrə gedirdilər. 1988-ci ilin dekabrında baş vermiş dəhşətli zəlzələ Ermənistanda miqrasiya dinamikasını müəyyən edən ən böyük təkanlardan biri oldu. 1990-cı illərin əvvəllərində baş verən Sovet İttifaqının süqutu,

[1] Гаянэ Абрамян и Юстина Мельникевич Армения: Женский мир в одном высокогорном селении. — [Elektron resurs] http://russian.eurasianet.org. — Giriş rejimi: http://russian.eurasianet.org/node/58583 6 saylı təsvir.

regionda millətlərarası konfiktlər, o cümlədər Qarabağ konfikti, həmçinin Türkiyə tərəfndən sərhədlərin blokadası ölkəni ağır sosial-iqtisadi vəziyyətə gətirib çıxardı ki, bunun nəticəsində Ermənistandan yeni miqrasiya axınları əmələ gəldi. Ermənistandan olan miqrantların 93,5 %-i kişilərdir, onlardan cəmi 6,5 %-i qadınlardır. Miqrasiya 21–55 yaşlı iqtisadi fəal əhali arasında ən yayılan prosesdir.

Əmək miqrasiyası yalnız iqtisadiyyatda və sosial-siyasi sahədə baş verən dəyişikliklərə səbəb olmur, həmçinin o, ailə münasibətləri mədəniyyətinin transformasiyasına və sosial rolların paylanmasında baş verən dəyişikliklərə gətirib çıxarır. Mədəni mübadilə və dialoq, karyera və peşə bacarıqlarını yaxşılaşdırmaq imkanları, həmçinin ailələr üçün daha yaxşı maddi şəraitin yaranması — bütün bunları miqrasiyanın müsbət tərəfəri saymaq olar. Eyni zamanda, müsbət tərəfərlə yanaşı mənf cəhətlər də əmələ gəlir, xüsusilə də ailə münasibətləri səviyyəsində.

Blok 1. İnsanlar niyə gedir

3. [illegible]

4. [illegible]

Mənbə 2 Marmaşen kəndindən olan Qoar adlı 14 yaşında qız ilə müsahibədən[2]

S.: Necə düşünürsünüz, Sizin atanız qazanc dalınca niyə gedib?

C.: Mənim atam bizim yaxşı yaşamağımız üçün gedib. O, işləyib bizə pul göndərir. Biz bu pula yeni əşyalar, geyim, yəni bizə lazım olan hər şey alırıq.

Mənbə 3 Kənd yerlərindən miqrasiya haqqında

Qazanc daınca ən çox əmək miqrantı Qeqarkunik[3] vilayətindən gedir — 243 min əhalinin təxminən 8 %-i. Qeqarkunikdə qalan kişilər üçün elə də çox iqtisadi imkan yoxdur. Vilayətin 49 yüksək dağ kəndlərində kənd təsərrüfatı ilə məşğul olmaq imkanları azdır: burada qış yarım ilədək davam edir. Vilayət sakinləri üçün qazanc yerləri olan sovet dövründə tikilən sənaye müəssisələri isə çoxdan bağlanıb.

<…> Şirak regionunun Azatan kəndindən olan Artyom 1993-cü ildən Yakutiyada işləyir. Bu vaxt ərzində 1988-ci ilin zəlzələsi nəticəsində dağıdılmış köhnə evinin

[2] R. Saturyan tərəfndən Şirak rayonunun Marmaşen kəndində "Ümuni tarix, mədəni dialoqlar" layihəsi üçün 2014-cü ildə yazılan müsahibələr.

[3] Ermənistanın şərqində yerləşən vilayət, ölkənin ən iri ərazi-inzibati vilayəti.

yerinə böyük ev tikdirə bilib. Həmçinin Ermənistanın hüdudlarından kənar qazandığı pulların hesabına onun üç qızı universitetdə təhsil alır. Artyomun xanımı deyir: “Əgər Artyom

Rusiyada işləməsə idi, biz bunların heç birini edə bilməzdik. Hər il bizə uşaqların təhsili və təsərrüfat ehtiyyacları üçün 12.000$ lazımdır”[4].

Mənbə 4 Ermənistanın Ərazi idarəetməsi Nazirliyinin Miqrasiya xidmətinin rəisi Qaqik Yeqanyan ilə Ermənistandan əmək miqrasiyası haqqında müsahibədən

Miqrasiya axınlarının içində əmək miqrantları üstünlük təşkil edirlər. Dörd miqrantdan üçü qazanc dalınca qetməyinin əsas səbəbi kimi ya iş yerinin olmamasını, ya müvafq maaş səviyyəsilə iş yerlərinin olmamasını, ya ixtisasına uyğun iş tapa bilməməsini, ya da ki, bizneslə bağlı yaranan çətinlikləri qeyd edir. Miqrasiya axınlarının qiymətləndirilməsinə aid tədqiqatlara əsasən demək olar ki, 90-cı illərdən bağlayaraq Ermənistandan təxminən 1 milyon 300 min insan mühacirət edib.

<…> Məlumdur ki, ermənilər yaxşı inşaatçıdırlar, miqrantların təxminən 60–65 %-i tikinti sahəsində işləyir. Çoxsaylı vətəndaşlarımız xidmət sektoru, ticarət, nəqliyyat sahəsində çalışır. Amma onların əksəriyyəti tikinti biznesi ilə məşğuldur[5].

Blok 2. Blokun adını fkirləşin

5. [illegible]

6. [illegible]

7. [illegible]

[4] Г. Абрамян, Ю. Мельникевич. Армения: Женский мир в одном высокогорном селении. — [Эл. ресурс] Euroasia http://russian.eurasianet.org/. — Giriş rejimi: http://russian.eurasianet.org/node/58583.

[5] Элина Казарян. Основной вектор мигрантов из Армении направлен в сторону России. — [Эл. ресурс] «Окно в Россию» http://windowrussia.ruvr.ru/. — Giriş rejimi: http://windowrussia.ruvr.ru/2013_12_10/Osnovnoj-vektor-migrantov-iz-Armenii-napravlen-v-storonu-Rossii-0714/.

Mənbə 5 Bayram süfrəsi, Aştarak şəhəri, 2004-cü il, noyabr[6]

Mənbə 6 Erməni qadınlarının fikri

Hər il 8 mart Beynəlxalq qadınlar günü Dzoragüh[7] erməni kəndində məlum qara yumor hissi ilə qeyd edilir. Kəndin kişi əhalisinin 98%-i (bu isə beşminlik əhalinin təxminən yarısını təşkil edir) qürbətə qazanc dalınca gedib. Qalan sakinlər bu yaşayış məntəqəsini "qadın klubu" adlandırır. Burada qadınlar hər bir işlə məşğul olur: torpaq becərir, uşaq böyüdür, ölənləri dəfn edir və necəsə, yalnız öz daxili gücünün sayəsilə, ayrı yaşayan ailələrini qoruyub saxlayır. Miqrantların əksəriyyəti, əsasən kişilər, hər ilin payızında evə gəlir.

Məktəb direktoru, dörd uşaq anası Yeriknaz Xaçatryan deyir: "Hər dəfə onun dalınca qapını örtəndə mənə elə gəlir ki, evin divarları dağılır". Hər ilin yazında onun əri Moskvaya gedir, o özü isə həm şumlayır, həm becərir, həm inək və donuzlada baxır. "Bütün ev işləri mənim üzərimə düşür, ən pisi isə odur ki, bilmirsən, ərin geri qayıdacaq ya yox".

Rus dili müəlliməsi işləyən Laura Ovanisyan əlavə edir: "Kənddə qadın olmaq çox çətindir. Biz torpağa bağlıyıq, kişi işini də görürük, bizim ərlərimiz isə kənd həyatına qayıda bilmirlər"[8].

[6] A. Qriqoryanın ailə arxivindən.

[7] Dzoragüh Ermənistanın şərgində, Sevan gölünün yaxınlığında yerləşən kənddir.

[8] Армения. Кошмары женщин села Дзорагюх. — [Эл. ресурс] «Armenia Today». — Giriş rejimi: http://armtoday.info/default.asp?Lang=_Ru&NewsID=40285&SectionID=33&RegionID=0&Date=05/15/2011&PagePosition=4.

Mənbə 7 Yeni iş yerində[9]

Mənbə 8 Avaq şalvarını ütüləyir. Evdə bu işi xanımı görürdü

Mənbə 9 Evdən uzaqda ad günü[10]

8. [illegible]

9. [illegible]

10. [illegible]

[9] 7, 8, 9 saylı fotolar A. Qriqoryanın şəxsi fotoarxivindən götürülüb.

[10] Фотографии 8, 9, 10 взяты из личного фотоархива А. Григоряна.

Mənbə 10 Aram adlı oğlanla müsahibədən, 15 yaş, Yerevan şəhəri

S.: Atan evdə olmayanda sənin vəzifələrin necə dəyişir? Sənin fikrincə, atanın evdə olmamağı sənin təhsildə əldə etdiyin müvəffəqiyyətlərə necə təsir edir? Bəs davranışına?

C.: Demək olar ki, çox dəyişmir, sadəcə olaraq anam daha çox yorulur... Mən ona ev işlərində kömək etməyə çalışıram, başa düşürəm ki, atamsız ona çətindir. Evə gecikmirəm, ev tapşırıqlarımı özüm və vaxtında yerinə yetirirəm. Atamın da qanını qaraltmaq istəmirəm. Axı atam bizim üçün çalışır, işləyir. Bizim daha yaxşı yaşamağımız üçün. Hər gedəndə məndən xahiş edir ki, anamın sözünə qulaq asım, ona kömək edim, özümü yaxşı aparım, dərslərimi yaxşı oxuyum. Əlbəttə ki, atamın yanımda olmaması mənə də çətinlik yaradır, amma mən anlayıram ki, o, bizi çox istəyir və bizim üçün çalışır.

S.: Atan xaricdə olanda onunla neçə vaxtdan bir və necə ünsiyyət qurursunuz? Siz nədən danışırsınız? Bəs atan evdə olanda, nədən söhbət edirsiniz?

C.: Biz atamla skayp və telefon vasitəsilə danışırıq. O, hər gün və ya həftədə bir neçə dəfə zəng edə bilər. Amma hər dəfə biz ona evimizdə baş verən hər bir hadisədən, aldığım qiymətlərdən, mənim dostlarımdan, hara getdiyimizdən danışırıq. Anam valideyn yığıncağında nələr haqqında danışıldığından bəhs edir, lakin, onun fikrincə, atamın kefi poza bilən bəzi şeyləri danışmır... Belə... Evdə olanda isə atam hər şeydən xəbərdar olur, biz hara gedəcəyimizi, nə alacağımızı bir yerdə planlaşdırırıq. Telefon və kompüter vasitəsilə mən onunla bəzi problemləri müzakirə edə bilmirən... Məsələn, sinif yoldaşlarımla münasibətləri. Qızlara daha asandır, çünki onlar hər şeyi anaları ilə müzakirə edirlər. Amma oğlan olduğuma görə mənə atamla uzaqdan-uzağa hər şey barədə söhbət etmək çətindir[11]…

Mənbə 11 Nəvənin ad günündən baba üçün xatirə şəkli[12]

[11] R. Saturyan tərəfindən Şirak rayonunun Marmaşen kəndində "Ümuni tarix, mədəni dialoqlar" layihəsi üçün 2014-cü ildə yazılan müsahibələr.

[12] A. Arutünyanın şəxsi fotoarxivindən, Yerevan, 2008-ci il.

Mənbə 12 Lusine adlı qızla müsahibədən, 15 yaş, Tavuş regionu, Qandzakar kəndi

S.: Atan səni müvəqqəti işlədiyi ölkəyə nə vaxtsa aparıbmı? Sən istəyirsən ki, aparsın? Nə qədər vaxta və niyə?

C.: Mən hələ atamla xaricə getməmişəm. Atam deyir ki, mən yaxşı mütəxəssis olub öz ölkəmdə işləməliyəm. Amma mən məzuniyyətdə atamın yanına getmək, onun necə işlədiyinə baxmaq, ondan öyrənmək, həmçinin onunla gəzib yeni yerlərə baxmaq, yeni insanlarla tanış olmaq istəyədim[13].

11. [illegible]

12. [illegible]

Mənbə 13 Tərkibində əmək miqrantları olan ailələrin sayı, 2012-ci il[14]



Blok 3. Əmək miqrasiyası və cəmiyyət

13. [illegible]

14. [illegible]

[13] Elə orada.

[14] Götürülüb: C. Манукян. Влияние трудовой миграции из Армении в Россию на экономику и социально-политическую ситуацию в Армении. — [Эл. ресурс] Союзинфо. — Giriş rejimi: http://www.soyuzinfo.am/rus/analitics/detail.php?ELEMENT_ID=1101.

Mənbə 14 Yerevanda 2013-cü ildə keçirilən BMT-nin konfransı haqqında qəzet xəbəri

